**Adıgözəl Məmmədov**

# Osmanlının çöküşünə Rusiyadan baxış

Bakı – 2012

**Redaktor: Maarif Teymur *(S.Mumtaz adına Azərbaycan Respublikası dövlət ədəbiyyat və incəsənət arxivinin direktoru, əməkdar mədəniyyət işçisi)***

***Elmi məsləhətçilər:***

***Şərqşunaslıq elmləri doktoru, professor Xeyri əl - Abbasi;***

***Tarix üzrə fəlsəfə elmləri doktoru Məmməd Cəfərli***

***© Bütün hüquqlar qorunur. Müəllifin icazəsi olmadan kitabda oxuculara təqdim olunmuş materialların, digər yazarlar tərəfindən istifadə edilməsi, habelə kütləvi informasiya vasitələrində dərci qəti qadağandır.***

***©A.Məmmədov***

# Mündəricat

Giriş -------------------------------------------------------

Mental portretlər-------------------------------------------

XVIII əsrin əvvəllərində Osmanlı imperiyasında və onun ətrafındakı siyasi vəziyyət-----------

II Yekatirina dönəmində Rusiya -Osmanlı münasibətləri --

XVIII əsrin sonunda Osmanlı imperiyasındakı təlatümlərdən geosiyasi qüvvələrin yararlanması-----------------------------

Yaxın Şərqin ələ keçirilməsi-------------------------------

Rusiyanın Osmanlı siyasətində Məhəmməd Əli amili -------

Osmanlı imperiyası - “xəstə dövlət”---------------------

Riyad əmirliyi ------------------------------------------

XIX əsrin sonlarında dünyada geosiyasi qüvvələr nisbəti-----------------------------------------------

Osmanlı imperiyasının parçalanması-------------------

Osmanlı dövlətnin süqutundan sonra Yaxın Şərqdə yeni dövlətlərin əmələ gəlməsi---------------------------------

Mustafa Kamal Atatürk-----------------------------------

Nəticə ------------------------------------------------------

Ədəbiyyat və mənbələr-------------------------

# Giriş

Nəzərdən keçirilən sivilizasiyanın içərisində və ya ondan kənarda yer almasından asılı olmayaraq hər bir müəllifdə hadisələrə özünə məxsus yanaşma tərzi əmələ gəlir. Bu və ya yekun nəticə ona daxili məntiqin gətirdiyi inandırıcılıq vektorlarının qarşılıqlı təsiri ilə izah olunur. Ona görədə mən kitablarımın süjet xətlərində həmişə bir prinsipial şərtə əməl etmişəm – tarixi hadisələrə bu günün nəzərləri ilə baxmaq olmaz. Hər bir tarixi dövrün öz xüsusiyyətləri var, hər tarixi hadisə öz ilkin şərtlərinə malikdir və bunların birini digərindən ayırmaq olmaz. Əks-təqdirdə tədqiqatçı mütləq subyektivizmə uğrayacaqdır.

İstanbulda yaşayarkən Rusiyanın Osmanlı imperiyasının çöküşündə ki, roluna türk siyasi elitasının heçdə bir mənalı olmayan münasibəti mənim diqqətimi çəkdi. Ona görədə yuxarıda qeyd etdiklərimi nəzərə alaraq yeni kitabımı, "Osmanlının çöküşünə Rusiyadan baxış" adlandırdım. Burada mən XVII əsrin sonlarından türklərin azadlıq mübarizəsinə başçılıq etmiş Mustafa Kamal Atatürkün hakimiyyətə gəlişinədək olan bir tarixi dövrü və müasir Türkiyənin dünyada tutduğu rolu nəzərdən keçirmişəm.

Kitabın yazılmasına başlayarkən mən Osmanlı imperiyasınınn dağılma dövründən araşdırmamı aparmağa qərar verdim. Osmanlı dövlətinin dini baxımdan dağılmasında isə bəhailik, əşailik, mərcanilik və b. ilə yanaşı islamın özünəməxsus şaxəsi olan vəhhabiliyində rolu xüsusi idi.

Bir çox tədqiqatçılar Osmanlı imperiyasının dağılmasında ən əhəmiyyətli rolu Böyük Britaniyaya aid edirlər. Əslində Osmanlı dövlətinin içəridən dağılması, Rusiya imperiyasının, Britaniya imperiyasının və dünyanın digər güclü dövlətlərinin

qarşıya qoyduqları əsas məqsəd idi. Osmanlı imperiyasının son dövrlərini Avropada hətta "xəstə dövlət" adlandırırdılar. Vaxtaşırı, Çar Rusiyasının maraqları Böyük Britaniyanın siyasəti ilə təzad təşkil etdikdə, ruslar osmanlılarla yaxınlaşmaq istəklərini izhar edirdilər. Həmçinin də Osmanlı imperiyasının Böyük Britaniya ilə və ya vassalı olan Misirlə və özünün digər şərq qonşuları ilə münaqişə vəziyyətində olduğu dövrlərdə türklər ruslarla ümumi dil tapırdılar. Və əksinə, Rusiya Balkanlarda döyüşdüyü zaman ruslar və türklər düşmən mövqelərdə olurdular. Bu zaman Osmanlı imperiyasını "xəstə dövlət " adlandıranlar özləri onların müttəfiqinə çevrilirdi. Bütün bunlar daha çox qonşu torpağları ələ keçirməyə can atan ölkələrin real siyasətinin, regional imperializminin nəticəsi idi. Qeyd etmək lazımdır ki, Türkiyənin o zamankı liderləri strateji səhvlərə yol verərək öz ölkələrinə bunların üz verməsinə yol açırdılar. Türkiyə iqtisadiyyatının modernləşdirilməsi, ölkəyə müasir Avropa texnologiyalarının cəlb edilməsi, təhsilin və sənayenin inkişaf etdirilməsi əvəzinə sultanlar imperiyanı diplomatik manevrlərlə qoruyub saxlamağa cəhd göstərirdilər. Ölkə içəridən zəif, amma xarici siyasəti baxımından güclü idi, lakin bu, osmanlıların imperiyasını dağılmaqdan xilas edə bilmədi. O dağılmağa məhkum idi.

M.K. Atatürkün qəhrəmanlığı və uzaqgörənliyi onda oldu ki, o, ölkənin problemlərinə emosional deyil, praqmatik yanaşırdı. O, imperiyanın çöküşünün səbəblərini və bu dağılmaya qarşı çıxmağın mənasızlığını, ərəblərdən avropalılaradək ən müxtəlif xalqları bir bayraq altında birləşdirməyin mümkün olmadığını anlayırdı. İslamda yeni dini cərəyan olan vəhhabilik artıq ərəblərin bir hisəsi tərəfindən qəbul edilmişdi. Qərbdə bolqarlar ruslarla birləşmişdi, belə ki, mərkəzdənqaçma proseslərini dayandırmaq türklərin qüvvəsi daxilində deyildi.

Ona görədə mən bu kitabda Osmanlı imperiyasının çöküşü zamanı ölkə içi ve ölkə xarıcı təsirləri təsvir etməyə və Sultanlıq sarayında baş verən hadisələrin tam mənzərəsini verməyə cəhd göstərmişəm. Eləcə də kitabda XVII əsrin sonlarından başlayaraq Türkiyə Cümhuriyyətinin qurulmasınadək olan dövrdə dünyadakı qüvvələrin geosiyasi nisbəti təhlil olunur. Kitabda strateji analiz verilir və Osmanlı imperiyası ətrafındakı geosiyasi şərait təfərrüatlı şəkildə təsvir olunur. Türkiyənin müasir dünyada rolu və prespektiv üfüqləri göstərilir. Bu kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulduğundan bir çox tarixi hadisələr, həmçinin publisistik yanaşma ilə də təhlil olunur .

# Mental portretlər

Şübhəsiz, türklər ta qədimdən müəyyən intellektual və emosional keyfiyyətləri ilə fərqlənmiş və Altay hüdudlarını da elə bu özəllikləri ilə adlamışlar. Şübhə yoxdur ki, məhz bu qabiliyyətlər türklərin yeni ərazilərdə məskunlaşmağına şərait yaradırdı. Buna müvafiq olaraq da nəhəng dövlətlər ərsəyə gəlirdi. Türklər özləri üçün ictimai tərbiyə formasına çevrilən, çoxsaylı məziyyətlərə malik davranış normaları işləyib hazırlayırdılar. Türk hələ uşaqlıqdan dünya ilə ünsiyyətin prinsiplərinin məcmuyunu əxz edir, vaxt ötdükcə bunlar həyati davranış normalarına çevrir və yaşa dolduqca bu dəyərlər refleks şəklində onun şüurunda möhkəmlənir. Nəticədə genealoji olaraq beyin neyronlarında bütün toplananlar yeni nəsillərə ötürülür. Türklərin tayfa təşkilatının hərbi-demokratik xarakteri bir sıra hallarda soy və tayfada hakimiyyətin “mülki” və “hərbi” olaraq bölgüsünə gətirib çıxarmışdı. Xalq bu cəmiyyətdə bütün işlərdə başlıca təsirə malik idi və çoxluğun razılığı olmadan heç bir iş görülmürdü. Əgər Xan öz hakimiyyətindən sui-istifadə edərdisə və ya böyük ədalətsizliyə yol verərdisə, ondan ani olaraq qisas alınardı.

**Xan** tayfa daxilində ilk növbədə kollektivin ağsaqqalı və təsərrüfat fəaliyyətinin sərəncam vericisi idi. O, tayfanın köçmələrinə, otlaq və su quyuları bölgüsünə rəhbərlik edir, düşərgə salınması üçün yer seçir və çadırların qurulacağı vaxtı

müəyyənləşdirdi. **Xan** tayfada ailədaxili, nikah, məişət məsələləri sahəsində baş verən anlaşılmazlıq və çəkişmələrdə hakim və ya münsif ola bilir, tayfa adətlərinə, xüsusən də qan intiqamı ilə bağlı adətlərə riayət olunmasına nəzarət edir, oğurlanmış əmlakın qaytarılmasını diqqətdə saxlayırdı. O, xarici aləmlə ünsiyyətlərdə tayfanı təmsil edir və tayfa adından fəxri qonaqları qəbul edirdi.

İslamın qəbulundan sonra türklərin bu hakimiyyət quruluşu müsəlman hüququnun (fiqh) təsiri altında daha təkmil şəkil aldı. Xan bir tərəfdən əksər üzvləri ilə qohumluq əlaqələrində olduğu zadəganlığa, digər tərəfdən isə - azad olunmuşlardan və muzdlu əsgərlərdən ibarət drujinasına arxalanırdı. Məhkəmə sistemi, bir qayda olaraq, müsəlman hüququ – şəriət əsasında qurulurdu. Hökmü yalnız şəxsən hökmdar deyil, həm də hakim – hüquqi ilahiyyat hazırlığı olan – qazı da çıxara bilirdi. Amma Xan həmişə mühüm qərarları tayfa zadəganlığının nümayəndələri, ya da tayfa şurası ilə - tayfa-soy cəmiyyətinin demokratik təşkilinin vacib elementi olan məclislə məsləhətləşmələrdən sonra qəbul edirdi.

Məclis həmçinin, "ağsaqqallar şurası" və ictimai məhkəmə idi – tayfadaşlar istənilən vaxt buraya araşdırılmaq üçün öz işlərini gətirə bilərlərdi... Xan digər xanlarla, ağsaqqallar və ən önəmli şəxslərlə məsləhətləşir. Hökm qərəzsiz və həmişə də heç bir rüşvətə yol verilmədən çıxarılmağa çalışılırdı. Hökm qəti olurdu. Məhkəmə araşdırmaları ilə bundan savayı, adi hüquq biliciləri – ariflər də məşğul olurdular. Əgər uduzmuş və əmlak cəriməsinə məhkum edilmiş tayfadaş qərarla razılaşmırdısa, o, tayfanı tərk etməyə məcbur olurdu. Muzdlu silahlı dəstələrin başkanları xanla çox vaxt qohumluq əlaqələrində olurdu.

Əksər hallarda Xan titulu on illərlə, bəzənsə yüz illərlə eyni bir zadəgan ailəsinin əlində qalırdı.

Çox vaxt hakimiyyət atadan oğula keçirdi, lakin xanlığa iddialı zəruri keyfiyyətlərə malik olmadıqda bu vəzifə digər bir zadəgana çatırdı. Amma bəzən də iddiali olanın şəxsi keyfiyyətləri heç də həmişə həmin mübarizənin sonluğunu müəyyən etmirdi.

Ona görə ki, xalq bütün işlərdə başlıca təsirə malik idi və əksəriyyətin razılığı olmadan heç bir iş görülmürdü.

Xan hansısa bir böyük ədalətsizliyə yol verərdisə, misal üçün, günahsız tayfadaşını öldürərsə, onun cəzadan qaçması mümkünsüz olacaq: təhqir edilmişin qəzəbi onun titulunu heçə sayacaq; ondan qisas alınacaq, öldürülməsi belə qaçılmaz olacaqdı.

Türk dövlətinin yarandığı Kiçik Asiya ərazisi (tam şəkildə və əhəmiyyətli hissəsi) qədim dövrlərin və erkən orta-çağın müxtəlif dövlət quruluşlarının (Hett çarlığı, Lidiya, Midiya, Əhəmənilər dövləti, Makedoniyalı İskəndərin xanimanı, Sələvkilər dövləti, Ponti çarlığı, Perqam, Qədim Roma, Bizans, Konya sultanlığı və b.) tərkibinə daxil olmuşdu.

XIV əsrin 20-ci illərində Kiçik Asiyanın şimal-qərbində sülalə banisi I Osmanın adı ilə Osmanlı adlandırılmış feodal knyazlıq yarandı. Bu dövlətdə müxtəlif türk tayfalarından və yerli əhalinin bir hissəsindən formalaşmış xalqı, türk-osmanlılar adlandırmağa başladılar.

XIV əsrin 20-30-cu illərində Türklər Osmanlı dövlətinin ilk paytaxtı olmuş Bursanı (1326), Nikeyanı (İznik), Nikomediyanı (İzmit) fəth etdilər. Lap əvvəlindən Osmanlı dövləti hərbi-feodal yönümlü idi; hakim sinfin əsasını feodal-döyüşçülər (sipəhlər) təşkil edirdi. Onlar üçün əsas olan yeni ərazilərin alınması və bu yerlərin ələ keçirilməsi idi.Buda Osmanlı dövlətində hərbi arıstokratiyanın torpaq sahibliyi sis-

temini inkişaf etdirirdi. Bu faktor isə özlüyündə türk fəthlərinin genişlənməsinə yol açırdı.

XIV əsrin ikinci yarısında türklər Şərqi Trakiya, o cümlədən Andrianopol (Ədirnə) və bir sıra şəhərləri tutdular. 1389-cu ildə türklərin Kosovo çölündəki qələbəsi Serbiyanı onların vassalına və ya xəraccısına çevirdi. Türk ordusu Bolqar çarlığını, Fessaliyanı, Makedoniyanı fəth etdilər, 1396-cı il Nikopol döyüşündə Avropa cəngavərlərinin birləşmiş qüvvələrini əzdilər və Konstantinopola çıxdılar. XIV əsrin sonlarında şimal-şərqdə Canik (Samsun), şərqdə Sivas, cənub-şərqdə Karamanadək bütün Anadolu bəylikləri Osmanlı dövlətinin tərkibinə (könüllü və ya zorla) daxil oldu. XV əsrin əvvəllərində Anadoluya özünün çoxsaylı qoşunu ilə Teymur soxuldu. 1402-ci il Ankara döyüşündə I Sultan Bəyazid (1389-1402-ci illərdə hakimiyyətdə olub) məğlubiyyətə uğradı və əsir düşdü. Anadolunun böyük bir hissəsi əvvəlki bəyliklərə bölündü. 1415-ci ildə Qərbi Anadoluda və Balkanlarda feodallar və hökumət əleyhinə xalq üsyanları alovlandı. Yalnız bu üsyanlar yatırıldıqdan və I Bəyazidin oğulları arasındakı daxili müharibələr başa çatdıqdan sonra Osmanlı dövləti tədricən dirçəlməyə başladı. XV əsrin 40-cı illərində türk-osmanlılar Balkanlarda yenidən ekspansiyaya başladılar. Sultan II Murad (1421-1451-ci illərdə hakimiyyətdə olub) 1444 və 1448-ci illərdə türklərin qarşısını almağa çalışan xaç yürüşü ordularını əzdi, onun oğlu II Mehmet isə (1451-81-ci illərdə hakimiyyətdə olub) demək olar, iki aylıq mühasirədən sonra Konstantinopolu aldı (29 may 1453-cü il). Bizans imperiyasının mövcudluğuna son qoyuldu, Konstantinopol (İstanbul) isə Osmanlı imperiyasının paytaxtına çevrildi. XV əsrin 50-70-ci illərində Serbiyanın müstəqilliyi tam şəkildə ləğv edildi, Bosniya, Moreya, Attika, Trapezund imperiyası fəth edildi, Krım xanlığı və Valaxiya üzərində türk süzerenliyi bərqərar olundu. Hakimiyyətinin sonlarına yaxın II Mehmet Skanderberqin müqavimətini dəf edərək, bütün Al-

baniyanı ələ keçirdi. Torpaq fondunun genişlənməsi sultanların, sultan soyadı üzvlərinin və yüksək rütbə sahiblərinin (xasların) və müsəlman ruhanilərinə aid torpaqların (vəqf) artmasına gətirib çıxardı.

Artıq XVI əsrdən müsəlman dünyasında daimi faktor türklər idi. Xilafətin süqutundan sonra Ərəbistan əsrlər boyunca kiçik və xırda vahə-dövlətlərə ya da bunların birliklərinə, köçəri tayfalara və ya bunların konfederasiyalarına parçalanmışdı. Ayrı-ayrı vahə (ərazilər) və tayfaların, bu müstəqil təsərrüfat vahidlərinin arasında iqtisadi əlaqələrin olmaması və səhra yarımadasındakı insan məskənləri arasında olan məsafələrin bəzən yüz kilometrlərlə olması mərkəzdənqaçma amilləri kimi çıxış edirdi. Birləşməyə həmçinin, əhalinin tayfa və yer baxımından fərqliliyi, dildəki dialekt özəllikləri, dini inanc və təsəvvürlərin çoxluğu və bunlar arasındakı ziddiyyətlər mane olurdu.

Osmanlı imperiyası müsəlman aləmində ərazi baxımından ən çox genişlənməyə XVI əsrdə, I Səlimin (1512-1520-ci illərdə hakimiyyətdə olub) və I Süleyman Qanuninin (1520-66-cı illərdə hakimiyyətdə olub) vaxtında çatdı. 1514-15-ci illərdə türklər Mosulu və ümumilikdə isə Şimali Mesopotamiyanı tutdular. 1516-1517-ci illərdə Suriya və Fələstin də imperiyanın tərkibinə qatıldı.

Ərəb şərqində feodal-tayfa hakimiyyətlərinin əllərində geniş rayonlar var idi. Bunlardan ən iri ərazilərinə görə seçilən Hicaz, Əl-İhsə, Yəmən, Oman və Nəcddə feodal-tayfa hakimiyyətləri idi.

Ona görədə Türklərin 1519-cu ildə Misiri fəth etməsindən çox keçməmiş növbə Hicaza, sonra da Yəmən, Əl-İhsən və Ərəbistanın digər hissələrinə çatdı. Məkkənin dəniz qapısı olan Ciddəyə, Misir, Hicaz və Əlcəzairin bir hissəsinə Sultan öz paşasını başçı təyin etdi. XVI əsrdə qüdrətli Osmanlı

donanması demək olar, bütün Aralıq dənizi hövzəsinə nəzarət edirdi. 1521-ci ildə türk qoşunları Belqradı tutdular. 1526-cı il Moxaç döyüşündə onlar macar-çex qoşunlarını ağır məğlubiyyətə uğratdılar, sonra isə Macar krallığının əhəmiyyətli hissəsini ələ keçirdilər.

XVI əsrin ortalarında Rodos və Egey arxipelaqının digər adaları, Tripolitaniya, bütün Əlcəzair Osmanlı imperiyasının hakimiyyəti altına keçdi.

Bu dövrdə Osmanlı imperiyası Avropa, Asiya və Afrikada nəhəng ərazilərə malik idi (ümumi sah. 8 mln. $km^2$-dək). 1571-1574-cü illərdə yeni ərazi qatqıları baş verdi – Kipr, Tunis tutuldu.

Osmanlı imperiyası Xilafətin çöküşündən sonra görünməmiş qüdrət və genişlənməyə nail olan ikinci müsəlman dövləti oldu. Osmanlı imperiyası nəhəng təbii sərvətlərin və insan resurslarının cəmləşdiyi Avropa, Asiya və Afrikada geniş ərazilərə sahib idi.

## XVIII əsrin əvvəllərində Osmanlı imperiyasında və onun ətrafaındakı siyasi vəziyyət

Avropa səhnəsində Osmanlı imperiyası tərəfindən getdikcə artan təhlükə bir-biri ilə müharibə aparan xristian dövlətlərinin yaxınlaşmasına gətirib çıxardı. 1667-ci ildə, üçillik danışıqlardan sonra Andrusovda Avropa dövlətləri arasında barışıq imzalandı.

Artıq Andrusov sülhündən sonra Osmanlı imperiyasına qarşı koalisiyanın yaradılması üçün Moskvadan Andrey Vinius elçi kimi Reç Pospolitayaya (Polşaya) və ingilis kralı II Karlın yanına göndərildi.

Reç Pospolitiyanın (Polşa) 1672-ci ildə Osmanlı imperiyası ilə müharibədə tam məğlubiyyəti Moskvanı qızğın diplomatik addımlar atmağa sövq etdi. Moskva general Menezini Brandenburq kralının yanına, Vyanaya, Venesiyaya, Papanın hüzuruna, Andrey Vinius isə Fransa və İspaniyaya, Yemelyan Ukrainsevi isə İsveç və Hollandiyaya göndərdi. Rus elçilərinin əsas məqsədi bu hökümdarları Polşaya kömək etməyə sövq etmək idi. Bu fəliyyət çox kecmədiki ən nəhayətdə öz bəhrəsini verdi belə ki, 1680-ci ildə Moskvanın inadla çalışdığı hadisə baş verdi, bütün Avropa ölkələri Osmanlı imperiyasına qarşı mübarizə aparmaq üçün birləşdilər. Fransa, Venesiya, Brandenburq, Reç Pospolotiya və Moskva ümumi ittifaq bağladılar.

Rusiyanın payına Krımla müharibə düşdü. Moskva ilə Reç Pospolotiyanın Andrusov barışığı əsasında "əbədi sülh" haqqında müqaviləsini imzalaması antitürk koalisiyasının yaradılmasına yol açmışdı. Məhz bu dövürdən və xüsusən Vyana ətrafında məğlubiyyətdən sonra Osmanlı imperiyası qürub zolağına daxil oldu və bu məğlubiyyət əsrlərcə Osmanlı hökmranlığı altında yaşamış xristian əhalini yeni tələblərini irəli sürməyə həvəsləndirdi..

Avstriyalılarla müharibə zamanı, 1688-1689-cu ildə cənub macarları (Hungari), serblər, bolqarlar, dalmaslar Osmanlı imperiyasına qarşı üsyana qalxdılar(Akdağ M.Genel cizgileri ile XVII yüzyıl Türkiye tarihi-Tarihi araştırmalar dergisi.Ankara,1966 səh. 10) Və bu avstriyalılara Osmanlı imperiyasının içərilərinə doğru irəliləmək imkanı verdi. Amma Fransa ilə müharibə avstriyalıları öz qüvvələrini ələ keçirilmiş osmanlı ərazilərindən Mərkəzi Avropaya atmağa vadar etdi. Elə alındı ki, Balkanlar yenidən türklərin əlinə keçdi. Bu cür vəziyyət I Pyotru çox narahat edirdi... Çünki o, ciddi-cəhdlə Osmanlı imperiyasının vassalı olan Krım xanlığını ələ keçirmək istəyirdi.Rusiyada I Pyotrun hakimiyyətə gəlməsi (1681/89 - 1725) Rusiya-Osmanlı münasibətlərində də ciddi dəyişikliklərə səbəb oldu.

Avropa səhnəsində uzun sürən müharbədən sonra 1699-cu ildə Karlovitsa konqresi başlandı və Osmanlı imperiyası ilə Karlovitsa sülhü imzalandı. Bu sülhlədə Türklərin Avropadan sıxışdırılması prosesinə start verildi.

Amma bu sülhdən Rusiyaya dəyərli heç nə çatmadı... Çünki Şərqi Macarıstan, Transelvaniya, Sloveniya avstriyalılara, Şərqi Ukrayna Reç Pospolitiyaya, Aralıq dənizindəki adalar Venesiyaya keçdi. Bu sülhün iştirakçılarından heç biri və hətta həmin müqavilənin vasitəçiləri də (İngiltərə və Hollandiya) Moskvanın tələblərinə əhəmiyyət vermədilər. Rusiya

tərəfi qaliblərdən tələb etdi ki, onlar Sultanı Kerç şəhəri, Dneprin cənub sahili və Azov sahillərini ruslara verməyə məcbur etsinlər. Ancaq qaliblər Rusiyanın tələblərini dəstəkləmədilər...

Aldadılmış ruslar 1700-cü ildə Osmanlı imperiyası ilə iki illik sülh müqaviləsini bağladı. Rusiya tərəfindən bu sülhü səfir E.Ukrainsev imzaladı. 1700-cü il avqustun 8-də İstanbul müqaviləsinin bağlanması xəbəri I Pyotra yetişdi. Bu münasibətlə böyük atəşfəşanlıq keçirildi. Sabahısı gün Rusiya rəsmən İsveçə müharibə elan etdi, iyirmi bir il (1700-1721) davam edən Şimal müharibəsi başladı. Osmanlı sultanı III Əhməd (1703-1730) müqavilənin ratifikasiya fərmanını, yalnız 1710-cu ilin fevralında Tolstoya təqdim etmişdi. İstanbul müqaviləsinin bəndlərinə görə, Rusiya artıq Osmanlı imperiyasının vassalı olan Krım xanına xərac ödəməyəcəkdi. Bu razılaşmanın digər bəndlərinə əsasən Rusiya ilk dəfə olaraq Konstantinopolda (İstanbulda) öz diplomatik nümayəndəliyini açırdı. Birinci Pyotrun göstərişi üzrə Moskva hökumətinin Osmanlı imperiyasındakı diplomatik fəaliyyətinə başçılıq edən şəxs kimi P.A.Tolstoy təyin edildi.

Osmanlı imperiyasındakı diplomatik missiyanın rəhbəri P.A.Tolstoy kəşfiyyat istiqamətində də geniş fəaliyyət göstərməyə girişdi. O, Birinci Pyotra Osmanlı imperiyasındakı saraydaxili çəkişmələr barədə məktublar göndərirdi. Məsələn, bu məktublardan bir neçə parça((məktubun əsli əski slavyan dilindədir), РГАДА, 1703,д 2,л.184-186(Rusiya dövlət qədim aktlar arxivi,1703, iş 2,səh.184-186)):

"Sultan sarayında olarkən öz qabilliyətini və mədəniyyətini göstərməklə bərabər,çox ciddi müşahidəçi və ehtiyyatlı olmalısan. Əksi təqdirə dövlətin istər hərbi,istərsədə siyasət adamlarının baxışlarını anlamazsan. Ona görə ki,hər dövlət adamları ilə görüşən zaman ,sən qarşı tərəfin niyyətlərindən, onların gizli hərbi hazırlıqıarından və bunun hansı dövlətə qarşı

olmasından və gələcəkdə olabləcək müharibənin quru vəya dənizlə həyata keçirilə bilməsindən xəbər tutmalısan. Türklər vüqarlı, azadlıq sevən,hür və əzəmətli xalqdır.

Bu üzdən də, qanlı savaşlar aparakən heç bir dövlətlə ittifaqa girməzlər və yardım almazlar. Türklər Osmanlı təbəsı olan yerli xristiyan xalqlarına deyirlər ki, onlar məğlup edilməzdirlər, heçkimsə onları qorxutmaz, qorxutamaz!

Yalançılığa qarşı tahammülləri yoxdur, xususən bu hiyləgərliyi xristiyanlar edərsə, zaman-zaman deyirlər ki, bizlər xristiyanlara qarşı xoş davranırıq, onlar isə türklərə minnətdar olmaqdansa bizlərə qarşı olurlar və bizi əsəbləşdirilər. Türklər Konstantinopol patriyi Parfeniyu , Vasiliyu və əsgəri komandir Volskomu Moskıvaya mektup yazmalarına və xristiyan dövlət başçısına xoş məramla yanaşmalarına çox əsəbiliklə qarşılıq vermişdilər. Əslındə Konstantinopol patriki Parfeniyu və Vasiliyu, həmçinin əskəri komandir Volskomu türklərə yaxşılıq edərək iyilik yaparak Azov sahili torpağlarını türklərə verilməsinin ricasını etmişdilər. Bu yaxşılığa qarşı, onlar "mükafatlandırılaraq" Konstantinopol patriki Parfeniyunun boynuna daş bağlayaraq dənizə atdılar, Vasiliyu ve əskəri komandir Volskomu da Yedikulə'də ki, zindana soxdular.

Türk xalqı savaşcıdır, bəlli dönəmlərdə isə saraya qarşı çıxaraq üsyanlar edər və sultanları hakimiyyətdən uzaqlaşdırırlarda. Müharibələrdə məğlubiyyətə səbəb olan indiki Sultanın atası 4-cü Mehmet Avcı (1648-1687) kimi əxlaqi və mənəvi dəyərlərdən kasad və dövlətin nizam –intizamını pozan rəhbərləri hakimiyyətdən uzaqlaşdırdıqları kimi.

Türk xalqı şərab içməz və günah sayar, orduda kim şərab içərsə o əskər cəzalandırılır.

Dövlətin başı Sultandır, Ona padişah da deyilir. Sultanın iradəsi, xəbəri və icazəsi olmadan heç bir iş görülməz. Dövlətdə önəmli addımlar ve səfirlik işləri Sultanın iradəsi olmadan hayata keçməz. Həm nazirlər, hem valilər, yeniçəri

ağaları, qazi bəyləri bütün işleri sultana bəyan etdikdən sonra və onun icazəsi ilə həyata keçirirlər. Qazi əsgərləri bütün Osmanlı dövlətində məhkəmə işlərinə baxarlar. Vəzir qazi əskərlərin işlərinə müdaxilə etməz. Əgər Sultan əsgərlərdən və ya yəniçəri ağalarından kiminsə cəzalanmasını istiyirsə, qazi əsgərlərə deyil, birbaşa ya vəzirə ya da rəis əfəndiyə müraciət edər. Sultanın xüsusi gösterişləri vəzirin əli ilə hayata geçirilir. Kim sultanın qanunlarına qarşı gələrsə dövlətdə tutduğu mövqeyindən asılı olmayraq edam olunur. Bütün nazirlər gordüyü və görəcəyi işlər barədə Vəzirə mərüzə edərlər.Dövlətin işləri barədə isə Baş Vəzir Sultana mərüzə edər. Osmanlı dövlətində Sulltandan sonra ən böyük səlahiyyət sahibi Baş Vəzirdir. Sultandan başka heç bir saray görəvlisi ona qarşı çıxmaz. Vəzir dövlətin içinde meydana gələn hadisələrlə, yaxud hər hansı fərman vəya sənədlərlə əlaqəli xəbərlər verər. Osmanlı dövlət gələnəylərinə görə hökumət vəzir tərəfından idarə olunur və yalnız O, Sultana tabe olur. Zaman- zaman Sultan hər hansı bir sənədin (evrakın) və ya təklifin yenidən işlənməsi üçün bəzən Vəzirə yeni səlahiyyətlər verər. Vəzir bütün işləri nəzarət və təftiş edəbilmək üçün çox tez-tez divanda, yəni huquq evində olur.Divan üzvlərinə nisbətdə Vəzirin müstəqilliyi daha çoxdur və daha az məsuliyyət daşıyar.Amma bütün bunlara baxmayaraq onun əsas qorxusu yəniçərilərdən və xalqdandır. Bu səbəbdən xalqın və yəniçərilərin üsyanlarında ən çox zərər görən vəzirlər olur. Yəni xalqı razı edəcək o iş görərsə onda vəzir baş tacı olacak, xalqı qəzəbləndirsə edam olunacak.

Vəzir nazirlərin işlərinə rəhbərlik edər.

Osmanlı dövlət quruluşu əski ənənələr üzərinə təşkil olunmuşdur. Dövlətin əsas işi xəzinəyə daha çox pulun (vergi) toplanmasıdır. Konstantinopol (İstanbul) və Andrinopol (Ədirnə) xristiyanlarından daha çox para toplanır. Ancaq Yerusəlim (Qudüs), Antiohiyadaki, Makedonyadakı,

Babilistandaki (Iraq), İsgəndəriyədəki (Şamdaki) və Qahirə ətrafındakı xristiyanların üsyan edəbiləcəklərindən ehtiyat etdiklərinə görə onlardan vergi az alınır".

Rusiyanın İsveç üzərində Poltava (1709, iyun) savaşı zamanı qələbəsi I Pyoturun üzünü yenidən Osmanlı coğrafiyasına çevirdi. Osmanlı İmperiyasının ərazisindəki xristiyanların I Pyoturun xəfiyyələri vasitəsi ilə mərkəzi hakimiyyətin əleyhinə çıxışları şiddətləndi.İkinci bir məsələ o idi ki,ruslara məğlubiyyətdən sonra İsveç kralı XII Karl Osmanlı sarayına sığınmışdı(Kurat A.N. "İsvec kiralının Türkiyede kalışı ve sıralarda Osmanlı imparatorluğu".İstanbul,1943,s.115-120). 1710-cu il noyabrın 20-də Osmanlı dövləti Rusiyaya müharibə elan etdi. 1711-ci il iyunun 30-da rus qoşunları Moldaviyaya daxil oldu, Dnestri keçib Pruta çıxdı. 135 minlik türk qoşunu 30 minlik rus qoşununu tamamilə mühasirəyə aldı. Yeniçərilərin hücumu ilə döyüş başlandı və üç saat davam etdi. Türklər 8900, ruslar 4800 nəfər itki verdi. Prut yürüşü zamanı rusların ümumi itkisi 27.185 nəfər (yürüşdə iştirak edənlərin 72%-dək) olmuşdu. Məğlub olan I Pyotr sülh danışıqlarına başlamağı qərar verdi.1711-ci il iyulun 12-də Prut müqaviləsi imzalandı. Müqaviləni Rusiya tərəfdən Şafirov və M.B.Şeremetyev, Osmanlı dövləti tərəfindən Böyük vəzir Baltaçı I Məhməd paşa imzaladı. Müqavilə 7 maddədən ibarət idi(Yaqub M. Mahmudov,Kərim K.Şükürov Azərbaycan Beynəlxalq münasibətlər və diplomatiya tarixi ,Dövlətlər arası müqavilələr və digər xarici siyasət aktları 1639-1828 Dörd cilddə Birinci cild, Bakı 2009 səh.45 ).

I maddəyə görə Rusiya işğal olunmuş şəhərləri qaytarmalı, yeni tikilənlər dağıdılmalı idi. Hər iki tərəf II maddə ilə Polşanın işlərinə qarışmamağı öhdəsinə götürürdü. III maddədə tacirlərə ticarət azadlığı verilirdi. IV maddə İsveç kralının azad və təhlükəsiz şəkildə öz torpaqlarına buraxılmasını, onunla Rusiya arasında sülh bağlanmasını nəzərdə tuturdu. V və VI

maddələr hər iki tərəfin təbəələrinə münasibətdən, düşmənçilik hərəkətlərinin aradan qaldırılmasına, orduların çəkilməsinə həsr edilmişdi. VII maddə əsirlərin azad edilməsi haqqında idi. Müqaviləyə Türkiyə tərəfdən yazılı qeyd də əlavə olunmuşdu. Müqavilənin şərtlərinə görə Şafirov və Şeremetyev qarant (əslində girov) kimi İstanbula göndərilməli idi.

1711-ci il Prut müqaviləsi ilə Rusiyanın İstanbuldakı elçiliyi ləğv olunurdu.

1711-ci il Prut müqaviləsi Osmanlı dövlətinin mövqeyinin beynəlxalq aləmdə möhkəmlənməsinə səbəb oldu. Lakin Rusiyanın cənuba doğru irəliləmə siyasəti Osmanlı imperiyasını hər an narahat edirdi. Rusiya Dərbəndi ələ kecirəndən sonra, 1722-ci ilin oktyabrında Hacı Davud, Krım xanı ilə eyni hüquq əsasında Osmanlı təbəəliyinə qəbul olundu. 1723-cü ilin yazında rusların Gürcüstana hərbi yürüş başladı. Bakı işğal olundu, Gəncə, sonra isə İrəvan və Naxçıvan istiqamətində ruslar hücuma keçdi. 1724-cü ilin mayında Xoy qalası tutuldu. Osmanlı imperiyası ilə Rusiya arasında müharibə artıq qaçılmaz vəziyyətə gəldi. Lakin Fransanın diplomatik vasitəçiliyi ilə 1724-cü il iyunun 12-də tərəflər arasında İstanbulda müqavilə imzalandı.

Müqavilə preambula, 6 maddə və nəticədən ibarət idi. Preambulada müqavilənin rezident Neplyuyev və Böyük vəzir İbrahim paşa arasında İranda yalançı Mahmudun peyda olması, İran vilayətlərinin bu və ya digər dövlətin sərhədlərinə aidiyyatı üzrə Rusiya və Osmanlı imperiyasına birləşdirilməsinə Rusiya sarayı ilə Sultan sarayının razılığı əsasında imzalanması göstərilir. Osmanlı tərəfi öz narahatlığını Mir Mahmudun Səfəvilərin paytaxtı İsfahanı tutub Şah Sultan Hüseyni həbs etdiyinə görə və imperiyanın sərhəd torpaqlarını tutmaq üçün onun qoşun göndərməsi, Rusiyanın isə Dərbənd və Bakını tutması baxımından əsaslandırırdı. Preambulada daha sonra qeyd edilir ki, (Yaqub M. Mahmudov,Kərim

K.Şükürov Azərbaycan Beynəlxalq münasibətlər və diplomatiya tarixi, Dövlətlər arası müqavilələr və digər xarici siyasət aktları 1639-1828 Dörd clddə Birinci cild, Bakı 2009 səh.79 ) "Qəzvin və Təbriz diyarlarında özünü Şah Hüseynin oğlu Təhmasib adlandıran bir kimsə peyda olub ki, Çar həzrətləri onunla müqavilələrində Şirvandakı Bakı və Dərbənd sərhədlərinin, Xəzər boyundakı Gilan, Mazandaran və Astrabad vilayətlərinin Çarın hakimiyyətində olması qərarlaşdırılmışdı. Həmin Çar da qarşılıqlı olaraq Təhmasibə söz verib ki, onun öz taxtına çıxması üçün qoşunla kömək edəcək, Mir Mahmudu qovacaq, Osmanlı sarayına müraciət edəcək ki, bu işə öz təsirini göstərsin, əvəzində İran əyalətlərinin bir hissəsini Osmanlı dövlətinə versin. Bunun üçün də öz vəkilini İvan Neplyuyevi təyin etmişdir. Bundan başqa Fransa sarayından Osmanlı sarayında səfir olan Markiz de Bonak vəkil edilmişdir. Beləliklə, tərəflər arasında aşağıdakı maddələrdən ibarət qərar qəbul edilmişdi. I maddəyə görə Hacı Davudun Osmanlı imperiyası himayəsinə keçməsi, onun hakim təyin olunduğu Şamaxı xanlığının sərhədləri təsdiq olunurdu. Rusiya, Türkiyə və Səfəvi dövlətlərinin sərhədlərinin birləşdiyi Kür və Araz çaylarının qovuşduğu bölgədə türklərə və ruslara sərhəddən üç saatlıq məsafədən yaxın olmamaq və mütləq bir-birini xəbərdar etməklə hərbi istehkamlar və qarnizonlara malik olmaq hüququ verilirdi. Sərhədlərin hüdudlandırılması üçün tərəflər komissarlar ayırmalı, onlar Fransanın iştirakı ilə bu işi yerinə yetirməli idi. Qoyulmuş sərhəd nişanı Şirvan əyalətinin hansı hissəsinin Osmanlı sarayına aid olduğunu bildirməli idi. Həmin nişandan Xəzər dənizinə qədər olan torpaqlar çarın tabeliyində olmalı idi. Həmin nişandan bir saatlıq yolla, Kür və Arazın yaxınlaşdığı yerə qədər çəkilən xətti sərhəd kimi qəbul olunacaq, dənizə yaxın hissə çara, daxilə olan hissə isə Osmanlı Sarayına tabe olacaq. Kür və Araz çaylarının yaxınlaşdığı yerdən cənub hissə Səfəvi

dövlətinə aid olacaq. Bu üç sərhədin qovuşduğu yerdə Osmanlı Sarayı qala tikdirib qarnizon saxlaya bilərdi. Çar da belə bir qala tikdirə bilərdi. Ancaq bu qalalar sərhəddən üç saatlıq yolla aralıda tikilməli idi. II maddədə bildirilirdi ki, yuxarıda göstərildiyi kimi Şirvan vilayətində Osmanlı imperiyasına keçən torpaqlar xüsusi xanlıq kimi sayıldığından Şamaxı xanın iqamətgahı olurdu. Şəhər hərbi cəhətdən möhkəmləndirilməməli, burada xanın tabeçilikdən imtina etməsi və əhali arasında qarmaqarışıqlığın olması halları istisna olmaqla türk qarnizonu yerləşdirilməməli idi. Bu cür hallarda da rus qoşunlarının komandanlığı xəbərdar edilməli, türk qarnizonunun Şamaxıya daxil olmasını zəruri edən şərtlər aradan qalxan kimi onlar son nəfərədək şəhəri tərk etməli idi. III maddə Osmanlı imperiyasına keçən torpaqların, o cümlədən Azərbaycan torpraqlarının Ordubad,Təbriz, Mərənd, Marağa, Urmiya, Xoy, Səlmas, İrəvan və b. adları sadalanır. Rusiya və Osmanlı imperiyaları arasında sədd çəkmək məqsədilə həmin dövlətlərin müqavilə ilə müəyyən olunan sərhədləri arasındakı ərazi Səfəvi dövlətinə verilirdi. IV maddə ilə Rusiya Təhmasiblə müqavilədə olduğundan III artikulda göstərilən ərazilərin Osmanlı imperiyasına güzəşt edilməsi üçün üzərinə öhdəlik götürürdü. V maddədə qeyd olunurdu ki, III artikulda göstərilən torpaqlar Osmanlı imperiyasına güzəşt edildikdən sonra Osmanlı imperiyası Təhmasibi Səfəvi şahı kimi tanımalı, Rusiya ilə birgə Səfəvi dövlətini və onun paytaxtı İsfahanı azad etməyə kömək etməlidir. Belə olan surətdə Mir Mahmud tərəfindən Osmanlı dövlətinə qarşı hər hansı bir düşmən hərəkəti olsa, onun üstünə qeyd-şərtsiz qoşun göndərilməli, ordu tamam sabitlik yaradılanadək işini görməli idi. VI maddəyə görə Təhmasib Rusiyanın mediasiyası (vasitəçiliyi) ilə torpaqları Osmanlı imperiyasına güzəştə getməsəydi, Rusiya və Osmanlı imperiyaları paylarına düşən torpaqları hakimiyyəti altına almalı, sonra Təhmasibi devirib taxta

müvafiq şəxsi gətirməli idi. Nəticədə müqaviləni imzalayan tərəflərə keçən torpaqların onların əbədi zamanadək hakimiyyətində qalmasından, sülh və dostluğun möhkəmliyindən və s. bəhs olunurdu".
Müqavilə III Sultan Əhməd (1703-1730) tərəfindən 1725-ci il yanvarın 13-də ratifikasiya olundu. Xəzərsahili torpaqları Rusiya əldə etdikdən, bu yerlərdə möhkəmlənmək üçün I Pyotr müxtəlif vasitələrə əl atırdı. Bu vasitələrdən biridə xristian əhalinin bu yerlərdə yerləşdirilməsi idi. Burada I Pyotr ermənilərı bu ərazilərə köşürülməsini qarşıya məqsəd kimi qoyur. Onun 1724-cü il 10 noyabr fərmanını buna bariz sübutdur. İlk əvvəl I Pyotrun xəzərsahili torpaqları işğal edənə qədər rusların ermənilərlə əməkdaşlıqları simvolik səciyyə daşısa da, işğalın gedişi zamanı isə sıx əməkdaşlığa çevrildi. I Pyotra ermənilərin yaxınlaşmasında İsrail Ori (1658-1711), onun ölümündən sonra isə Minas Vardapet mühüm rol oynaydı. I Pyotrun 1724-cü il noyabrın 10-da erməni xalqına əlahəzrət fərmanı (Высочайшая грамота) və onunla bağlı digər sənədlər (Высочайшие указы) belə bir şəraitdə verilmişdi. Lakin I Pyotrun varisləri dövründə isə ermənilərin qədim türk yurdları olan və işğal edəcəkləri İrəvan və Qarabağ xanlıqlarında yerləşdirilməsinə daha üstünlük veriləcəkdi.Buda Türk dünyası ilə Osmanlı arasında bufer zonası kimi məqsədə xidmət edəcəkdi. İstanbul müqaviləsindən sonra I Pyotr işğal olunmuş Xəzərsahili torpaqlarda ermənilərin məskunlaşdırılmasına daha çox əhəmiyyət verirdi. "I Pyotr sentyabrın 24-də İstanbul müqaviləsindən sonra ratifikasiyaların mübadiləsi üçün İstanbula ezam etdiyi Aleksandr Rumyantsevə öz əlilə yazdığı təlimatda gürcü və ermənilərin vəziyyəti və gücünü müəyyənləşdirməyi tapşırmışdı. Sonrakı reskriptdə bilavasitə ermənilərin işğal olunmuş torpaqlara köçürülməsindən bəhs edilirdi"(Yaqub M. Mahmudov,Kərim K.Şükürov Azərbaycan Beynəlxalq

münasibətlər və diplomatiya tarixi, Dövlətlər arası müqavilələr və digər xarici siyasət aktları 1639-1828 Dörd clilddə Birinci cild, Bakı 2009 səh.94).

**ВЫСОЧАЙШАЯ ГРАМОТА НА ИМЯ АРМЯНСКОГО НАРОДА**

[1724 г., ноября въ 10 дһнь, по указу его императорского величества, изъ Государственной коллепи иностранныхъ дһлъ отправлены его императорского величества двһ грамоты, въ равной силһ, къ народу Армянскому, слһдующаго содержанія, о чемъ его величества резолюція записана въ протоколъ вышеозначенного жъ числа:]

Божеію милостію Мы Петръ Первый, Императоръ и Самодержецъ Всероссіскій, и протчая, и протчая, и протчая.

Честнейшему nатріарху Исайю и честнһйшимъ юзъ-башамъ Авану и Мирзһ, и всһмъ протчимъ честнымъ юзъ-башамъ и управителемъ, и всему честному Армянскому народу Наша Императорская милость и поздравленіе.

Обьявляемъ вамъ чрезъ сію Нашу милостивую грамоту, что Мы чрезъ отправленпыхъ отъ васъ попа Антонія и Кевха Челебіи ваше покорнһйшее доношеніе получили, и оть оныхъ пространнһе изустно донесено о желаніи вашемъ, дабы Мы васъ съ домами и фамиліями вашими въ высокую Нашу Императорскую протекцію приняли и для жилища и свободного вашего впредь пребыванія въ новополученныхъ Нашихъ персидцкихъ провинціяхъ по Каспійскому морю лежащихь, удобныя мһста отвесть повелһли, гдһ бъ вы спокойно пребывать и христіанскую свою вһру безъ препятія по закону своему отправлять могли. И понеже Мы честный Армянскій народъ ради христіанства во особливой Нашей милости содерживаемъ, того ради Мы на сіе ваше прошеніе всемилостивһйше соизволяемъ и потребные указы отъ Себя послали къ

управителемъ Нашимь тһхъ новополученныхъ персидцкихъ провинцей, дабы они васъ какъ въ Гилянь, въ Мизендронъ, такъ и въ Баку и въ друія удобныя мһста, когда кто изъ васъ туда прибудетъ, не токмо приняли, но и для житія и поселенія удобныя мһста отвели и въ протчемъ во всякой милости и охраненіи содержали. И чтобъ вы о семь Нашемъ Всемилостивһйшемъ соизволеніи толь найпаче весьма обнадежены и увһрены быть могли, того ради Мы не токмо сію Нашу Императорскую грамоту къ вамъ отправили, но и посланныхъ вашихъ вышеупомянутыхъ къ вамъ назадъ отпустили, которые о Нашей къ вамъ имһющей(ся) милости выще изустно васъ обнадежить указъ имһютъ, которымъ вы въ томъ полную вһру дать имһете, и пребываемъ къ вамъ Нашею Императорскою милостію благосклонны.

**Канцлерь графъ Головкинь.**

**Андрей Остерманъ.** Съ сего протоколу написаны грамоты вдвое на александрійскихъ листахъ, съ пришитыми копіями на армянскомъ языкһ, и даны наруки Армяномъ, безъ подписи, за печатью государственною большою, подъ кустодіею налично].

## ВЫСОЧАЙШІЕ УКАЗЫ МЪСТНЫМЪ ВЛАСТЯМЪ ВЪ ПРИКАСШЙСКИХЪ ОБЛАСТЯХЪ ОБЪ ОТВОДЪ УДОБНЫХЪ ЗЕМЕЛЬ ДЛЯ ПОСЕЛЕНІЯ АРМЯНЪ И ОБЪ ОКАЗАНІИ ИМЪ ВСЯКАГО ВСПОМОЖЕНІЯ

[1724 г., ноября въ 10 день, отправлены его императорскаго величества указы, за подписаніемъ его величества собственныя руки, въ Гилянь къ брегадиру Левашову, въ Баку къ полковнику Остафьеву, въ Дербентъ къ полковнику и коменданту Юнгеру, въ крһпость Святого Креста къ генералу маеору Кропотову, вдвое написанные,

которые отданы наруки пріhзжимъ Армяномъ [а каковы во оныхъ указhхъ имhются перемhны, то означено ниже] слhдующаго содержанія:]
Въ Гилянь.
Понеже народъ Армянской Насъ просилъ, дабы Мы оной въ протекцію Свою приняли и въ Нашихъ новополученныхъ персицкихъ провинціяхъ для поселенія отвесть повелhли, того ради чрезъ сіе повелhваемъ тебh, что когда изъ того Армянского народу какіе въ Гилянь и въ Мизандронъ прибудуть, то немедленно отведи имъ как въ городахъ, такъ и въ селахъ и въ протчихъ, въ Гилянh и Мизандронh лежащихъ, гдh они пожелаюmь и удобнhе, потребныя и довольныя мhста, гдh бъ они поселит(ь)ся могли, и въ протчемъ учини имъ всякое вспоможеніе, и содержать тебh оныхъ въ крhпкомъ сохраненіи и поступать съ ними такимъ порядкомъ, дабы отнюдь отъ нихъ никакія жалобы произойти не могли, понеже Мы оной Армянской народъ во особливую Нашу Императорскую милость и протекцію приняли.
[Канцлеръ графъ Головкинъ.
Андрей Остерманъ.
Перемhны въ указhхъ въ Баку, въ Дербентъ, въ крhпость Святого Креста, которые даны наруки Армяномъ:]
Въ Баку, къ полковнику Остафьеву: Отведи имъ какъ въ городh, такъ и при Бакh и въ Сальянахъ и въ селахъ, тамо лежащихъ, и въ протчихъ.
Въ Дербентъ, къ полковнику и коменданту Юнгеру: Отведи имъ какъ въ Дербентh, такъ и въ селахъ, при ономъ лежащихъ, и въ протчихъ.
Въ крhпость Святого Креста, къ генералъ-маеору Кропотову: Отведи имъ при крhпости Святого Креста, по рhкамъ Сулаку, Аграхани и Тереку.

Sonradan hakimiyyəti ələ almış Nadir Şah 1735 - ci ildə bir güllə atmadan ruslarla Gəncə muqavilsini bagladı.Dərbəndin 200 km-dən üzü cənuba tərəf butun torpaqlar Əfşarların ixtiyarina kecdi. Burada Osmanlı imperiyası ilə yeni müharibəyə hazırlaşan ruslar, Nadir Şahın Osmanlıya yaxınlaşmasının qarşısını almaq üçün diplomatik manevrlər edirdilər və onu Osmanlıya qarşı yönəldirdilər. Gəncədə Osmanlı qarnizonu vardı. Bunu nəzərə alan ruslar Nadirin qüvvələrini onlara qarşı yönəltdi. İyunun 8-də baş verən döyüşdə Osmanlı döyüşçüləri məğlub oldu. Nadir bu qələbələrdən sonra döyüş istiqamətini Şirvan və Dağıstana yönəltdi. Noyabrın 21-də Nadirin qoşunları Dərbəndə yaxınlaşdı.
Nadir bu istiqamətdə də qələbə əldə etdikdən sonra 1736-cı ilin martında Muğana gəldi və Kür və Araz çayının qovuşduğu yerdə Cavad şəhərində(Müəllifin böyüyüb-başa catdığı indiki Cavad kəndi-A.M.) özünü yeni Əfşarlar imperiyasının banisi elan edərək tacqoyma mərasimi keçirdi.
Bu hadisələrdən sonra Osmanlının zəiflədiyini görən Rusiya Osmanlıya qarşı (1735-1739-cu illər) müharibəyə başladı. İngiltərə Nadirlə şahla Osmanlı dövləti arasında ziddiyyətlərin başa çatmasına, bu dövlətlərin Rusiyaya qarşı birliyinə nail olmağa çalışırdı. 1736-cı ilin sentyabrında Əfşarlar dövləti ilə Osmanlı dövləti arasında müqavilə imzalandı. Müqaviləyə görə Cənubi Qafqazdakı torpaqlar Nadirə qaytarılırdı. 1733-cü il Bağdad sülhünün şərtləri tanınırdı. Lakin bu müqavilə Osmanlı dövləti tərəfindən ratifikasiya olunmadı.
Osmanlı imperiyasının cənubunda, Ərəbistanda isə yeni əmələ gəlmiş qüvvələr mərkəzi hakimiyyətin əleyhinə çıxış edir və bu torpaqlarda öz hakimiyyətlərini qurmaq istəyirdilər. Ümumiyyətlə köçərilərin (bədəvi) oturaq əhaliyə çevrilməsi prosesi Ərəbistanda daima baş verirdi. Özü də bu zaman tayfa və oturaq əhali ilə qarşılıqlı münasibət formalarında, həyat

tərzində və məişətində müxtəlif davranışlarda artıq bunları müşahidə etmək mümkün idi. Tayfa və birliklərin qüdrətli şeyxləri vahələrə və vahə qruplarına nəzarət etmək iqtidarında idilər. Lakin bu zaman elə də olurdu ki, tayfa rəhbərliyi bədəvi həyat tərzini qoruyub saxlayır və əksəriyyət etibarilə köçəri şeyx kimi qalırdılar.
Q.Filbi bildirirdi ki, artıq XVIII əsrin əvvəllərində Əd-Diriyə rejimi (vahə ərazisi – A.M.) nəinki Nəcddə, həmçinin bütün Ərəbistanda hökm-fərma olmaqda iddialı idi.[1]
Əslində o dövürdə Əd-Diriyə daxili dayanıqsızlıq, qarışıqlıq və hakim zadəganlıq içində hakimiyyət uğrunda mü-barizə dövründən çıxırdı. Bir-birinin ardınca qətllər və satqınlıqlar baş verməkdə idi. Bu vəziyyət, nəhayət, ikinci onillikdə səudlar sülaləsinin əsasını qoyan Səud ibn Məhəmməd ibn Mikrin vahənin əmiri seçilməsinədək davam etdi. Səudlar öz şəcərəsini Mərkəzi və Şimali Ərəbistanın ən çoxsaylı və qüd-rətli tayfası – unazalara [2] bağlayırlar.
1725-ci ilin iyun ayında Səud ibn Məhəmməd ibn Mikrin öldü və onun vəfatından sonra vahəyə başçılıq uğrunda bir neçə rəqib qızğın şəkildə çalışırmağa başladılar.[3]
Nəcdin digər bir hissəsində Ayaynın hakimləri qonşularla – Mənfuhə və Sədiklə, eləcə də ətrafdakı bədəvi tayfaları ilə müharibə aparmaqda idilər. Hərbi əməliyyatlar yerli əhəmiy-yətli reydlərdən o yana getmirdi. 1725/26-cı ildə vəba epidemi-yası Ayaynı boş qoydu.[4] Ona dəymiş zərbə o qədər ağır oldu ki, bu şəhər uzun illər ərzində Mərkəzi Nəcddə üstünlük uğrun-da mübarizədən imtina etdi.
Əd-Diriyədə hakimiyyətə gəlmiş Zeyd bundan istifadə etdi, növbəti il adamsızlaşmış vahəyə qarşı çıxışa başladı.[5] Ayayn əmiri Məhəmməd ibn Müəmmər ona tabeçilik göstərməyə hazır olduğunu bildirdi, amma diriyəliləri aldadaraq evinə çağırdı, Zeydi öldürdü. Məhəmməd ibn Səud bir qrup əsgərlə xilas ola bildi. Sonradan Əd-Diriyənin əmiri də elə o oldu.[6]

O dövür Osmanlı imperiyasında rəsmi məzhəb dörd məktəbdən və ən çeviki sayılan hənifəlik idi , baxmayaraq ki, digər ortodoksal təriqətlər də tanınırdı. Bütün bunlarla bərabər Osmanlı imperiyasında islamın bütün çalarları dinc yanaşı mövcudiyyətini sürürdü.

Burada dini sistemin tam şəkildə tərtibi XV-XVI əsrlərə aiddir. Osmanlı sultanı özünə xəlifə, yəni bütün müsəlmanların rəhbəri titulunu götürərək, bununla öz nüfuzunu möhkəmləndirdi.

Ruhanilər (üləmalar) imperiya əhalisinin ən nüfuzlu qruplarından biri idi. Ruhani iyerarxiyasının başında İstanbul müftisi – vəzifəcə baş vəzir səviyyəsində olan şeyxülislam dururdu. Onun ardınca iki qazi-əsgər, sonra da digər ali ruhanilər gəlirdilər. Osmanlının rühani liderləri hüquqi və inzibati işlərə nəzarəti həyata keçirən yerli qazilərin və dindarların iman məsələlərini diqqətdə saxlayan, sənətkar və tacir birliklərinə göz qoyan mühtəsiblərin təsdiqi sistemi vasitəsilə nəzarətdə saxlamağa cəhd göstərirdi.

Osmanlı imperiyasının ümumi sarsılması müsəlman ruhaniliyəsinə də öz təsirini göstərirdi. Bir çox ruhanilərin rüşvətxorluğu və ədalətsizliyi əhalinin narazılığına səbəb olurdu.

Bunu P.A.Tolstoyun məktublarından da görmək olar РГАДА, 1703,д 2,л.186-189(Rusiya dövlət qədim aktlar arxivi,1703, iş 2,səh.186-189):

İndiki Vəzir Əmcəzadə Hüseyin Paşa (Köprülü ailəsindən dördüncü vəzir) saraydan uzaqlaşdiriliqdan sonra bu vəzifəyə gətirilmişdir. Hüseyin Paşa "Taldaban" ləqbı ilə daha çox tanınırdı.Əslində O, əmrə sadıq və siyasətdən uzaq birisiydi. Bu baxımdan saray içi intriqaların qurbanı oldu.

İndiki Vəzir bu görəvə başlayana qədər rəis – əfəndi məqamında otururdu. Bu Vəzir həm siyasətçi həmdə xristiyan dövlətlərə xoş görünməyə çalışır.

İndiki Vəzir hərbir işi Müftünün (Şeyxülislam) xəbəri olmadan etmir. Müftü Sultanın müəllimi olmuşdur və bu baxımdan

padişahın böyük etibarını qazanmışdır. Sultan istisna hal kimi Müftü ilə tək-bətək sarayda görüşür və ondan tövsiyə alır, dövlətin önəmli məsələlərini onunla məsləhətləşir.

Sultan Müftüyə böyük hörmətlə ilə yanaşır.Hətta dövlətin bir çox məsələləri ilə əlaqəli Sultana ünvanlanmış müraciətlər Müftünün və onun oğullarının vasitəsi ilə həyata keçirirlər. Müftinin oğulları içində daha çox təsir gücünə onun böyük oğlu Kip əfəndi malikdir və O,əmirlərin rəisidir. Müftü və onun oğulları özlərinə yaxın olanlrı Məhəmməd ümmətinin şəriət məhkəmələrinə qazi, Oasmanlı vilayətlərinə isə vali təyin etdirirlər.Hətta məktəblərə müəllim təynatıda onların əli ilə həyata keçirilir. Müftünün böyük oğlu Kip atasının ölümündən sonra onun məqamına oturacağından çox əmindir. Bu təyinatın sarayda artıq həll olunduğu söylənilir. Bütün Osmanlı xəzinəsi bu ailə üzvüləri arasında əriyir və bu pulları onlar öz məqsədləri üçün istifadə edirlər.

Türklərin qanun-muhafızlərı, saray içi bürokratiyası bu barədə məruzələr etsələrdə heç bir faydası olmadı. Onlar barədə məruzə edənlər Müftü və onlun oğulları tərəfindən Andripoldan (Ədirnədən) çıxardıldı. Ona görədə heçkimsə onlarla mübarizəyə girişmirlər.Fəqət xalq üsyanından və əsgərlərin ayağa qalxmasından çox qorxurlar. Bu üsyan Ədirnədə deyil, daha çox Konstantinopolda gözlənilr. Ona görə ki, Ədirnədə dövlət məmurları azdır. Xalqı düşünən dövlət adamları Konstantinopolda toplanırlar. Öncəki müftü siyasətə qarışmazdı, siyasətlə məşğul olmaq Sultandan sonra yalnız Vəzirin səlahiyyətindədir. Öncəki Müftü yalnız dini işlərlə məşğul olar və uləmalarla bərabər fıqhi(İslam şəriəti qanunları) məsələlərinə baxardı. İndiki Müftü isə brbaşa siyasətlə məşğul olur və dövlət məsələlərinin həlli zamanı nadirən ya vəzirlə ya da nazirlərlə məsləhətləşər. Ona görə ki, bütün səllahiyyətləri Sultan müftüyə verərək,özünü isə eşi-işrətin içinə qapamışdır.

İndiiki Vəzir də Müftünün gücünü görərək ona yaxınlaşıb. Saray bürokratiyasından kim Müftiyə qarşı gəlirsə, Vəzir Müfti və onun oğulları, həmin adamlara qarşı bərabər amansızcasına qarşılıq verir.Belə ki, saray bürokratiyasında Silahdar deyilən birisi var. Silahdar Sultanın qılıncını daşıyır, indi isə O, Sultanın onun haqqında verəcəyi yaxşı və ya pis qərarı gözlüyür.
Sonra Sultana yaxınlığı ilə bilinən digər birisi Qızlar ağası var. O indi Sultanın rəhminə bağlı vəziyətdədir. Eynı zamanda Sultan sarayında dövlət tədbirlərini təşkil edən və təhlükəsizlik işlərinə cavabdeh olan cəngavər namını daşıyan Böyük bey var. Türkler ona Qapıcılar kəndxudası deyirlər. Qapıcılar kəndxudası ve Silahdar onlara yaxın olan digər saray burokratiyasını ətraflarında topalayarq Müftü və Vəzirdən Sultana şikayət etdilər.
Amma bu şikayət heç bir nəticə vermədi.Taldaban ləqəblı keçmiş Vəzirin vaxtında onlar çox rahat idilər. Çünki keçmiş Vəzir siyasətdən uzağ ve sözə baxımlı birisiydi. İndiki Vəzir isə öz sələfindən fərqli olaraq gözu açık, oyanığ və hazırlıqlıdır. Onları da narahat edəndə elə budur. İndiki Vəzir Osmanlı dövlətinin çox əski dönəmlərindəki Sadr-i Azamlar kimi özünü göstərməyə çalışır. O, Sultanın yaxın çevrəsindəkiləri saraydan uzaqlaşdırma cəsarətini göstərir.
Keçmiş zamanlarda Silahdarlar, Qızlar ağaları, Qapıcılar kendxudaları və digərləri Sultanın məhəbbətini və sevgisini qazanmaq üçün, ona yalandan təriflər söyləyərək özlərinə yeni vəzifələr almağa çalışırdılar. Vali vəzifəsinə onların Sultan tərəfından təyin edilməsini Osmanlı dövlətinə xidmət kimi təqdim edirdilər. Əslındə isə valilik vəzifəsinə başlayar-başlamaz özlərini zənginləştirmək üçün nə desən edərlər. Keçmiş vaxtlarda onlar xalqın qəzəbınə gəldikdə və cinayət işlədikdə həbs olunurdular və ya Yəniçəri ağaları tərəfindən şikayət olunurdularsa Vəzirlər tərəfində vəzifədən

uzaqlaşdırılaraq rütbələri əllərindən alınırdılar. İndiki Vəzir də çox əski Vəzirlər kimi onlarla davranmak istəyir. Öncəki Vəzir Taldaban indiki Vəzir kimi onlarla davrana bilmirdi. İndiki Vəzir isə gücünü Müftüdən alaraq onlara qarşı çıxır. İndiki Sultanın anası Validə Sultan nədənsə saraydaxili mübarizələrdə iştirak etmir və baş verənlərə laqeyid münasibət göstərir..
Sonra Türklərdə Yəniçəri ağası deyilən vəzifə sahibi vardır. Bu vəzifə sahibi Sultan sarayında böyük əhəmmiyət daşıyır. Yəni onun Silahdarın yaxud Vəzirin yanında yer alması saraydaki quvvətlər nisbətinə böyük təsir edir. Mənə elə gəlir ki indiki Vəzir yaxın vaxtlarda Yəniçəri ağasının görəvindən alınmasına və bu vəzifəyə ona yaxın olan birisinin gətirilməsinə nail olacak.
Sonra bu Yəniçəri ağalarını yerlərdəki təmsilciləri Kəhya bəyləri adlanır. Bu Kəhya bəyləri yəniçəri ordularına rəhbərlik edərək böyük gücə malikdirlər. İndiki vəziyyət mənə bunu deməyə imkan verir ki, Vəzir bu quru piyadə quvvələrini özündə birləşdirən yəniçəri ordularını öz görəvlərinin içinə alaraq ve ordu başına ona yaxın olanları yerləşdirəcək .
Rəis əfəndi isə ağıllı birisidir. O, Sultan sarayının katibi və ya Sultan vəkili sayılır. Osmanlı dövlətinin gizli yazışmalarından onun xəbəri vardır. O, Vəzir və Müftü haqqında yetərincə gizli bilgilərə malikdir. O, bu görəvə qədər Sultanlığın səfirlik idarəsinə rəhbərlik edərdi. Keçmiş iş yerindən onunla isti münasibətlərini qoruyan və indidə onunla sıx- sıx görüş alış verişi edən Aleksandr Şkarlatdır (İskerletzade-türk mənbələrdə adı bu cür çəkilir-A.M). Bu iki şəxsdən başqa səfirlik işini dərindən bilən yoxdur.
Aleksandr Şkarlat səfirlik işindəki xidmətlərinə görə Osmanlı dövlətindən ən yüksək mükafatlar almışdır. O, uzaq görənliyi və ağılı ilə böyük hörmət qazanmışdır. O, xristiyan olmasına baxmayaraq onun bir çox əməli xristiyançılık dəyərlərinin əleyhinədir. Bu əməllərinə görə o müsəlmanlar tərəfindən izzət

və var-dövlətlə mükafatlandırılmışdır. Əğər o, şərəfli xristiyan olsaydı xristiyancılıq naminə Osmanlı təbəsı olan xristiyanların mənfətinə uygun, onlara yardım etmiş olurdu. Amma o müsəlmanların iradəsinə uygun fəaliyətini qurdu. Burada onun haqqında belə söyləyərlər: "müsəlman ağlı və baxışları olan xristiyan". O, türklərin səfirlik siyasəti etiketlərinin və əlaqələrının daha da təkmilliəşdirilməsində mühüm xidmətlər göstərmişdir. O, türkləri köhnədən qalma barbar gələnəklərindən çəkindirmiş, səfirlik münasibətlərində daha da siyasi davranmak qaydalarını aşılamışdır.Ona görə də indidə bu iki şəxs səfirlik əlaqələrını idarə edirlər. Səfirlik əlaqələrı və işləri baxımından sıx-sıx Vəzir ve Müftüye məruzə edərlər. Onlar da bu iki şəxsın fikirlərinə böyük önəm verirlər.

İndiki Vəzirin kəhyası ağıllı adamdır. Ancaq keçmiş Vəzir Taldabanın kəhyası axmaq və ağılsızdı. O və onun ağası olan Taldaban da oxumağı ve yazmağı bilmirlərdi və zamanın dünyaya hökm edən dövləti bu insanların əlindədir.Artıq Taldaban Vəzirin dönəmindən başlayaraq dövlətin dini ve siyasi işlərinə Müftü rəhbərlik edir. O isə dövlətə xidmət əvəzinə özünün və qohumlaranın var-dövlətinin artırılması üçün çalışır.

Nazirlər o qədər də da səlahiyyət sahibi deyillər.

Silahdar ağa və onun kimilərinin isə keçmiş gücündən əsər əlamət qalmamış,yalnız döyüşən əsgərlərin müşküllərini həll etmək səlahiyyətinə malikdir.

Osmanlı dövlətində dəftərdar deyilən bir görəv sahibi vardır. O xalqdan gəlir vergisini toplanmasına və bu vəsaitin xərclənməsinə nəzarət edər. Onun nazir qədər səlahiyyəti vardır. İndiki dəftərdar öz ətrafına satın alaraq topladığı eynı fikirlilərlə bərabər, xəzinədən xalqın pullarını oğurlamaqla məşguldurlar. Bu səbəbdən xəzinədə yetərincə vəsait olmur. Xalqdan artıqlaması ile vəsait toplanmasına baxmayaraq,

dövlətin xərçlərını ödəmək üşün ayrılan büdcə çatmır. Hər ıl olduğu kimi bu ıl də dövlətin büdçəsi kəsir ile qapandı. Yəni belə vergi toplayanların insafsızlığı (daha doğrusu xalqın pulunu oğurlayanların) üzündən müsəlman və xristiyan xalqlarının artıqlaması ilə ödədiyi pullar xəzinə borçlarının ödənməsinə çatmır".

Artıq bu dövürdən Osmalının Ərəbistan bölgəsində yeni təriqət formalaşırdı-Vəhabilik. Ərəbistandakı vəhhabilik adlanan təriqətin və ictimai-siyasi cərəyanın banisi 1703/04-cü ildə Ayaynda ruhani ailəsində dünyaya gəlmişdi.[7] Onun atası, müsəlman hakimi (qazi) Əbd əl-Vəhhab ibn Süleyman, oğlunun ilk müəllimi olmuşdu. Onun qardaşı, Süleyman ibn Əbd əl-Vəhhab salnaməçi İbn Qənnama nəql edirdi ki, yeni müsəlman cərəyanının banisi uşaq vaxtı yüksək qabiliyyət nümayiş etdirərək, heç on yaşına çatmamış Quranı əzbərləyibmiş. Oğlan Quranın təfsirini və peyğəmbərin həyatından rəvayətləri (hədisləri) dərindən öyrənirdi. 16 yaşında Məhəmməd artıq həddi-büluğa çatdı və Əbd əl-Vəhhab onu evləndirdi.
Evlilikdən sonra gələcək şəriət öyrətməni atasının icazəsi ilə Məkkəyə həcc ziyarətinə getdi. Sonrakı illərdə o, Mədinədə iki ay qaldı və sonra evə döndü. "Qonşu ölkələrə" (Osmanlı imperiyasının böyük şəhərlərinə-A.M) çoxsaylı səyahətlər edirdi, bir neçə dəfə Hicazda və Bəsrədə oldu, sonra Əl-İhsədə yaşadı.[8]
Məhəmməd İbn Əbd əl-Vəhhab Bəsrədə olduğu zaman islamda "həqiqi təkallahlılıq" normalarına qayıtmaq çağırışı ilə çıxış etdi. O, öz təlimini yerli zadəgan ailələrinədə tədris edirdi, amma sonundada hər yandanda dışlanırdı.
Bəsrədən Əz-Zübəyrə gedən yolda vəhabi təliminin gələcək banisi az qalmışdı ki, susuzluqdan ölsün, amma Əz-Zübəyr sakinlərindən biri onu xilas edir.[9]

İbn Əbd əl-Vəhhab sonra bir müddət Əl-İhsədə, ruhani Abdullah ibn Əbd əl-Lətifin yanında yaşayır. Gələcək təriqət başçısı Suriyaya səyahət etmək niyyətində idi, amma pulu çatmırdı və onda o, Nəcddə vahə olan Hürəymala yollanır. 1726/27-ci ildə Məhəmməd İbn Əbd əl-Vəhhabın atası Əbd əl-Vəhhab, Ayaynın əmirinin ölümündən sonra hakimiyyəti ələ keçirmiş yeni hakimi ilə mübahisə edərək oranı tərk edirək Hürəymalada yerləşmişdi.[10] Hürəymalda yeni formalaşan təriqət başçısı Məhəmməd İbn Əbd əl-Vəhhab yenə həvəslə öz ideyalarını təlim etməyə başladı, o, hətta atası ilə də mübahisə edirdi. O, vahədə bir neçə il yaşadı. Bu dövrdə o, "Tövhid kitabı"nı yazır. "Şeyxin fəaliyyəti – İbn Qənnam yazırdı. Bütün Aridə - Ayaynda, Əd-Diriyədə, Mənfuhda məşhurlaşmışdı... İnsanlar onun düşmənlərinə və dostlarına bölünmüşdü..."[11]
1740/41-ci ildə Əbd əl-Vəhhab öldü və Məhəmməd, belə görünür ki, atasının yerinə qazi oldu. Hürəymal o vaxtlar bir tayfanın, mümkündür ki, bir-birindən asılı olmayan ayrı-ayrı parçaları arasında bölünmüşdü. Təriqət başçısının moizələri vahə əhalisinin bir hissəsinin narazılığına səbəb oldu. "Hürəymalın şimal hissəsində əbdlər yaşayırdı. İbn Əbd əl-Vəhhab onları yeni dini xəttinə gətirmək istədi. Və onda əbdlər Məhəmməd ibn Əbd əl-Vəhhabı öldürmək qərarına gəldilər"[12], - İbn Bişr yazır. Xətib təsadüf nəticəsində qurtuldu və Ayayna qaçmağa məcbur oldu.
"Meteor parıltısı"nda bildirildiyi kimi, Məhəmməd ibn Əbd əl-Vəhhab 37 yaşında (Ay təqvimi üzrə) səyahətə yollandı. O, təqribən altı il Bəsrədə, beş il Bağdadda, bir ilə qədər Kürdüstanda, iki il Həmədanda (İran) qaldı.
Nadir şahın hakimiyyətinin əvvəllərində o, İsfahana köçdü, burada yeddi il keçirdi, Qum və digər şəhərlərdə yaşadı, yarım il – Hələbdə (Suriya), bir il Dəməşqdə, müəyyən müddət – Qüdsdə, iki il Qahirədə oldu, sonra Məkkəyə gəldi, Nəcdə

qayıtdı, ilyarım-iki il Yəmamədə qaldı, hicri 1150-ci ildə (1737/38-ci il) Ayaynda yerləşdi.
Bu dövrdən başlayaraq İbn Əbd əl-Vəhhab daha açıq şəkildə islamın digər xətlərini qəti şəkildə pisləyirdi.[14]
O dövrdə Osmanlı imperiyasında islamın geniş rəng və çaları mövcud idi. Hənbəlilikdən tutmuş islamın digər məzhəblərinədək zəydilərə, şiələrə, ələvilərə, malikilərə və ibadilərədək. Qeyri müsəlmanlarda –Yəhudiliydən ortodoks xristianlığına qədər və həmçnin müqəddəslərə pərəstiş geniş yayılmışdı; bunlarla yan-yanaşı, islamla çulğalaşaraq və ya onu əvəzləyərək, cadugərlik, bütpərəstlik, günəşpərəstlik, animizm, fetişizm, əcdadlara sitayiş kimi müsəlmançılığa qədərki dini etiqad və pərəstişlər də mövcudiyyət sürürdü. Bir çox köçəri ərəblər o dövrdə ruhlara (cinlərə) qurban kəsir və onlardan xəstəliklərdən izalə olunmalarını istəyirdilər, deyə təriqət başçısının nəvəsi Əbdürrəhman ibn Həsənə bildirirdi.[15]
Əsasında Osmanlı imperiyasının ölkə içərisindəki yaşanan mühiti və ərsəyə gələn mənəvi irs bu cür idi. Yeni xətt olan vəhabilik isə imperiyanın ideloji əsasını təşkil edən hənəfiliyi inkar edərdi. Beləlikldə vəhabilik imperiyanın rəsmi dini təbliğatını zəiflədərək, dövlətin ideloji xəttinə qarşı çıxırdı.
Məhəmməd ibn Əbd əl-Vəhhab soyləyirdi - Allahdan başqa tərifə və təzimə layiq məbud yoxdur.[16]
Məhəmməd ibn Əbd əl-Vəhhabın Məhəmməd peyğəmbərə - islamın banisinə münasibəti də xüsusi idi. Məhəmməd ibn Əbd əl-Vəhhab onu Allahın peyğəmbərlik missiyası üçün seçdiyi adi insan hesab edirdi. [17]
Məhəmməd ibn Əbd əl-Vəhhabın fikrincə islamın mənbəyi yalnız Quran və sünnədir. O, mömin sünni məktəbinin əsasını qoymuş dörd imamı[18], həmçinin Taki əd-Din ibn Təymiyə və İbn əl-Qayiməni (XIV əsr) tanıyır, amma bütün sonrakı

nəsillərə aid olan ruhanilərin nəzəriyyə və əməliyyəsini faktiki olaraq inkar edirdi.
Prinsipcə Məhəmməd ibn Əbd əl-Vəhhabın hənifəliliyin müddəalarını qarşı çıxmaqla, Osmanlı imperiyasının dini-hüquqi məktəbinidə inkar edirdi. Ona görə də söyləmək olar ki, vəhhabilər islamın Osmanlı imperiyasında mövcud olan formasına qarşı çıxırdılar.
İbn Əbd əl-Vəhhab 1740/41-ci ildə Ayayna köçdükdən sonra oranın o vaxtkı əmirinin – Osman ibn Həməd ibn Müəmmərin himayəçiliyində idi.
Mən istəyirəm ki, sən "Allahdan başqa məbud yoxdur" ehkamının yayılması ilə məşğul olasan, - salnaməçinin sözlərinə görə, o, əmirə belə söyləmişdi. Əmir bu təklifi qəbul etmışdi. Tezliklə İbn Əbd əl-Vəhhabın və Ayayn hakiminin ailələri qohum oldular".[19]
Vəhhabiliyin təfsirinin praktik olaraq gerçəkləşdirilməsi üçün onlar yerli "bütpərəstliyi" məhv etməyə girişdilər. İbn Əbd əl-Vəhhab həmin yerlərdə müqəddəs sayılan ağacı öz əli ilə kəsdi.[20]
Bundan sonra vahədə sonrakı vəhhabiyönlü ərəb tarixçilərinin böyük bir coşqu ilə təsvir edəcəkləri hadisə baş verdi. "Ayaynda zinaya yol vermiş bir qadını İbn Əbd əl-Vəhhab daşqalaq etmək əmrini verir. "Əmir Osman və müsəlmanlardan ibarət bir dəstə irəli çıxıb onu ölənə qədər daşlarla vurmağa başladılar. Və birinci daşı, haqında danışılan Osman atdı, - İbn Qənnam yazır. - İbn Əbd əl-Vəhhab qadının nəşini yumağı, kəfənləməyi və dua oxumağı əmr etdi".[21]
Bu artıq ciddi hadisə idi. Daşqalaq xəbəri bütün yerlərə yayıldı və İbn Qənnamın fikrinə görə, əsl müsəlmançılıqdan kənara çıxmış kim varsa, hamısını guya dəhşətə saldı.
Bu daşqalaq haqqında xəbər "Əl-İhsə, Əl-Kətif və ətraf köçərilərin" hakimi Süleyman ibn Həmədə ibn Hürəyrə əl Hüməydiyə də çatdı. Ayayn əmirliyi ondan müəyyən asılılıqda

idi. Hər halda, Ayayn əmirinin ticarətinin bir hissəsi Əl-İhsəin limanları vasitəsilə həyata keçirilirdi. Bundan başqa Əl-İhsədə Ayayn əmirinin palma ağacları və digər əmlakı var idi ki, o, bunlardan gəlir əldə edirdi. Süleyman əl-Hüməydi Osmana, İbn Əbd əl-Vəhhabı öldürməyi əmr etdi, etiraz edəcəyi təqdirdə isə ərzaq və paltar təchizatını kəsmək və onu gəlirdən məhrum etməklə hədələdi.[22]

Süleyman əl-Hüməydinin bu hərəkətinin səbəbini Osmanlı üləmalarının ona təzyiqi ilə də izah etmək olar. Ona görə ki, türk qüdrətinin özülü - Hənəfizm (Osmanlı imperiyasında müsəlman hüququnun əsası) təhlükə altında idi.

Həmçinin Əl-İhsənin əhalisi arasında vəhhabiliyə qarşı qatı düşmənçilik mövqeyində olan şiələr də vardı. Bundan savayı, görünür ki, banu-xalid tayfasının rəhbəri vəhhabilərin artmaqda olan gücündən ehtiyat edir, bunda öz hakimiyyətinədə təhlükə görürdü. Amma Ayayn əmiri artıq nüfuzlu olan İbn Əbd əl-Vəhhabı divan tutmağa cəsarət etmədi, ya da olsun ki, bunu istəmədi və onu sürgün etdi.[23] İstisna deyil ki, Osman ibn Müəmmər bir qədər gözləyib, sonra onu geri qaytarmağada ümid edirdi.

Sürgün olunmuş İbn Əbd əl-Vəhhab 1744/45-ci ildə Əd-Diriyədə məskunlaşdı. Və vahədə onun bir qrup ardıcılı yaşayırdı ki, onların arasında yerli əmir Mühəmməd ibn Səudun iki qardaşı və əmirin zövcəsi də vardı. Təriqət başçısı öz şagirdlərindən birinin evinə düşdü və dərhal da Əd-Diriyənin hakimi ilə əlaqə yaratdı. Əmirin qardaşları və zövcəsi onların yaxınlaşmasına yardımçı oldular.[24]

Əd-Diriyəyə köçdyü vaxtdan etibarən İbn Əbd əl-Vəhhabın həyatı artıq Diriyə əmirliyi və Səudiyyə sülalələrinin taleyindən ayrılmaz bir şəkildə davam etdi. Hətta ilk əvvələr Əd-Diriyə əmiri İbn Səud, İbn Əbd əl-Vəhhaba yaxın olan şagirdləri yetərincə ərzaqla təmin edə bilmirdi. [25]

Nəcd salnaməçilərinin imam adlandırmağa başladıqları Diriyə əmiri vəhhabiliyi qəbul edənlərin başçısı sayılır, namaz vaxtları onlardan öndə dayanırdı.

İbn Əbd əl-Vəhhab Əd-Diriyəyə köçdyü vaxtdan etibarən diriyəlilərin dəyişməz müttəfiqi Osman ibn Müəmmər oldu. İlk illərdə birləşmiş Əd-Diriyəyə və Ayayn qüvvələrinə hətta Ayayn əmiri rəhbərlik edirdi.[26] Osman ibn Müəmmər qızını Əbd əl-Əziz ibn Məhəmmədə ərə verməklə Səudlarla qohum oldu (onların 1748-ci ildə anadan olmuş oğlu Səudun vaxtında səudların qüdrəti özünün zirvə nöqtəsinə çatdı).[27]

Lakin bir müddət sonra Səudlar Ayayn əmirini Əl-İhsə hakimi Məhəmməd ibn Əfaliklə gizli yazışmada və xəyanət hazırlamaqda ittiham etdilər. 1750-ci ilin iyununda, cümə namazından sonra o, öz vahəsinin sakini olan vəhhabilər tərəfindən öldürüldü. Yeni əmir onun qohumu Mişari ibn İbrahim ibn Müəmmər oldu.[28]

Bu vaxtlar Səudların əsas rəqibi isə Ər-Riyad əmiri Dəhham ibn Dəvvas idi.

# II Yekatirina dönəmində Rusiya –Osmanlı münasibətləri

1768-ci il dekabr ayının sonunda Krım xanı Qaplan-Gireyin ordusu Rusiyanın cənub torpaqlarına hücum etdi. 80 minlik tatar ordusu sultan III Mustafaın əmrilə Yelizaveta Petrovnanın vaxtında Şimali Donsanın sağ sahilində yaradılmış Bahmut və Yelizavetqrad şəhərlərini tutdullar.

Lakin krımlılar tezliklə Poltavadan piyada yürüşə başlamış general-anşef P.A.Rumyansevin 35 minlik ordusu ilə qarşılaşdılar. Rumyansevin ordusu Qaplan-Gireyin ordusunu Azov dənizindək sıxışdıraraq Krımı mühasirəyə aldı. Vitse-admiral A.N.Sinyavinin komandanlığı altında Don donanması yarımadanı dənizdən bağlamağa çalışdı. Tezliklə Krım xanının tərəfdaşları – noqaylılar rusların tərəfinə keçməklə Rumyansev üçün Baxçasaraya birbaşa yol açdılar.

Hər münaqişənin özünün dəqiq bir səbəbi olsa da, əsas səbəb dəyişilməz qalırdı – Rusiyanın istəyi krım tatarlarının qurtarmaq bilməyən hücumlarından qorunmaq və getdikçə öz ərazilərini artırmaq, məhsuldar qaratorpaq sahələrində və Şimali Qara dəniz torpaqlarında mövqelərini möhkəmləndirmək idi. Məhz bu baxımdan imperiyanın ən qızğın müstəmləkəçilk siyasəti II Yekaterina hakimiyyətinin dövrünə düşdü.

İstanbul(Konstantinopol) Qara dənizin şimal sahillərinin, sakinlərinin slavyanlaşdırılmasına və dini pravoslavlaşdırılmasına laqeyd qala bilmirdi. Türklər Krım tatarlarını rus müstəmləkələrinə basqın etməyə çox təhrik edirdilər. Avropalılarda Rusira qarşı Osmanlıların döyüşkənlik gücünün arırmaq üçün ordunun silahlandırırdılaraq İstanbula dəstək olurdular.

Məhz Birinci Rus-Türk müharibəsində(Əslində bu vaxta qədər rus-türk müharibələri olmuşdu,görünür maştabına görə

bütün avropa və rus tarixçiləri bu müharibəni belə adlandırırlar (1768-1774-cü il-lər)) bu cür "donor" Osmanlı imperiyası üçün Fransa olmuşdu. Əslində Türkiyə Fransanın əlində yeganə son silahı idi. Fransa ardıcıl olaraq iki yüz il idi ki o, şərq çəpərini – Türkiyə, Polşa və İsveç kimi tərəfdaşları ilə Rusiya qarşı yarımhalqanı formalaşdırmışdı. Əslində bu trio hələ kardinal Rişelye tərəfindən Habsburqlara qarşı düşünülmüşdü, sonradan isə dirçələn Rus İmperiyası üçün çox tətbiq olundu. Ancaq Fransızlar tərəfdaşlarını bir-birinin ardınca itirirdilər. Öncə İsveç məğlub oldu. Şimal döyüşlərindəki məğlubiyyətdən sonra orada belə desək, qızıl azadlıq erası başladı. İsveçdə partiyalar bir-birilə mübarizə aparırdılar, Peterburq isə açıqdanaçığa qonşu ölkənin siyasətinə sərt təzyiq göstərirdi.

1760-cı illərin ortalarından İsveçin ardınca Fransa Polşadakı mövqelərini itirməyə başladı. 1764-cü ildə Polşa taxtına Rusiya əlaltısı Stanislav Ponyatovski seçilmişdi. Bundan sonra rusiya hökuməti pravoslav əhaliyə katoliklərlə bərabər hüquq verilməsi məsələsini qaldırdı. Yeni hökmdar bu addımı atmağa razi olsaydı polşalılar və Polşanın katolik əhalisi pravoslav ukraynalılar qarşısında azlıqda qalacaqdılar. Bunu anlayaraq Stanislav qərar verməyə tələsmirdi, Yekaterinaya yazdığı məktublarında isə onu inandırmağa çalışırdı ki, "azadlıq" və "bərabərhüquqluq"... bir-birilə uzlaşmır. Yekaterina Polşada yerləşdirilmiş rus hərbiçilərinə nəinki hərəkətə başlamağı əmr etdi, hətta ora əlavə qüvvələr də göndərdi. Cavabında Barre şəhərində pravoslavlara bərabərhüquqluq vermək istəməyən şlyaxtalardan ibarət silahlı qüvvə topladılar. Onun dəstələri N.V.Repin və A.V.Suvorovun komandanlığı altında rus hissələri tərəfindən dağıdıldılar.

Bununla belə vəziyyət təhlükəli olaraq qalırdı. Polşada öz payına ümid edən Avstriya və Prussiya kimi qonşu dövlətlər rusların təsirinin üstünlük təşkil etməsindən razı qala bilməzdilər. Bir qədər sonra, 1772-ci ildə II Fridrixin təşəbbüsü

ilə bölüşmə baş tutdu. Prussiya ordusunu Pomeraniyaya, Avstriya isə Qalisiyaya yeritdi. Rusiyaya isə Minskə qədər Belorusiya torpaqları və keçmiş Livoniya qismət oldu. Reç Pospolitonun keçmiş tərəfdaşı və himayədarı olan Fransa artıq bir neçə il idi ki, kənarda qalmışdı. Onda Versal Türkiyə barəsində xatırladı. Fransanın xarici işlər naziri hersoq Etyen-Fransua Şuazel Konstantinipoldakı səfir qraf Şarl Qravye Verjenə yazırdı(O. Eliseyeva, II Yekaterina. Moskva Astrel.2008): "Təəssüflə əmin oldum ki, Avropanin şimalı getdikcə daha da rus imperatriçəsinə tabe olur. Şimalda Fransa üçün dəhşətli təhlükə yaradacaq liqa hazırlanır. Ən etibarlı vasitə bu layihəni pozmaqdır və ola bilsin ki, imperatriçəni ələ keçirdiyi taxtdan salmaqdır. Bu da ona qarşı müharibəyə qalxmaq kimidir. Bu qulluğu bizə yalnız türklər göstərə bilərlər".

Verjen məsələnin öhdəsindən layiqincə gəldi. O, sultan III Mustafaya yürüşə hazırlaşmaq üşün 3 milyon livr göndərdi. 25 sentyabr 1768-ci ildə Türkiyə Rusiyaya müharibə elan etdi. Şuazel Peterburqdakı fransa vəkili Sabatye de Kabra məlumat verirdi ( O. Eliseyeva , II Yekaterina. Moskva Astrel .2008): "Əlahəzrət istəyir ki, Rusiya-Türkiyə müharibəsi alçal-mış, ya da üzülmüş Peterburq saray əhlinin qonşularına əziyyət vermək və ya ümumavropa işlərinə qarışmaq fikirlərindən əl çəkməsi anına qədər davam etsin".

1768-ci ildə Krım tatarlarının Rusiyanın cənub ərazilərinə son "basqını" elə başlanğıcında boğulsa da, daha böyük, birinci Rus-Türk adlanan müharibəsinin başlanmasınada səbəb oldu. XVİİ yüzilliyin sonlarından Rusiya Osmanlı Portası ilə artıq beşinci dəfə idi ki, müharibə edirdi. 1695 və 1696-cı illərdə I Pyotrun iki Azov, 1711-ci ildə uğursuz Prut yürüşü, 1735-1739-cu illərdə B.X.Mininin komandanlığı altında rus ordusunun Oçakovanı ilk dəfə ələ keçirdiyi Krım müharibəsi və nəhayət yeni münaqişə.

Müharıbənin ən dönüş hadisəsi isə 1770-ci ildə Aleksey Qriqoryeviç Orlovun komandanlığı ilə Aralıq dənizin sularında üç rus eskadrasının peyda olması idi. Keçmiş qvardiya zabitinin dəniz qüvvələrinin idarə olunmasında təcrübəsi olmadığından ona iki peşəkar köməkçi - admiral Q.A.Spiridov və S.K.Qreyq təyin edilmişdi. Yazda admiral Spiridov rus desant-çıxarmasını Moreydə həyata keçirmişdi ki, bu da yerli yunanların üsyana qalxmasına işarə idi. Rus və yunan ordusuna Misitrini və eləcə də Nakarin limanını ələ keçirmək müyəssər oldu.

Müharibənin gedişatı göstərdi ki, Fransa xarici siyasət proqnozlarında səhvə yol verib. Yekaterinanı taxtından məhrum edəcək iki-üç məğlubiyyət heç cür əmələ gəlmirdi. Onun əvəzində Moldaviya, Valaxiya, Qafqazda fəal hərbi əməliyyatlar və Rusiya donanmasının Baltikdən Aralıq dənizinə uğurlu ekspedisiyası qələbə şəlaləsilə nəticələndi. 1770-ci il sentyabrın 16-da 2-ci ordu komandanı general Pyotr İvanoviç Panin Benderi ələ keçirdi.

İyunun 24-də rus dənizçiləri Xios Boğazında türk donanmasına güclü zərbə endirdilər, iki gündən sonra isə Çesmen buxtasında sahil batareyasının müdafiəsinə çəkilmiş türk eskadrasını yaxaladılar. İyunun 26-na keçən gecə türk gəmiləri bütövlüklə darmadağın edildi. Qreyq raportunda yazırdı: "Hətta hələ yanmayan gəmilərdəki türklər də müqavimət göstərməkdən əl çəkdilər. Avarlı gəmilərin çox hissəsi batmış, ya da insan sıxlığından çevrilmişdilər." Orlov rus və türk olmasına baxmayaraq sağ qalanların hamısını xilas etmək göstərişi verir. Onun əmrilə donanma Dardanelə tərəf həm boğazı mühasirəyə alınması, həm də türklərin dəniz əlaqələrinin kəsilməsi üçün istiqamətləndi.

Bu vəziyyətdə Osmanlı imperiyasına danışıqlara hazır olmasını nümayiş etdirməkdən başqa heç nə qalmırdı. Sülh konfransının keçirilməsi məqsədilə Fokşan seçildi.

Peterburqdan ora "birinci səfir" kimi Q.Q.Orlov göndərildi. Sülh konfransına ezam olunmuş Orlov imperatriçənın göstərişlərini heç bir güzəştə getmədən elə qeyri-diplomatik tərzdə həyata keçirməyə başladı ki, faktiri olaraq danışıqları pozmuş oldu və Türkiyə tərəfi Fokşanı tərk etdi. Bununla belə konfransın uğursuzluğu əvvəl-cədən müəyyən edilmişdi, belə ki, Rusiya hökumətində sülh məsələsi haqqında birlik yox idi. Panin tezliklə müqavilə bağlanmasını müdafiə etməklə, məhz bu yönümdə Rumyansevi istiqamətləndirirdi. Orlov qardaşları isə öz növbələrində hələ 1770-ci ildə Qriqori Qriqoryeviçin Dövlət Şurasında çıxış edərək qeyd etdiyi, "Konstantinipol yürüşü" fikrini dəstəkləyir-dilər. Onlar sülh üçün deyil, qüvvələrin yenidən qruplaşması üçün çalışırdılar.Əslində Rusiyada hakimiyyət uğrunda iki iri klan mübarizə aparırdı. Siyasətdə ciddi dəyişikliklər hansı kla-nın nümayəndələrinin qələbə qazanaraq hakimiyyətdə vacib vəzifələri tutacaqlarından asılı idi. Dövlətin idarə olunmasında hökmdar təkcə məmurlara deyil, həm də xüsusilə etibarlı adamlarına – onunla qalan aparat arasında vasitəçiliyi həyata keçirən, hökmdarın qərarlarını çatdıran və anladan favoritləri-nə arxalanırdı.

İmperatriçə qəlbən favoritinin cəsarətli "Konstantinipol yürüşü" layihəsinə laqeyd qala bilmirdi. O əbədi şan-şöhrət vəd edirdi. Laki dövlətin daxili vəziyyəti dəyişmişdi. Müharibənin dördüncü ili gedirdi, qiymətlər, rüsumlar qalxmış, tez-tez əsgərliyə çağırış əhalinin narazılığına səbəb olurdu. 1772-ci ilin yanvarında Orenburqdan kazakların yerli məmurlarla toq-quşması xəbəri gəldi, elə onda da Don tərəfdən çaxnaşmalar barədə həyəcanlı xəbərlər yayıldı. Volqa və Saritsində üsyana təhrik edənlər aşkar olundular. Don kazakları nizami ordularla açıq döyüşlərə hazırlaşaraq Çerkasskı möhkəmləndirdilər. Or-da-burda bir-birilə birləşə biləcək yerli üsyanlar baş qaldırırdı.

Belə şəraitdə İstanbula yürüş etməkdən söhbət gedə bilməzdi. İmperatriçə sülh məsələsində Panini dəstəklədi. O,

deyirdi ki, müharibə davam etdirilərsə, "imperiyanın işləri ən əsası olan, imperator I Pyotrun vaxtından Rusiyanın görmədiyi krizisdə olacaq."

25 iyun 1772-ci ildə Yekaterina öz fransalı müxbiri xanım Byelkaya bildirirdi( O. Eliseyeva, II Yekaterina. Moskva Astrel .2008): "Düşünürəm ki, mənim sülh mələklərim indi yaramaz, saqqallı türklərlə üz-üzədilər. Öz dövrünün ən gözəl adamlarından olan qraf Orlov bu avamlar qarşısında mələk kimi görünməlidir. O, qeyri-adi adamdır, təbiət ona qarşı çox səxavətli olubdur, lakin xasiyyəti onu ərköyün etmişdir. Ona görə ki, hər hansı bir işdə səylə çalışmaq onun üçün hər şeydən çətindir. Otuz yaşına qədər heç nə onu buna məcbur edə bilməyib. Bununla belə maraqlıdır o, çox şey bilir və onun təbii hissiyatı elə güclüdür ki, nə haqqındasa ilk dəfə eşitsə də, o an onun zəif və möhkəm yerlərini tutur və bu əşya barədə ona xəbər verəni çox geridə qoyur".

Əlbəttə ki, imperatriçə öz "sülh mələyini" qərəzli təsəvvür edir. Əfsuslar olsun ki, diplomatiya Qriqori Qriqoryeviçin anladığı bu cür əşyalara aid deyildir.

Yekaterina yazırdı( O. Eliseyeva, II Yekaterina. Moskva Astrel .2008): "Bu geniş imperiya üçün sülh vacib-dir. Bizim xarabalığa deyil, əhaliyə ehtiyacımız var. Bacarır-sınızsa, bizim geniş səhralarımızı əhali ilə qaynaşmağa məcbur edin. Daxili işlərə aid olan budur. Xarici işlərə gəldikdə isə, da-im müflisləşdirən müharibədənsə, dünya özü bizi tarazlığa gətirəcəkdir".

Xarici siyasət Yekaterina fəaliyyət dairəsinin ən parlaq sahəsi idi. Türkiyə ilə müharibədə iki, İsveçlə bir qələbə, Krımın birləşdirilməsi, Polşanın bölünməsi ilə imperiyasının sərhədlərini böyütmüşdü və imperatriçənin sözlərilə: "bizsiz Avropada bir top belə atılmayacaq" kimi şərait yaratmışdı.

Hökmdarlığının lap əvvəlindən Yekaterina xarici siyasəti şəxsən idarə etməkdə təkidli idi. O deyirdi: "Mən özüm idarə etmək istəyirəm, qoy bunu Avropa bilsin"

Onun düşüncələrinə görə Rusiya xarici saraylardan asılı olmadan öz "şəxsi sistemilə" hərəkət etməli idi. İmperatriçə qeyd edirdi: "Zaman göstərəcək ki, biz heç kəsin quyruğunda sürünmürük".

Başqasının təsirinə tabe olmamağı Yekaterina müəyyən formaya sala bilirdi. O, öz diplomatik danışıqları tərzində yazırdı: "Fərdi üsulla məsələləri müzakirə edənlər çox böyük səhvə yol verəcəklər""( O. Eliseyeva, II Yekaterina.Moskva Astrel .2008).

Bəzi hallarda vacib olan sərtliyi və qətiyyətliyi Yekaterina faktiki öz hakimiyyət şəriki Q.A.Potyomkinin üzərinə qoyur, özü isə "yumşaq əlcəklərlə" hərəkət etməyə üstünlük verirdi. 1770-ci illərin ortalarından Qriqoriy Aleksandroviç Potyomkin xarici siyasətlə bağlı bütün məsələlərdə imperatriçənin ən yaxın əməkdaşı oldu. İmperatriçə onu öz "şagirdi" və "yetişdirməsi" adlandırırdı. Rusiyanın Krım, Polşa və İsveçə aid planlarının həyata keçirilməsini də ona həvalə etmişdi.

Əgər Orlov sözün həqiqi mənasında dövlət adamı olaraq müəyyən sərhədləri bilirdisə , Potyomkin Yekaterinanın həyatına başqa bir yenilik gətirdi.. O, “gecə və gündüz” işləyirdi.

Potyomkinlə Yekaterinanın romanı 2 ilə yaxın, 1774-1776-cı ilədək davam etdi. Sonradan yaranmış soyuqluğun günahı Qriqoriy Aleksandroviçin üzərində qaldı. Yekaterina məktublarının birində ona yazırdı( O. Eliseyeva, II Yekaterina. Moskva Astrel .2008): "Yoldaşım, mənim dediklərim çin oldu. Sizin yersiz əldə etdiyiniz yüksəklik mənə zərər gətirir. Heç olmazsa bir dəfə mənə qulaq as ki, məni eşitdiyini deyə bilim""

Bu vəziyyətdə qalmaqal qaçılmaz idi. Mübahisələr çox vaxtı iş otağından yataq otağına keçirdi. "Mənə hökmdarlıq etməyə imkan verməklə, qəlbimin quvvəsini alırsan. Biz sevgi deyil, hakimiyyət mübahisəsi aparırıq. Bu cür ailə cəhənnəminə dözmək mümkün deyildi".

1776-cı ildə qruplaşmış saray əhli ümumiliklə Potyomkinə qarşı qalxdı. Onda Yekaterina özü üçün dəhşətli, lakin dövlət üçün yeganə doğru olan addımı atdı. Hələ də öz ehtiraslı qəhrəmanını sevərək, ayrılıqdan əzab çəkə-çəkə, onu öz favoriti kimi qurban verməyi qərara aldı ki, bununla da düşmənləri sakitləşdirə bildi.

1777-ci ilin dekabrından Axtiyar limanında desant çıxarmağa hazır olan türk gəmilərinin çox böyük dəstəsi yerləşirildi. Buna cavab olaraq Rus tərəfidə Dneprovsk limanında öz tərsanələrinin salınması məsələsini qaldırdı. İmperatriçə Potyomkinə yazırdı: "Limanda buranın admirallığını nümunə tutaraq, admirallığın tərsanələri yerləşə biləcək redut və s. salınmalı və Xerson adlandırılmalıdır"

İnşa edildikdən üç il sonra Xersona artıq iri gəmilər həm daxil olur, həm də ağır yüklərlə yola düşürdülər. İ.İ.Xemnitser 1782-ci ildə Konstantinopola gedərkən memar N.A.Lvova məlum edirdi ki, hə qardaş, Xerson doğrudan da möcüzədir. Bunların hamısının üç ilə başa gətirildiyini təsəvvür etmək mümkün deyil. Gözünün önünə nə çubuq, nə də bir ev tapmaq mümkün olmayan sonsuz bir səhra gətir. İndi isə - qaladır və çox mühüm qaladır, lap Niderlandiyada gördükləirmizdən də yaxşı. Daxili tikililər sanki Parisin yonulmuş daşlarındandır.

1781-ci ilin mayında Krıma hücum etməkdən qabaq Yekaterina Rusiya-Avstriya ittifaqını formalaşdırır. Yeni kritik vəziyyət özünü çox gözlətmədi. 1782-ci ilin mayında türk ı Şahin-Gireyin qardaşı Batır-Gireyi Krımda xan seçilir və İstanbula kömək üçün müraciət edir. Devrilmiş xan isə Qafdan Kerçə Rusiya gəmisində qaçır.

Potyomkin yazırdı( O. Eliseyeva, II Yekaterina. Moskva Astrel .2008): "Mərhəmətli hökmdar, mən məsə-ləlıəri olduğu kimi xatırladıram. Krım öz vəziyyətilə bizim sər-hədlərimizi dağıdır. Türklərlə Buquda və ya Kuban tərəfi ilə ehtiyatlı olmaq vacibdirmi, halbuki hər iki halda Krım əli-mizdədir. Artıq Krım sizindir və bu narahatçılıq bitmişdir. Təsəvvür edin ki, sərhədlərdə də vəziyyət gözəldir. Avropada da Asiya, Afrika, Amerikanı böləcək dövlət yoxdur. Əldə et-dikləriniz nə qədər gözəl olsa, sizi bir o qədər utandıracaq və varisləriniz qınayacaqdır. Onlar hər narahatçılıqda deyəcək: "Budur, o, bunu edə bilərdı, istəmədi, ya da əldən buraxdı".

Potyomkin tərəfindən dəstəklənən və Rusiya təsirində fəaliyyət göstərən tatar əyanları şöhrətli knyaza xanı taxtından əl çəkməyə məcbur etdirməyi və Krım sakinlərinin onların vətəndaşlığına keçmək istəmələri haqqında xahişlərini təşkil etmək təklifini irəli sürür. 4 dekabr 1782-ci ildə imperatriçə Potyomkin üçün "elə birinci imkan yaranan kimi" Krımın Rusiyaya birləşdirilməsi haqqında gizli reskript imzaladı.

İyulun 10-da Qarasubazar düşərgəsindən Potyomkin im-peratriçəyə tatar əyanlarının andiçməsi barədə məlumat verirdi( O. Eliseyeva, II Yekaterina. Moskva Astrel .2008).: "Artıq bütün əyanlar and içdilər, indi isə hamı onların yolu ilə gedir".

Doğrudan da tezliklə müsəlman ruhaniliyi və aldadılmış tatarların andiçmə mərasimi baş tutdu.

Krımın müsəlman ruhaniliyi Potyomkindən "tatarların əqidəsinin toxunulmazlığına riayət etmək" zəmanətini alan kimi nəinki özləri and içməyə razılaşmış, hətta əhalinin əsas hıssəsini də buna sövq etmişdi. Potyomkin hətta gəlirlərin müəyyən hissəsinin daha çox ehtiram göstərilən məscidlərin saxlanılmasına ayırmaqla ruhaniliklə anlaşma əldə edə bildi. Bundan başqa o, Peterburqa Krım ruhaniləri üçün Quranın çap olunmasına sifariş göndərdi.

2 fevral 1784-cü ildə Qriqoriy Aleksandroviç Potyomkin feldmarşal rütbəsi aldı, Hərbi kollegiyanın prezidenti və yeni birləşdirilmiş torpaqların general-qubernatoru oldu. O yeni ərazilərin inkişafının şəhər, liman, tərsanələr salınması, Krımda əkinçilik, üzümçülük, ipəkçilik, seçmə qoyunçuluğun yaradılması, eləcə də səhralıq ərazilərə çoxsaylı müstəmləkəçilər köçürülməsi üzrə geniş proqramını həyata keçirdi. Bunun hamısı ciddi maliyyə yatırımı tələb edirdi. Hətta Rusiyanın Qara dənizə irəliləməsinin tərəfdaşları arasında az adam inanırdı ki, Krımın qeyri məhsuldar torpaqları gəlir gətirə bilər. Potyomkinin düşmənləri isə onun Şimalı Qara dəniz sahillərinin inkişafına yatırdığı vəsaiti küləyə sovrulmuş pullar adlandırırdılar. Skeptiklərdən fərqli olaraq, Yekaterina "əldə olunanların" səmərəsini qiymətləndirə bilmişdi, lakin bunun üçün o, yeni torpaqları görməli idi. 1 yanvar 1787-ci ildə Yekaterinanın "Tavriçeski vilayətinə" məhşur səyahəti başladı. O, Baxçasaraydan Moskva general-qubernatoru P.D.Yeropkinə yazırdı: "Bu diyarın əldə olunmasını alçaqlıqla bədnam edənlər onun qiymətini bilmirlər( O. Eliseyeva, II Yekaterina. Moskva Astrel .2008): ümid etmək olar ki, əgər Peterburq imperiya gəlirinin 8-ci hissəsini gətirirsə, adıçəkilən ərazilər məhsulu ilə barsız yerləri, yəni Baltik sahillərini ötüb keçə-cək".

Səfər mühüm diplomatik xarakter daşıyırdı. Onun məqsədi Rusiyanın tərəfdaşlarına və Avropa ölkələrinin diplomatik nümayəndələrinə Rusiyanın Qara dəniz sahillərində möhkəmlənməsini göstərmək idi. Aprelin 30-da nahar vaxtına gəmilər Kremençuqa daxil oldular. Bura Yekaterinslava inşa olunana qədər canişinliyin inzibati mərkəzi rolunu oynayırdı. Potyomkinin himayəsinə verilmiş torpaqlar buradan başlayırdı. Dneprlə aşağı hərəkət edərək Yekaterina Yeni Kaydaka yaxın yerdə sahilə endı. Səhrada Avstriya imperatoru II İosiflə görüşüb onunla Yekaterinslavanın bünövrəsinin qoyulduğu yerə, oradan da Xersona yola düşdü.

Səyahətçiləri əsas sürpriz Sevastopolda gözləyirdi. İnkerman sarayında təntənəli nahar vaxtı qəfildən eyvandan görünən mənzərəni bağlayan pərdənin açdırılması iştirakçılara ecazkar Sevastopol limanını göstərdi. Günəşli bir gün idi, reyddə 3 gəmi, 12 freqat, 20 xətt gəmisi, 3 mərmiatan qayıq və 2 branderdən ibarət Rusiya Qara dəniz donanması durmuşdu. Toplardan atəş açıldı. Bununla Rusiya əldə etdiyi əraziləri saxlamağa hazır olduğunu nümayiş etdirdi.

Demək olar ki, Yekaterinanın səfərini işıqlandıran bütün müəlliflər "Potyomkin kəndləri" məsələsindən yan keçmirdilər, yəni cənubda imperatriçəyə həqiqi şəhərlər və qalalar yerinə dekorasiyalar göstərilmişdi. Əfsanənin yaradıcısı 1787-1796-cı illərdə Rusiyada səfirliyin katibi işləyən və səfərdə şəxsən iştirak etməyən Saksoniya diplomatı Q.A.Helbiq sayılır. Helbiq əhalinin 200 verst boyu "əmrlə" qoyduğu uydurma kəndləri təsvir edirdi, "mal-qara sürülərini gecə vaxtı bir yerdən digər yerə aparırdılar və elə olurdu ki, bir sürü hökmdarın qarşısına beş-altı dəfə çıxarılırdı." Xersondakı imperatriçənin xoşuna gəlmiş tikililər haqqında deyirdi: "Yalnız yaxındakı binalar həqiqi, uzaqdakılar isə bir-birinə bağlanmış və gözəl boyanmış qamış lövhələrdə çəkilmiş şəkillərdi"( O. Eliseyeva, II Yekaterina.Moskva Astrel .2008).

Hətta imperatriçəyə Sevostopolda nümayiş etdirilən hərbi donanma da ordan-burdan gətirilmiş və hərbi görünüş verilmiş ticarət gəmiləri və köhnə barkalar idi.

"Potyomkin kəndləri" haqqında əfsanə müharibə ərəfəsində Rusiyaya həqiqətən də çox zərər gətirdi. İmperatriçə Krıma xarici diplomatlara ölkənin baş verə biləcək münaqişələrə hazır olduğunu göstərməyə gedirdi. Bu, şou əslində avropalıları türkləri Rusiya qarşı hücuma təhrik etməkdən çəkindirməli idi. Ancaq karton şəhərlər və çürük gəmilər haqqında ildırım sürətilə yayılan xəbərlər Paris, London, Berlin və Stokholmda daha arzu edilən oldu.

Ancaq Britaniya tərəfi üçün məlumat toplayan don Fransisko de Miranda hesabatında çox ciddi məqamlara toxunurdu.. İspan hökmranlığına qarşı mübarizə aparan venesuelalı, çox səyahətlər etmiş və 1787-ci ildə Rusiyada olmuşdu. Miranda İstanbuldan Xersona gəlib Peterburqun avropalı opponentlərini daha çox maraqlandıran ərazilərə baş çəkmişdi. Səyahətçi rus ordusunun sayı, dislokasiyası, təlim səviyyəsi, təminatı, qala tikililərinin keyfiyyəti, yollar, tərsanələr, hərbi gəmilərin tipi və sayı, əhalinin sayı və milliyəti, imkan daxilində buxtanın dərinliyini qeyd edir, kanal və çaylarda farvaterlər haqqında ətraflı gündəlik aparırdı.

Onun rəvayəti bununla qiymətlidir ki, Yekaterinanın gəlişi ərəfəsində cənubdakı vəziyyəti əks etdirir. Miranda güclü və zəif yerləri qeyd edirdi: rahat geyim və yaşayış yerlərinin darlığı, yüksək keyfiyyətli gəmiqayırma və xarab hospitallar, insanların sağlam görünüşü və zəif qidalanma. Ancaq o, küçələrin bəzədilməsi, Yekaterinanın keçəcəyi yerlərdə malqaranın ora-bura aparılması və ya insanların hər hansı bir xüsusi yerdə cəmlənməsi, xüsusilə də karton evlər və hərbi görünüşə salınmış ticarət gəmiləri haqqında heç bir söz belə yazmamışdı. Mirandanın gündəliyindən onun britaniyalı sifarişçiləri görməli idilər ki, Rusiya tərəfi cənub torpaqlarında əsaslı surətdə möhkəmlənmirlər. Lakin venesuelalının səylə topladığı məlumat Londonda öz yerini tapmadı. Baş nazir Vilyam Pitt (kiçik) Mirandanın məlumatlarına elə bir maraq göstərmədi. Rusiyaya qarşı münaqişədə oyun qərara alınmışdı, ona görə də tərəzinin digər gözünə qoyulan məlumatlar onları yalnız qıcıqlandırırdı və ingilis kabinetinin mövqeyini dəyişə də bilməzdi.

Yekaterinanın bu təntənəli səfərinin iştirakçılarından heç kəs şübhə etmirdi ki, Osmanlı imperiyası ilə münaqişəyə bir neçə gün qalıb. Bu müharıbənin başlanmasına təkan verici hadisələrdəndə biri də Sultan sarayında baş verir.

5 avqust 1787-ci ildə İstanbulda Osmanı sarayında diplomatik konfransa dəvət olunmuş Rusiya səfiri Y.İ.Bulqakov Krımın qaytarılması haqqında tələblər eşitmiş və ardından həbs olunaraq Yeddiqüllə qalasına aparılmışdı. Bu müharibə elan etmək demək idi. Şöhrətli knyaz Potyomkin imperatriçəyə yazırdı"( O Eliseyeva , II Yekaterina. Moskva Astrel .2008): "Əgər qırılmadan uzatmaq olsaydı, çox şey əldə etmək olardı". Cavabında imperatriçə: "Nə edək ki, köpük vaxtından əvvəl partladı. Yadımdadır ki, Qaynarca sülhünə imza atarkən müdriklər onun iki il sürəcə-yinə şübhə edirdilər...".

İlk əvvəl hərbi əməliyyatlar Rusiya tərəfi üçün uğurlu olmadı. Türk donanmasının axtarışına çıxan Sevastopol eskadrası sentyabrın 24-də bir neşə gün davam edən güclü payız küləyinə düşərək ciddi dərəcədə zədələndi. Yekaterinslava ordusuna komandanlıq edən Potyomkin oktyabrın ilk günlərinə qədər qızdırma içində çapalayır və xahiş edirdi ki, Yekaterinaslav və Ukrayna orduları qocaman feldmarşal P.A.Rumyansevin komandanlığına verilsinlər. Buna görədə Yekaterina Potyemkindən knyazdan narazı qalmışdı.

Müharibə başlamamışdan əvvəl, Kanevdə Yekaterina ilə Polşa hökmdarı Stanislav Avqustun görüşündə Potyomkin Polşa ilə sülh bağlamağı təklif edirdi. Reç Pospolitoda Rusiya ilə siyasi birləşməyə tam hazır olan güclü maqnat partiyası yarandı. Lakin hökmdar öz sözlərilə desək, etibarsız, yelbeyin millət olan polşalılarla ümumiyyətlə yaxınlaşmağa çox tərəddüd edirdi. O, daha çox avstriyalı tərəfdaşlarının köməyinə arxalanırdı. Potyomkin hesab edirdi ki, Polşanın Rusiya tərəfinə çəkilməsinin yeganə yolu torpaq əraziləri vəd etməkdir. O, imperatriçəni yola gətirmək istəyirdi ki, onlara türk torpaqlarından verməyi vəd etmək lazımdır ki, bütün milləti maraqlandırsın. İttifaq müqaviləsinin layihəsinə görə Polşa tərəfi Rusiya vəsaiti hesabına "xalq süvari qoşunu" adlanacaq üç dəstə

yaradacaq. Yekaterina narazı da olsa: "Onlara mənfəət vəd ediləcək, əgər bununla polyakları özümüzə bağlaya bilsək və onlar bizə sadiq olsalar, bu onların tarixində ilk sədaqətlik nümunəsi olacaq"( O. Eliseyeva, II Yekaterina.Moskva Astrel .2008).

Artıq əsrin dörddə birini Polşa məsələlərində iştirak edən imperatriçə əmin olmuşdu ki, rus və Polşa nümayəndələrinin yaxın əlaqələri onun dövləti üçün ziyandır. Rusiyada yalnız ali zadəganların irəli sürdükləri hakimiyyətə olan oliqarxiya iradları Polşada elə bil ki, bütün şlyaxtanın ümumi əhvalının ayrılmaz hissəsi idi.

Müqavilənin əsas hissəsindən ayrı bəndlərdə söhbət Rusiya və Polşa ordularının tədriclə qarışmasından, Reç Pospolito aristokratlarının Rusiyanın qulluğuna keçməsindən, Rusiya zadəganlarının Ukrayna, Litva şlyaxtası və Polşa padşahlığının ümumi rütbəverməsi ilə birləşdirilməsindən gedirdi. Aleksandr Qriqoryeviç Potyemkin yazırdı"( O Eliseyeva , II Yekaterina. Moskva Astrel .2008): "Beləliklə, iki dövlətin rütbə-lərinin bərabərliyi bəndləri təsis edilməlidi ki, zadəganlıq bir olsun.

Bu cür planların həyata keçirilməsi Rusiya və Polşa ittifaqına atılan addım olardı. Lakin Yekaterina anlayırdı ki, Prussiya və Avstriya kimi qonşu dövlətlər "Polşa piroqu"nun bütün tikələrinin onların gözü qarşısından aparılmasına sakit baxa bilməzlər. Və o, səhv etmirdi. Varşavada layihənin müzakirəsində dövlət başçısı Stanislavın yaratdığı müəmmalıq, polşa cəmiyyətində boyük şübhə doğurdu. Ehtiyat edirdilər ki, hökmdarla Rusiya arasında yeni parçalanmaya aparan razılaşma gedir. Bu vəziyyətdə Prussiya diplomatiyasına fəaliyyət göstərmək daha asan idi.

Rus-Polşa oyununda kartları İsveç hökmdarı III Qustav qatıb-qarışdırdı. İyunun 26-da o, qəfildən Neyşlot qalasına hücum etdi. İki cəbhəyə işləyən ölkə güclü və arzuolunan tərəfdaş kimi qəbul oluna bilməzdi. 25 sentyabr 1788-ci ildə

Varşavada açılan parlament Rusiya ilə ittifaqı rədd etdi və Prussiyanın polşalılara birinci bölüşmə zamanı itirdiyi torpaqları qaytarmaq vədini qəbul etdi. Həmin ana qədər rusları Oçakovada Osmanli ordusunu mühasirəyə alması artıq bir ilə yaxın idi ki, davam edirdi. Bütün əməliyyat həqiqi hərbi şəraitdə keçirilən iri səhra manevrlərini xatırladırdı. Oçakovanın uzun müddət mühasirədə saxlanması əsgərlərin hazırlanması üçün çox gözəl şərait yaradırdı. Onlar geniş istehkam işlərində, türk mövqelərinin minalanmasında, "quru yolu" və dənizdən şəhərin bombalanmasında, bir-birlərini əvəz edən dəstələrlə türklərin hücumunu dəf etməkdə, əlbəyaxa döyüş üsulları və süngü hücumlarını mənimsəməkdə iştirak edirdilər.

Məhz bu hazırlıq nəticəsində rus əsgərləri bir neçə saat ərzində Türkiyənin Qara dəniz istehkamına hücum edərək ələ keirməyə qadir olan əsgərlər oldular. Dekabrın 6-da səhər tezdən qala məğlub edildi. Türklərin 9,5 mini şəhid oldu və 4000-i əsir düşdü, rus ordusunda isə 926 şəhid, 1704 yaralı oldu.

Bu məğlubiyyət türkləri Moskva ilə əlverişsiz sülhün bağlanmasına gətirib çıxardı. Kiçik Qaynarca müqaviləsi imzalandı.

1774-cü il Kiçik Qaynarca müqavilәcinə görə Kinburq, Kerç, Yeniqala və Azov Rusiyaya verildi, bu müqavilədən çıxış edərək 1783-cü ildə Krım yarımadası da Rusiya imperiyasının ərazilərinə birləşdirildi.

İkinci Rus-Türk müharıbəsinin başlanması ilə Rusiya ordusunun cənuba istiqamətləndiyi bir vaxtda İsveç hökmdarı şans əldə etmiş oldu. III Qustavı müasirləri "ziyalı despot" adlandırırdılar. Volter və Didronun pərəstişkarı, dahi Fridrixin doğma qardaşı oğlu və Yekaterinanın qohumu taxta sahib olan kimi 19 avqust 1772-ci ildə hökmdar hakimiyyətini möhkəmləndirən dövlət çevrilişi etdi.

Öz məşhur nəslinin nümayəndələri XII Karl və II Fridrixin hərbi adsanından ilhamlanaraq Qustav İsveçin əvvəlki əzəmətini bərpa etmək arzusunda idi.

1787-ci ilin noyabrında Yekaterina Potyomkinə III Qustavın vəsait almaq üçün gizlicə Berlinə yollanması barədə xəbər göndərdi. 1788-ci ilin fevralında III Qustav Amsterdamda 600 min reyxstaller borc alaraq həvəslə hərbi dəniz donanması və ordunun yürüşə hazırlıq işlərinə başladı. İsveç qanunlarına görə hökmdar parlamentin icazəsi olmadan müdafiə döyüşləri apara bilərdi, bunun üçün də birinci güllə Rusiya tərəfindən açılmalı idi. III Qustav sərhəd zonalarında bir neçə provokasiya yaratsa da, lazımi nəticəni ala bilmədi. Üstəlik də İsveç cəmiyyətində müharibə ərəfəsində gülünc vəziyyətə düşdü. III Qustavın teatra aludə olmasını və parlaq ekstravaqant jestləri xoşladığını hamı bilirdi. Monarxın göstərişilə İsveç süvari dəstəsini "rus kazakları" kimi geyindirib Finlandiyanın kiçik bir kəndinə hücuma keçməsini əmr etdilər. Dramatik səhnələr üçün tikilmiş və İsveç teatr dərzilərinin rus milli geyimləri barədə təsəvvürünü əks etdirən başgicəllədən geyimli qondarma kazaklar hətta hərdən rus ordusunun manevrlərini izləyən sərhədyanı kəndliləri də inandırmamışdı. Bu hadisənin Avropanın bütün saraylarında səs-küyə səbəb olmasına baxmayaraq, Qustav sakitləşmədi və daha bir neçə hücumlar təşkil etdi. İyunun 26-da isveçlilər müharıbə elan etmədən Neyşlota basqın etdilər. İmperatriçə yazırdı: "Sonda gülən yaxşı gülür. Ədalət, düzgünlük, həqiqət bizim tərəfimizdədir". Paytaxt əhalisini həvəsləndirmək üçün o, Sarski Selodan Peterburqa gəldi.

İyulun 1-də İsveç səfirliyinin katibi vitse-kanslerə yeni sülh bağlanması şərtilə III Qustavın notasını təqdim etdi. Rusiya İsveçə özünün Finlandiya və Kareliyadakı hissələrini, Türkiyəyə isə Krımı və 1768-ci ildən yiyələndiyi bütün torpaq-

ları verməli idi. Bundan başqa Yekaterinadan İstanbula ilə sülh bağlanılmasında İsveç şərikliyini vəzifə kimi qəbul etməsi, öz donanmasını silahsızlaşdırmaq, ordusunu sərhəddən çəkmək və İsveçə Rusiya-Türkiyə sülh müqaviləsinin imzalanmasına qədər silahlı qalmasına imkan vermək tələb olunurdu.

İsveç notasının nüsxəsini Yekaterina Potyomkinə göndərir. O, III Qustav haqqında yazırdı: "Öz Finlandiyadakı ordusuna və isveçlilərə bildirilib ki, XII Karlın başladığı işi sona çatdırmaq niyyətindədir... İndi bizim aramızda Allah hakimdir." İsveç hökmdarı Peterburqa girməyi, Pyotrun heykəlini yıxmağı, Yekaterinaya taxtdan düşürməyi, Peterqofda öz saray xanımlarına səhər yeməyi verib, Petropavlovsk kilsəsində lüteran ibadətində olmağı vəd edirdi.

İsveç tərəfi üçün ilk addımlar uğursuz oldu. Neyşlotu ələ keçirə bilmədilər. İyulun 6-da Qohland yaxınlığındakı döyüşdən sonra İsveç donanması məcburən geri Sveaborq limanına çəkildi və orada admiral S.K.Qreyqin komandanlıq etdiyi rus eskadrasının mühasirəsinə düşdü. Bununla belə ruhdan düşməyən Qustav Qohland döyüşünü isveçlilərin qələbəsi kimi elan etdi və paytaxt sakinlərini ruhlandırmaq üçün Stokholmda Allaha təşəkkür ibadətilə qeyd etməyə göstəriş verdi. Rusiya tərəfindəki şadyanalıq da həmin məqsədi güdürdü. Peterburqda isə türklərl üzərində əldə edilmiş qələbə qeyd olunurdu. İyulun 16-da Dnepr limanındaki döyüşdən qənimət kimi alınan türk bayraqları Peterburqa gətirildi. Paytaxtın küçələrilə Petropavlovsk qəsrinə Oçakovo divarları altında darmadağın edilmiş 15 iri və 30 bir qədər kiçik türk gəmilərinin 45 bayrağını gətirdilər. "Bu gün qənimətlər Petropavlosk kilsəsinə təntənə ilə gətirildilər və əhvalımız aşağı olmasa da, bunlar xalqın ruhlanmasına xidmət edəcək. İndi Peterburq hərbi düşərgəyə bənzəyir, mənsə onun rəhbəriyəm"( O. Eliseyeva, II Yekaterina.Moskva Astrel .2008) – bu sozlərlə Yekaterina bayram edirdi.

Baltika əməliyyatları Peterburqa elə yaxın aparılırdı ki, top atəşləri şəhərdə eşidilirdi. Yekaterina gecələri yata bilmir, Bezborodko isə göz yaşı axıdırdı. İyunun əvvəlində İsveç donanması Beryozovıy Zundda mühasirəyə alınmışdı. İmperatriçə knyaz Potyomkinə yazırdı: "Onlar bizim dəniz donanmamız tərəfindən mühasirəyə alınıblar. İlahi kömək olsa, onlar bu tələdən qurtula bilməyəcəklər" (O. Eliseyeva, II Yekaterina. Moskva Astrel .2008). Rus eskedrasının sıx mühasirəsindən çıxmağa cəhd göstərərkən isveçlilər 7 xətt gəmisi, 2 freqat itirmişlər. Yekaterina sevinclə yazırdı: "Beş minə yaxın əsir, səkkiz yüz top, xırda gəmilər barədə hələ məlumat belə yoxdur" (O. Eliseyeva, II Yekaterina.Moskva Astrel .2008). Lakin bu qələbədən sonra rus donanması uğursuzluğa düçar oldu. Eskadra komandanı, şahzadə K.Q. Nassau-Zigen Yekaterinanın taxta çıxmasının ildönümü münasibətilə iyunun 28-də isveçlilərə həlledici zərbə vurmağı söz versə də, özü tamamilə darmadağın edildi. Nassau istefa üçün yalvararaq, bütün ordenlərini imperatriçəyə qaytardı. Artıq İsveçlə sülh bağlandıqdan sonra Yekaterina Potyomkinlə bölüşürdü: "Mən özünün hərbi məhkəmədə mühakimə olunmasını xahiş edən Nassauya yazmışam ki, o, artıq mənim fikirlərimdə mühakimə olunmuşdur və yadımdadır ki, neçə doyüşdə o, imperiyanın düşmənlərini məhv edib. Ruhdan düşməkdən pis şey ola bilməz, bir bədbəxtlikdə mətinlik ruhu görünür" (O. Eliseyeva, II Yekaterina.Moskva Astrel .2008) İmperatriçə ümidsizliyə qapılan admiralı ruhlandıra bilmişdi: "Kim həyatında uğursuzluğa düçar olmayıb ki? Mərhum Prussiya hökmdarı ən böyük uğursuzluğundan sonra da həqiqətən dahi idi. Hamı hər şeyin məğlub olduğunu hesab etdiyi bir vaxtda o, düşmən üzərində qələbə çaldı" (O. Eliseyeva, II Yekaterina.Moskva Astrel .2008) .

Yekaterina haqlı idi. Növbəti əməliyyatlarda Nassaunu uğur müşayiət edirdi ki, bunun da sülhə çox böyük köməyi dəydi.

Yayın sonlarında dənizdəki uğursuzluq və İsveçdəki müharibənin nəticəsizliyi III Qustavın vəziyyətini xeyli pisləşdirdi. Fin və isveç zabitləri Anyala kəndində seym çağırılmasını tələb edən konfederasıya yaradaraq üsyana qalxdılar. İsvec parlamentidə - Riksdaq da onlara səs verdi. Yekaterina konfederatlardan Rusiya ilə sülhün bərqərar olunması istəyini elan edən müraciət aldı. Cani əlindən ölümünü gözləyən III Qustav özünü əsir hiss etdiyi düşərgəsindən və xain rəiyyətindən qaçıb, düşmən tərəfdə özünə sığınacaq axtarmağa hazır idi. Lakin imperatriçə sülhə olan ümidlərini qanadlanmağa qoymurdu. "İsveç hökmdarı bütün dövlətlərə üz tutaraq xahiş edir ki, bizi onunla barışdırsınlar, ancaq Avropanın maraqları bu işə qarışarsa, burda nə sülh ola bilər?" – deyə mülahizə edirdi. Öz ortaqlıqlarına Prussiya və İngiltərə təklif edirdi ki, danışıqları elə qursunlar ki, İsveç, Türkiyə və Polşa məsələlərini bir-birinə calasınlar.

Avqustun 3-də Vereldə Rusiya ilə İsveç ovtaqsız sülh müqaviləsi imzaladılar. Danışıqların son mərhələsi Verel çölündə iki qabaqcıl post və bir-birinə tuşlanmış top arasında keçirildi. İsveç tərəfindən hər hansı tələb əlavə olunardısa, Rusiya nümayəndəsi baron İgelstrom, əlini qılıncına ataraq rus qoşunlarının arasına girdi ki, döyüşə başlasın. Nəhayət hökmdar təslim oldu, müqavilə imzalandı, vəkil olunmuşlar sənədləri bir-birinə təqdim etdilər. 1789-cu ilin payızında rus ordusunun Salçe çayı üzərində, Hacıbəyin, Palankanın, Akkermanın, Belqrad-Dnestrin, Benderin alınması kimi bir neçə qələbəsindən sonra Osmanlının hakimiyyət dairələrində ciddi olaraq sülh barəsində danışmağa başladılar. Hətta türklər Bulqakovu Yeddiqüllə qalasından azad etdilər. Danıışıqlar ərəfəsində Prussiya təşviqatını ciddi dərəcədə sultana təsir etdi və türklərlə ruslar arasında sülh baş tutmadı. II Fridrix Vilhelm Polşanı Rusiyaya hücuma təhrik etməkdə davam edir və Smolenskdən Kiyevə qədər ərazilərinin qaytarılacağını vəd

edirdi, özü üçün isə geniş Baltik ticarətilə Dansiq və Tornu tələb edirdi.

Məhz bu şəraitdə "Polşa haqqında" layihə yarandı. "Onu parçalamasaydıq yaxşı olardı. Amma əgər parçalanıbsa, onda tamamilə məhv edilməliydi, çünki onların bizə olan kini heç vaxt ölməyəcək." Potyomkin Ukraynada pravoslav əhalini üsyana qaldırmağı təklif edirdi: "Onlar hamısı əvvəlki vəziyyətlərini qaytarmaq istəyirlər, öz sərkərdələrinin tabeliyindəki kimi. İndi də hamısı Rusiyadan kömək gözləyir" (O. Eliseyeva, II Yekaterina.Moskva Astrel .2008) Potyomkin təklif edirdi ki, əgər Prussiya Polşanın Baltik torpaqlarını ələ keçirərək təzə parçalanmaya başlasa, və Avstriya da Volına yiyələnərək ona qoşulsa, onda rus qoşunlarını Braslavskoye, Kiyev və Podolsk voyevodalığına, "əhalinin hamısının rus və bizim qanunların olduğu yerə" yeritmək lazımdır. Bu zaman Polşa Tacının toxunulmazlığı şərti də irəli sürülməli idi.

1790-cı il yanvarın 10-da Yekaterina Potyomkini xəbərdar edir ki, Fridrix Vilhelm "yazda polşalılarla birgə bizim ərazilərimizə hücum etməyi qərara alıb. Düşmənlərə göstərmək lazımdır ki, vətənimizin müdafiəsinə hazırıq". Fevralın 13-də Prussiya hökmdarı nəhayət "cənab parlamentarilərə" Polşa hakimiyyətindən Dansiq və Tornu yiyələnmək istəyini birbaşa bəyan edir. Polşanın ticarət şəhərləri onun Rusiya ilə gələcək müharibəsində maliyyə və hərbi yardımın əvəzində Prussiyaya verilməli idi. Prussiya-Polşa müdafiə ittifaqı 1790-cı il martın 29-da bağlandı.

Türkiyənin sərhədyanı şəhəri Sistovda isə Prussiyanın təşəbbüsü ilə Prussiya, İngiltərə, Hollandiya, Avstriya və Türkiyə nümayəndələrindən ibarət sülh danışıqları üçün konqres toplanmışdı. Rusiyaya məğlub olmuş Türkiyə faktiki olaraq, arxasında güclü Avropanın dəstəyini hiss edərək, müharibənin əvvəlindən fərqli olaraq tələblərində heç bir

güzəştə razılıq vermirdi. Bu şəraitdə Potyomkin Rusiyaya diplomatik təzyiq göstərilməsi üçün çağırılan konqresi saymamaq niyyətində idi. Əsl cavab Rusiyanın gücünü nümayiş etdirən mühüm hərbi qələbə ola bilərdi. Ona görə də Potyomkin A.V.Suvorovun Türkiyənin Dunay mənsəbində daha güclü qalası, Osmanlı imperiyasının əzəmət rəmzi olan İzmailə hücum təklifinə razılıq verdi. 1790-cı il dekabrın 11-də o vaxt üçün daha çox qurbanlar verildiyi hesab olunan (hər iki tərəfdən 4 min ölən və yaralananlarla) İzmailin ələ keçirilməsi, siyasi qüvvələrin yerbəyer olmalarına çox ciddi dəyişikliklər gətirdi. Sistov konqresi məcburən öz iclaslarını dayandırdı.

Həmin vaxtda isə Polşada dövlət getmanı İqnati Pototskinin başçılıq etdiyi partiya yeni konstitusiyanın layihəsini hazırladı. Bu mühüm sənəd Polşa taxtının irsi elan edilməsi və Sakson kurfürstünün varis təyin edilməsini nəzərdə tuturdu. Yeni konstitusiya təntənə ilə 1791-ci il mayın 3-də elan olundu. Siyasi islahat səs azlığı şəraitində qəbul edilmişdi. Seymdə 157 deputat iştirak edirdi, 327 nəfər isə yox idi. Bu şəraitdə Rusiya öz konfederasiyasını yaradaraq nəzərdə tutduğu plana uyğun addım ata bilərdi.

Potyomkin İzmaili məğlub etdikdən sonra yaz və yay aylarını Peterburqda Osmanlı imperiyasının Avropa hamilərilə məxfi danışıqlara başladı. İyulun 11-də Böyük Britaniya və Prussiya səfirləri imperatriçəyə öz hökmdarları adından Osmanlı Türkiyəsi ilə sülh bağlanmasında Rusiyanın Oçakovo və Dnestr torpaqlarının qaytarılması, eləcə də Rusiyanın Krıma şərtsiz yiyələnməsi şərtlərini qəbul etdikləri barədə notanı təqdim etdilər. Belə alınırdı ki, Rusiyaya irimiqyaslı hücum, onunla birlikdə Polşanın yenidən parçalanması kabusu qeyb oldu. Potyomkin Çarskoe Selonu tərk edərək, ordunu cənuba göndərdi. 1791-ci il oktyabrın 5-də isə hazir sülh danışığını imzalamağa çatdırmayaraq vəfat etdi. Bu çətin işi A.A. Bez-

borodko başa vurdu. Lakin sonrakı hadisələr heç də knyazın arzuladığı kimi inkişaf etmədi.

Onun Polşaya aid fəlakətli vəziyyətdən çıxış yolu kimi qeyd etdiyi fəaliyyət planı sonrakı, 1792-ci ildə həyata keçirildi və Reçi Pospolitoyun ikinci dəfə parçalanmasına gətirdi. Polşa konstitusiyasının düşmənləri mayın 3-də Rus ordusunun Polşa ərazisinə daxil olmasını rəsmi çağırışla dəstəkləyərək Torqovits konfederasiyasını təşkil etdilər. Prussiya da geri qalmayaraq Varşava təfədaşlarına vəd etdiyi kimi Polşa islahatını müdafiə üçün deyil, Poznan və Silezi ilə sərhədyanı torpaqları qəsb etmək üçün öz ordusunu yeritdi. Rusiya Volın, Podoliya və Litvanın bir hissəsini ələ keçirdi. 1793-cü ilin avqustunda Yekaterina qraf İ.Q.Çernışevskiyə yazırdı: "Siz məni Rusiyanın beşiyi, yəni imperiyaya üç gözəl və çox əhalisi olan quberniyaların birləşdirilməsi münasibətilə, təbrik etmirsinizmi?"

Lakin keçmiş düşmənin həyatına son qoyulmamış Polşanın ikinci dəfə parçalanması cəmiyyətin elə qüvvələrini hərəkətə gətirdi ki, Yekaterinanın sözlərinə görə Tadeuş Kostyuşkonun "yakobinlərin həqiqi üsyan bayrağını" qaldırmış oldu. İkinci parçalanma da Potyomkinin təklif etdiyi planı tam həyata keçirmədi. Bu sənədin əsas ideyası Reçi Pospolitoydan Polşa dövlətinə daxil olmayan, polşa sakinləri və katolik əhalisi məskunlaşmayan bütün torpaqların alınmasını təşkil edirdi. Lakin bu iş baş tutmadı. 1795-ci ilin əvvəllərində Suvorovun komandanlığı altında ordu Varşavanı ələ keçirdikdən sonra, Avstriya və Rusiya üçüncü parçalanmanın şərtlərini həll etdilər. Həmin ilin oktyabrında isə Prussiya ilə müqavilə imzalandı. Üçüncü parçalanmaya görə Rusiya Litvanın qalan hissəsini, Nemanla Buqanın yuxarı axarı arasındaki ərazini, eləcə də Kurlyandiyanı aldı. Avstriyaya Krakov, Sandomir və Lyublin voyevodalığı, Prussiyaya isə Polşanın qalan hissəsi çatdı.

Yekaterina Polşa dövlətinə aid olan torpaqların bir qarışına belə toxunmadığını əsas gətirərək Polşa şahzadəsi titulunu almaq təklifindən imtina etdı. Yekaterina yazırdı ki, Polşanın Rusiyaya birləşdirilən hissələri bir vaxtlar onun bir hissəsi, hətta rusların "beşiyi" idi. Lakin üçüncü parçalanma ilə Potyomkinin layihələrinin başlıca prinsipi pozulmuşdu. Rusiya imperiyası dövlət ərazilərini özünə götürməsə də, onları Avstriya və Prussiya ələ keçirdi. Xəritədə çox da böyük olmayan, zəif, ancaq etnik və dini baxımdan eyni olan Polşa ümumiyyətlə bir dovlət kimi mövcudluğunu itirdi.

Təmiz qanlı rus olmasa da, zəkası, istedadı və Rusiya qarşısında xidmətlərinə görə ömrü boyu Yekaterina tutduğu yerə layiq olduğunu sübut etməyə çalışırdı. O, dəfələrlə I Pyotrun işini davam etdirdiyini, özünü onun şagirdi hiss etdiyini qeyd edirdi. Bu həqiqətən də belə idi. Həm rəsmi, həm də şəxsi məktublaşmalarında imperatriçə keçmiş rus hökmdarlarını öz "əcdadları" adlandırırdı. Lakin bu onun taxtda qeyri-qanuniliyini gizlətmirdi. Taxt – tacda qalmaq üçün Yekaterinaya hərəkətlərinin ümumiliklə dəstəklənməsi vacib idi.

Taxtının laxlaması hissi Yekaterinanı ömrü boyu təqib edirdi. Məhz bu vəziyyət ona saray əyanları və ümumiyyətlə rus zadəganları cəmiyyəti ilə düzgün ünsiyyət tərzini tapmağa məcbur etdi. Hakimiyyəti itirmək qorxusu imperatriçəni dövlətin qüvvəsini artıraraq yorulmadan işləməyə məcbur edirdi. Qeyri-adi nəticəyə gəlmək olar: Yekaterinanın qızıl dövrünün kökləri taxtın qəsb edilməsində və hökmdarın hər gün hamıya və hər kəsə ona sahib olması ixtiyarını sübut etməyə can atmaqdan ibarət idi. Uğurlu hökmdarlıqda Yekaterina öz yaxın əməkdaşlarına, onların zəkasına, istedadlarına və təşəbbüskarlıqlarına borclu idi. İmperatriçə ilə birgə N.İ.Panin, Q.Q. və A.Q.Orlovlar, Y.R.Daşkova, İ.İ. Betskoy, P.A.Rumyansev, Q.A.Potyomkin, A.A. Bezborodko, A. R. və S .R.Voronsovlar, A.V.Suvorov və digər başqaları kimi bacarıqlı dövlət xadimləri

dəstəsi işləyirdi. Yekaterina yazırdı: "İnsanları tapmağa çalışın. Gözə yalnız dəyərsiz adamlar dəyir. Həqiqi ləyaqət daim ciddidir, o qıraqdan aşkar olunmasını gözləyir"( O. Eliseyeva, II Yekaterina.Moskva Astrel .2008).İşin xətrinə imperatriçə özünün xoşu gəlməsə də yanında xoşagəlməz əməkdaşlara dözürdü. O, 20 il onu taxtdan salmaq istəyən Nikita İvanoviç Paninlə çiyin-çiyinə işləmişdi. Bunu həm də Yekaterinanın "onların qulluqçu olmadıqlarını" və heç vaxt onu "sevmədiklərini" çox gözəl anlayaraq yüksək vəzifələrə çəkdiyi Voronsovlar ailəsinə aid etmək olar.

İnsanları idarə edərkən imperatriçə onların xasiyyətinin zəifliyindən deyil, güclü tərəfindən istifadə etməyə çalışırdı. Bununla yanaşı onların işgüzar ünsiyyətlərini özünə yönəltməyə, yəni işdə bir-birilə ciddi toqquşmaya imkan verməməsinə səy göstərirdi. Bu bir çox təfərdaşlarda imperatriçəyə daha çox yaxınlıq, təsirin üstünlüyü təzahürü yaradırdı. Ancaq həqiqətdə Yekaterinaya çox az adam təsir göstərə bilirdi.

Ahıl yaşlarında hökmdar yazırdı"( O. Eliseyeva, II Yekaterina.Moskva Astrel .2008): "Heç vaxt yaradıcı zəka sahibi olduğumu düşünməmişəm və özümdən qat-qat ağıllı saydığım adamlarla rastlaşmışam. Məni çox asanlıqla idarə etmək olardı, buna nail olmaq üçünsə, mənim ideyalarımdan daha əhəmiyyətli və daha əsaslısını təqdim etmək kifayətdir. Onda mən quzu kimi üzüyola oluram. Bunun səbəbi hər işin dövlətin xeyrinə olması üçün güclü istəyim idi.

Yekaterina bilirdi ki, onun bəzi əyanları xarıcı saraylardan vəsait alır. N.İ.Panin uzun illər Berlindən, sonradan isə A.A.Bezborodko, A.R.Voronsov, P.V.Zavadovski Venadan hədiyyələr alırdılar. 1780-1781-ci illərdə Potyomkinə Prussiya, Avstriya və İngiltərədən çox böyük rüşvətlər təklif olunurdu. Knyaz bu bəxşişlərdən imtina edirdi. İmperatriçə əmin idi ki, onun keçmiş sevgilisini "satın almaq mümkün deyil". Belə sadiqliyinə görə onu artıqlaması ilə mükafatlandırmağı bacarırdı.

O, "bunlar artıq oğurlayıb doyublar, təzə gələnlər isə hələ varlanmalıdılar" fikrinə üstünlük verərək çox böyük təmkin nümayiş etdirirdi. İmperatriçə xəzinə oğrularını iş başında tutmağı, hətta onlara öz narazılığını açıq bildirməyi çox nadir hallarda özünə rəva bilirdi. Onun cəmiyyət arasında narazılığı cəmi bir neçə dəfə baş vermişdi. Vladimirin rüşvətxor general-qubernatoru R.İ.Voronsovun ad gününə hökmdarın göndərdiyi olduqca uzun pul torbası yaddaqalan hadisə olmusdu. Bundan sonra məmur məcburən istefa vermiş və çox keçmədən deyilənlərə görə qüssədən vəfat etmişdir.

Bir başqa vaxt Kaluqadan keçərkən Yekaterina çovdar qıtlığı və unun qiymətinin qalxmasından xəbər tutur. Axşam general-qubernator M.N.Kreçetnikovun verdiyi ziyafət vaxtı hər cür təamlarla aşıb-daşan masa arxasından soruşur ki, nədən ev sahibi onu ən əziz nemət olan çovdar çörəyinə qonaq etmir və əsəbi halda zalı tərk edir. Bu addımlar məmurlara vətəndaşlarının qayğısına qalmamaqda həddini aşmamaq üçün edilirdi. Lakin xırda və gözə çarpmayan oğruluq hökmdarı özündən qəti surətdə çıxmağa qoymadı. Yekaterina özünə dünyanı düzəltməyə söz vermirdi, əsas o idi ki, büdcə dağılmasın və quberniyanın əhalisi müflisləşməsin. Belə razılıq həm onu, həm də məmurları razı salırdı. İmperatriçə və aparatı bir-birlərini yaxşı tapmışdılar: "Oğurla, ancaq həddini bil" – bu münasibətlərin şüarı ola bilərdi.

Mükafatlandırmaya gəldikdə isə o, çox səxavətli, hətta bədxərc idi. Hələ cavan yaşlarında onu pulun dəyərini bilməməyində qınayırdılar. İmperatriçə olandan sonra Yekaterina səxavəti prinsipə döndərdi. Özünə az xərcləyərək, sadə masaya üstünlük verib və adi geyimlərlə keçinərək özünə lazım olan adamları demək olar ki, hədiyyə yağışına tutur, döyüş meydanlarında qələbələrə görə əliaçıqlıqla mükafatlandırırdı. Bu

xoşa gəlməyə bilməzdi və seçilmək, mükafat almaq, şan-şöhrət qazanmaq, varlanmaq istəyənlərin ürəyini cəlb edirdi.

1774-cü ildə Türkiyə ilə Kiçik Qaynarca sülhü bağlanması münasibətilə feldmarşal P.A.Rumyansev tərifnamə, almaz əsa, brilyantla bəzədilmiş qılınc, qızıldan dəfnə çələng və zeytun budağı, almaz xaç və Müqəddəs Andrey Pervozvannıy ulduzu, 5 min can, evini inşa etdirmək üçün 100 min rubl, gümüş servis və rəsm əsərləri kolleksiyası almışdı.

Təsəvvür yaranır ki, Yekaterina səxavətliyi ilə ətrafdakıların sədaqətini satın alırdı. Xainlikdən çəkinərək, onları hədiyyələrə tuturdu. Bu cür narahatlığın da səbəbi yanında böyüyən oğlu Pavel idi.

II Yekaterinanın dövründə diplomatiyanın köhnə fəndlərindən sayılan yad ölkələrdə yaşayan pravoslav əhali arasında demoqoqik təşviqatdan xüsusilə geniş istifadə olundu. Çar diplomatiyası ilk dəfə olaraq, məhz Kiçik Qaynarca sülh müqaviləsinə Osmanlı imperiyası ərazisində yaşayan xristian əhalinin dini hüquqlarının qorunması ilə bağlı maddələr əlavə etmişdi. Yerli xristianları - yunan və erməniləri, - tatarların “zülmündən” qorumaq adı altında onların hamısı Azov dənizi sahillərinə köçürüldü.

Əslində II Yekaterina  I Pyotrun siyasətini davam etdirirdi. İmperatriçənin fikrinə görə hələ çox işlər gorülməli idi ki, beynəlxalq məsələlərdə Rusiyanın təsiri rəddedilməz olsun. O, yazırdı(O. Eliseyeva, II Yekaterina. Moskva Astrel .2008): "Xəzərlə Qara dənizi, o ikisini də Şimal dənizlərilə birləşdirib, Çinlə Şərqi Hindistanın ticarəti Türkistandan istiqamətləndirilməlidir. Bunun mənası imperiyanı əzəmətdə Asiya və Avropa imperiyaları arasından bir pillə də yuxarı yüksəltmək olardı".

Ona görədə  Yekaterinanın hakimiyyətinin əsas hissəsi və onun sevgilisi Potyomkin tərəfindən rəhbərlik edilən rus

diplomatiyasının bütün diqqəti türk probleminin həllinə və "yunan layihəsi" adlandırılan məsələnin həyata keçirilməsinə yönəldilmişdi. Burada söhbət artıq Osmanlı imperiyasının torpaqları hesabına ərazi genişləndirmələrindən getmirdi, ümumiyyətlə türklərin tamamilə Avropadan qovulması və imperator Konstantin Pavloviçin nəvəsini taxt-taca çıxarmaqla, Yunan imperiyasının bərpasına hesablanmışdı.

Rusiya Osmanlı ilə 1735-1739-cu illər müharibəsində qalib gələrək Belqrad 1768-1774-cü illər müharibəsində isə Kiçik Qaynarca sülh müqaviləsi bağlayaraq Qara dəniz sahillərində və Şimali Qafqazda mövqelərini möhkəmləndirdi.

Gürcüstan 1768-1774-cü illər rus-türk müharibəsi zamanı Rusiyanın fəal müttəfiqi kimi çıxış edirdi. Elə bu dövrdə II İrakli II Yekaterinaya protektorluq haqqında müraciət etsə də təklif cavabsız qalmışdı. Müharibədən sonra vəziyyət dəyişdi. Şərqə doğru irəliləyən Rusiya Gürcüstanda möhkəmlənməyə diqqəti artırdı. Ermənilərlə birgə gürcülər içərisində də Rusiya orientasiyası getdikcə güclənməyə başladı. Rusiya Gürcüstanla danışıqları davam etdirməyə başladı. Qr. Potyomkin (1739-1791) protektoratlığın şərtləri barədə danışıqlar üçün İraklinin yanına emissarlar göndərdi. II İrakli də 1782-ci ilin dekabrında Peterburqa elçilik yola saldı. Müqavilənin şərtləri haqqında danışıqlar bitdikdən sonra 1783-cü il iyulun 24-də Georgievsk qalasında (1777-ci ildə salınmışdı) imzalandı. Burada Rusiyanı general P.S.Potyomkin, II İraklini isə İ.K.Muxran-Batoni və G.R.Çarçavadze təmsil edirdi. Müqavilə 13 əsas, 4 separat artikul, II İraklinin Rusiya təbəəliyinə keçərkən qəbul etməli olduğu andın mətni və gürcü çarlarının taxta çıxmaq qaydasını müəyyən edən xüsusi maddədən ibarət idi. II İrakli müqaviləni 1784-cü il yanvarın 24-də ratifikasiya etdi. I Pavel və I Aleksandrın manifestləri ilə isə Şərqi Gürcüstan(1639-cu il Səfəvi-Osmanlı arasında bağlanmış Qəsri-Şirin müqaviləsinə görə Qərbi Gürcüstan Osmanlı dövlətinin, Şərqi Gürcüstan -

Kartli və Kaxetiya çarlıqları Səfəvilərin hakimiyyətinə keçmişdi, Nadir şahın ölümündən sonra (1747) Azərbaycan xanlıqları kimi gürcü çarlıqları da müstəqil oldu) Rusiyaya birləşdirildi.

## XVIII əsrin sonlarında Osmanlı daxili təlatümlərdən geosiyasi qüvvələrin yararlanması

Rusiya ilə müharibə zamanı Osmanlı imperiyası bütün hərbi qüdrətini və diqqətini Avropa səhnəsinə yönəltdi və bu səbəbdən Misirdə, o cümlədən də Ərəbistanda mövqeləri xeyli zəiflədi. Osmanlı imperiyasının düşdüyü vəziyyətdən və Sultanın Avropada məğlub olmasından yaralanan Qahirə hakimi Əli bəy, 1769-cu ildə Misirin İstanbuldan müstəqilliyini elan etdi. O, Hicazı da öz torpaqlarına birləşdirdi. Lakin Əli bəyin bu cəhdi uğur qazanmadı, belə ki, Əli bəyin qoşunları Sultanın nizami ordusu tərəfindən Hicazdan çıxarıldı və Hicaz Misirin tabeçiliyindən azad oldu.[54]

Müharibələr nəticəsində zəif düşən Osmanlı imperiyası, özünün əvvəlki qüdrətini günbəgün itirirdi. Bu zəifləmədə Avstriya və Fransanın Osmanlı imperiyası ilə bağladığı və Rusiyanın Avropa ekspansiyasının qarşısını almağa yönəlmiş avantürist müqavilə də az rol oynamamışdı. Türkləri Rusiyaya qarşı müharibəyə başlamağa bu iki ölkə təhrik etmişdi.

Rusiya ilə müharibə Ocmanlı imperiyasının hərbi qüd-rətini daha da zəiflətdi. Osmanlı imperiyasında mərkəzi hakimiyyətin zəifləməsindən istifadə edən Ərəbistandakı siyasi aktyorlar bu torpağları ələ keçirməyə girişdilər.

Ərəbistanda isə bu zaman, bir neçə il əvvəl coşqun Ərayar ibn Dücəynin başında durduğu həslər yenidən meydana çıxmışdılar.

Ərayarın toplarla silahlanmış qoşunları 1765-ci ilin əvvəlində Əd-Diriyə ətrafına gəldi. Bir çox nəcdlilər, o cümlədən Ər-Riyaddan Dəhham və Əl-Hərc əmiri Zeyd ibn Zamil də onlara qoşuldular. Lakin Əd-Diriyənin mühasirəsi uğursuzluğa düçar oldu.

Elə həmin ildə Məhəmməd ibn Səud vəfat etdi. Onun yerini Əbd əl-Əziz tutdu. İbn Qənnam və İbn Bişrin qeyd etdiklərinə görə, Əbd əl-Əziz təkcə taxt-tacın varisi deyildi, o həm də vəhhabilərin imamı idi. F.Manjenə görə Əd-Diriyə sakinləri onu “əmir” seçmişdi.[30]

1769/70-ci ildə Qasimin böyük hissəsi Səudların yeniləşdirilmiş dininə sadiq qalacaqlarına and içdilər. [31]

Onlara birləşdirilən hər bir vahəyə Əd-Diriyədən vəhhabi üləmaları göndərilirdi.Nəcd əhalisinin bir hissəsi Əd-Diriyəni təkcə əmirliyin güclü paytaxtı kimi deyil, həm də ruhani mərkəz olaraq görürdülər.

Hər tərəfdən vəhhabilərin müttəfiqləri ilə əhatələnmiş Ər-Riyadda çıxılmaz vəziyyət yaranmışdı. Ona görədə 1773-cu ilin yayında Diriyəlilər Ər-Riyada yaxınlaşanda şəhəri boş gördülər. Ər-Riyad əmiri ailəsi ilə birlikdə qaçmışdı.[32]

Ümumilikdə götürdükdə isə, bütün səylərə baxmayaraq, Səudlar müstəqil əmirlərin müqavimətini çox böyük çətinliklə qıra bilirdilər. Osmanlı imperiyasında mərkəzdənqaçma, pərakəndəlik özünü hələ də göstərirdi və təsadüfi deyil ki, Ər-Riyadın süqutundan sonra , Nəcd tamamilə Əd-Diriyənin hakimiyyəti altına keçdi. Amma halədə İstanbul hakimiyyəti Ərəbistan səhnəsində baş verən hadısələrə müdaxilə etmək iqtidarında deyildi.

Ər-Riyad birləşdirildikdən sonra Nəcddə Səudların əsas əleyhdarı Dilamın və bütün Əl-Həcin əmiri Zeyd ibn Zamil oldu. O, Əd-Diriyəlilərə qarşı mübarizəyə yenidən nəcranları

cəlb etməyə cəhd göstərirdi. Bu məqsədlə də o, Nəcran əmirinə müraciət edərək, mükafat müqabilində ondan hərbi kömək istədi. Nəcranlılar gəldilər, lakin onlar kömək əvəzinə pul qoparmağa və əl-Hərc əhalisini talan etməyə başladılar. Nəzərdə tutulan müttəfiqlik alınmadı. Zeyd ibn Zamil özünün Əd-Diriyəyə birləşdiyini elan etdi. Yeri gəlmişkən, az sonra onlarada xəyanət etdi.[33]

Banu-xalid tayfasının döyüşçüləri Ərayarın rəhbərliyi altında 70-ci illərin ortalarında Əl-İhsədən Nəcdə hücum edib, Buraydunu ələ keçirdilər, lakin Ərayar qəflətən vəfat etdi. Banu- xalid tayfasında hakimiyyət uğrunda mübarizə başladı. Bu mübarizədə Ərayarın oğullarından biri, Səadun qalib çıxdı.[34]

1782-ci ildə banu xalid, şəmmar və zafir köçəriləri Səadun ibn Ərəyarın başçılığı altında vəhhabiləri oradan qov-maq məqsədilə Qasimə hücum etdi. Zeyd ibn Zamil də öz qoşunu ilə onlara qoşuldu. Onlar bir neçə həftə Buraydunu mühasirədə saxladılar, amma müdafiəçilər əks-hücuma keçirdi-lər və düşməni qovdular. Anti-Əd-Diriyə koalisiyası parçalandı və həslər Nəcdi tərk etdilər.[35]

1783-cü ildə Zeyd ibn Zamil ölüdürüldü. Onun yerinə oğlu Bərraq Dilamın əmiri seçildi. Lakin hakim ailə daxi-lindəki çəkişmələr yeni əmirin vəziyyətini xeyli çətinləşdirirdi. Əd-Diriyəlilər düşmən qonşuların üzərinə hücuma keçdilər.[36]

1785-ci ildə Dilam hücumla alındı. Bütün Əl-Hərc Səudlara sadiqliq andı içdi. Əd-Diriyə hərbi rəisi Süleyman ibn Ufaysan Dilamın hakimi təyin edildi.[37]

Təxminən elə həmin illərdə Əl-Əflac və Əd-Dəvasir də Əd-Diriyəyə tabe oldular.[38]

Bununlada mərkəzi Ərəbistan torpaqlarının Əd-Diriyə ətrafında birləşməsi başa çatdırıldı.

Hakimiyyətin ümumi güclənməsi və Səudlar sülaləsinin nüfuzunun artması ona gətirib çıxardı ki, Əbd əl-Əziz əl Səud və İbn Əbd əl-Vəhhab 1788-ci ildə hələ Əbd əl-Əzizin özü sağkən Səud üçün taxt-taca nəsli varislik hüququnu təmin etdilər.İbn Əbd əl-Vəhhab Əd-Diriyənin şəhər və vilayətlərinin Səuda sadiqlik andı içmələrini təmin etməyi öz üzərinə götürdü. Səud onsuz da, hərbi uğurları və dövlət işlərinin həllində iştirakına görə çox məhşur idi.[39] Səudun taxt-tacın varisi elan edilməsi Səudlar sülaləsinin daha da möhkəmləndirməklə yanaşı, həm də hakimiyyətin ağrısız olaraq əmirdən onun oğluna keçməsini təmin etdi.

Mərkəzi Ərəbistanın resurslarına söykənən Əd-Diriyəlilər bütün istiqamətlərdə uğurla irəliləməyə başladılar: şərq və şimali-şərqdə - Əl-İhsə, Aşağı İraqa, qərbdə - Hicaza və Suriya sərhədlərinə doğru ərazilərini artırdılar.

1788-ci ilin payızında artıq banu - xalid tayfalarının bir sıra bölmələri də Əd-Diriyəlilər tərəfində vuruşurdular. Əd-Diriyəlilərin müttəfiqi Zeyd ibn Ərəyar bütün banu - xalid tayfalarının başçısı təyin edilmişdi. Lakin Əl-İhsə bütövlükdə hələ ki, ələ keçirilməmişdi.

1791/92-ci illərdə Səud Şərqi Ərəbistan vahələrini keçərək, Əl-Katifi ələ keçirdi.

Əl-İhsənin fəthinin qızğın çağında, 1792-ci ildə vəhhabilik hərəkatının banisi, din xadimi Məhəmməd ibn əl-Vəhhab vəfat etdi.[41] Əlbəttə o, öz dövrü və vəhabi təriqətinə inanlar üçün görkəmli insan idi. Belə ki, vəhabbiyönlü salnaməçi İbn Bişr yazır ki, "təriqət başçısı cihad bayrağını qaldırdı, ona qədər burada yalnız qiyam və qətllər baş verirdi"[42] (Halbuki islamda cihad kafirlərə qarşı qaldırılır-A.M). F.Manjen isə qeyd edirdi ki , "o, yüksək səviyyədə inandıra bilmək qabiliyyətinə malik idi ".[43]

Ölümündən sonra onun yerinə demək olar ki, görmə qabiliyyəti zəif olan oğlu Hüseyn, daha sonra isə digər oğlu Əli Əl-Diriyənin müftisi təyin edildilər.

1793-cü ilin payızında Səud böyük qoşunla Əl-İhsə istiqamətinə yürüş etdi.

Əbd əl-Əziz ibn Məhəmməd və oğlu Səud tərəfdarları ilə birlikdə 1796-cı ildə Əl-İhsəni tutdu. İbn Bişrin dediyinə görə, Əbd əl-Əziz ibn Məhəmməd sadə xalqın içindən çıxmış Nəcimə bu torpaqların əmiri təyin edildi.[44]

Hicazda isə gərgin daxili mübarizə gedirdi.

1752-ci ildən 1770-ci illərədək başçı olmuş şərif Mü-saidin hakimiyyəti elə də möhkəm deyildi. Onun hakimiy-yətinin sonlarında Məkkə üzərində şəhərin Osmanlı imperiyası tərkibində malik olduğu geniş muxtariyyəti itirmək təhlükəsi vardı.

70-ci illərin əvvəlində Əli İbn Əbd əl-Vəhhab və Əbd əl-Əziz Məkkə şərifi ilə yazışır və bir-birilərinə hədiyyələr göndərirdilər. 1773-cü ildə Sürur Məkkənin hakimi oldu, Əbd əl-Əziz dostluq niyyəti ilə ona qiymətli hədiyyələr göndərdi.[45]

Lakin çox keçmədi ki, Sürur vəfat etdi və onun yerinə 1778-ci ildə gənc Qalib ibn Müsaid Məkkəyə başçı seçildi.

Qalibin çox keçmədiki Nəcdə münasibətdə ilkin planları məlum oldu. 1790/91-ci ildə Məkkə başçısı Osmanlı sultanın göstərişi ilə Nəcdin üzərinə qardaşının komandanlığı altında iyirmiyədək topla silahlanmış on min nəfərlik qoşun göndərdi. Sonradan Qalib özü yürüşün başında durdu. Ancaq Nəcdin möhkəmləndirilmiş vahələrini ələ keçirmək cəhdləri baş tutmadı və şərifin müttəfiqləri olan bəzi bədəvi tayfaları da onu tərk etdilər. Qoşunun əsas hissəsi ilə o, yenidən Məkkəyə

döndü. 1791-ci ilin yayında Səud Cəbəl-Şəmmar yaxınlığında şərifin müttəfiqlərini ağır məğlubiyyətə uğratdı.

Elə həmin ilin yayında nəcdlilərin hücumuna cavab olaraq hicazlılar Nəcdin üzərinə qəza yürüşü təşkil etdilər. Bu basqın uğurlu alındıqdan sonra Qalib 1795/96-cı ilin qışında yeni ordu toplayaraq, onları toplarla təchiz etdi və Ərəbistan dərinliklərinə ekspedisiya göndərdi. Lakin bu ordu Əd-Diriyəyə tabe olan mütəyr, sübay, süxul, dəvasir, əcmən köçəri tayfaları və yəqin ki, bəzi ətayb bölmələrinin birləşmiş qüvvələri tərəfindən tamamilə darmadağın edildi.[46]

Əvvəllər Məkkə hakimlərinə tabe olan qüdrətli ətayb tayfaları 1797/98-ci ildə Diriyə əmirinə birləşdilər və vəh-habilik təriqətini qəbul etdilər.

1798-ci ildə Qalib tərkibi türk, misirli və məğribli ərəblərdən ibarət qoşunu ilə bir neçə dəfə Əl-Xurma və Bişi istiqamətlərində irəliləməyə cəhd göstərdi. Lakin onun qoşunu darmadağın edildi, bir neçə yüz nəfəri öldürüldü, bütün hərbi silah və sursat, eləcə də böyük məbləğdə pul nəcdlilərin(Əd-Diriyə) əlinə keçdi.

Diriyə əmiri Bişi üzərində nəzarəti ələ keçirdi. Məkkə hakimi onlarla sülh bağlamağa məcbur oldu və vəhhabilərə həcc ziyarətinə gəlməyə icazə verdi.[47] İbn Bişrin yazdığına görə iki ildən sonra Səud ailəsi qoşunu ilə birlikdə Məkkəyə ilk həcc ziyarətini etdi. Növbəti ildə yenidən ikinci dəfə Məkkəni ziyarətə gəldi. Orada o, səxavətlə hədiyyələr payladı. Ərəbistan səhnəsində bu baş verənlər yerli əhali arasında adı olan əslində isə özü omayan mərkəzi İstanbul hakimiyyətinə inamı azldaraq, Osmanlı imperiyasının baş verən proseslərə təsir etmək imkanlarının məhdud olduğunu göstərirdi.

Dağıdıcı Osmanlı-Səfəvi müharibələri, iğtişaşlar və daxili çəkişmələrdən sonra Bağdadda hakimiyyəti məmlüklər

ələ keçirdi. 1780-ci ildən buranı,gürcü əsilli məmlük Bağdad paşası Böyük Süleyman idarə edirdi. Əslində İstanbul onu həmin vəzifədə təsdiqləməyə məcbur qaldı. Osmanlı tərəfindən təyin edilən qeyri-türk mənşəli, yarımirsi monarxiya hakimiyyətdə o qədər möhkəmlənmişdi ki, 20 il ərzində sultan İraqa sanki hörmət qazanmış bir qonşu nəzərilə baxa bilərdi.[48] Türk sultanının regionda zəifləməsində maraqlı olan ingilislər, Bağdad paşasını müdafiə edir, ona dəstək verirdi.

Dünyada artıq yeni müstəmləkəçilik dövrü başlayırdı. Fransa və İngiltərə arasında ticarət və yeni müstəmləkələr sahəsində üstünlük uğrunda gedən mübarizə beynəlxalq siyasətin əsas məsələsi olaraq qalırdı. Nəhəng ölkə - Hindistan – XVII əsrdə Böyük Moğollar adlanan müsəlman sultanları tərəfindən birləşdirilmişdi. XVIII əsrin əvvəlində bu birlik parçalandı və ölkə avropalı işğalçıların hədəfinə çevrildi. Əvvəldə (40-cı illərdə) burada fransızlar daha böyük üstünlüyə malik idilər, lakin fransız hökuməti öz müstəmləkəçilərinə dəstək vermədi. Onlardan birini, Laburdonneni Bastiliyaya saldılar, digərini, enerjili və istedadlı təşkilatçı Jan Düpleni isə müəssisəsinin ən qızğın genişlənmə dövründə geri çağıraraq, məhkəməyə verdilər. Onun varisi Lalyi ingilislərlə qarşı mübarizədə dəstəksiz qaldı. Darmadağın edildikdən sonra o eşafota göndərildi. Bir sözlə, XV Lüdovikin hökuməti ənənəsinə sadiq qaldı, - tədbirsizliyini davam edirdi.İngilislərin Ost-Hind şirkəti isə əksinə, Hindistanda dövlətin təmsilçisi kimi çıxış edir və öz hökümətindən hər cür dəstək alaraq, uğurla fəaliyyət göstərirdi. Şirkətin prikazçiki, indiki dillə desək, meneceri, sonradan lord olmuş Klayv öz qələbələri ilə xüsusilə şöhrətlənmişdi. İngilislər Hindistanın hər iki sahillərində iri ticarət mətəqələrini (Qanqın mənsəbindəki Bombey, Mədrəs və Kəlküttə) ələ keçirdilər. Yerli knyazcıqlar (racə və sultanlar) öz hakimiyyətlərini qoruyub saxlasalar da, ingilislərin Ost-Hind şirkəti onlardan vergi toplanışını satın

alır, sonradan həmin vergilər əhalidən insafsızcasına yığılırdı. Beləliklə, racələrin gəlirləri şirkətin fəaliyyətindən asılı qalırdı.

Monarxiya Fransasının zəifləməsinə baxmayaraq, onunla İngiltərə arasında ticarət və müstəmləkə torpaqları uğrunda gedən mübarizə 1789-cu ilin sonlarına qədər beynəlxalq siyasətin əsas məsələsi olaraq qalırdı.

Ən sonunda Fransa İngiltərəyə güzəştə getməyə məcbur oldu.

Əslində məhz,bu ölkə 1778-1778 illərdə İspaniya ilə bahəm Birləşmiş Ştatlara müstəqillik qazanmaqda kömək göstərərək qismən uğurda əldə etmişdi.Ancaq ingilislər fransızları sıxışdıraraq bütün mövqelərinə sahib olurdular. Fransızların ingilislərin xeyrinə etdiyi ən böyük güzəşt isə 1786-cı ildə bağlanmış ticarət müqaviləsi idi. Bu müqavilə Britaniya manufakturalarında istehsal edilən məhsulların Fransaya geniş şəkildə girişini təmin etdi, buda fransız sənayesini sarsıtsa da, torpaq sahibi olan zadəganlar üçün əlverişli idi. Həmin illərdə İngiltərə ilə təkbaşına mübarizə aparmağa qadir olmayan Fransa, Rusiya ilə yaxınlaşmağa başladı. O Rusiyaya qarşı Türkiyəni dəstəkləməkdən əl çəkdi və 1787-ci il ticarət müqaviləsi ilə Rusiyanın Qara dəniz sahillərindəki yeni limanlarında ticarətdən gələn bütün faydaya sahib oldu. Nəhayət, fransız tacirləri Osmanlı imperiyasından Qırmızı dənizə çıxış əldə etdi, Misirdə və Hindistana gedən yollarda öz əməliyyatlarını genişləndirdi. Bu minvalla Fransa Yaxın Şərqdə ticarət sahəsində hegomonluğunu qoruyub saxlamağa müvəffəq olsa da, İngiltərə inadla bu vəziyyəti sarsıtmaqla məşğul idi.

Fransada inqilab başlayanda Rusiya və Avstriyanın 1788-ci ildə Osmanlı imperiyasına qarşı başladığları müharibənin qızğın çağı idi. Avstriya ordusu darmadağın edilmişdi. Lakin rus qoşunları uzun sürən mühasirədən sonra Oçakovu ələ keçirərək, böyük qələbə qazandılar. Ancaq mübarəzə hələ

yekunlaşmamışdı. Rusiya həmin vaxt şimalda İsveçlədə müharibə aparırdı. İngiltərə və Prussiya həm Osmanlı imperiyasına, həm də İsveçə hərtərəfli diplomatik dəstək göstərirdilər. Buna baxmayaraq, Fransa inqilabı çox tezliklə bütün beynəlxalq siyasətə öz həlledici təsirini göstərdi. İnqilab ölkələrə öz diqqətlərini uzun müddətə Şərqdən ayırıb, Avropaya yönəltməyə vadar etdi. Köhnə Avropa tarazlığı artıq pozulmuşdu. Fransız inqilabı beynəlxalq münasibətlərin inkişafında yeni dövr açmışdı .

Həmin dövrdə dünya siyasətində başlıca rolu iki ən güclü qüvvə - ingilis və rus diplomatiyası oynayırdı. İngiltərə xarici siyasətinə o vaxt Kiçik Uilyam Pitt rəhbərlik edirdi.

Rusiya diplomatiyası II Yekaterina və ona yaxın bir neçə nəfərin əlində cəmləşmişdi.(Əvvəlki bölmədə II Yekaterinadan geniş bəhs olunub-A.M )

Xüsusi diplomatik qabiliyyətlərə malik Yekaterinanın özü digər dövlətlərin maraq və istəklərini çox gözəl anlayırdı. Pitt kimi o da öz məqsədlərinə çatmaqda əlverişli məqamı seçmək üçün yetərincə soyuqqanlılıq, dözümlülük və möhkəmlik nümayiş etdirirdi. 1789-cu ildə onlar Şərq məsələsində Avstriya ilə ittifaqda hərəkət edərək, Osmanlı imperiyasını parçalamaq məqsədilə Qara dənizin Buq və Dnestrarası sahillərini ələ keçirmək barədə razılığa gəldilər. İngiltərə-Prussiya-Hollandiya liqasına qarşı nəzərdə tutduğu məqsədə çatmaq üçün İpmeratriçə II Yekaterina möhtəşəm plan düşünmüşdü. Bu, dörd böyük gücün, - Rusiya, Avstriya, Fransa və İspaniyanı birləşdirəcək ittifaq idi. İttifaqın yaradılmasıdan ötrü danışıqlar hələ 1787-ci ilin sonlarında Peterburqda və Parisdə başlamışdı. Fransız və rus diplomatları Osmanlı imperiyasını bölüşdürmək üçün razılığa gəldilər. Həmin plana görə Misir, Ərəbistan və Yunanıstan Osmanlı imperiyasından qoparılmalı idi.

Suvorovun türklər üzərində qələbəsi Rusiya və Avstriyaya 1789-cu ildə Moldaviya və Valaxiyanı ələ keçirməyə imkan verdi.

Osmanlı imperiyası ilə növbəti müharibə II Yekaterinanın əvvəldə düşündüyündən daha çətin oldu. Avstriya müharibədən çıxdı: onun dəstəyi olmadan Yekaterina türk torpaqlarını bölüşdürməklə bağlı planını gerşəkləşdirə bilmirdi. İndi o, yalnız Oçakova və Buq və Dnestr arasındakı çöllüyün bir hissəsinin Rusiyaya birləşdirilməsini tələb edirdi. Suvorovun qələbəsi - Dunayın mənsəbindəki möhtəşəm türk qalası İzmailin hücumla alınması türkləri bu şərtlərlə razılaşmağa vadar etdi. Lakin Pitt bunda bütün Qara dəniz hövzəsində və Misrirdə rus hökmranlığının bərqərar olması təhlükəsini görürdü. Belə olduqda inglislər İstanbulla yaxınlaşdılar ki, bu da rusların irəliləməsinin qarşısını aldı.

Osmanlı hakimiyyəti cənubdan ola biləcək işğaldan özünü qorumaq üçün 1798-ci ilin sonlarında Məkkəyə sultan fərmanı göndərdi, fransız qoşunlarının soxulma ehtimalına qarşı Hicaz şəhərlərinin möhkəmləndirilməsini Məkkə şərifindən tələb edirdi. Ciddənin divarları mıhkəmləndirildi, onun əhalisi isə hərbi hazırlıqlar keçməyə başladı.[49] 1798-ci ildə ingilis eskadrasının admiralı Blenket fransızların əlində olan Süveyşi bombardman etdi. Londonun İstanbulla əməkdaşlığı sultana Bağdad paşalığındakı laxlamış hakimiyyətini bərpa etməyədə imkan verdi.

90-cı illərin sonlarında Osmanlı imperiyası daima Bağdad paşasına vəhhabilərin kökünü kəsmək əmrini verirdi. Osmanlının yenidən güclənməsini görən Bağdad paşası Böyük Süleyman sultan iradəsinin tələm-tələsik icrasına başladı. Orduya Böyük Süleyman paşanın kahyası (köməkçisi) Əli rəhbər təyin edildi.

Bağdad paşası tərəfindən göndərilən on min nəfərlik ordunun tərkibində piyada, atlı qoşun növləri ilə yanaşı, eləcə də şəmmar, müntəfiq, zafirlər kimi bədəvi tayfalarından ibarət on min nəfərdən artıq qeyri-nizami dəstələri də iştirak edirdi. Hüfuf və digər vahələrin əhalisi Əli kahyanın mərhəmətinə sığınıb, ona təslim oldular. Qalalara çəkilən nəcdlilər (Əd-diriyalılar) isə bütün hücumları dəf edirdilər. Kut daha inadla müdafiə olunurdu. Nə toplar, nə mühasirə maşınları, nə də ki, lağımlar kömək edə bilmədi. Hücumçular ruhdan düşdü, geri çəkilməyə başlayan ordunu, Diriyəlilər təqib etməyə başladı. Əli, Səudla yazışaraq, onunla sülh müqaviləsi bağladı. Əslində Əli kahyanın uğursuzluğu əsgərlərinin ümumi ruh yüksəkliyinin aşağı olması ilə bağlı idi.

1802-ci ildə isə Səud ibn Əbd əl-Əzizin timsalında nəcdlillərin Kərbəlada qazandıqları qələbə, yaşlaşmış və gücünü itirmiş Böyük Süleyman paşa üçün ağır məğlubiyyət oldu.[50] Sultan müstəqil paşanı kənarlaşdırmaq üçün çoxdan məqam gözləyirdi. Böyük Süleymanın İraq daxilindəki çoxlu sayda gənc və enerjili əleyhdarları vəhhabilərin bu qələbəsindən ona qarşı istifadə etməkdə olduqca maraqlı idilər. İran şahı Fətəlinin şiələr üçün müqəddəs hesab edilən Kərbalanın paşa tərəfindən qoruna bilməməsi ilə bağlı daim olnu məzəmmət etməsi və Kərbəlaya öz qoşunlarını göndərəcəyi ilə hədələməsi paşanın vəziyyətini daha da ağırlaşdırırdı.[51] Osmanlı dövləti ilə Əfşarlılar dövləti arasında bağlanan Kürdan müqaviləsi(1746-cı il) bu dövlətlər arasındakı münasibətləri, xüsusilə Osmanlı hakimiyyət orqanları bütün Əfşarlılar dövlətinin zəvvarlarına kömək göstərməyi və onların Bağdad və Suriya vasitəsilə Məkkə yolunda təhlükəsizliyini təmin etməyi üzərinə götürürdü. Müqaviləyə görə Əfşarlılar dövlətinin zəvvarları müqəddəs şəhərlərə (Kərbəla və Nəcəf) də gedə bilərdilər. Əgər bu zəvvarlar özlərilə ticarət üçün mallar aparmırlarsa, qubernator və Bağdad hakim dairələri onlardan hər hansı vergi

və yığmalar almamalı idi. Əfşarilər ərazisindədə Osmanlının şiə və ələvi zəvvarlarına da eyni imtiyazlar verilirdi. Müqaviləni Osmanlı sultanı Mahmudun (1730-1754) adından Bağdad və Bəsrə hakimi Əhməd paşa, Əfşarlılar dövlətindəki keçmiş səfir Nazif əfəndi və Nadir şah adından onun vəziri Həsən Əli xan imzalamışdılar.Eyni zamanda Osmanlı hakimiyyət orqanları müqəddəs Kərbəladakı və Nəcəfdəki şiə oçağlarının qorunması öhdəliyinidə öz üzərinə götürmüşdülər.

1802-ci ilin avqustunda Böyük Süleyman canını tapşırar-tapşırmaz, nəşi hələ soyumamış, siyasi miras uğrunda ingilis və fransızların da bilavasitə iştirak etdiyi ölüm-dirim mübarizəsi başladı. Qohumu kəhya* (vali yanındakı köməkçi-katib) Əli rəqibləri üzərində qələbə qazanıb, paşanın yerini ələ keçirməyə nail oldu. O, hakimiyyətdə təqribən beş il qala bildi. Daxili çəkişmələr, xalq üsyanları və kürdlərin arasıkəsilməz hücumları paşalığı sarsıdırdı. 1807-ci ilin avqustunda Əli məsciddə doğrandı. Bir qədər sonra onun yerini Kiçik Süleyman tutdu və bu vəzifədə üç il qala bildi. Həmin illəri kürdlər və diriyəlilərlə müharibələrə həsr edən bu paşada 1810-cu ilin oktyabrında öldürüldü.

1804-1813-cü illər Avropa siyasi səhnəsindəki aktyorlar Qacarlar və Osmanlı dövlətinin Rusiyaya qarşı ittifaqının yaradılmasına xüsusi cəhd göstərirdilər. Xüsusən bunu İngiltərə istəyirdi. Rusiya qarşı bu ittifaqın əsaslarıda vardı.Ona görə ki, Rusiya Qafqazda işğalçılıq yürüşlərini davam etdirirdi. Rusiya Fətəli şaha zorla "Gülüstan sülhünü" sırımışdı. "Gülüstan sülh"ünün şərtlərinə görə, Qacarlar dövləti Gəncə, Qarabağ, Talış, Şəki, Şirvan, Bakı, Quba, Dərbənd xanlıqlarını, bütün Dağıstanı, Gürcüstanı və ona həmhüdüd olan ölkələri Rusiya dövlətinə verdi. Onlar haqqında hər cür iddiadan əl çəkirdi.Beləliklə, bütöv Azərbaycan iki yerə parçalandı.Abbasqulu ağa Bakıxanov isə həmin müqavilə

imzalanan vaxt Rusiya dövlətinin nümayəndə heyətinin tərkibində tərcüməçi vəzifəsini yerinə yetirirdi...

Əslində "Gülüstan" faciəsini yaradan əsas səbəblərdən biri Osmanlının zəifləməsi və daxilində baş verən təlatümlərə başının qarışması idi. Və həmçinin hər iki türk xaqanın bir olmaması! Azərbaycanı bu faciəyə gətirib çıxaran digər səbəblərdən biri də onun xanlıqlar biçimində olması idi. Azərbaycanı bir əldə birləşdirən güc, təəssüf ki, meydana çıxmadı. Üstəlik, xanlıqların balaca maraqları (tayfaçılıq, bölgəçilik, hakimiyyətçilik) ucbatından birlik alınmadı.

Azərbaycan "Gülüstan" adlı mənfur andlaşmaya birdən-birə gəlib çıxmadı. Heç bir faciə birdən-birə yaranmır. Artıq bir əsrə yaxın idi ki, Rusiyanın bu torpaqlarda gözü vardı.

Əslində "Gülüstan" növbəti "Türkmənçay sülh"nün faciəvi başlanğıcı oldu.

## Yaxın Şərqin ələ keçirilməsi

XVIII əsrin sonunda İngiltərə Hindistanda öz müstəmləkəçi ağalığını tam şəkildə bərqərar etdi. İngilislər Fars körfəzini öz ticatətləri üçün açıq və Hindistana təhlükə yarada biləcək istənilən dövlətin təsirindən kənar tutmağa can atırdılar. XVIII əsrin sonu, XIX-cu əsrin əvvəllərində ingilislər üçün ən böyük belə təhlükə mənbəyi hələdə Fransanı idi və 1798-ci ildə fransızların Misirə soxulmasını da onlar məhz köhnə təhlükənin yenidən baş qaldırması kimi dəyərləndirdilər. Fransızlar həqiqətən Hindistana can atırdılar və Misirdən də ora hücum üçün tramplin kimi istifadə etmək fikrindəydilər. Sonradan Misirdə məğlubiyyətə düçar olmaları da, fransızları Hindistana irəliləmək planlarından (yeri gəlmişkən, yetərincə problemli) çəkindirə bilməmişdi, indi onlar bunu məsələn, Suriya, İraq ərazisindən və Fars körfəzindən keçməklə reallaşdırmaq istəyirdilər. “Britaniya taxt-tacının incisi”nə uzaq ərazilərini nəzarətdə saxlamaq məsələsi olduqca mühüm əhəmiyyət kəsb edirdi.

1798-ci ildə İngiltərə Masqat hökmdarı ilə Fransaya qarşı müqavilə bağladı, amma həmin müqavilə Masqatın İngiltərədən asılılığınınn başlanğıcını qoydu. İki ildən sonra Masqata ingilis təmsilçisi təşrif buyurdu.

1797-ci ildə Taleyran Fransanın xarici işlər naziri təyin edildi. Hələ 1797-ci ilə qədər Taleyran güclü zəkaya, xüsusi diplomatik istedada malik, lakin eyni zamanda insani dəyərlərə qatı nifrət bəsləyən və mənəviyyat məsələlərində tamamilə etinasız olan bir insan kimi tanınmışdı. Taleyran mənsəbpərəstə, vəzifəpərəstə, yalnız öz mənfəətini güdən utanmaz yalançı və riyakara aid bütün xüsusiyyətlərə malik idi. Bütün bunlarla yanaşı, o həm də ağayana ədası ilə hər bir vəziyyətə və şəraitə uyğun hərəkət etməyi, intəhasız sakitlik nümayiş etdirməyi, lütfkar zadəgan kimi davranmağı bacarırdı. Nazir təyin edilən kimi Taleyran Fransanın Şərqdə və Şimali Afrikada yeni bazarlar əldə etmək ideyasının qızğın təbliğ etməyə başladı və Bonapartın Misir və Ərəbistana yürüşlərinin dəstəkləyiçisi kimi çıxış edərək, bunu fransız kapitalının maraqaları ilə əlaqələndirirdi.

Həqiqətəndə Bonapartın Misir yurüşünün uğurlu alınması, Fransanın Osmalı imperiyası üzərində ağalığına gətirib çıxara və rusların həmin bölgədə nüfuzuna qarşı maneə yarada bilərdimi? Rusiyanın Şərqdə nüfuzunu gücləndirməyi arzu edən Rusiya çarı Pavel özünə müttəfiqlər axtarmağa başladı. Sultanın Bonapartın Misir yürüşündən qorxuya düşməsi Rusiya və İngiltərəyə yaratdıqları koalisiyaya Osmanlı imperiyasını da cəlb etmək imkanı verdi. Avropa qeyri-adi mənzərənin şahidi oldu: Osmalı imperiyası və Rusiyanın Fransa Respublikasına qarşı itifaqı.

Direktoriyanı hakimiyyətdən kənarlaşdıran 18 brümer çevrilişindən sonra Bonapart ölkədə hərbi diktatura rejimi qurdu.

18 brümer çevrilişindən sonra Fransada diktatura hakimiyyəti qurmuş və həmin səlahiyyətləri 15 il ərzində öz əlində saxlaya bilmiş Napeolon Bonapartı bir çox müasirləri üçün böyük sərkərdəliklə yanaşı həm də dahi diplomat hesab

edilirdi. Bu keyfiyyət hələ 1796-97-ci illərdə ilk İtaliya yürüşü, Avstriyalılarla Leoben və Kampo-Formioda aparılan danışıqlarda, eləcə də məmlüklər, sonra isə türk nizami orduları ilə 1798-99-cu illərdə Misir və Suriyada gedən müharibələr zamanı özünü barız göstərmişdi.

Napoleon ilk olaraq öz qüvvələrini gücləndirmək üçün İngiltərə ilə sülh danışıqları aparırdı. Yarım ildən bir az artıq sürən bu danışıqlar Amyendə aparılırdı, və nəticədə isə 1 oktyabr 1801-ci ildə Londonda – "ilkin sülh" sazişi imzalandıqdan sonra, sanki Fransa ilə İngiltərə arasında düşmənçilik münasibətlərinə son qoyulurdu. Əslində Amyendə Napoleon və Taleyran İngiltərə ilə əlverişli sülh müqaviləsi bağlamağa nail oldular. Düzdür, Napoleon fransız qoşunlarının Misirdən evakuasiyasına və Misirin Osmanlı imperiyasına qaytarılmasına razılıq vermişdi. Ancaq bunun qarşılığında isə İngiltərə Seylon və Atlantik okeandakı Trinidad adası istisna olmaqla, özünün demək olar ki, bütün müstəmləkə torpaqlarından imtina etməli oldu.

XİX əsrin əvvəllərində ingilislər Osmanlı Ərəbistanında hökmranlıq etməyə can atırdılar. İlk dövrdə onların siyasəti Osmanlı Ərəbistanın daxili işlərinə fəal müdaxilənu nəzərdə tutmurdu. İngilislərin bunu gücü yetmirdi, çünki Fransa tərəfindən gözlənilən təhlükə onları bütün hərbi potensialı Avropada cəmləməyə vadar etmişdi.Əslində onlar rəqibi fransızları, ümumiyyətlə, Ərəbistan səhnəsindən uzaqlaşdırılmışdılar, lakin türk tarixçisi Cövdətə görə Napoleon Səudlar ilə əlaqə yaratmağa cəhd edə bilərdi, lakin Fransa Avropadakı hərbi əməliyyatlarla məşğul idi, 1810-cu ildə isə onlar Hind okeanındakı fransız hərbi donanmasının əsas bazası sayılan Mavrikiya adasını da itirdilər.

Ərəbistan daxilində isə Əd-Diriyalılar günü–gündən dahada güclənirdilər.Artık onlar Omana hərbi yürüşlər təşkil edirdilər. Onların Omana təsiri XIX-cu əsrin ikinci onilliyinin

əvvəlində, səudiyyəli hərbi rəis Mütləqə əl-Mütəyrinin zamanında özünün zirvə nöqtəsinə çatdı.

1803-cü il martın sonunda Səud diriyəlilərin əsas qüvvəsi ilə Hicaza yola düşdü. Həmin vaxt Məkkədə Suriya, Misir, Məğrib və Masqatdan olan silahlı zəvvarlar vardı.Məkkənin şərifi Qalibin xahişlərinə baxmayaraq, onlar vəhhabilərə qarşı hərbi əməliyyatlarda iştirak etməkdən boyun qaçırdılar. Tək qalan şərif özünə sadiq azsaylı döyüşçülərlə birlikdə Ciddəyə qaçaraq, oranı möhkəmləndirməyə başladı. Məkkə əhalisinə yazılı şəkildə müraciət gondərən Səud, vəhhabi baxışlarını ifadə etməklə yanaşı, müqavimət göstərməyənlərə mərhəmət də vəd edirdi. Onun adamları Məkkə əhalisinə deyirdilər ki, Səud bura şəxsən özü o məqsədlə gəlib ki, bədəvilərin özbaşınalıqlarının qarşısını alsın və müqəddəs şəhəri yerlə-yeksan edilməkdən qorusun.

1803-cü ilin aprelində vəhhabi təlimi ilə islamı dərk edənlər dini qaydalara riayət etməklə Məkkəyə daxil oldular.[52] Həcc mərasimini başa vurduqdan sonra onlar, memarlığı onların şərhlərinə uyğun gəlməyən bütün binaları yerlə-yeksan etdilər. Onlar Məkkə sakinlərinə müntəzəm olaraq namaz qılmaq əmri verdilər, ipək paltar geyməyi və insanlar arasında tütün çəkməyi isə qadağan etdilər. Qəlyanlardan çatılmış təpələr meydanlarda yandırıldı və tütün satışı qadağan edildi. Məscidlərdə sultana dua etmək ləğv edildi. Diriyəlilər Qalibin qardaşı Əbd əl-Müyini Məkkə valisi təyin etdilər. Türk hakiminin əvəzinə Məkkəyə diriyəli din xadimi qazı təyin edildi.

Avropalı şərqşünaslar guya Səudun türk sultanı III Səlimə göndərdiyi məktub haqqında məlumat verirlər. Onun mətni olduca maraqlıdır: "Səuddan-Səlimə. Mən Məkkəyə 1218-ci il Məhərrəm ayının dördüncü günü daxil oldum (26 aprel 1803-cü il - müəllif). Oranın əhalisinə sülh bəxş etdim. Bütpərəstliyə aid hər şeyi uçurdum. Qanunla tələb olunanlar-

dan başqa bütün vergiləri qadağan etdim. Mən sənin göndərdiyin qazıni Allahın Rəsulunun təlimlərinə uyğun təsdiq etdim. Mən istəyirəm ki, sən Dəməşq və Qahirə hakimlərinə müqəddəs şəhərə məhmeəl (müqəddəs hesab edilən təmtəraqla bəzədilmiş kəcavəli dəvə. -müəllif), zurna-kərənay və təbillərlələ yaxınlaşmağı qadağan etmək barədə əmr verəsən. Dinə bu lazım deyil. Qoy sülh və Allahın rəhəməti həmişə səninlə olsun”.[54]

Lakin bu özündən müştəbehlik Diriyə əmiri Əbd əl-Əzizi baha başa gəldi.

O, 1803-cü ilin payızında Turayf yaxınlığındakı məsciddə namaz qılarkən, Mosula yaxın kəndlərin birindən olan,özünü Osman adlı dərviş kimi təqdim edən kürd tərəfindən qətlə yetirildi. Dərviş sarayda qonaq kimi yaşayırdı. Namaz vaxtı Əbd əl-Əziz birinci səfdə səcdəyə gedərkən, həmin dərviş üçüncü səfdən onun üzərinə atılaraq xəncər zərbəsi ilə onu öldürdü. Sonra isə Əbd əl-Əzizin qardaşı Abdallahı yaraladı. Məsciddə qarma-qarışıqlıq yarandı, lakin yaralı Abdallah qatili qılınc ilə vura bildi, digərləri hücum edərək onu öldürdülər.[55]

Bu sui-qəsddə səudlar, onlar tərəfindən yenidən Məkkə şərifi təyin olunmuş Qalibdən şübhələnirdilər.Çünki O, Osmanlı sarayı ilə sıx əlaqədə idi.Ona görədə 1805/06-cı ilin qışında yeni əmir Səud qərara gəldi ki, Məkkə şərifi Qalibə son zərbəni endirsin. Bədəvilər Əbd əl-Vəhhab Əbi Nüqtə, Osman əl-Müdəyfi və Səlim ibn Şəhbanın (Bişi əmiri) rəhbərliyi altında Məkkəni mühasirəyə aldılar. Onlar Suriyadan gələn zəvvar karvanını şəhərə buraxmamaq əmri almışdılar. Bu dövrdə (1804/05-ci ildən 1809-cu ilədək) Ərəbistan dəhşətli quraqlıqdan əziyyət çəkirdi. Təhlükəsiz karvan yolları ilə Nəcdə həmişə ərzaqla dolu karvanlar gəlirdi ki, bu da yerli əhalinin vəziyyətini yüngülləşdirdi. Lakin mühasirədə saxlanılan Məkkədə vəziyyət dözülməz həddə çatmışdı.

Razılaşma tərəfdarları ilə haqq-hesab çəkmək cəhdi uğur gətirmədi və Qalib sülh istəməyə məcbur oldu. Diriyə qoşunları 1805-ci ilin oktyabr-noyabr aylarında Məkkəyə daxil olaraq həcc mərasimini icra etdilər.[56]

Bununlada Hicaz Səudlar dövlətinə birləşdirildi.Amma yenədə Məkkə şərifi öz geniş müstəqilliyini qoruyub saxlaya bildi, belə ki, həm onun özü, həm də rəiyyəti vergi ödəmirdilər.

İ.Burkxardın yazdığına görə, "Hicaz tamamilə işğal olunsa da, şərifin əlində hələ də böyük hakimiyyət qalırdı. Onun nüfuzu və fəxri vəzifəsi, Səudlara hələ də müqavimət göstərən bədəvi tayfalarına şəxsən təsir etmək imkanları, həcc ziyarətləri zamanı Səuda verdiyi qiymətli hədiyyələr də bu məsələdə öz işini görmüşdü, belə ki, vəhhabilərin başçısı Qalibin bəzi hərəkətlərinə göz yumurdu".[57] Məkkədə Səudun hakimiyyəti Qalibin nüfuzu ilə tarazlıq təşkil edirdi, Ciddə isə əsasən şərifin nəzarəti altında qalırdı. Qalibə əks-tarazlıq məqsədilə Ət-Taifə vali olaraq əl-Müdəyfi təyin edildi; ətrafdakı bir sıra köçəri tayfalar ona tabe idilər. Getdikcə Hicazda Səudun təsiri artır, Qalibin nüfuzu isə aşağı düşürdü.

Əd-Diriyəlilərin XIX-cu əsrin birinci onilliyinin əvvəlində başladığı hücumlar Hicaz və yarımadanın şimali-şərq hissəsindəki hərbi əməliyyatlarla məhdudlaşırdı. Onlar Bəhreyn də daxil Ərəbistanın bütün Fars körfəzi sahillərində nəzarəti tədricən öz əllərinə keçirdilər və getdikcə Omanın dərinliklərinə doğru irəliləməyə başladılar. Omana gəldikdə, oranın sakinləri iki qrupa, - ibadi əl-hinəvilərə və sünni əl-ğafirilərə bölünmüşdülər. Bu qruplar arasındakı mübarizə əsrlər boyu Omanın tarixini şərtləndirmiş oldu. 1792-ci ildə ibadi əl-hinəvilərin rəhbəri və imamı, 1744-ci ildə farsları Omandan qovub-çıxarmış Əhməd ibn Səydin oğullarından biri Sultan, Məsqətin hakimi təyin edildi. Lakin Sultan ibn Əhmədin ruhani lider və imam kimi qəbul olunmaması, onun hakimiyyətini

zəifldirdi. Onlar özlərini həm əl-hinəvilər və həm də əl-ğafirilərdən bir qədər kənar tuturdular.[58] 1801-ci ildə Sultan ibn Əhməd Bəhreynə qarşı yürüşə çıxdı. Bəhreyn sakinləri kömək üçün Əd-Diriyəyə müraciət etdilər. Məsqətlilər ağır itkilər verərək diriyəlilər tərəfindən Bəhreyindən qovuldular.[59]

1800/01-ci ildə məmlüklərindən biri olan - Salim əl-Hərkin rəhbərlik etdiyi Diriyə ordusu Əbd əl-Əzizin ibn Səudun göstırişi ilə  Omana uğurlu yürüş etdi. Qəvasim tayfasının mərkəzi olan, strateji cəhətdən mühüm şəhər və liman hesab edilən Ras-əl-Həymin başçısı Səkr vəhhabilərə sədaqət andı içdi. Fars körfəzi sahillərindəki digər kiçik şeyxliklər və əmirliklər də onların hakimiyyəti altına düşdülər.

Məsqət hakimi Sultan Əd-Diriyədən asılı vəziyyətə düşdü. Rəs-əl-Həymədən olan donanma ilə vuruşmada Oman Sultanı öldürüldü.

Onun Əd-Diriyədə sürgün həyatı yaşayan qohumu Səudilərin “xeyir –duası” ilə Bədr Məsqətə geri qayıtdı. O, hakimiyyətdə cəmi bir neçə il duruş gətirə bildi.

Öldürülmüş Sultan ibn Əhmədin oğulları 1807-ci ildə üsyan qaldıraraq, Bədri hakimiyyətdən kənarlaşdırdılar. Məsqətin yeni hökmdarları Səlim, daha sonra Səyd öncə Səudlara boyun əysələr də, sonra onlara vergi ödəməkdən imtina edib, hərbi əməliyyatlara hazırlaşmağa başladılar. Səudun Omana üləmalar qrupu göndərib vəhhabi təriqətini izah etmək səyləri yenə də müvəffəqiyyətsizliyə uğradı. Səyd İran şahına müraciət edərək ondan kömək istədi, o isə Omana cəmi bir neçə min nəfər əsgər göndərdi. 1808/09-cu ildə məsqətlilər Sühərədən olan müttəfiqləri ilə birlikdə Rəs-əl-Həyməyə qarşı hərbi əməliyyatlara başladılar. Lakin bir neçə min nəfəri itirdikdən sonra, Səudlara tabe olduqlarını bəyan etdilər.[60]

1808-ci ildə Dəməşq, Hələb və digər şəhərlərin şeyxlərinə məktub göndərən Səud, onlardan vəhhabi doktrinasının qəbulunu tələb etdi.

1810-cu ildə Səud bir neçə min nəfərlik qoşunla Suriyaya ailəvi yürüş edərək, demək olar, Dəməşqə qədər gəlib çıxdı. Bu onun şimal istiqamətində son böyük yürüşü oldu. XVIII-XİX əsrlərin hüdudunda Asir əd-Diriyəlilərə birləşdirildi. Bunun ardınca Əbu-Əriş əmirliyi də Əd-Diriyəyə tabe oldu.

Bütün bu proselər Osmanlı sultanlarının gözü qarşısında baş verirdi.Ancaq onların nə yetərincə gücləri, nə də hətta imperiya daxlində baş verən proseslərə təsir etmək imkanları vardı.

Mərkəzi hakimiyyətin bu zəifliyini görən və Sultana sədaqət andı içmiş yerli əmirlər tez bir zamanda əhdlərinə xilaf çıxaraq Səudlarla sıx əlaqələrə girirdilər. Məsələn hakimiyyəti Yəməndəki Tihamanın bir hissəsinə qədər yayılan Əbu-Əriş hakimi (şərifi) Həmud Əbu Mismar Səudlara qoşuldu və hətta Osmanlı sarayına bağlı Səna imamına qarşı döyüşlərdə də iştirak etdi.

Lakin Əbu Mısmarın rəqibi olan Asir hökmdarı Əbu Nüqtənin vəhhabizim bayrağı altına keçməsi onu çox narahat edirdi. İbn Bişrin bildirdiyinə görə, Səud hər iki rəqibi Əd-Diriyəyə çağıraraq onları barışdırmaq istəsə də, bu ona nəsib olmamışdı. Əbu Mismar tərəfindən qiyamın baş verəcəyini hiss edən Səud ona Səna üzərinə yürüşə getmək barədə əmr verdi, lakin Əbu-Əriş hakimi bundan imtina etdi.

Vəziyyəti belə görən Səud bütün Ərəbistandan döyüşçülər toplayaraq, bu məsələyə birdəfəlik son vermək qərarına gəldi. Əd-Diriyə qoşunlarının sayı 50 min nəfərə çatırdı. Əbu Mismar tərəfində Nəcrandan və Yəməndən olan köçərilər vuruşurdular. 1809-cu ilin sonlarında baş verən döyüşdə Səudilər

tərəfindən vuruşan Əbu Nüqtə öldürüldü. Lakin Əbu Mismarın ordusu da məğlubiyyətə düçar oldu. O öz paytaxtı Əbu-Ərişə qaçaraq burada möhkəmləndi. Əbu Nüktənin yerini Səudun göstərişi ilə, onun qohumu Tami ibn Şuayb təyin olundu.

## Rusiyanın Osmanlı siyasətində Məhəmməd Əli amili

Nəcdlilərin Məkkə və Mədinəni ələ keçirməsi türk sultanı III Səlimin nüfuzuna ciddi xələl gətirdi. Möminlərin xəlifəsi, “iki müqəddəs şəhərin xadimi”, öz təəbələrinin İslamın beş vacib şərtlərindən biri olan həcc ziyarətini yerinə yetirmələrini təmin edə bilmirdi.

III Səlim devrildikdən sonra, IV Mustafa Osmanlı imperiyasının yeni sultanı oldu.

Elə həmin vaxt Avropada Fransa Napoleonun başçılığı ilə günbəgün öz imperiyasının sərhədlərini genişləndirməkdə idi.

Napoleon mürəkkəb oyun aparırdı. 1806-cı ilin fevralında Pittin ölümündən sonra formalaşan İngiltərə Xarici İşlər Nazirliyi, artıq Napoleonla sülh danışıqlarına başlamaq arzusunu büruzə verirdi. Buna qədər isə İngiltərənin müttəfiqləri - Rusiya və Prussiya Londonla birlikdə Fransaya qarşı hərəkət edəcəkləri barədə razılaşmışdılar.

Diplomatik cəbhədə baş verən bu dəyişiklik Prussiya kralı III Fridrix Vilhelmi tamamilə çaşqın vəziyyətə saldı. O kömək üçün dərhal Aleksandra müraciət etdi. Rusiya çarı Aleksandr həmin andaca Napoleon ilə müharibə edəcəyi təqdirdə Prussiyaya hərbi kömək göndərəcəyini vəd etdi.

Oktyabrın 8-də müharibə başladı. Yen və Auerştedt yaxınlığında baş verən döyüşlərdə Prussiya ordusu darmadağın edildi. 27 (14) okyabr 1806-cı ildə Napoleon Berlinə daxil oldu. Prussiya məğlubiyyətin acısını yaşayırdı.Prussiyadakı rus ordusuna qalib gələn fransızlar, artıq Neman çayının sahillində dayanmışdılar.

Özünü bütün Avropanın ağası hiss edən Napoleonun Berlində gördüyü ilk işlərdən biri, onun xarici siyasətinin əsasını təşkil edən məşhur dekreti imzalaması oldu. 1806-cı il noyabrın 21-də dərc olunan həmin dekretdə Napoleon özünə tabe olan ölkələrə Britaniya adaları və İngiltərə koloniyaları ilə təkcə ticarət etməyi deyil, ümumiyyətlə, hər hansı əlaqə qurmağı qadağan edirdi. Dekretə görə, Napoleonun hakimiyyəti altında olan bütün Avropa ərazisində ingilis təəbələri dərhal həbs edilməli, ingilis malları isə müsadirə olunmalı idi.

Elə buna görədir ki, Tilzit çayı üzərindəki salda Aleksandr ilə ilk görüşündə Napoleonun: "Biz nəyin üstündə sizinlə vuruşuruq, hökmdar" sualına rus çarı tələm-tələsik: "Mən də sizin kimi ingilislərə nifrət edirəm və onlara qarşı görəcəyiniz bütün işlərdə, əlahəzrət, köməkçiniz olmağa hazıram" söyləmişdi. Napoleon cavabında: "Elə isə sülh bağlandı" demişdi. Beləliklə, Tilzit sülhü ilə bağlı danışıqlar başladı. Sülhün bütün detalları hər iki imperatorun təkbətək görüşündə ümümi şəkildə artıq cızılmışdı. Bu uzun çəkən təkbətək danışıqlara heç kim buraxılmamışdı. Bu xüsusda Napaleon "Mən sizin, siz də mənim katibim olarsınız, hökmdar", demişdi. Təbii ki, Napoleonun əsas məqsədi təkcə sülh yox, həm də Aleksandr ilə ittifaq bağlamaq idi. Belə bir ittifaq da bağlandı.

Tilzit razılaşmasına görə, Napoleon və Aleksandr üzərlərinə aşağıdakı öhdəlikləri götürürdülər: İngiltərəyə müharibə elan etməli və Osmanlı imperiyası bölünəcəyi təqdirdə Misir, Ərəbistan* (Məhz həmin vaxtda Ərəbistanda Səudların Əd-

Diriyə dövlətinin yaranmasına baxmayaraq, formal olaraq hökmdarlar bu regionu Osmanlı imperiyasının hissələri hesab etmək qərarına gəlmişdilər) və Osmanlı imperiyasının Qərb hissəsi Fransaya çatmalı idi. Balkanlar, Osmanlı imperiyasının Şərq hissəsi isə Rusiya tərəfindən işğal olunmalıydı. Müqavildə Avropa ilə bağlı bəzi öhdəliklər də nəzərdə tutulmuşdu.

Lakin, Napoleon məhz Osmanlı imperiyası ilə bağlı şözünün Tilzit bədlərini yerinə yetirməkdən qəti şəkildə boyun qaçırırdı. Aleksandr artıq 1806-cı ildən Osmanlı imperiyasına qarşı müharibə aparırdı. Uzun sürən rus-türk müharibəsində türklər, gizli və dolayı yollarla məhz Parisdən kömək alırdılar. Rus diplomatlarının, Tilzitdə Aleksandrla Napoleon arasındakı danışıqlarda "çar ondan başqa motivlər eşitmişdi" kimi şikayətləri Taleyrana çatanda, o, belə demişdi: "Diplomatiyada da musiqidə olduğu kimidir, əgər motiv nota salınmamışsa, onun heç bir əhəmiyyəti olmayacaq". Başqa sözlə desək, Aleksandra anlatdılar ki, Napoleon onu axmaq yerinə qoyub, müqavilədə əksini tapmayan vədlər verib.

Napoleon Rusiya ilə müharibə təqdirində, Rusiya ilə müharibə aparan Osmanlı imperiyasından və varis vəliəhd kimi Napoleonun keçmiş marşalı Karl Bernadott tərəfindən idarə olunan İsveçdən dəstək almaq ümidində idi. Lakin İV Mustafa da Fransa ilə ittifaqa qoşulmaqdan ehtiyat edir və düşünürdü ki, Napoleon qalib gəlsə, onun imperiyasını da Rusiyanın taleyi gözləyə bilər.

Təkcə görkəmli strateq deyil, həm də əla diplomat olan Rusiyanın hərbi naziri Kutuzov türk baş vəzirini məharətlə təşvişə salaraq, müharibə ərəfəsində, 1812-ci ilin mayında Osmanlı imperiyası ilə Rusiya üçün olduqca əlverişli olan şərtlərlə sülh müqaviləsi imzalamağa nail ola bildi. Bundan xəbər tutan Napoleon qəzəb içində demişdi ki, Osmanlı imperiyasını

bunca qeyri-ciddi adamların idarə etməsindən indiyədək xəbərsiz imiş.

Napoleon sonralar etiraf edirdi ki, o, Osmanlı imperiyası və İsveçin Fransa ilə birlikdə Rusiyaya qarşı müharibədə iştirak etməyəcəyini bilən andan gərək Rusiyaya ilə müharibədən imtina edəydi. Sonradan elə bu fakt Napoleonun məğlubiyyətinə gətirib çıxardı.

Hələ Osmanlı imperiyası ilə Rusiya arasında müharibə getdiyi vaxtda Misirdə həm türk canişinlərinə, həm də məmlük* (Məmlüklər – hakimin şəxsi qoşununu təşkil edən silahlı qullar. Ortaçağ Misirdə məmlüklər hakim hərbi təbəqə idi.) bəylərinə qarşı böyük üsyan qalxdı. Həmin vaxt türk ordusuna qoşulub, bu ordu ilə birlikdə Misirə gəlmiş milliyyətcə alban olan hərbi rəis Məhəmməd Əli buraya canişin təyin edilmişdi.

Əslində bu təyinatdan sonra Yaxın Şərqin tarixində yeni dövrün başlanğıcını qoydu.

Məhəmməd Əli iqtisadi dağıntı və gerilik içində olan Misirin tənəzzülünü dayandırmaq istəyirdi. Məmlük bəylərinin müqavimətini qırmaq üçün Məhəmməd Əli onlara qarşı despotların tipik metodlarına əl atdı. Onları özünün Qahirədəki sarayına ziyafətə dəvət edir, qonağlar bir yerə yığışdıqdan sonra qapıları bağlamaq əmri verdi və yeyib-içib xumarlanmış bəylərin hamısını öldürtdü.

Məhəmməd Əli Misirdə möhkəmləndikdən sonra, 1805-ci ildə Qahirənin paşası təyinatını almağa müvəffəq oldu, Sultan onun üzərinə müqəddəs şəhərləri vəhhabilərdən geri almaq öhdəliyini qoydu. Bir neçə il ərzində başı hakimiyyətini möhkəmləndirməyə, rəqibləri və məmlüklərlə mübarizəyə, Misirin ingilislərdən müdafiəsinə və daxili islahatlara qarışan paşanın, Ərəbistan məsələləri ilə məşğul olmağa vaxtı və gücü yetmirdi. Yalnız 1809-cu ilin sonlarında o, ciddi surətdə yürüşə hazırlaşmağa vaxt tapdı.[61]

Avropada gedən müharibə müvəqqəti də olsa, avropalı güclərin diqqətini Misirin işğalı məsələsindən yayındırdığndan, Ərəbistan yürüşü üçün əlverişli zəmin yaranmışdı. Rusiya ilə sülhdən sonra, Osmanlı imperiyası artıq Avropada gedən hərbi əməliyyatlarda iştirak etmirdi. Bu imperiyanın möhkəmləndirilməsinə imkan yaratmışdı. Kənardan dəstəyi olmayan Məhəmməd Əli özünü Osmanlının sözə qulaq asan vassalı kimi göstərməyə məcbur idi.

Yürüşə rəhbərlik Qahirə hökmdarının oğlu Tusuna həvalə edilmişdi. O zaman onun cəmi 16-18 yaşı olardı.[62]

Məkkə şərifi Qalibin dəstəyini əldə etməyə səy göstərən Məhəmməd Əli, onunla gizli yazışmaya başladı və şərif də ona kömək göstərəcəyini vəd etdi. Tusunun yürüşü ərəfəsində Qaliblə əlaqə saxlamaq, şəraiti yerindəcə araşdırmaq və köçəri tayfaların əhvali-ruhiyyəsini öyrənmək üçün Misirdən Hicaza kəşfiyyatçı göndərildi.

Türk, alban və məğribli muzdlulardan təşkil edilmiş Misir ordusu toplar da daxil pis silahlanmamışdı. Bir çox sərkərdələr fransız və ingilislərlə müharibələrdə döyüş təcrübəsi qazanmış və Avropa hərbi taktikasına yiyələnmişdilər. Lakin orduda nizam-intizam və döyüş ruhu elə də yüksək deyildi.

1811-ci ilin avqustunda qoşunların bir hissəsi Yanbo liman şəhərini ələ keçirmək məqsədilə dəniz yolu ilə Hicaz istiqamətinə yola düşdü, atlılardan ibarət qoşun isə Tusunun rəhbərliyi altında quru yolla həmin istiqamətə hərəkətə keçdi.

Misirlilərin dəniz desantı həmin ilin oktyabr ayında Yanbonu ələ keçirdi.

Səud Qahirədəki adamları vasitəsilə Məhəmməd Əlinin hərbi hazırlıqlarından xəbərdar idi. Görünür, elə buna görə də, Mədinənin ciddi şəkildə möhkəmləndirilməsi qayğısına qalırdı. Tusun Yanbonu ələ keçirdikdən sonra, Səud özünün ən yaxşı

döyüşçülərini cəmləşdirərək, oğlu Abdallahın başçılığı altında Hicaza gondərdi. Abdallahın 18 min nəfərlik ordusu, o cümlədən 600 atlı döyüşçüsü Yanbo ilə Mədinə arasındakı yolun yarısındakı Yəs-Safara vadisində mövqe tutaraq gözləməyə başladı.[63]

Həlledici döyüş 1811-ci ilin dekabrında baş verdi. Misirlilərin dostluq əlaqəsi qura bilmədikləri hərb bədəvilərini təqib edən Tusunun ordusu, Yəs-Safara vadisi istiqamətindəki dar dağ keçidindən içəri daxil olan kimi, gəlişindən xəbərsiz olduğu əd-diriyəlilərin seçmə ordusunun zərbələrinə tuş gəldi. 8 min nəfərdən ibarət Misir ordusu qaçmağa üz qoydu.

Əl-Cəbərti, məğlubəyyətin ilk anındaca Tusun ordusu əsgərlərinin özlərini necə apardıqlarını belə təsvir edir: "Aşağıda olan döyüşçülər qəfildən məğlub olan əsgərlərin dağdan aşağı düşdüklərini gördülər. Onların hamısı çadırlarını, hərbi sursat və yüklərini ataraq, zabitlərə məxsus vəzndə yüngül nələri varsa oğurlayıb özləri ilə götürüb, xilas olmaq üçün qaçmağa üz qoydular. Kim güclüydüsə, zəif düşən yoldaşının əmlakını ələ keçirirdi, mümkündür ki, ayağını yerdən üzmək üçün hətta zəif düşəni belə öldürüb onun miniyinə sahib çıxırdılar. Onlar Barayk sahillərində (Yanbo yaxınlığında liman – müəllif) dayanan gəmilərə üz tutdular, belə ki, gəmilərin bir hissəsi hər ehtimala qarşı hazır vəziyyətdə dayanmışdı. Onların ürəklərini qorxu hissi bürümüşdü. O qədər dağınıq və təlaş içində qaçırdılar ki, əgər onları təqib edən olsaydı, heç biri sağ qurtarmazdı. Dənizin sahilinə çatan əsgərlər qışqıraraq gəmiləri sahilə səslədilər. Kiçik gəmilərdən biri sahilə yan alan kimi, çoxlu sayda əsgər bir-birini itələyərək, ona minməyə başladılar. Gəmiyə qalxan kimi onlar, minmək istəyən digər yoldaşlarına mane olurdular, onlar geri çəkilmədikdə isə tüfəng və güllələr işə düşürdü".[64]

Məhəmməd Əliyə müxalif olan əl-əzharlıları təmsil edən Əl-Cəbərti Misir ordusunun məğlubiyyətini belə izah edirdi. "Onların mömin və dindar olan rəhbərlərindən bəziləri mənə deyirdilər ki, axı necə qalib gələ bilərdik ki, bizim əsgərlərimizin böyük hissəsi müxtəlif dinlərə sitayiş edirdilər, aralarında hətta dindən kənar olanlar da var idi. Onlar özləri ilə spirtli içkilərlə dolu yeşiklər aparır, bizim düşərgədə azan səsi (namaza çağırış – müəllif) eşidilmir, dini ayinlərə əməl olunmur, onların hətta bu ayinlər haqda, ümumiyyətlə, anlayışları belə yoxdur. Düşmənimiz isə namaz vaxtı yaxınlaşan kimi, dəstəmaz alır və azanın verilməsini gözləyir, sıra ilə dayanaraq müticəsinə imamın ardınca namaza başlayırdılar. Əgər namaz döyüş vaxtına təsadüf edirdisə, həyəcan içində "qorxu namazı" (qısaldılmış namaz – müəllif) qılır, növbə ilə ibadət edirdilər - bu zaman bir dəstə döyüşçü irəli atılaraq vuruşur, bu zaman digərləri namaz qılırdılar. Bizim əsgərlər buna təəccüblə baxırdılar, çünki bu barədə nə eşitmiş, nə də görmüşdülər. Vəhhabilər öz düşərgələrində qışqıraraq, "ey dinsizlər, üzlərini qırxanlar, içki içənlər, əxlaqsızlıqla məşğul olanlar, günah işlər görənlər, dua etməyi unudanlar, sələmçiliklə məşğul olanlar, siz qatillərsiniz, siz qadağan olunanlara əməl etməyənlərsiniz, bizimlə döyüşə çıxın" deyirdilər".[65]

1812-ci ilin payızında Tusun yenidən böyük qoşunla bu dəfə Mədinə istiqamətində hərəkət etdi və yolda müqavimətlə rastlaşmadan, oktyabr ayında Mədinəyə yaxınlaşdı.[66] Şəhəri Səudların yeddi min nəfərlik qarnizonu müdafiə edirdi. Lakin İbn Bişrin məlumatına görə, əsgərlərin çoxu xəstə idi.

Tusun şəhəri toplardan atəşə tutdu, top mərmiləri divarlarda dəliklər açdı və Mədinə şəhəri təslim oldu. F.Manjenin söylədiyinə görə, Misir əsgərləri özlərini ləyaqətli aparırdılar,[67] lakin bu kampaniya haqqında daha məlumatlı olan İ.Burkxarda

görə, yol boyu Tusunun əsgərləri vəhhabilərin bir çoxunu qarət edərək, qətlə yetirirdilər.[68]

Mədinə ağası Həsən misirlilərin tərəfinə keçsə də, həbs olundu və İstanbula göndərilib, orada edam edildi. Onun yerinə vaxtilə Misirdə əsir götürülmüş və sonralar İslamı qəbul etmiş şotlandiyalı Tomas Keys vali təyin edildi.[69]

Şərif Qalib isə ikili oyun oynayırdı. Vəhhabilərin məğlubiyyətinə Qalib çox sevinirdi və onların zülmünün misirlilər tərəfindən son qoyulacağına inanırdı, lakin Qahirə paşasının mövqeyinin Hicazda həddən ziyadə güclənməsi də, onun arzularına uyğun gəlmirdi. Qalib üçün ideal variant Misir və vəhhabi ordularının bir-biri ilə mübarizədə daha çox əzilməsi, gücdən düşməsi və Hicazda real hakimiyyətin yeni-dən onun özünə qayıtması ola bilərdi. Hadisələrin sonrakı inkişafı isə onu çox məyus etdi, ümidlərini doğrultmadı.

Hələlik isə 1812-ci ilin dekabrında son həcc ziyarətinə gəlmiş Səuda yenidən sədaqət and içdi,[70] bir tərəfdəndə Məkkə və Ciddəni qahirəli paşaya təhvil verməyə hazırlıq görməyə başladı. Bu zaman Məkkənin yaxınlığında Abdallah ibn Səud-un ordusu düşərgə salmışdı.

1813-cü ilin yanvarında misirlilərin elə də böyük olmayan dəstəsi Ciddəni döyüşsüz ələ keçirdi. Qalibin yerli qüvvələri tərəfindən ola biləcək hücum təhlükəsindən ehtiyat edən əmirin oğlu Abdallah ibn Səud,vəhhabi qarnizonunu Məkkədən çıxardı və öz ordusu ilə birlikdə Əl-Hürmaya çəkildi.

Müqəddəs şəhərlərin alınması şərəfinə Qahirədə böyük bayram və atəşfəşanlıq təşkil edildi, toplardan yaylım atəşləri açıldı. Məhəmməd Əlinin göndərdiyi nümayəndə Məkkə, Mədinə və Ciddənin açarlarını İstanbula çatdırdı. İstanbuldakı rus səfiri xəbər verirdi: "Osmanlı hökumətinin bütün üzvləri Əyyub məscidində açarları qəbul etdilər və buradan onları Saraya

Sultana apardılar. Elə həmin gün bu hadisəni bayram etmək üçün üç dəfə şəhərin bütün top batareyalarından, donanma və Qara dəniz boğazındakı toplardan atəşlər açıldı, fişənglər göyə yüksəldi. Bayram atəşfəşanlığı yeddi gün davam etdi".

Sultan Tusunu üçbonçuqlu paşa təyin etdi. Məhəmməd Əliyə və şərifə isə sultan bahalı hədiyyələr göndərdi.

1813-cü ilin yayında diriyəlilərin hərbi vəziyyəti getdikcə ağırlaşırdı: onların ordusu Omanda darmadağın edildi, orduya rəhbərlik edən Mütləq isə ölüdürüldü.[72]

1813-cü ilin payızında Məhəmməd Əli bir neçə min əsgərlə Ciddəyə gəldi.[73] Onu Qalib qarşıladı. Sonra birlikdə Məkkəyə yola düşdülər. Kəbədə bir-birlərinə dost olacaqları barədə əhd-peyman bağladılar.

Lakin 1813-cü ilin payızında hiyləgər paşa Məhəmməd Əli Qalibi guya sultanın əmri ilə həbs etdirdi. Məhəmməd Əli onu ölümlə təhdid edib, övladlarına müqavimət göstərməkdən imtina etmək barədə əmr verməyə məcbur etdi, sonra isə ailəsi ilə birlikdə Qahirəyə sürgünə göndərdi. Onun yerinə paşa Qalibin qohumu, özünün əlbuyruqçusu Yəhya ibn Süruru təyin etdi, şərifin 250 min funt strelinq dəyərində əmlakını - nağd pul, mebel, digər mallar, kofe, ədviyyatı isə öz xeyrinə müsadirə etdi.

Amma sonradan sultanın göstərişi ilə Qalibin əmlakının bir hissəsi ona qaytarıldı və o, Salonikə yerləşdi və bir neçə ildən sonra elə orada da vəfat etdi.[74]

Məhəmməd Əlinin Qalibi həbs etdirməsi Hicaz əhalisinin, ilk növbədə bədəvilərin narazılığına səbəb oldu, bir çox şərif ailələri diriyəlilərin yanına qaçaraq, vəhhabilər tərəfində müharibələrdə fəal iştirak etdilər. Şərifin cəsur hərbi rəisi Racih də onların sırasında idi. Qalibin qvardiyasının bir hissəsi də diriyəlilər tərəfinə keçdi.[75]

Məhəmməd Əli başa düşürdü ki, Ərəbistanda qəti qələbə qazanmasa, Misirdə onun hakimiyyəti laxlayacaq, bu səbəbdən də o, kampaniyanı davam etdirmək üçün fövqəladə və təcili tədbirələrə əl atdı. Misir kəndlilərinin üzərinə əlavə vergilər qoyuldu.[76] Əsas baza-anbar hesab olunan Ciddəyə yeni qüvvələr, silah-sursat, avadanlıq və ərzaq gətirildi.[77] Paşaya sədaqətli liviyalı bədəvilərdən ibarət bir neçə yüz atlı da köməyə gəldi. Səhra şəraitində hərbi əməliyyatlara vaqif olan olan bu atlılar Məhəmməd Əli üçün qiymətli yardım idi. Suriyadan satın alınmış və liviyalı bədəvilərin də özləri ilə gətirdiyi minlərlə dəvə, paşanın nəqliyyat sayını artırdı. O, həmçinin Məsqət imamı ilə döyüşçülərini daşımaq üçün gəmilər göndərməsi barədə də anlaşa bildi.[78]

1814-cü ilin yazında Diriyə əmiri və imamı Səudun ölümü[77] Misir hakimiyyətinə sərf edirdi. Səudun hakim kimi bacarıqları, hamı tərəfindən etiraf olunurdu.

İbn Bişr bir çox salnamələrdə və ərəb ədəbiyyatında onu ideal və müqəddəs bir şəxsiyyət kimi mədh etmiş, onu tərifləmək üçün xoş sözlərini əsirgəməmişdi. Salnaməçi bildirirdi ki, təəbələri onu çox sevirdilər. Səud uzun müddət İbn Əbd əl-Vəhhabın yanında tərbiyə almışdı.Quranıı və hədisləri yaxşı bilirdi.Təəbələrinə göndərdiyi məktublarda o, ilahiyyat sahəsindəki bilikləri ilə hamını heyran edir, fikir və düşüncələrini Quran və hədislərdən iqtibaslarla, görkəmli din xadimlərinin əsərlərinə istinad etməklə əsaslandırırdı. O günah işlərdən əl çəkməyi tövsiyə edir, hamını zina, böhtan, qeybət, yalan və sələmçilik kimi qadağan olunmuş işlərdən uzaq durmağa səsləyirdi. O, təvazökar olmaqla yanaşı, böyük ianələr edər, yaxınları ilə ünsiyyətdə də özünü çox sadə aparardı. O həqiqətən də çox məhşur idi.[79]

İbn Bişr, Səuda tabe olan ərazilər içərisində Əl-İhsə, Əl-Kətif, Bəhreyn, Oman, Əd-Dəvasir vadisi, Əl-Hərc, Asir, Bişu,

Rənu, Ət-Taif və Hicaz, Məkkə, Mədinə, Yanbo, Cəbəl-Şəmmər və Cauf, Südəyr, Qasim, Vəşm və Məhmələin adını çəkmişdir.

Səudun ölümünə yaxın bütün Hicaz, Oman, Bəhreyn və Tihamın bir hissəsi artıq itirilmişdi. Onun oğlu Abdallaha dağılmaqda olan bir dövlət miras qalmışdı.

1814-cü ilin sonları - 1815-ci ilin əvvəllərində diriyəlilər öz qoşunlarını Turaba yaxınlığındakı Bəsəli adlanan əraziyə topladılar. İbn Bişrə görə bu ordu 30 min, İ.Burkxardta görə isə 20 min nəfər təşkil edirdi. Qoşunun yarısından çoxunu Tami ibn Şuayb Asirdən gətirmişdi. Birləşmiş qoşunların başında Abdallahın qardaşı Feysəl durdu. 1815-ci ilin yanvarında döyüş baş verdi və Məhəmməd Əlinin ordusu bədəvilərlə ittifaqda qələbə qazandılar.

Bundan sonra paşanın qoşunları Turaba, Rənyə və Bişəni tutdular. Qırmızı dənizin sahillərinə çıxan misirlilər Kunfudəni də ələ keçirdilər. Asir başçısı Tami tutularaq paşaya verildi, Misirə, oradan isə İstanbula yola salındı və edam edildi.[80]

Abdallah öz qoşunu ilə Anayzda idi. Diriyəlilər Ər-Rəssa istiqamətində ayrı-ayrı basqınlar edib, Mədinədən çıxan karvanaların bir hissəsini ələ keçirirdilər. Tomas Keysin başçılıq etdiyi dəstə də belə bir pusquya düşərək, diriyəlilər tərəfindən məhv edildi.[81]

Misir ordusunun hərbi əməliyyatlar dəyişən uğurlarla 1815-ci ilin yayına qədər davam etdi.[82]

Amma get-gedə Tusunun vəziyyəti çətinləşmişdi. Hər iki tərəf sülh arzulayırdı. Barışıq haqqında razılaşma elə güclər arasında mövcud olan davamsız tarazlığı əks etdirən şərtlər əsasında baş tutdu.

Misirin Hicaz üzərində nəzarəti qurulduqdan sonra, Osmanlı imperiyasında Məhəmməd Əlinin nüfuzu xeyli artdı.

Hicazda qazandığı uğura görə paşa Sultan sarayından mükafat olaraq, Suriyanı tələb etməyə başladı, bununla bahəm onun üçün həm Hicazda və bütün Ərəbistanda möhkəmlənmək, həm də Səudlar dövlətinin sonuna çıxmaq mühüm məsələlərə çevrildi.[83]

Yeni yürüşə hazırlaşan ekspedisiyaya Məhəmməd Əlinin böyük oğlu İbrahim başçı təyin edildi.

Misirlilər Nəcdə-diriyaların ana vətəninə çoxsaylı qoşun göndərə bilmədilər. Lakin bu ordunun əsgərləri artıq altı il əvvəl Hicaza çıxarılmış əsgərlərdən fərqlənirdilər. Onlar qalaları düzgün mühasirə etməyi, qəfil hücumlardan qorunmaq üçün kiçik səngər-istehkamlar tikməyi bacarır, artileriyanı uğurla tətbiq edirdilər. İbrahimin yanında Napoleonun təlimatçıları, avropalı həkimlərdə var idi.[84]

1816-cı ilin payızında İbrahim böyük bir qüvvə ilə Mədinəyə gəldi. Misirdən isə ora yeni qoşunlar, ərzaq və silah-sursat daşınmaqda idi.

Bu arada köçəri tayfalar bir-birinin ardınca Abdallah ibn Səudu tərk edirdilər. O cümlədən, mütəyirlər tayfasının başçısı Feysəl Əal Daviş şəxsən İbrahimin yanına gələrək, xidmətini təklif etdi və əvəzində gələcəkdə Əd-Diriyənin əmiri təyin olunmasını istədi.

1817-ci ilin yayında İbrahim Ər-Rəssaya yaxınlaşaraq, oranın mühasirəsinə başladı. Mühasirə bir neçə ay çəkdi. Mühasirədəkilər müdafiə olunurdular. Belə güman etmək olar ki, Ər-Rəssanın strateji əhəmiyyətini başa düşən Abdallah, orada özünün ən yaxşı qüvvələrini yerləşdirmişdi.

C.Sedlierin məlumatına görə, Ət-Rəssanın taleyi bir qədər fərqli idi, belə ki, şəhər təslim olmurdu, onun müdafiəçiləri misirlilərə bildirirdilər ki, yalnız Anayzın işğalından sonra təslim olacaqlar.[85]

Anayzın müdafiəsinin başında Diriyə imamının ən yaxın qohumları durmuşdular. Vəhhabi qarnizonu lazımi silahsursatla yaxşı təchiz olunmuşdu. Lakin bir neçə gün çəkən döyüşlərdən sonra şəhər ələ keçirildi, baxmayaraq ki, ayrı-ayrı qalaçalar hələ də müqaviməti davam etdirirdilər, qaladakı barıt anbarı partladıqdan sonra, qarnizon fəxri şərtlər əsasında təslim oldu. Vəhhabi döyüşçüləri əli silahlı Abdallah ibn Səudun yanına yola düşdülər.[86]

Vəhhabi imamı bundan sonra bir daha açıq meydanda İbrahimin ordusuna müqavimət göstərməyə cəhd etmədi. Ola bilər ki, o, hələ də vahələri bir-birinin ardınca mühasirədə saxlamaqla düşməni əldən salmağa ümid edirdi. Amma İbrahimin arxasında Misirin ehtiyatları dayanırdı. Onun hücumu asta, amma qarşısıalınmaz idi. Anayzadan sonra Burayda təslim oldu, 1817-ci ilin sonlarına yaxın isə bütün Qasim İbrahimə tabe oldu.[87]

Abdallah əvvəlcə sürətlə müdafiə istehkamları tikildiyi Şakruya, oradan isə Əd-Diriyəyə çəkildi.

Əlavə qüvvələrlə möhkəmlənən İbrahim Buraydada təxminən iki ay qaldı. Sonra Şakreyə tərəf hərəkət etdi. Mütair, hərb, əteybə və banu-xalid bədəvi tayfaları da Şakruya yürüşündə onunla birlikdə iştirak edirdilər. Onlar, vəhhabilərə ən sonda tabe olub, onlardan ilk qopan köçərilər idilər. İbn Bişr kədərlə yazırdı: "Nəcd vahələrinin bir çox tayfa başçıları və əyanları qənimət ələ keçirmək və gələcəkdə müstəqillik əldə etmək ümidi ilə İbrahimlə birgə hərəkət edirdilər, amma Əd-Diriyəin çöküşündən sonra onlar yanıldıqlarına inanıb, çox məyus oldular.[88] İbrahim ələ keçirdiyi şəhərləri tərk edərkən, oraları yerlə-yeksan edir, insanlarını isə özü ilə girov kimi aparırdı".[89]

Yanvar ayında İbrahimin ordusu Şakra ətrafına gəib çıxdı. Artilleriya hazırlığından sonra hücum başlandı. Bir neçə

gündən sonra şəhər ələ keçirildi. Bir daha müharibədə iştirak etməyəcəyinə söz verən tərk-silah edilmiş şəhər qarnizonuna çıxıb getməyə icazə verildi. Sonra bütün Vəşm İbrahimin əlinə keçdi.[90] Ardınca da Südəyr Əl-Məcma döyüşsüz təslim oldu. Hürəymala və Məhmal da İbrahimə tabe olduqlarını bildirdilər.[91]

Şakrudan İbrahim Əl-Hərcdan olan güclü döyüşçülərin müdafiə etdiyi Durmuya tərəf hərəkət etdi. Artilleriya və mühasirə texnikasının tətbiq edilməsinə baxmayaraq, paşa Durmudakı qarnizonu təslimə vadar edə bilmədi. Lakin qüvvələr bərabər deyildi. İbrahimin əsgərləri şəhərə daxil olaraq, müqavimət göstərdiklərinə görə əhaliyə divan tutdular. Öldürülənlərin, adəti üzrə, qulaqları kəsilərək, Qahirəyə göndərildi. Şəhər başdan-başa qarət olundu. Hadisə 1818-ci ilin fevral-mart aylarında baş verdi.[92] Bununlada Əd-Diriyəyə yol açılmış oldu.

Apreldə faciənin son aktı başlandı.

Misir qoşunlarına qarşı paytaxtdan və Mərkəzi Ərəbistan vahələrindən olan xeyli sayda dəstələr dayanmışdı. Bu dəstələrə Abdallah bn Səudun üç qardaşı, - Feysəl, İbrahim və Fəhd başçılıq edirdilər. Əd-Diriyədə həmçinin başlarında cəsur hərbi rəis Abdallah ibn Məzrunun dayandığı Manfuhi kontingenti, həmçinin Əl-Hərik və Südəyrədən olan dəstələr də var idi. Kiçik möhkəmləndirilmiş məntəqələr isə paytaxt əhalisindən olan qocalar tərəfindən müdafiə olunurdu. Ayrı-ayrı dəstələrə Səudların, Əal Müəmmər ailəsinin üzvləri və digər görkəmli hərbi rəislər başçılıq edirdilər.

Müntəzəm olaraq ərzaq, döyüş sursatı və əlavə qüvvələrlə təminat, İbrahimin müvəffəqiyyətinin və ağır-saltaq irəliləyişini təmin edirdi. Onun ordusunun təchizatı təkcə Mədinədən gəlmirdi, Ona həmçinin, Bağdad paşası tərəfindən də ərzaqla dolu karvan gəlmişdi. İbrahimin ordusunda yaralanan və xəstələnən əsgərləri Şakrada təşkil olunmuş hospitala gön-

dərirdilər. Onların bəziləri hərdən geri, öz döyüş yerlərinə qayıdırdılar. İbrahim ona birləşmiş əmirləri öz əsgərləri ilə Əd-Diriyəyə göndərərək, onun bayrağı altında vuruşmağa məcbur edirdi.[94]

Sentyabrın 9-da hər şeyin itirildiyini görən Abdallah ibn Səud, danışıqlara başlamaq qərarına gəldi. Onun əmisi Abdallah ibn Əbd əl-Əziz və təriqət başçısının oğlu Əli, həmçinin Məhəmməd ibn Mişari ibn Müəmmər misirlilərin düşərgəsinə yollandılar. İbrahim onlardan təslim olmalarını tələb etdi. Abdallahın elçiləri hələ də müqavimət göstərən Diriyə vahəsi sakinlərinin fəxri şərtlər əsasında təslim olmaları barədə qarşı tərəflə razılığa gəldi. Qalada olan Abdallah və döyüşçüləri daha iki gün vuruşmaqda davam etdilər. İbrahim bütün artileriyanı bura çəkib gətirdi, sentyabrın 11-də Abdallah təslim oldu.

Altı ay çəkən gərgin döyüşlər başa çatdı.[95] Döyüşlərdə Səudlar imamın iyirmiyə yaxın qohumunu, o cümlədən onun üç qardaşını itirdilər. İbn Bişrə görə Əd-Diriyə uğrunda döyüşdə əd-diriyəlilərin ümümi itkisi 1300 nəfər, İbrahimin ordusunun itkisi isə təqribən 10 min nəfər idi.[96]

Abdallah iki yaxın adamı ilə birlikdə Qahirədən keçməklə İstanbula yola salındı. O, mənzil başına dekabrın əvvəlində çatdı. “Diriyədə əsir alınıb, az öncə paytaxta gətirilən vəhhabi başçısı, onun naziri və imam ötən həftə edam olundular, - deyə İstanbuldan rus səfirliyi məlumat verirdi. - islamın beşiyi sayılan müqəddəs şəhərlərin düşmənləri üzərində çalınan zəfərə daha çox ehtişam vermək məqsədilə sultan həmin gün paytaxtın köhnə sarayında rəqyəbin (imperiyanın birinci şəxslərinin iştirak etdiyi baş məclis) toplanmasını əmr etdi. Ağır qandallarla zəncirlənmiş üç əsir, izdihamın bağırtıları altında saraya gətirildi. Rəqyəb mərasimi başa çatandan sonra sultan onların edam olunması əmrini verdi. Abdallah ibn

Səudun başı müqəddəs Sofiya qapılarında, nazirin Seralın girişində, üçüncünün boynu isə şəhərin əsas bazarlarının birində vuruldu. Öz dövrünün siyasi və hərbi liderlərindən biri olan Abdallah İbn Səudun həyatı belə sona çatdı. Ölüm anınadək mətanətini qoruyub saxlayan Abdallah, Məhşər günündə Məhəmməd Əliyə qarşı öz əqidəsini müdafiə edəcəyini vəd edirdi.

Əd-Diriyənin süqutundan sonra Məhəmməd Əli Mərkəzi Ərəbistanın hakimi-mütləqinə çevrildi.

Əmirləri, hərbi rəisləri, ruhaniləri işgəncəyə məruz qoyur, tək-tək və dəstə-dəstə güllələyir, top lülələrinə bağlayıb atəş açaraq parça-parça edirdilər. Təriqət başçısının nəvəsi Süleyman ibn Abdallahı edamdan əvvəl yay-simli musiqi aləti olan rübab dinləməyə məcbur edərək, onun hisslərinə rişxənd etmişdilər.[97] Cəbəl-Şəmmər, Qasim və Dilam şəhər və vahələrində adlı-sanlı ailələrin üzvlərini və hərbi rəisləri qətlə yetirir, əmlaklarını mənimsəyirdilər.[98]

Feysəl ibn Bətban Əal-Dəbiş nəinki Əd-Diriyə hakimi məqamına yiyələnə bilmədi, onun üzərinə Səudlara borclu düşdüyü beş illik zəkatı misirlilərə ödəmək öhdəliyi qoyuldu. Mütərilərin başçısı vergini ödəməkdən imtina etdiyindən, Fərat çayının aşağı axarlarına köç etməyə məcbur oldu.[99]

Səudların məğlubiyyətindən sonra Əal Ərayar ailəsinin bir neçə üzvü Əl-İhsədə hakimiyyəti ələ keçirdi.

Diriyə əmirliyinə rəğbət bəsləyən Böyük Britaniya misrlilərin Ərəbistanda güclənməsini böyük narazılıqa izləyirdi və donanmasını Əl-Katifə göndərərək, ora desant çıxardı.[100]

İngilislər misirlilərin Fars körfəzindəki məqsədlərindən hali olmaq istəyirdilər. İbrahim paşa ilə görüş üçün avropalılar içərisində ilk dəfə olaraq Ərəbistanı şərqdən qərbə doğru keçib, Əd-Diriyə xarabalıqlarını görən C.Sedlier göndərildi. Lakin 1819-cu ilin ortalarında İbrahim Nəcdi tərk edərək Mədinəyə getdi. Sedlierin vəhhabilərə qarşı birgə hərəkətlə bağlı ona

etdiyi təklif heç bir məna kəsb etmirdi.Ona görə ki, artıq Əd-Diriyə adı altında bir dövlət faktiki olaraq mövcud deyildi. Bundan əlavə, Misir bütövlüklə, antingilis əhvali-ruhiyyəsində idi. İbrahim ingilislərin təklifini rədd etdi və 1819-cu ilin payızında C.Sedlieri Ciddədən qovdu. Tezliklə, müxtəlif xəstəliklərdən xeyli sayda əsgərini itirən Britaniya ekspedisiya korpusu Əl-Katifdən təxliyə olundu.[101]

1819-cu ilin axırlarında ingilislər yenidən Rəs-əl-Həymi atəşə tutub dağıtdılar. Britaniya qarnizonu 1820-ci ilin iyuluna qədər Rəs-əl-Həymdə qaldı. İngilis-Hindistan administrasiyası sonradan bütün sahilyanı hakimlərə və Bəhreynə "baş sülh müqaviləsi" qəbul etdirərək onları öz himayələrinə alırdı.[102] Faktiki olaraq bu protektoratlıq haqqında müqavilə idi; illər ötdükcə ona yeni-yeni maddələr əlavə olunurdu.

İngiltərənin Şərq siyasətindəki ilə bağlı kəskin dönüş Corc Kanninqin adı ilə bağlı idi. Bu o dövr İngiltərəsinin daxili şəraitini bütün məcmuyu ilə diqtə olunurdu. Kanninq Osmanlı ilə Əfşarlardan sonra hakimiyyətə gəlmiş Qacarlar dövlətinin ruslara qarşı qüvvələrinin birləşdirilməsinin tərəfdarı kimi çıxış editdi.Amma  Qcarlar - Osmanlı ziddiyyətləri 1821-1823-cü illərdə müharibəyə çevrildi. Müharibənin başlıca səbəbi tərəflər arasında sərhəd məsələsi olmuşdu.Əslində bu müharibənin reallaşması üçün isə xeyli bəhanə yığılmışdı və xüsəsən şiə ocağlarının osmanlı xənadanları tərəfindən qorunmaması və dəfələrlə vəhabilər tərəfindən oranın talan olunması və Sultanın bu baş verənlər qarşısında acizliyi Fətəli şahı hiddətləndiridi. Məkkə, Kərbəla və Nəcəf kimi müqəddəs yerlərə gedən zəvvarların şikayətləri, xüsusilə Fətəli şahın Məkkəyə ziyarətə gedən hərəmlərindən birinin karvanında axtarışlar vəziyyəti daha da kəskinləşdirmişdi.Həmçinin Ərzurum paşası 1820-ci ildə Qacarlar dövlətindən qaçan qəbiləyə himayədarlıq edirdi və Fətəli şahın tələbinə baxmayaraq, Sultan onu geri qaytarmaqdan imtina etmişdi. İngiltərə ilə bağlanmış 1814-cü il

müqaviləsindən sonra hərbi qüvvələrini yenidən quran Qacarlar dövləti hərbi potensialını çox gücləndirmişdi. Osmanlı dövlətinin daxilində vəziyyətin gərginliy Fətəli şah üçün əlverişli şərait yaradırdı. Həqiqətəndə Fətəli şahın qoşunlarının ilk hücumları uğurlu oldu. Osmanlı dövlətinin Cənubi Azərbaycanla bitişik rayonları, Bəyazid, həmçinin Süleymaniyyə Fətəli şahın qoşunları tərəfindən tutuldu. 1822-ci ildə Kərkük, Mosul və digər şəhərlər də ələ keçirildi. İki türk dövlətinin bir-birinə girməsi,ən şox rusların işinə gəlirdı.Bu müharıbə hər iki dövlətin əsas qüvvələrinin döyüş bölgəsinə cəlb etməsi,onların şimal sərhədlərini müdafiəsiz qoymuşdu.Bu faktor rusları cənuba doğru hərəkətə gətirdi. Regionda rusların güclənməsindən narahat olan İngiltərə müharibənin dayandırılması üşün aktiv fəaliyyətə başladı. 1823-cü il iyulun 28-də Qacarlar və Osmanlı dövlətləri arasında Ərzurumda sülh müqaviləsi bağlandı. Müqaviləni Fətəli şah və Abbas Mirzə adından Mirzə Məhəmməd Əli və Türkiyə sultanı Mahmud (1808-1839) adından Ərzurum qubernatoru və Osmanlı imperiyası şərq vilayətlərinin valisi Rauf paşa imzaladı.Əslində ruslar Osmanlını içəridən dağıtmaq üçün xeyli iş görmüşdüdə.Osmanlı İmperiysının qərb bolgələrində yunan üsyanları qızışdırılmışdı. Türklərə qarşı başlanan yunan üsyanı 1821-1822-ci illərdə ağır məğlubiyyətlər yaşayırdı. Düzdür, türk diplomatiyasının Rusiyaya yönəlik meydan oxuyucu siyasəti çar Aleksandrı çoxdan qıcıqlandırırdı. Yunan üsyanının yatırılması ilə bağlı Osmanlı imperiyası xarici işlər nazirinin (rəis əfəndi) “Biz təəbələimizlə necə rəftar etməyi hamıdan yaxşı bilirik” kimi məşhur ifadəsi, Aleksandrı qəzəbləndirmişdi. II Mahmuda yüksək səviyyəli qəbul vəd edilməsinə baxmayaraq, o hətta Verona konqresinə öz nümayəndəsini göndərməyi belə lazım bilməmişdi.Ancaq Kanninq yunan məsələsində britaniya siyasətinin sükanını kəskin şəkildə döndərdi. O, işə hətta

Londondakı dip-lomatik korpusdan heç kəsi xəbərdar etmədən 25 mart 1823-cü ildə İngiltərənin yunan və türkləri iki vuruşan tərəf olaraq tanıyacağını bəyan etdi. İndiyədək “qiyamçılar”, inqilabçılar, “quldurlar” adlandırılan yunanların tərəf kimi tanınmasından belə çıxırdı ki, İngiltərə yunanların üsyanını qanuni hesab edir və üsyançılar ilk olaraq hansı ərazidə möhkəmlənsələr, həmin ərazi İngiltərə tərəfindən müstəqil dövlət kimi tanınacaqdı.

Kanninqin yunan məsələsi ilə bağlı siyasətinə Aleksandrın münasibəti də, Osmanlı imperiyasının parçalanması məsələsində dönüşün yetişdiyindən soraq verirdi.

Lakin Kanninq bataqlıqda batıb qalmış yunan problemini oradan dartıb çıxarmaq qərarı verdi. Kanninq yaxşı başa düşürdü ki, ingilislərə iqtisadi və siyasi məqsədləri üçün ispanlardan azad Cənubi Amerika koloniyaları lazım olduğu kimi türklərdəndə azad Yunanıstan gərəkdir.

1825-ci ilin dekabrın əvvəlində, 48 yaşlı çarın cənubdakı uzaq bir rus kənddə ölümü haqqında qəfil xəbər Avropaya çatanadək o dövürün geosiysi vəziyyəti belə idi.

Rusiya taxtına I Nikolay əyləşdi.

Onun diplomatiyasının mərkəzi ideyalarından biri bu idi ki, Osmanlı imperiyası dağılmaq üzrədir və türk ərazilərinin əhəmiyyətli hissəsinə Rusiya yiyələnməlidir. O, Osmanlı imperiyası və onun dövlət quruluşu barədə o qədər bəsit məlumata malik idi ki, hərdən mənasız hərəkətlərilə özünü gülüş hədəfinə çevirirdi. Məsələn, II Mahmud tərəfindən sülh müqaviləsinin ratifikasiyası üçün Rusiyaya göndərilmiş şahzadə Xəlilin şərəfinə düzənlənən mərasimdə I Nikolay yüksək saray zadəganları və orada iştirak edən digər şəxslərin önündə şahzadənin və onunla gələnlərin təəccübünə səbəb olan bir “dostyana” təklif vermiş, türklərin müsəlman dinindən imtina edib, pravoslav dininə gəlməsi məsləhətinin sultana çatdırılmasını istəmişdi.

Bu sülh müqaviləsindən sonra Londondan Peterburqa xüsusi missiya ilə Nikolayın böyük hörmət bəslədiyi bir şəxs göndərilir. Bu Vaterloo döyüşünün qəhrəmanı, Britaniya konservatizminin və monarxizmin qəti tərəfdarı hersoq Vellinqton idi. Zatən Nikolayda hersoqla çox mühüm söhbət üçün hazırlaşmışdı. Vellinqton Peterburq səfəri ərəfəsində Kanninqdən olduqca mürəkkəb bir təlimat almışdı. Kanninq, başı elə də yaxşı işləməyən, diplomatik incəlikləri qavramaqda çətinlik çəkən qocaman dostuna həmin təlimatı çox çətinliklə izah edə bilmişdi.

Təlimatda tələb olunurdu: imkan daxilində Rusiya ilə birlikdə Osmanlı imperiyasına qəti təzyiq göstərməklə, onu yunan əhalisinin köçürülməsi ilə əlaqədar fikrindən imtinaya məcbur etmək(II Mahmud bu fikirlə razılaşmırdı).

Kanninq əslində dilemma qarşısında qalmışdı.

Əgər ingilis-rus təzyiqləri də nəticə verməzsə, onda nə etməli?

Çarı Osmanlı imperiyasına müharibə elan etməsinə mane olmalı, yoxsa olmamalı?

Vellinqton xeyli vaxt Kanninqin ona nə izah etmək istədiyini başa düşməmişdi və Londondakı dostlarına, “çarın yanına əli-qolu bağlı göndərilirəm” deyə, şikayətlənmişdi. Kanninq isə çarın Osmanlı imperiyası ilə müharibəyə başlayıb, Yunanıstanı azad etməsini, lakin bu zaman Türk imperiyasının dağıtmamasını, ilk növbədə isə boğazları ələ keçirməməsini istəyirdi. Beləliklə, eyni zamanda çarı həm Osmanlı imperiyası ilə müharibəyə çəkmək, həm də sonradan parlamenti, Avropanı və eləcə də çarın özünü onu Osmanlı ilə müharibəyə heç kimin sövq etmədiyini, əksinə müharibəyə onun özünün başladığını sübut etmək çün əlyeri qoymaq lazım idi. Əlbəttə, hər şeyi olduğu şəkildə, ağ kağızda qara mürəkkəblə yazmaq mümkün deyildi, amma köhnə əsgər Vellinqton şifahi deyilənləri, aydın şəkildə ingilis frazaları ilə kağıza yazıb verməyin mümkün

olmadığı bu mətləbləri çətin anlayırdı. Yeri gəlmişkən, Vellinqtonun çarla elə ilk söhbətlərindən məlum oldu ki, Kanninqtonun təlimatları dəqiqliyi ilə yerinə yetirilməyəcək.

Vellinqtona bir söz belə deməyən və öz ağlı ilə hərəkət edən çar qəfildən Osmanlı imperiyasına "ultimatumsayağı" bir tələb göndərdi, lakin yerinə yetirilməsi üçün də böyük müddət (altı həftə) qoydu. Çar 1821-ci ildə II Mahmud tərəfindən Dunayda varlığına son verilmiş knyazlıqların muxtariyyətinin yenidən bərpasını və Serbiyanın 1812-ci illdə Rusiya ilə Osmanlı imperiyası arasında bağlanmış Buxarest sülh müqaviləsi ilə əldə etməli olduğu imtiyazların geri qaytarılmasını tələb edirdi. Bu ultimatumu gondərdikdən sonra Nikolay Vellinqtona İngiltərə ilə müqavilə bağlamağa hazır olduğunu söylədi. Bir qədər tərəddüddən sonra, 4 aprel 1826-cı ildə Vellinqton sazishi imzaladı.

1826-cı ilin yayında II Mahmud yəniçər* (yəniçərlər – Osmanlı imperiyasında XIV əsrdə yaradılmış xüsusi, imtiyazlı qoşun növü: yeniçər korpusu 1826-cı ildə ləğv edildi) qiyamını amansızcasına yatırılmasına və bu qiyamçı qoşunun tamamilə məhv edilməsinə başlamışdı. Bu türk qüvvələrini zəiflədir və Rusiya və İngiltərənin təzyiqlərinə qarşı müvəffəqiyyətlə müqavimət göstərmək şansını daha da azaldırdı. Kanninq bilirdi ki, Peterburq protokoluna görə, Osmanlı imperiyası ilə müharibə təqdirində nə Rusiya, nə də İngiltərə öz xeyrinə ərazi ələ keçirə bilməz. Elə buna görədir ki, Fransa səfirinin onların ölkəsinin yunan məsələsinin həllinə cəlb edilməməsi ilə bağlı şikayətinə o, elə də müqavimət göstərmədi. Kanninq Fransa səfiri Polinyaka Londonda bildirdi ki, o, Faransanın bu məsələdə iştirakına sevinərdi, lakin Nikolay bu məsələdə üçüncü tərəfin iştirakını istəmir. Belədə Fransanın Peterburqdakı səfiri La Ferrone məsələyə aydınlıq gətirmək üçün Nikolaya müraciət etdi. Çar ona bildirdi ki, şəxsən onun özü Fransanın iştirakını alqışlayardı, lakin Kanninq buna mane

olur. Əslində Nikolay fransızların bu məsələdə iştirakını Kanniqdən daha az arzulayırdı, lakin Kanninqin geri çəkildiyini görən kimi çar dərhal güzəştə getdi. Beləliklə, Osmanlı imperiyasına qarşı uç böyük dövlətin: Rusiya, İngiltərə və Fransanın birləşdiyi qüdrətli kolalisiya yarandı.

Və qəflətən, İngiltərənin və Avropanın gözləmədiyi halda, 8 avqust 1827-ci ildə Kanninq öldü. Kanninqin ölümü II Mahmudu xeyli sevindirdi. II Mahmudun əməldaşları yüksək səslə deyirdilər ki, əgər onların ən qorxulu düşmənini tanrı məhv edibsə, demək, Allah öz mömin bəndələrini unutmayıb.

Ancaq Kanninqin əməli onunla birlikdə ölmədi. 7 may 1828-ci ildə Osmanlı İmperiyası üçün ağır və uzun sürən müharibə başladı. Belə ki, üç böyük dövlət – Rusiya, Fransa və İngiltərə birlikdə Türkiyəyə qarşı çıxış edərək, 20 oktyabr 1827-ci ildə öz eskadralarını türk sularına göndərdilər. Beləliklə, Osmanlı imperiyasının planlı şəkildə bölüşdürülməsi məsələsinə qayıdıldı. Navarino buxtasında türk-misir donanması məhv edildi. Beləliklə, yunanların yeni dövlət qurmaları və bütöv-lükdə şərq məsələsi özünün yeni fazasına daxil oldu.

Onuda qeyd etmək yerinə düşərdi ki,öz mövqeyini Qafqazda möhkəmlətmək istəyən Fətəli şahın ordusu 1826-cı ilin iyulunda Arazı кeçərək sentyabr ayınadək Talış, Şirvan, Şəki, Qarabağ əyalətləri və Yelizavetpol dairələrini ələ keçirildi.Osmanlıya qarşı başlamış Rusiya, Fransa və İngiltərə müharibəsinin davamı kimi 1827-ci ilin iyunun 26-da rus qoşunları Fətəli şahın ordusuna qarşı hücuma kecərək Naxçıvanı,iyulun 7-də Abbasabad işğal etdilər. Əslində bu vəziyyət Qacarlar dövlətini Osmalıya yaxınlaşdırdı.Ama İngiltərənin və Fransanın Rusiya ilə bir cəbhədə olması Moskvanı işğalı sürətləndirməyə sövq etdi. Cənubi Azərbaycan torpaqlarına daxil olan rus qoşunları hücumu genişləndirirlər. Oktyabr ayının 13-də Təbriz tutuldu. Noyabr ayının 6-da Dehqarqanda yenidən danışıqlar başlayır. Rusiya nümayəndə heyətinə Qafqaz ordusunun baş komandanı İ.F.Paskeviç, A.S.Qriboyedov, A.M.Obrezkov, A.K.Amburger N.D.Kiselyov və tərcüməçilər A.A.Bakıxanov və Q.M.Vlaqali daxil idi. Danışıqlarda Qacarlar dövlətindən vəliəhd Abbas Mirzə, qaimməqam Fərrahi, bəylərbəyi Fətəlixan, katib Mirzə Məhəmməd Əli və fransız dili tərcüməçisi Mirzə Məsud təmsil edirdi. Təzminat məsələsi üzrə bəzi ciddi narazılıqlar yanvarın 7-də danışıqların kəsilməsinə gətirib çıxardı. Buna görə də rus qoşunları hücumları bərpa etməklə təzyiqi gücləndirirdilər. Yanvarın 28-də Urmiya, fevralın 8-də Ərdəbil tutuldu. Bu hal sülh müqaviləsini bağlanmasını sürətləndirdi. 1828-ci il fevralın 9-dan 10-na keçən gecə düz saat 24:00-da, Mianə şəhərindən 33 km şimal-qərbdə olan Türkmənçay kəndində müqavilə imzalandı. Bu hadisə münasibətilə rus toplarından 101 yaylım atəşi açıldı.

Beləliklə, Türkmənçay müqaviləsi ilə Şimali Azərbaycan torpaqları bütünlüklə Rusiya imperiyası tərəfindən işğal edildi. Türkmənçay müqaviləsi Rusiya tərəfindən 1828-ci ilin martında, Qacarlar tərəfindən isə iyul ayında ratifikasiya edildi.

İran şahı Fətəli şahın ratifikasiya fərmanı rus ordusunun düşərgəsində İ.F.Paskeviçə təqdim edildi.

Elə bu ərəfələrdə Rus generalı Dibiç Adrianopola(Ədirnə) daxil oldu. Rus ordusu İstanbulun iki addımlığında dayanmışdı. II Mahmud Dibiçə barışıq və sülh təklif etdi.

14 sentyabr 1829-cu ildə Adrianopolda türklər onlara qarşı irəli sürülən şərtlərlə razılaşmağa məcbur oldular. Adrianopol sülh sazişinə görə Osmanlı imperiyası demək olar ki, Kuban çayının mənsəbindən, müqəddəs Nikolay buxtasınadək olan Qara dəniz sahillərini, eləcə də demək olar, bütün Axəlkələk paşalığını itirdi. Ruslar öz ticarət gəmilərinin Dardanel və Bosfor boğazlarından sərbəst keçidi hüququ əldə etdilər. Yunanıstana gəldikdə, o müstəqil dövlət elan edildi, sultan ilə bu ölkəni yalnız ildə 11/2 milyon piastr ödəmək öhdəliyi bağlayırdı (həmin ödənişin isə Osmanlı imperiyasının bu şərtləri qəbul etməsindən beş il sonra başlanması nəzərdə tutulmuşdu). Yunan əhalisinə Avropada mövcud olan xristian sülalələrindən birinə mənsub şahzadələrdən hər hansını özlərinə hökmdar seçmə imkanı verilmişdi, lakin bu nə ingilis, nə rus, nə də fransız olmamalı idi.

Adrianopol traktatı özündə bunları ehtiva edirdi. Çar hesab edirdi ki, İstanbulsuz da Şərqə doğru nəzərdə tutulan məqsədlərə çatmaq üçün böyük addım atılmışdır.

Elə bu vaxt şərqdə, konkret olaraq Mərkəzi Ərəbistanda, bu ərazinin qubernatoru vəzifəsində İbrahimpaşanı Məhəmməd Əlinin bacısı oğlu Xəlil paşa əvəz etdi. Lakin Xəlil paşa çox tezliklə vəfat etdi, onun yerinə Əhməd paşa adı ilə qardaşı Əhməd Şükri Yakan bəy təyin olundu və 1829-cu ilə qədər, - Məhəmməd Əli onu Qahirəyə çağırıb, özünün hərbi idarəsinə rəis təyin edənədək, - o Ərəbistanda qaldı.

Nəcdə isə1819-cu ilin payızında Məhəmməd ibn Mişari ibn Müəmmər rəhbər təyin edildi. Məhəmməd ibn Mişari ibn Müəmmər vəhhabizm hərəkatı yeni təşəkkül tapanda Ayayna şəhərinə başçılıq edən nəslin nümayəndəsi idi.Əslində İbn Müəmmər gizli olaraq Əd-Diriyəni bərpa etməyə səy göstərirdi ki, bu da vəhabilər arasında ona rəğbət oyadırdı.[104]

Amma bir az sonra İbn Müəmmərin rəqibləri ortaya çıxdı. Banu-xalid tayfasına başçılıq edən ailələrdən birinə mənsub olan Məcid ibn Arayar Şərqi Ərəbistanda öz hakimiyyətini bərpa etdi. Müəmmər və Arayar ailələri 1830-cu ilə qədər oranı idarə etdilər.[105]

Nəcd səhnəsində Əd-Diriyənin çöküşündən sonra Misirə qaçmış Səudlar sülaləsinin yan budağına aid Türki ibn Abdallah ibn Məhəmməd ibn Səud peyda oldu. Bir müddət o, İbn Müəmmərin adından hərəkət etsə də, hakimiyyət uğrunda gələcək mübarizəsi üçün qüvvələr toplamağa başladı.[106]

Sonuncu Səud imamının qardaşlarından biri, Mişari ibn Səud ibn Əbd əl-Əziz Mədinədən Yənboya aparılarkən, yolda misirli gözətçilərin gözündən yayınaraq aradan çıxmışdı və Südəyrəyə gələrək özünü imam elan etmişdi. 1820-ci ilin martında o, Vəşmi ələ keçirdi. Qasimdə və digər vilayətlərdə də özünə müəyyən qədər dəstək qazandı. Lakin mütəyr tayfalarına güvənən İbn Müəmmər onun döyüşçülərini darma-dağın edib, Mişarini də əsir götürdü.[107]

Bundan sonra İbn Müəmmərin vəhabilər arasında hörməti azaldı və hakimiyyəti laxladı. Narazılar Türki ibn Abdallahın ətrafında toplanmağa başladılar.

Bu hadisədən sonra İbn Müəmmər hakimiyyəti bir il çəkdi. Misirlilərin oyuncağı kimi tanınması və Səudlar evinin əvvəlkitək yüksək nüfuzu, həmişə onun əleyhinə işləyirdi.[108]

Tezliklədə Türki ibn Abdallah özünə müttəfiqlər tapdı, Südəyrədəki Cəlacil şəhərinin hakimi də onların arasında idi.[109]

Elə həmin vaxtlarda Həsən bəyin zorən yığdığı ağır vergi-töycülərdən cana doymuş Qasim sakinlərinin misirlilərə qarşı ümumi üsyanı başladı. Misirlilər yalnız Ər-Riyad və Mənfuhda qarnizonlar saxlayaraq, Hicaza təxliyə olunmaq məcburiyyətində qaldılar.[110]

1824-cü il iyulun sonlarında Türkü ibn Abdallah Ər-Riyad, Tərmud və Əl-Hərcə qarşı təzyiqlərini artırdı. Mənfufdan Misir qarnizonu çıxarıldı. Bir neçə ay sürən mühasirədən sonra Ər-Riyad da Türkinin əlinə keçdi. Misirlilər Hicaza çəkildilər. Qasimin bəzi rayonları Türki ibn Abdallahı hakim olaraq tanıdılar. Bütün Mərkəzi Nəcd Osmanlı vassalının qüvvələrindən təmizlənirdi.[111]

Türki ibn Abdallah ibn Məhəmməd ibn Səudun hakimiyyəti 1823-cü ildən, o Nəcdi ələ keçirməyə başladığı vaxtdan 1834-cü ildə onun ölümünə qədər sürdü. Bir çox tarixçilər Türkini ikinci Səudilər dövlətinin banisi hesab edirlər.Əslində isə qəribə bir hal baş verirdi Osmanlı paşası olan Məhəmməd Əli tərəfindən artan təhlükəni görən sultan Mahmud Misir hakimiyyətinə qarşı Səudların güclənməsinə kömək etməyə başladı.Ən azından müəyyən dövr üçün olsada.

Təsadüfi deyil ki, məhz Türki ibn Abdallah ibn Məhəmməd ibn Səud Osmanlı imperiyasının süzerenliyini qəbul edir. Amma o eyni zamanda da Səudların keçmiş qüdrətini bərpa etmək istəyirdi.

1824-cü ilin sonlarında Türki Nəcdin paytaxtına çevrilmiş Ər-Riyadda məskən saldı. Burada məscidin, sarayın və istehkamların tikilməsinə başlandı. 1825-ci ilin aprel-may aylarında yeni Ər-Riyad əmiri Türki ibn Abdallah Əl-Hərcə tərəf yürüş etdi və bir neçə döyüşdən sonra butün vilayəti özünə tabe etdi.[112]

Ərid, Əl-Hərc, Əl-Həuta, Məhməl, Südəyrə, Əl-Əflac və Vəşm artıq Türkinin nəzarəti altında idi. Qasim vilayətində isə yalnız ayrı-ayrı vahələr ona tabe idi. Praktik olaraq, Nəcd səh-

nəsində təkcə Cəbəl-Şəmmar əmirin nəzarətindən kənarda qalmışdı.

Misir əsirliyindən qaçıb canını qurtaranların içində ən mühüm simalardan biri, Mişari ibn Əbdürrəhman ibn Mişari ibn Səud idi. 1825-ci ildə o, Manfuh valisi təyin edildi.

1827-1825-ci illərin ən vacib hadisəsi Türkinin oğlu Feysəlin Misir əsirliyindən qaçması idi. O sonralar iki dəfə Ər-Riyad əmirliyini idarə edəcəkdi.[113]

Nəcddən şərqdə, Ər-Riyad hakimiyyətinə Hicazda olan Misir qoşunları kimi təhlükə yarada biləcək hər hansı bir qüvvə artıq yox idi.Təbiidir ki,Türki Nəcddə möhkəmləndikdən sonra şərqə, o zaman Əal Arayar ailəsindən olan Məhəmməd və Məcid qardaşlarının 10 ilə yaxın idarə etdiyi Əl-İhsəə yürüşlər etməyə başladı.[114]

1830-cu ildə Arayar qardaşlarının rəhbərlik etdiyi və banu-xalid tayfalarını, eləcə də subay, anaza, mütəyr və banu-hüseyn tayfalarının dəstələrini özündə ehtiva edən bədəvi birliyi Nəcdə soxuldu. Əmirə sədaqətli olan Nəcdin oturaq sakinlərindən başqa, digər bədəvi tayfalarının bir hissəsi də Türki ibn Abdallah tərəfində vuruşurdular. Nəcdlilər və onların düşmənləri arasında döyüşlər bir neçə gün çəkdi, nəticədə Məcid öldürüldü, onun bədəviləri isə darmadağın edlidi.[115]

Xüfuf şəhəri döyüşsüz ələ keçirildi. Döyüşlərdən salamat qurtaran Arayar qardaşlarından biri, Məhəmməd Kut qalasına sığındı və yalnız mühasirəyə alanların ona toxunmamaq barədə verdikləri vəddən sonra təslim oldu.

Türki və Feysəl qırx gün ərzində Şərqi Ərəbistanda qaldılar. Onlar vəhhabi doktrinasını bərpa edərək böyük vahələrin hər birinə qazi təyin etdilər. Burada çoxlu sayda şiə yaşasa da, Əl-Katif Ər-Riyad əmirinə öz itaətini bəyan etdilər. Banu-xalid tayfasına aid bəzi bədəvilərin nəcdlilərə müqavimət göstərmək cəhdlərinin qarşısını alındı.

Öz sələflərindən və varislərindən fərqli olaraq Türki və Feysəl Əl-İhsədə dözümlülük siyasəti yürüdürdülər ki, bu da onların burada möhkəmlənmələrinə imkan verdi.

1830-cu ilin sonunda Türki həm də Qətərin böyük hissəsinə nəzarət edən Bəhreyn hakim Abdallah Əal Xəlifəyə (1816-1843) Səudiyyə süzerenliyini qəbul etdirə bildi. Ondan hər il zəkat ödəməyi, Mariya Terezanın hələ 1811-ci ildən burada qalan atlarının əvəzi kimi yubanmadan 40 min taler ödəməyi və bəhreynlilər tərəfindən 1826-cı ildə işğal olunmuş Ərəbistan sahillərindəki Dəmmam qalasını geri qaytarmağı tələb etdilər. Bəhreyn hakiminin bu tələblərdən hansını yerinə yetirdiyi məlum deyil.

Türki Əl-Büyərmiyə Ömər ibn Ufəysanı əmir təyin etdi.

Elə bu vaxt Osmanlı imperiyasının siyasi həyatında vəziyyət qəfil olaraq kəskin şəkildə gərginləşdi.Osmanlı sarayının Səudların yenidən qüdrətlənməsinə dolayı yolla yardım etmələri Misir paşası Məhəmməd Əlini sultana qarşı üsyana qaldırdı və onun üzərinə müharibə ilə getdi. Bir vaxtlar Məhəmməd Əli fransız işğalçıları ilə müharibə etmək üçün Misirə gəlmiş və çox tezliklə bu ölkənin faktiki hökmdarına çevrilmişdi. O, sultan III Səlimdən paşa (canişin) titulunu almağa nail olmuş, özündən əvvəlki hakim təbəqəni, çərkəs məmlüklərini ləğv etmişdi. Məhəmməd Əli Misirdə Avropa təhsil və hərbi sistemini tətbiq etməyə səy göstərirdi. Ölkənin təhsil müəssisələrində avropalı müəllimlər tədris edirdi. Vergi sistemini dəyişdirən Məhəmməd Əli, bunu əhalinin gəlirlərinnn artması ilə izah etdi. O, güclü nizami orduya malik idi, işğalçılıq müharibələri aparırdı və faktiki olaraq Misiri Türkiyədən ayırmışdı. Sultan ordusundan daha yaxşı təlim görmüş və daha yaxşı silahlanmış Misir qoşunları Suriyanı ələ keçirdikdən sonra şimala doğru hərəkət edərək, 1832-ci il dekabrın 21-də Məhəmməd Əlinin oğlu İbrahim Konya yaxınlığında Osmanlı impe-

riyasının nizami ordusunu demək olar ki, darmadağın etdi. Sultan II Mahmud çıxılmaz vəziyyətə düşmüşdü: onun tezliklə yeni ordu toplamaq üçün nə vaxtı, nə də vəsaiti var idi.

II Mahmud kömək üçün Avropadakı güclərə müraciət etdi. Lakin çoxdan Misir və Ərəbistana mehr salmış və gələcəkdə buranı özünün nəzarəti altında görmək istəyən fransız diplomatiyası, ona kömək göstərməkdən imtina etdi.

İngiltərə xarici işlər naziri Palmerston isə ümid edirdi ki, onun ölkəsinə lazım olan iş Avstriyanın əli ilə yerinə yetiriləcək.

Lakin hər şey fərqli cərəyan etdi. Birincisi, Avstriya ordusu Kiçik Asiya səhralarında qalib Misir ordusuna müqavimət göstərmək üçün qətyyən hazır deyildi. İkincisi, Metternix Şərqdə Rusiya təhlükəsinin mövcudluğu ilə barışmağa məcbur idi ki, Avropada inqilab ehtimalına qarşı bu qüdrətli müttəfiqini qoruyub saxlaya bilsin. Elə bu səbəbdən o, Nikolay ilə açıq mübahisəyə getməyi heç istəmirdi.

Amma Nikolay hələ Konya döyüşündən əvvəl İbrahimə qarşı sultana öz köməyini təklif etmişdi; bundan az öncə isə rus genaralı Muravyov öz eskadrası ilə qəfildən Bosforda lövbər salmışdı.

Həyəcan içndə olan sultan hər şeyə razı idi və 3 fevral 1833-cü ildə İstanbuldakı rus nümayəndəsi Butenev nəhayət ki, çoxdan gözlədikləri diplomatik sənədi aldı: Həmin sənəddə II Mahmud formal olaraq çar Nikolaydan qiyamçı vassala qarşı kömək istəyirdi. Dənizə çıxmağa çoxdan hazır olan və Sevastopolda lövbər salmış rus donanması, dərhal İstanbula tərəf üzdü. 1833-cü il fevralın 20-də donanma artıq Bosforda idi. İşi belə görən fransız səfiri Russen sultanın yanına qaçaraq, qəti şəkildə ondan rus donanmasını buradan uzaqlaşdırmağı xahiş etdi. İngiltərə səfiri də Russeni müdafiə etdi. Onların hər ikisi bəyan

edidi ki, rus qoşunları şəhərə girsələr, İstanbulu tərk edəcək. Bu isə o demək idi ki, sultan onlara qulaq asmasa, İngiltərə və Fransa Məhəmməd Əlini müdafiə edəcəklər. Sultan Russenden Məhəmməd Əliyə qarşı mübarizədə ona dəstək veriləcəyinə dair öhdəlik götürülməsini tələb etdi və Russen də rəis əfəndi ilə belə bir razılaşma tələm –tələsik imzaladı.

Ançaq Məhəmməd Əlidə gözəl diplomat idi, o yaxşı başa düşürdü ki, fransızlar yalnız rus donanmasını geri qaytarmaq niyyəti güdürlər və bu baş verdikdən sonra İbrahimin yolunu kəsmək üçün heç bir tədbir görməyəcəklər. Sultan II Mahmud sonradan başa düşdü ki, Russen və ingilislər onu aldadıblar. Digər tərəfdən, yeni qorxulu xəbərlər gəlirdi: İbrahimin Smərnəyə soxulan casusları orada sultana qarşı qiyam qaldırmışdılar. Sultan birbaşa tapşırıq verdi ki, Butenevə müraciət edilsin və türk nazirləri Butenevə sultanın rus donanmasının Bosforu tərk etməməsinə razı olduğunu bildirdilər. Bu xəbərə cavabında o, lütfkarlıqla bildirmişdi ki, aldıqları təklif yalnız şifahi olduğndan, onların buradan harasa getmək fikirləri belə olmayıb. Aprelin 2-də Qara dəniz sahilinin Bosfora çıxışında yeni rus eskadrası peyda oldu, bundan bir neçə gün sonra isə üçüncü eskadra da onlara qoşuldu. 14 mindən bir qədər az rus əsgəri sahilə çıxarıldı.

Fransız diplomatiyası və Palmerston həyəcan içində idilər. Artıq aydın idi ki, təkcə vədlə can qurmarmaq olmayacaq. Ya qəti addımlar atıb sultan II Mahmudu Misir paşasından xilas etmək, ya da İstanbulu elə sultanın öz razılığı ilə rus qoşunlarına vermək lazım gəlirdi. Nəhayət, Russen və İngiltərə səfiri Ponsonbi öz eskadralarını Misir sahillərinə göndərərək, Məhəmməd Əli ilə sultan arasında sülh bağlanmasına nail oldular. Sülh Misir paşası üçün əlverişli şərtlərlə imzalanmışdı və onun təsir dairəsini xeyli genişləndirmişdi. Lakin bunulada İstanbul da xilas edilmişdi.

8 iyul 1833-cü ildə Unikiar-İskelessi yaxınlığında ruslar və türk nümayəndəsi arasında diplomatiya tarixinə düşən məşhur müqavilə bağlandı. Unikar-İskelessidə Nikolay Adrianopoldakından daha əlverişli diplomatik qələbə əldə etdi, çünki bu qələbə döyüşsüz, çevik diplomatik səylərlə qazanılmışdı.

Bu razılaşmaya əsasən Rusiya və Osmanlı imperiyası bundan sonra üçüncü bir ölkə tərəfindən müharibəyə məruz qalarlarsa, bir-birlərinə həm donanma, həm də qoşunla kömək edəcəklərinə dair öhdəlik götürmüşdülər. Onlar həmçinin, ölkə daxilində də hər hansı iğtişaşlar baş verərsə, bir-birlərinə kömək edəcəklərinə söz vermişdilər. Osmanlı imperiyası üçüncü tərəf Rusiya ilə müharibə etməyə qalxardısa, heç bir ölkənin hərbi gəmilərini Dardanel boğazına buraxmamağa dair öhdəlik də götürmüşdü. Bosfor isə bütün hallarda rus gəmilərinin daxil olması üçün həmişə açıq qalacaqdı.

Mərkəzi Osmanlı hakimiyyətinin bu zəifliyi Ərəbistan səhnəsindədə özünü göstərirdi. İngilis diplomatı və tarixçisi Uilsonun sözlərinə görə: "XİX əsr 30-cu illərin əvvəlində bütün Fars körfəzi sahilyanısı Səudlar hakimiyyətini tanıyırdı. Hindistandakı ingilis hakimiyyəti əmin oldu ki, Osmanlı imperiyasının zəifləməsindən sonra Nəcd əmirliyi bütün Mərkəzi və Cənub-şərqi Ərəbistanda yenidən əsas qüvvəyə çevrilib".

Mənfuhədə hökmranlıq edən Mişari ibn Əbdürrəhman 1831-ci ildə kahtan tayfalarına aid bir neçə dəstə ilə birlikdə əmirə qarşı üsyan qalxdı. Lakin lazımi kömək ala bilmədiyindən, o, qaçdı və mütəyr tayfalarının rəhbərləri, bəzi anaza dəstələri, həmçinin də Qasim əmirləri ilə ittifaq bağlamağa cəhd etdi. Lakin onun bu hərəkəti avantüradan başqa bir şey deyildi və o Hicazada gizlənərək, Məkkə şərifi Məhəmməd ibn Aynanın dəstəyini qazanmağa ümid edirdi. Mişariyə sığınacaq

verilsə də, hərbi kömək ala bilmədi. 1832-ci ildə o, Nəcdə qayıdaraq, imamın onu bağışlamasına nail ola bildi.[117]

İbn Bişr həmin dövr üçün səciyyəvi olan bir epizodu misal çəkərk yazır: "1832-ci ildə Ər-Riyaddan Xüfufa dönən Türki ibn Abdullah İbn Səud böyük əmir şurasını yığaraq, onları tiranlıq etməkdə və qanunla nəzərdə tutulmayan və onlara aid olmayan şeyləri əhalidən almaqda suçladı: "Həqiqətdə siz mənim əmrimi alıb yığıma çıxanda, öz xeyrinizə vergiləri artırırsınız. Bunu etməkdən çəkinin, çünki mənim basqınlarda iştirak edəcək dəvələrə görə sakinlərin üzərinə qoyulan vergiləri artırmağıma mane olan onlara bəslədiyim şəfqət hissidir və mənim sələfimdən az vergi toplamağımın səbəbi budur. Əmrim sizə çatanda sevinirsiniz, çünki özünüz üçün də nələrisə əldə edirsiniz. Siz güclü külək əsəndə palma ağaclarına baxıb sevinənlərə oxşayırsınız, çünki yerə daha çox xurma töküləcək... Mən sizlərə əhalidən nələrsə almağa imkan verməyəcəm. Kimsə öz təəbəsinə qarşı ədalətsizlik etsə, o, cəzalandırılacaq, özü də təkcə vəsifəsini itirməyəcək, həm də ölkədən sürgün olunacaq". Sonra o əhaliyə müraciət etdi: "Əgər hansıa əmir sizə zülm edirsə, bu haqda mənə məlumat verin". Bu sözləri eşidən Burayda əmiri Əbd əl-Əziz ibn Məhəmməd ayağa qalxıb dedi: "Ey müsəlmanların imamı, ümumi danışma, konkret ol. Əgər sən bizlərdən kiməsə qəzəblənirsənsə, həmin adamın əməllərindən danış". Onda Türki ibn Abdullah İbn Səud belə söylədi: "Dediklərim sizə və sizin kimilərə aiddir, onlar elə fikirləşirlər ki, bu əraziləri qılınclarının gücü ilə əldə ediblər, həqiqətdə isə bu torpaqlar islamın və imamın qılıncını gücü ilə ələ keçirilərək bizə tabe edilib".[118]

Əmir Türki ibn Abdullah İbn Səud öz məktublarında təəbələrinə Allahdan qorxmağı məsləhət bilir, öz möminliklərini təkallahlığa sədaqətli olmaq, dua etmək, zəkat verməklə nümayiş etdirməyi tövsiyə edirdi. O, bu üç prinsipin vacibliyini göstərir və təkcə öz davranışlarına görə deyil, həm də icma və

tayfanın davranışlarına görə şəxsi məsuliyyət daşımağı mühüm hesab edirdi.

Ər-Riyad əmiri sələmçiliyi pisləyir və buna qoyulmuş qadağanı pozanları cəzalandırılacağını vurğulayırdı, bütün rəhbərlərə öz rayonlarında çəki və ölçü vahidlərini standartlara uyğunlaşdırmağı, bağlanan bütün müqavilələrin "bunlar hətta zimmilərlə (yəni yəhudilər, xristianlar və zərdüştlərlə) bağlanmış olsa belə, şərtlərinə əməl etməyi tövsiyə edirdi. Əmirlər həmçini tütün çəkməyi qadağan etməli, dini tədrisi genişləndirməli, məscidlər inşa etməli və namaz qılmayanlar barədə məruzə etməli idilər.[119]

9 may 1834-cü ildə Türki cümə namazını qılıb məscicin yan qapısından çıxarkən, üç nəfər onu mühasirəyə aldı. Onlardan biri tapança ilə əmiri vurdu. Əmirin qulu Zuvayd onu müdafiə etməyə çalışaraq, hücum edənlərdən birini yaralayıb, sonra qaçdı. Bu zaman əlində qılınc tutan Mişari peyda oldu və əhalidən özünə biət tələb etdi.[120]

Həqiqətəndə Türki ibn Abdullah İbn Səud ağıllı hökmdar idi. O, güc tətbiq edir və yalnız başqa çıxış yolu qalmayanda amansız olurdu. Qisasçşı olmamasını onun elə Mişarinin özünə, gələcək qatilinə qarşı tutduğu mövqe də sübut edir. Əslində düşməni bağışlamaq Ərəbistanda qeyri-adi bir şey deyildi, qohumlarla və güclü şəxsiyyətlərlə dil tapmaq, kompromisslərə getməyin zəruriliyini önə çəkirdi. Türki ibn Abdullah İbn Səud səxavətli və ədalətli əmir adını qoruyub saxlamağa çalışır, yalnız mənsəb sahiblərinin yırtıcı əməllərinin qarşısını almağa səy göstərirdi.O da ulu babaları kimi dindarlıq nümayiş etdirir, ilahiyyat araşdırmalarına çox vaxt ayırırdı.[121] Maraqlıdır ki, o, nə vaxtsa xalq təbabətini də öyrənərək  həkim kimi də məhşur idi.[122].

Türkinin qətli Nəcddə 9 il çəkən qəbilələrarası qarşıdurmalara və çaxnaşmalara səbəb oldu. Bu müddət ərzində Riyad taxt-tacında Səudlar ailəsinin dörd üzvü bir-birini əvəz etdi.

Mişari ibn Əbdürrəhman hakimiyyətdə bir aydan azca artıq qala bildi. Feysəl Xüfufda dostlarını ətrafına yığaraq, atasının qətl xəbərini onlara çatdırdı. Tərəfdarları – Cəbəl-Şəmmardan olan Abdallah ibn Əli ibn Rəşid, Burayda hakimi Əbd əl-Əziz ibn Məhəmməd, Əl-Harik hakimi Türki əl-Həz-zani, Həməd ibn Yəhya ibn Qəyhab və Əl-İhsə hakimi Ömər ibn Mə-həmməd Üfəysan Feysəli qanuni imam olaraq qəbul etdilər.[123]

Dərhal Ər-Riyada hərəkət etmək qərarı verildi. Onlara paytaxta çox tez çatdılar və Mişari qəfil yaxalandı. Hadisə belə baş vermişdi;1834-cü il 28 may gecəsində Feysəl az müqavimətlə üzləşəcəyinə ümid bəsləyərək qoşunundakı əslən Ər-Riyaddan olan döyüşçüləri şəhərə göndərdi. Onlar Mişarinin dəstələri ilə qarşılaşdılar, tanınsalar da, Mişarının əsgərləri onlara  qala ətrafında mövqe tutmağa imkan yaratdılar. Atəş səslərini eşidən Mişari qalada gizləndi. Ertəsi gün səhər Feysəl şəhəri ələ keçirdi və mühasirəyə başladı.

Mişaridə qalada tutularaq edam edildi.[124]

Feysəl hakimiyyətə başlayanada yaşı 40- yaxın idi, həm fiziki, həm də mənəvi baxımdan kamillik çağlarını yaşayırdı.

Misirlilərin Nəcdə yeni hücum hazırlıqları ilə bağlı Hicazdan gələn xəbərlər Feysəli çox narahat edirdi. Riyad əmiri tabeliyindəki elə də böyük olmayan qüvvələri qərb sərhədində yerləşdirməyə məcbur oldu.

1833-1834-cü illərdə Asirə uğursuz yürüşündən  sonra Məhəmməd Əli 1835-ci ildə bir daha Ərəbistanın açarı hesab etdiyi bu vilayəti yenidən işğal etməyə səy göstərdi. O İbrahim Kiçik və Əhməd paşanı yeni qoşunla Ərəbistana göndərdi  və

bununla da oradakı əsgərlərin sayı 18 min nəfərə çatdırdı. İbrahim Kiçik və şərif İbn Aunun təşkil etdiyi bu yeni ekspedisiyanın aqibəti də özündən əvvəlkilərdən heç də yaxşı olmadı. Misirlilər bu dəfə də böyük itki verərək, geri çəkildilər.[125]

Məhəmməd Əli bu dəfə Ərəbistana Xurşid paşanın rəhbərliyi altında yeni qüvvvələr göndərdi. Onun qarşısındabir mənalı şəkildə, Asir və Yəməni fəth etmək kimi konkret tapşırıq qoyulmuşdu. Ərəbistan Məhəmməd Əli tərəfindən üç qeyri-rəsmi paşalığa bölünmüşdü. Mədinədən şimaldakı və şərqdəki ərazilər Xurşidə, Məkkə və Ciddə Əhmədə, Asir və Yəmən isə İbrahim Kiçiyə verilmişdi. Hər halda Ciddədəki fransız konsulu F.Frenelin söylədiklərindən belə anlaşılır.[126]

Məhəmməd Əli Nəcdə məşhur Səudun oğlu Xalid ibn Səudu hakim qoyaraq burada öz hakimiyyətini qurmaq istədi. Uzun illər ərzində Misirdə Məhəmməd Əlinin sarayında yaşamış gənc əmir İstanbulda edam olunmuş Abdallahın sağ qalan qardaşlarından biri idi.

Artıq Nəcdə hücum qaçılmaz idi.[127]

1837-ci ilin mayında İsmayıl bəy və Xalid Ər-Riyada daxil oldular.Bununlada Feysəlin hakimiyyətinin birinci dövrü (1834-1837) formal olaraq, başa çatdı. Lakin əsas din xadimlərinin Xalid ibn Səuda itaət göstərmələri barədə heç bir məlumat yoxdur. Əksinə, onların bir çoxu cənub rayonlarına çəkilərək, İsmayıl bəyə və Xalid ibn Səuda qarşı müqaviməti təşkil edirdilər.[128]

1838-ci il oktyabr ayında misirlilər Ər-Riyada girdilər, orada Xalid ibn Səudun rəhbərlik etdiyi könüllü döyüşçülər də onlara birləşdilər. Xurşidin ümumilikdə 4 min nəfər döyüşçüsü və 10 topu var idi. Onlar cənuba hərəkət edərək, Dilamda məskən salmış Feysəllə məsələni birdəfəlik qurtarmaq istəyirdilər. Bir aydan çox çəkən mühasirədən sonra, 10 dekabr 1838-ci ildə Dilam alındı. Feysəl ikinci dəfə əsir qismində Misirə

getməyə məcbur oldu. Artıq ikinci dəfə idi ki, Mərkəzi Ərəbistan acınacaqlı vəziyyətdə misirlilərin ayaqları altına düşmüşdü.[129]

Xurşid paşanın Məhəmməd Əlinin canişini qismində Nəcddə hakimiyyəti ilyarım sürdü.

Asirdə isə Məhəmməd Əlinin qoşunları döyüşləri qazansalar da ölkəni ələ keçirə bilmədilər. 1837-ci ilin sentyabrında asirlilərin yeni üsyanı baş verdi. Üsyan 1838-ci il may ayında yatırıldı, lakin Məkkədə fəaliyyət göstərən Əhməd paşa və Xodeydidəki İbrahim paşa Kiçik 1840-cı ildə hələ də ümidsiz yürüşlərini davam etdirməkdə idilər.[130]

Misirlilərin Asir və Yəmənə doğru irəliləməsini dayandırmaq və orada özünün hərbi-dəniz bazası yaratmaq və eləcə də Hind okeanının şimali-qərb hissəsində kömür mədəni qurmaq niyyəti İngiltərəni, 1839-cu ildə Ədəni işğal etməyə sövq etdi.

Belə bir vəziyyətdə Məhəmməd Əlinin yeni yürüşləri Unikar-İskelessi müqaviləsinə görə, çar Nikolaya türk-misir münaqişəsinə müdaxilə etmək və hətta İstanbulu tutmaq hüququ verirdi. Rusiya və Osmanlı imperiyası arasında bağlanmış Unkiar-İskelessi müqaviləsi ingilis-rus ziddiyyətlərini gərginləşdirən əsas səbəblərdən biri oldu.

İngiltərənin xarici işlər naziri Palmerston, eləcə də mühafizəkarlar Rusiyanı İstanbula buraxmaq, bir neçə ildən sonra onu Hindistanda görməy anlamına gəlir deyərək həyacan təbilini çalırdılar. Osmanlı imperiyasının, eləcə də İranın Rusiya tərəfindən həzm olunmasının qarşısını almaq, Britaniya siyasətinin birbaşa vəzifəsi və əsas məsələsi sayılırdı. İngiltərə üçün Hindistanı itirmək Hollandiya və ya Belçikaya çevrilməyə bərabər olardı. Palmerston və onun həmfikirləri, özlərinin rəyinə görə, İngiltərənin böyük dövlət olaraq qorunub saxlanılması üçün mübarizə başladılar.

Fransada Tyerin kabinetə daxil olmasl ilə aydın oldu ki, fransız diplomatiyası bu və digər dərəcədə Ərəbistana və əgər işlər yaxşı gedərsə, Misirə də əl qoymaq niyyətindədir. Palmerston bundan çox narazı idi. O, Misir və Ərəbistanda Fransanın nüfuzunun möhkəmlənməsini qətiyyən istəmirdi Palmerston dərhal tədbirlərə əl atdı. Londondakı Avstriya diplomatı baron Neyman vasitəsilə Metternixə çatdırdı ki, o, Əlcəzairi ələ keçirmiş fransızların, indi də Misirə göz dikmək və "İngiltərəni Aralıq dənizindən qovmaq" niyyətlərinə qarşı mübarizə aparacaq. Avstriya diplomatiyası dərhal hərəkətə keçdi və Palmerstonun söylədiklərini Peterburqa çatdırdı. Nikolay bunu türk-misir məsələsi ilə bağlı ingilislərlə təmasa keçmək üçün əlverişli imkan kimi dəyərləndirdi.

13 iyul 1841-ci ildə çarın razılığı ilə bir tərəfdə Osmanlı imperiyası, digər tərəfdə isə Rusiya, İngiltərə, Prussiya və Fransa olmaqla Bosfor və Dardanel boğazları ilə bağlı müqavilə imzalandı: müqavilənin şərtlərinə görə, Osmalı imperiyası müharibədə iştirak etmədiyi dövrdə hər iki boğaz hərbi gəmilər üçün bağlı elan olunurdu. Müharibə dövründə isə Osmanlı imperiyası hansı dövlətlə əlverişli şərtlər əsasında dil taparsa, boğazlardan yalnız həmin ölkənin gəmiləri keçə bilərdi. Nikolay Fransanın bu müqavildə iştirakına etiraz etmədi. Çünki bu dəfə hətta Palmerstonun da fikricə, Fransa olmadan keçinmək mümkün deyildi. Dörd ölkənin özünə qarşı dayandığını görən Fransa, Məhəmməd Əlini dəstəkləməkdən əl çəkdi.

Artıq Dünya güclərnin bu razılaşmasından sonra Məhəmməd Əlinin imperiyası dağıldı. Bir çoxları Misir hakiminin öz qoşunlarını Ərəbistan, Suriya və Kritdən çıxarması ilə bağlı qərarını, Fransadan gözlədiyi köməyi ala bilməməsi və İngiltərəyə qarşı duruş gətirməyi bacarmaması ilə əlaqələndirirdilər.

Misir hakimi 1841-ci ilin avqustunda öz hərbi rəislərinə Nəcd və Yəməndən təxliyə olunmaqla bağlı əmr verdi, iyun ayında Xurşidin qoşunlarının Nəcd və Əl-İhsədən, İbrahim Ki-

çiyin isə Yəməndən çıxarılması tam sürəti ilə gedirdi. Məhəmməd Əli bütün qoşunlarını Misir yaxınlığına yerləşdirmişdi ki, türklər, ingilislər və onlarla ittifaqda olan ölkələrlə istənilən an başlaya biləcək böyük müharibədə ordu dağınıq olmasın.

Artıq Məhəmməd Əlinin xəzinəsi borc içində üzürdü, varislərinin talançılığı, onların avropalı monarxlar kimi həyat tərzi sürmək istəkləri xəzinəni silib-süpürmüş, ölkəni ildən-ilə artan borcların məngənəsinə vermişdi. Süveyş kanalının çəkilişi və avantürist işğalçılıq müharibələri üzündən, Osmanlı imperiyası kimi Məhəmməd Əlinin Misiri də kredit verənlərin – Avropa dövlətlərinin nəzarəti altına düşmüşdü. Bundan sonra İngiltərə misir maliyyəsi üzərində nəzarəti tamamilə öz əlinə keçirdi və ölkədə daimi olaraq qarnizonlarını yerləşdirdi. Bununla da formal olaraq Osmanlı süzerenliyində olan Misir faktiki olaraq İngiltərənin protektoratlığı altına düşdü.

Məhəmməd Əlinin qoşunları Mərkəzi Ərəbistanı həmişəlik tərk edirdi. Lakin o vaxt bunu hələ heç kim bilmirdi. Həcddə hələ də rəmzi Misir qarnizonu qalırdı ki, onlarda dalğalanan "bayrağlarını göstərərək" yerli Əmir Xalidi dəstəkləyirdi.[131]

Əmir Xalid Xurşidin qoşunları Mərkəzi Ərəbistandan çıxarıldıqdan sonra hakimiyyətdə yalnız bir il ərzində qala bildi. 1841-ci ildə Məhəmməd Əli geri çəkildikdən sonra Sultan Sarayı Nəcdə qarşı iddia ilə çıxış etdi, oranın Sultanın vassalı tərəfindən ələ keçirildiyini əsas gətirərək, Xalidin də osmanlı vassalı kimi tanınmasını tələb etdi. Hər halda, məşhur türk tarixçisi Cövdət belə yazırdı. Lakin Xalidin mövqeləri getdikcə zəifləyirdi. Misirin əlində oyuncaq olduğuna görə o, hamı tərəfindən nifrətlə qarşılanırdı. Misirdə sürgündə olarkən az-çox avropalı təhsillə tanış olması da ona kömək etmək əvəzinə, daha da zərər yetirirdi, belə ki, Xalidin Nəcddə əyləncələrə meyilli olması, nüfuzuna sarsıdıcı zərbə vururdu. Orada

saxlanılan misirli əsgərlərə maaş verilmədiyindən, onlar oğurluq və talançılıqla məşğul olurdular.[133]

1841-ci il avqust ayında Xalidin uzaq qohumu, Səudlar xanimanı banisinin nəticəsi və vaxtilə bu şəhərə rəhbərlik etmiş Əal Sunayan qolunun yeganə nümayəndəsi Abdallah ibn Sunayan üsyan bayrağı qaldırdı. İbn Sunayan vaxtilə Cənubi İraqdakı müntəfiq tayfasının yanına qaçmışdı, sonra Əl-Harika hakimi Türkü əl-Həazzaninin (imam Feysəlin keçmiş müttəfiqi), imam ailəsi üzvlərinin, eləcə də subay, əcmən və əal-murra tayfalarının dəstəyini qazanmaq məqsədilə Nəcddə peyda oldu. Üsyan rəhbəri burada qalan Misir ordusunun qalıqlarını, sayı min nəfərə çatan misirli əsgərləri ölkədən qovmağa səslədi. Mövqeyinin zəif olduğunu anlayan Xalid Abdallah İbn Sunayandan aman istədi, lakin o imtina etdi. Xalid payızda öz qoşununu Şərq vilayətlərinə apardı və bir daha Ər-Riyada dönmədi.[134]

Xalidin gedişindən sonra İbn Sunayan Nəcdi öz nəzarətinə aldı. 1841-ci ilin sonlarında isə Ər-Riyadı da ələ keçirdi.

Ömər ibn Ufaysan Xüfufa göndərildi və çox keçmədən Nəcd əmirinin adından vilayəti öz nəzarətinə aldı, hətta Əl-Ukayrı da bəhreynlilərdən qopara bildi, lakin yeni əmirin Oman istiqamətinə irəliləmək cəhdləri ingilislərin müqaviməti ilə qarşılandı.

İbn Sunayan Məkkə şərifi Məhəmməd ibn Əuna, həmçinin 1841-ci ilin sentyabrında Ciddəyə yeni təyin olunmuş Osmanlı valisi Osman paşaya qiymətli hədiyyələr göndərdi.[135]

İbn Sunayanın düşmənlərinə qarşı üsulları çox amansız idi, görünür, o bunu Məhəmməd Əlidən əxz etmişdi. O, tez-tez öz düşmənlərini edam etdirirdi, məsələn, özünə qarşı çıxan Əal Sudəyrə ailəsinin üzvlərini də belə amansızlıqla qətlə yetirmişdi, halbuki ö dövr Ərəbistanı üçün düşmənləri bağışlamaq ənənəsi çox geniş yayılmışdı. Şəmmar səlnaməçisi Dari ibn

Rəşid onu belə xarakterizə etmişdi: “O çox cəsur insan idi, lakin görünür, çox qanlar axıtmış, çoxlu dindarı qətlə yetirmişdi; ona nifrət edirdilər, amma Feysəli sevirdilər”*. (bax. İbn Rəşid. Dari İbn Füheyd. Nübza Tarihiyyə ən nəcd (Nəcdə dair tarixi oçerk). Ər-Riyad, 1996)

1838-ci ildən Misirdə əsirlikdə olan Feysəl ibn Türki oradan 1843-cü ildə qaça bildi. Bəzi tarixçilərə görə ona qaçmaqda Məhəmməd Əlinin nəvəsi – Abbas paşa kömək edir. Abbas paşa bu addımı ya gələcəkdə Feysəlin köməyinə ümid etdiyi, ya da arzusunda olduğu müstəqil imperiya qurmaq məqsədilə Ərəbistan ərəblərini əməkdaşlığa cəlb etmək üçün atmışdı. Həm Məhəmməd Əli, həm də onun varisləri çox gözəl anlayırdılar ki, Mərkəzi Ərəbistanda formalaşan müstəqil əmirlik, hər şeydən əvvəl Osmanlı imperiyasının rəqibi olacaq.[136]

Feysəl Cəbəl-Şəmmara gəlib çıxdı, burada köhnə dostu Abdullah Əal Rəşid onu böyük sevinclə qarşıladı. Feysəl onun şəxsən dostu idi ki, bu da Ərəbistan şəraitində mühüm siyasi amillərdən biri hesab olunurdu. Hail hakimədə əmirə adamlar, mal-qara və pul təklif etdi.

Feysəl Nəcdə nümayəndələr göndərərək, qayıdışını xəbər verir və sakinləri önu dəstəkləməyə çağırırdı. Bundan xəbər tutan İbn Sunayan öz tərəfdarlarını mobilzə etdi, lakin tezliklə onun qoşunlarında fərarilik başlandı. Nəcd tədricən Feysəlin tərəfinə keçməyə başladı; öncə Qasim, Südəyr və Vəşm onun tərəfinə adladı. İbn Sunayan Ər-Riyada qaçdı. Subay, suhul, əcmən, eləcə də mütəyrə kimi bədəvi tayfalar Feysəli dəstəkləməyə başladılar.

İbn Sunayandan qaçan çoxsaylı döyüşçülər də ona qoşularaq, qoşunun sayını artırırdı. Feysəl Sunayana bütün əmlakı ilə birlikdə paytaxtı tərk edərək, Nəcd yaxınlığında məskunlaşmağı təklif etdi, ona yaxşı təminat vəd olundu. amma İbn Sunayan təklifdən imtina etdi və qalada gizləndi.

Paytaxt sakinləri Feysəlin tərəfinə keçdilər.1843-cü ilin yayında Ər-Riyad təslim oldu. İbn Sunayan tutuldu və 1843-cü ilin iyulunda həbsxanada öldü.[137]

# Osmanlı imperiyası – "xəstə adam"

Avropa siyasi səhnəsində diqqət Şərqə yönəlmişdi. Bu da Osmanlı imperiyası ətrafında yaranmış vəziyyətlə əlaqədar idi. 9 yanvar 1853-cü ildə İngiltərə diplomatik korpusunun rəhbər nümayəndələri Hamilton və Seymurun da iştirak etdiyi böyük knyaginya Yelena Pavlovna tərəfindən verilən ziyafət gecəsində, Seymura yanaşan çar İ Nikolay Osmanlı imperiyasından söz salaraq, imperiyanı xəstə adama bənzətdi. Məhz bu görüşdən sonra Nikolay bütün ömrü boyu Osmanlı İmperiyasından söz açarkən, öz terminologiyasını dəyişmədi.

Bu söhbətlərin məğzi məlum idi: çar İngiltərəyə Osmanlı imperiyasını birlikdə bölüşdürməyi təklif edir, özü də bu zaman Ərəbistan, Mesopotamiya və Kiçik Asiyanın taleyi ilə bağlı isə heç bir fikirdə irəli sürmürdü.

Lui-Napoleon, hələ prezident olmazdan öncə türk hökumətinə bildirmişdi ki, o, katolik kilsənin, müqəddəs yerlərdə, - Qüds və Vifliyem məbədlərindəki hüquq və üstünlükləri ilə bağlı Osmanlı imperiyası ilə 1740-cı ildə əldə edilmiş razılaşmanın qorunub saxlanmasını və bərpasını arzu edir. Sultan buna razılaşdı, amma İstanbuldakı rus diplomatik korpusundan qəti etiraz daxil oldu və türklərə Kiçik Qaynarca sülh müqaviləsinə əsasən həmin yerlərdə pravoslav kilsəsinin katolik kilsədən üstün tutulacağı ilə bağlı şərtin olduğu xatırladıldı.

Hər halda, Nikolay yenə də öz iddiasından əl çəkmirdi.Ona elə gəlirdı ki, III Napoleon Osmanlı imperiyasına görə heç vaxt Rusiya ilə döyüşməz, Avstriya da buna cürət etməz, İngiltərə isə Avstriya və Fransasız hərəkətə keç-

məz. İngiltərədən rədd cavabı alan çar, təkbaşına hərəkət etmək qərarı verdi və ilk növbədə Osmanlı imperiyasına qarşı hələ ki, hərbi deyil, diplomatik hücuma keçməyə başladı.

Dəniz naziri Menşikova böyük bir nümayəndə heyəti toplayaraq, həmin heyətin müşayiəti ilə hərbi gəmidə İstanbula gedərək sultana qəti tələblərini çatdırmağı tapşırdı. Tələblərin hamısı yerinə yetirilməyəcəyi təqdirdə isə Menşikova ultimatum irəli sürmək səlahiyyəti verdi.

Menşikovun missiyası isə Osmanlı imperiyasına qarşı tələblər irəli sürməklə, pravoslav əhalinin yaşadığı Osmanlı ərazilərində sultan hakimiyyətinin ləğvinə hesablanmışdı. Həmçinin Menşikova işarə vurulmuşdu ki, bu diplomatik hərəkətlər hətta Rusiya ilə Osmanlı imperiyası arasında müharibəyə gətirib çıxarsa belə, Qış sarayında (Sankt-Peterburqdakı Çar sarayı) buna görə ona heç kim qəzəblənməyəcək.

Menşikov özünü olduqca təkəbbürlü aparırdı. O dərhal bildirdi ki, müqəddəs yerlərlə bağlı (söhbət Qüds və Vifliyemdəki məbədlərdən gedir) məsələdə fransızların tərəfini tutan xarici işlər naziri Fuad əfəndi ilə iş görmək arzusunda deyil. İki rus korpusunun Bessarabiyada toplanmasından təşvişə düşmüş sultan, Fuadı işdən çıxararaq, yerinə Menşikova sərf edən Rifəət paşanı təyin etdi. Avropada hətta Menşikovun zahiri fitnəkar hərəkətlərini, özünü necə aparmasını - onun baş vəzirin yanına paltosunu çıxarmadan daxil olmasından tutmuş, sultan Əbdül Məcidlə kəskin danışmasına qədər hər şeyi böyük diqqətlə izləyirdilər.

Sultanın təşvişi qəzəblə əvəz olunsada,lakin o, çarəsizlikdən nə edəcəyinidə bilmirdi. 5 aprel 1853-cü ildə rusların Osmanlı imperiyasında nüfuzunun artmasının köhnə əleyhdarı və Nikolayın şəxsi düşməni, hələ 1832-ci ildə Nikolayı təhqir etmiş və Osmanlı imperiyasını rusların təhdidindən hətta silah gücü ilə qorumağın qəti tərəfdarı olan Stretford-Kanninqin

İstanbula Britaniya səfiri qismində qədəm qoyması sultanı yenidən təşvişə saldı. Bu səfərə qədər isə Londonda hökumətin tərkibində də dəyişikliklər baş vermişdi: lord Rosselin əvəzinə xarici işlər üzrə stats-katib lord Klarendon təyin edildi.İlk əvvəl Peterburqda bu dəyişikliklərin hökümət başçısı Eberdinin Rusiyaya xeyirxahlığı kimi başa düşürdülər.Amma Klarendon elə ilk işi Stretford -Kanninqə çox geniş səlahiyyətlər verərək onu İstanbula göndərmək oldu. Oda məsələni tezliklə müharibəyə doğru çəkə bildi. Özü də bunu çox incəliklə, ağılla etdi. Ehtiyatsız, özündənrazı, eyni zamanda diplomatiyada diletant olan Menşikovu, ehtiyatlı və təcrübəli intriqaçı ingilis diplomatı ilə müqayisə belə etmək mümkün deyildi. Menşikovun özünü aparmasından, ona verilən tapşırığın və çarın əsas niyyətlərinin nədən ibarət olduğunu çox gözəl anlayan Stretford, sultana və onun nazirlərinə ruslar tərəfindən irəli sürülən bütün tələbləri (Rusiya və Fransa arasında müqəddəs yerlər uğrunda gedən mübahisə nəzərdə tutulur) yerinə yetirməyi məsləhət gördü. Stretforda aydın idi ki, Menşikov bununla kifayətlənməyəcək, çünki, o, İstanbula heç də bundan ötrü gəlməyib. Menşikov elə tələblər üzərində israr etməyə başlayacaq ki, bunlar artıq təcavüzkar səciyyə daşımağa başlayacaq və belədə, İngiltərə və Fransa Türkiyəni müdafiə edəcəklər.

Bütün bu baş verənlərin müqabilində Menşikov, Osmanlı imperiyası ilə əlaqələrin kəsilməsi barədə bəyanat verərək , 21 may 1853-cü ildə öz nümayəndə heyəti ilə birlikdə İstanbuldan Odessaya geri qayıtdı.

Stretfordun məsləhəti ilə sultan 4 iyunda xristian kilsələrinin, xüsusilə də pravoslav kilsəsinin hüquq və imtiyazlarının qorunmasına dair fərman imzaladı. Lakin bu da kömək etmədi. Nikolay manifest imzalayaraq, əcdadları kimi Osmanlı imperiyasına daxil olan ərazilərdəki pravoslav kilsələrini müdafiə edəcəyini bildirdi və əvvəllərdə türklərlə bağlanmış müqavilələrin şərtlərinə sultan tərəfindən əməl olunmamasını

bəhanə gətirərək, Dunay knyazlıqlarını (Moldaviya və Valaxiyanı) tutmaq məcburiyyətində qaldığını bəyan etdi. 21 iyun 1853-cü ildə rus qoşunları Prut çayını keçərək, Moldaviyaya soxuldu. Osmanlı imperiyasına müharibə hələ elan edilməmişdi. Osmanlı imperiyası da Rusiyaya müharibə elan etməmişdi.

Artıq martda, Menşikovun İstanbuldakı ilk addımlarından xəbərdar olan kimi III Napoleon Tulonda lövbər salmış hərbi donanmasına dərhal Egey dənizinə çıxaraq, Salamində hazır vəziyyətdə durmaq əmri vermişdi. Napoleon Rusiya ilə müharibə etməkdə qərarlı idi. Osmanlı imperiyasını rusların işğalından qorumaq fransız imperatoru üçün qəti zərurət idi, bu Türkiyə imperiyasına edilmiş xeyli fransız maliyyə yatırımları və ümumilikdə, Şərqdə fransız iqtisadi maraqlarının qorunması ilə bağlı idi.

Oktyabr ayı yetişdi. Stretford və fransız səfir Lakurun inandırmaları sultanı Rusiyaya müharibə elanına vadar etdi.

18 (30) noyabr 1853-cü ildə admiral Naximovun komandanlığı altında hərəkət edən rus donanması Sinop buxtasında türk donanmasına hücuma edərək, onu darmadağın etdi və sahil istehkamlarını da dağıtdı.

Dekabrın ortalarında III Napoleon Parisdəki Britaniya səfiri lord Kauliyə elan etdi ki, o, öz donanmasına Qara dənizə daxil olmaq barədə əmr vermək niyyətindədir. Elə bu xəbər Britaniya kabinetini də hərəkətə gətirdi.

4 yanvar 1854-cü ildə iki admiralın rəhbərliyi altında birləşmiş ingilis-fransız donanması Qara dəniz sularına daxil olaraq, rus hökumətinə türk gəmilərini və limanlarını rusların hücumlarından qorumaq üçün tapşırıq aldıqlarını bəyan etdilər.

Osmanlı imperiyasında faktiki olaraq Stretford-Redklif və fransız səfiri Baraqe d'İlye vəziyyətə nəzarət edirdilər. Sultana yalnız Stretford və Baraqe d'İlyenin daim qəzəbli

şəkildə bir-biri ilə mübahisə etmələri yeganə təsəlli idi. 29 yanvar 1854-cü ildə Fransız imperiyasını rəsmi orqanı olan "Monitor"da fransız imperatoru III Napoleonun ümumrusiya imperatoru Nikolay Pavloviçə məktubu dərc olundu. Nikolay buna mənfi cavab verdi. Parisə rəsmi cavab məktubu göndərilməsi ilə eyni zanamda həmin cavabın surətini Rusiya Xarici İşlər Nazirliyini orqanı olan "Jurnal de Sen-Petersburq"da dərc etdirdi.

Maraqlıdır ki, hər iki həmsöhbət sanki Osmanlı imperiyasını yaddan çıxarmışdılar. III Napoleon hətta nəzakət xatirinə də olsa, əlinə qılınc götürərək uğrunda qanlı müharibəyə hazır olduğu ölkənin "müstəqilliyini" dilə gətirmək lazım olduğunu belə ağlına gətirmirdi.

İttifaq qoşunlarının Krıma çıxarılması ilə hücum sırf müdafiə xarakteri almış oldu, Hələ sahiləçıxma faktiki başa çatmamış III Napoleon "dörd bənd" formalaşdırıb, bunlardan Avstriya, Prussiya və əlbəttə ki, İngiltərəni xəbərdar etməyi və həmin sənədi dörd ölkənin adından Nikolaya təqdim etməyi tapşırdı.

Alma, Balaklava, İnkerman yaxınlığında qanlı döyüşlərlə və Sevastopolun (Krımdakı rus şəhərləri, XVIII əsrin əvvəllərinə qədər isə bu şəhərlərin hamısı, ümumilikdə, bütün Krım yarımadsı Osmanlı imperiyasının müttəfiqi olan tatarlara məxsus idi – Müəllif) ilk bombardmanları ilə yadda qalan 1854-cü ilin dəhşətli payızı gəldi.

Bu ərəfədə III Nikolayın qəfil ölümü (1855-ci il fevral ayı) sülhə qısamüddətli ümidlər yaratdı.

27 avqust (köhnə st.) 1855-ci ildə Sevastopol ələ keçirildi və yenidən böyük diplomatik oyunlar başladı.

Bununlada müttəfiqlər Rusiya ilə müharibəni udurdular.

İngilislər müharibəni davam etdirmək istəyirdilər. “Bizim üçün sülh təhlükəsi var” Palmerston öz qardaşına məktubunda açıqca belə yazmışdı. İngiltərə diplomatiyası ilk növbədə bütün Krımı Perekopa qədər ələ keçirib, onu Osmanlı imperiyasına “qaytarmaq”, sonra Qafqaza çıxaraq Gürcüstanı, eləcə də bütün cənubi-şərqi Qafqazı ələ keçirib, Şamil üçün “Çərkəzistan” qurmaq, onun özünü isə Osmanlı imperiyasının qanadı altında İngiltərənin vassalına çevirməklə, rusların İrana girişinin qarşısını almaq niyyətindəydilər. Lakin III Napoleon İngiltərənin bu cür güclənməsini arzu etmirdi, əksinə Rusiyaya bunu önləmək üçün bəzi hallarda fydalı olacaq vasitə kimi baxmağa başlamışdı. Rusların Hindistana yürüşünün qarşısının alınması üçün Qafqazda fransız qanının axıdılmasını Napoleon artıq bir iş hesab edirdi. Elə bu məqsədlə də o, deaf Morniyə Rusiya ilə “şəxsi müstəvidə” əlaqələri bərpa etməyi tapşırdı.

Paris sülh konfransı öz işinə fevralın 25-də başladı və 30 mart 1856-cı ildə sülh müqaviləsinin bağlanması ilə başa çatdı. Konfransa I Napoleonun qrafinya Valevskidən doğulan oğlu, Fransanın xarici işlər naziri qraf Valevski sədrlik edirdi. Konqresin elə ilk toplantılarından hamıya aydın idi ki, Valevski ingilisləri formal olaraq dəstəkləyəcək.

Beləliklə III Napoleon istədiyi hər şeyi əldə etdi: Osmanlı imperiyası rus işğalından qurtuldu; nəticə etibarilə ruslar da İngiltərə işğalından kənarda qaldı; Fransa silahı yeni şöhrətə büründü; 1812-ci ilə görə “revanş” edildi; fransız imperatoru ölkə daxilində öz taxt-tacını möhkəmləndirdi və Apropada birincilik qazandı.

## Riyad əmirliyi

Baş verən bütün bu hadisələr Osmanlı imperiyasının taleyinin dünyadakı qüvvələr nisbəti ilə necə sıx çulğalaşdığını bir daha aydın şəkildə göstərdi. Osmanlı imperiyasının daxilindəki təsisatların gələcəyi təkcə ölkənin daxilindəki qüvvələr nisbəti ilə deyil, həm də London, Berlin, eləcə də Peterburq və Parisdə qəbul edilən qərarlardan asılı idi.

Osmanlı imperiyasının daxilində daha bir əsaslı problem də kəskinləşməyə başladı və bu proseslər London, Berlin, eləcə də Peterburq və Parisdən ciddi izlənilirdi.

Lakin Krım müharibəsi daha çox Böyük Britaniyaya Osmanlı coğrafiyasında əl-qolunu açmaq üçün böyük imkanlar yaratdı . Onlar Osmanlı imperiyasından formal olaraq müstəqil olan amma hələdə İstanbulun təsir çevrəsində olan Fars körfəzi əmirliklərini ələ keçirməyə başladılar (bəlkə də buna Osmanlı imperiyasının sultanı özü razılıq vermişdi; ingilislərin Krım müharibəsində türklərlə müttəfiqliyinə görə və ya Krım savaşı zamanı çox böyük həcmdə yığılan Osmanlı borclarının müəyyən hissəsinin silinməsi müqabilində– müəllif). Böyük Britaniyalıların bu regionda yerləşməsini Rusiyadan boyük qısqanclıqla izləyirdilər.

Ruslar çox gözəl bilirdilər ki, Riyad əmirliyi formal olaraq Osmanlı imperiyasının vassalı olsa da, faktiki olaraq müstəqil siyasi fəaliyyət göstərməyə səy edir.Amma Riyad əmiri Feysəl özünü çox ehtiyatla aparır, türklərlə toqquşmamağa çalışır.

Lakin Feysəl Böyük Britaniyanın qüdrətini anlayaraq onlara üstünlüyü verirdi.

Səudların yeni lideri Feysəl ibn Türki təbii ki, güclü əmir idi. O dövr üçün daha inkişaf etmiş Misirdə topladığı həyat təcrübəsi və Ərəbistan şəraitində idarəetmə bacarığı, amansızlıqla yumşaqlığı birləşdirmək qabiliyəti, güzəştlərə hazır olması onun əsas məziyyətlərindən və üstünlüklərindən idi. Misirlilər, türklər və ingilislərlə artan təmaslar Riyad əmirini beynəlxalq aləmldə baş verənləri dərindən anlamağa imkan verirdi o anlayırdı ki, Mərkəzi və Şərqi Ərəbistan digər ölkələrdə baş verən hadislərdən təcrid olunmuş formada yaşaya bilməz.

Ərəbistanın şərq vilayətləri üzərində öz nəzarətini təmin etdikdən sonra Feysəl cənubdakı Əl-Əflacla və Əd-Dəvasir vadisi ilə məşğul olmağa başladı.[138]

Riyad əmiri əcmənlərin üsyanını yatırmaqla və Nəcdin cənub vilayətlərində qayda-qanun yaratmaqla məşğul olduğu vaxt, bu ərəfədə isə Qasim və Cəbəl-Şəmmar arasında köhnə düşmənçilik yenidən baş qaldırdı. 1845-ci ilin sentyabrında Anayza sakinləri şəmmarların üzərinə hücum çəkərək, onların qiymətli dəvə karvanını ələ keçirdi. Şəmmarlar buna cavab olaraq pusqu qurub, Anayza əmiri Abdallah ibn Zamili əsir götürdülər. Cəbəl-Şəmmar hakimi Riyad əmirinə izahat məktubu göndərdi.[139]

Nə qədər ki, Abdallah ibn Rəşid sağ idi, Hail əmirliyi ilə və Ər-Riyad əmirliyinin münasibətləri dostluğa söykənirdi. Əmirlərin şəxsi dostluğu hətta qohumluq əlaqələri ilə də möhkəmlənmişdi, belə ki, Feysəlin böyük oğlu Abdallah, Hail əmiri Abdallah ibn Rəşidin qızı, Hail əmirinin oğlu Təlyal isə Feysəlin qızı ilə evlənmişdi. Hail əmirinin qardaşı hər ilin iki-üç ayını Ər-Riyadda Feysəlin qonağı olurdu.

1847-ci ilin mayında (yaxud iyunda) Abdallah vəfat etdi. Onun yerinə iyirmi beş yaşlı oğlu Talyal keçdi. Bu bir qədər qəribə görünürdü, çünki hamı Hail taxt-tacına varis olaraq özünü lider kimi göstərə bilmiş, Abdallahın qardaşı Ubaydın keçəcəyini gözləyirdi. Lakin guya o özü bunu istəməmiş və hakimiyyəti Talyala vermişdi. Talyal əmir olduqdan sonra, Səudlara sadiq olduğunu nümayiş etdirmək məqsədilə Ər-Riyada hədiyyə olaraq dəvələr və atlar yola saldı.[140]

Bu ərəfələrdədə Feysəl Qasim üzərində tam nəzarəti ələ keçirməyə can atırdı,lakin o buna müvəffəq ola bilmirdi. Ş.Yuberin hesablamalarına görə, XIX əsrin 70-ci illərində bu vilayət (Qasim vilayəti)özündə 20-dək şəhər və kəndi birləşdirirdi. Dəvə ticarəti və karvan daşımaları vasitəsilə ticarətlə məşğul olan Burayda şəhərinin 10 min nəfər əhalisi var idi.[141] 60-cı illərin əvvəllərinə qədər buranı vilayətin iri feodalları sayılan Əal Ulayyanılar idarə edirdi.

1849-cu ilin yazında Feysəl əlinin altında olan bütün qüvvələri toplayaraq, qoşuna oğlanları Abdallah, Məhəmməd və Səudu, eləcə də qardaşı Cilüvini rəhbər təyin etdi. Din xadimlərini, o cümlədən Vəhhabizmin banisi Məhəmməd ibn Əbdül Vəhhabın nəticəsi Əbd əl-Lətifi də onlara dəstək olaraq yola saldı. İbn Bişrin dediyinə görə Feysəl qüvvələr nisbətində xeyli üstün olsa da, artıq qan axıtmaq istəmirmiş və bu niyyətlə də Qasim əhalisinə aşağıdakı məzmunda müraciət də etmişdi: "Din bütün icmanı əhatə etməyəndə əhəmiyyətsiz olur, icma isə tabe olmadan yaşaya bilməz. Siz əmrlərimizi yerinə yetirməkdən boyun qaçırırsınız, bizə tabe olmursunuz. Siz anlayırsınızmı ki, müharibə oddur, insanlar isə orada yanan çırpıya bənzərlər, mən bir müsəlmanın belə ölümünü istəmirəm. Ona görə qanınızın axıdılmasının baiskarı olmayın, tabe olun, sizlər və atalarınız əvvəllər tabe olduğu kimi".[142]

Feysəl Qasimi tezliklə öz təsiri dairəsinə daxil etdi. Qasimdə öz hakimiyyətinə qarşı müxalifət yaratmamaq məqsədilə Feysəl hələ ki, ənənəvi hakimi dəyişməyə qərar verə bilmirdi, elə buna görə ona qarşı üsyana rəhbərlik edən Əbd əl-Əziz Əal Ulayyanın ailəsinin bağışlanmaq üçün ona müraciətindən sonra onu Anayza əmiri kimi saxladı. Lakin Feysəl bununla yanaşı qardaşı Cilüvini Anayza mərkəz olmaqla, bütün Qasimin hakimi təyin etdi. Bu köhnə təcrübədən uzaqlaşmaq idi. Əvvəllər vilayətlərin ümumi əmiri olmurdu və Əd-Diriyyəyə və bu vilayətin iki şəhərinə ayrılıqda ya rəhbər təyin edirdi, yaxud da fəaliyyətdə olan əmiri həmin vəzifəyə təsdiq etməklə kifayərlənirdi.[143]

Osmanlı hakimiyyəti formalda olsa halədə onun vassalı olan Misir paşasının Asir və Yəməndə acizliyini və oradakı yerli güclərlə başara bilmədiyini və ya bunu etmədiyini görərək 1849-cu ilin aprelində hərbi gəmilərlə Hodeydəyə öz qoşunlarını göndərdi. Məkkə şərifi Məhəmməd ibn Aun da öz dəstəsi ilə Hodeydəyə gəldi. Bu güclərin qarşısında gücsüzlüyünü görən Yəmən imamı türk qarnizonun Sanada qalmasına və xərac ödəməyə razılıq verdi.

Lakin 1851-52-ci illərdə Asir və Yəməndə yerli bədəvi ərəblərinin gecə hücumu nəticəsində türklər qarnizondaca tərki silah oldular. Mərkəzi hakimiyyət bu hücumun təşkilində ve bədəvilərin silahlandırılmasında Məkkə şərifindən şübhələnirdilər.

Asir və Hicaz, eləcə də hərb tayfaları ilə yaxşı münasibətlər quran və Misir paşası Abbasla əlaqə saxlayan Məkkə şərifi öz mövqeyini möhkəmləndirməkdə idi. Lakin onun məhz bu hərəkətləri osmanlı hakimiyyətinin şübhələrinə yol açdı və 1852-ci ildə Ciddə əmiri İstanbuldan şərif Məhəmməd ibn Aun və onun iki böyük oğlunun Türkiyə paytaxtına göndərilməsi barədə əmr aldı. İbn Aunu tələyə salmaqla bu əmri yerinə

yetirmək mümkün oldu. Əbd əl-Mütalib adında birisi Məkkənin yeni şərifi təyin edildi.[144]

Ərəbistan çölünün şərq hissəsindəki Oman əmirliyi nəcdlilərin və ingilislərin rəqabət sferasına daxil idi. Hələ 1845-ci ildə hakimiyyətə qayıtdıqdan az sonra Feysəl Əl-Bürəymə hakimi Səad ibn Mütləqin başçılığı altında Əman sərhədinə qoşun göndərdi. Bu hərbi rəis üç onillik müddətində Əl-Bürəymə hakimi olmuşdu və mərkəzi İstanbul hakimiyyətinə sonra da Xurşid paşa və Xalidə, nəhayət Feysələdə xidmət etməyi başarmışdı və Omanla bağlı işlərdən çox əla xəbərdar idi.

Lakin 1850-ci ildə Feysəl Səad ibn Mütləqi vəzifəsindən kənarlaşdırdı (görünür, buna səbəb Feysəlin Səad ibn Mütləqə artıq etibar etməməsi idi – Müəllif).

1853-cü ildə Feysəlin oğlu Abdallah qoşunla buraya gəldi. Yerli tayfa başçıları və sahilyanı knyazlıqların hakimləri Ər-Riyada tabe olduqlarını nümayiş etdirməyə tələsdilər. Həmin vaxt Səudların təsiri bu yerlərdə çox güclü idi, lakin tarıxin gərdişi bu bölgələrdə dəyişməyə başladı yerli hakimlərlə görüşən Britaniya rezidenti, onları "əbədi sülh müqaviləsi" bağlamağa məcbur etdi. Səudların rəhbərliyi altında nəcdlilərin qoşunları Omanın baş şəhəri Məsqətə yaxınlaşdılar. Şəhəri Britaniya eskadrası müdafiə etdi, ingilislər diplomatik manevr edərək Əs-Sohərə və Məsqət hakimlərini ildə Ər-Riyada 12 min rial xərac ödəməyə razı saldılar.

1853-cü ilin dekabrında Feysəlin oğlu Abdallah , Əhməd Əal Sudayranı Əl-Bürəymaya rəhbər təyin edib oranı tərk etdi; sonuncu həmin vəzifədə 1857-ci ilə qədər qaldı. Məsqət və Əs-Sohər, eləcə də Fars körfəzi sahillərindəki knyazlıqlar ingilislərdən asılı vəziyyətdə olmalarına baxmayaraq, Riyad əmirliyinə hələdə xərac ödəyirdilər. Əhməd Əal Südəyrədən

sonra onu həmin vəzifədə oğlu Türki əvəz etdi və 1857-ci ildən 1869-cu ilədək Əl-Bürəymənin hakimi kimi qaldı.[145]

Səudların Əd-Diriyyə zamanında olduğu kimi Riyad əmiri həm də imam idi, eyni zamanda müsəlman icmasının rəhbəri, baş komandan, baş hakim, eləcə də icra hakimiyyətinin başçısı hesab olunurdu. O demək olar ki, bütün məsələlərlə özü məşğul olurdu: həm daxili, həm də xarici siyasətlə bağlı mühüm məsələləri şəxsən özü həll edirdi, maliyyə və hərbi problemlər, yürüşlər və sülh haqqında qərarlar vermək və qərarların icrasına nəzarət, diplomatik nümayındələrin qəbulu, nümayəndələrin təyinatı və rəsmi müraciətlərin göndərilməsi onu nəzarəti altında idi, eləcə də müttəfiqlər, vassallar, qonşular və köçəri tayfalarla münasibətlərin idarə olunması da ona baxırdı.

Feysəl Abdallahı özünün varisi elan etdi, onu hərbi işlərə, Ər-Riyadın və mərkəzi rayonların idarəçiliyinə cəlb edirdi. Onun rəqibi, ikinci oğlu Səuda isə cənub rayonlarının idarə olunmasında geniş muxtariyyət verilmişdi. Üçüncü oğlu Məhəmmədə paytaxtdan şimaldakı rayonlar verilmişdi. Məhəmməd, Səudla Abdallah arasında mübahisədə ikinciyə daha sıcaq münasibətdə idi. Gələcəkdə Səudların yeni dövlətinin banisi olacaq ən kiçik oğlu, 1850-ci ildə anadan olmuş Əbdürrəhman isə müstəqil təyinat almaq üçün hələ çox gənc idi.[146] Lakin əmirliyin Feysəlin uşaqları arasında bölüşdürülməsi, onlara vilayətlərində "özlərinə" tərəfdar toplamaq imkanı verirdi ki, bu da qəbilələrarası çəkişmələrə yol açır və gələcəkdə ikinci Səudlar hakimiyyətinin hissələrə parçalanmasını qaçılmaz edirdi.

Həyatının son illərində Feysəlin səhhəti çox ağırlaşmışdı. Hələ Misirdə olarkən Feysəl göz xəstəliyinə (ola bilsin traxomaya-müəllif) tutulmuş və L.Pellinin 1865-ci ildə Ər-Riyada səfəri zamanı o, artıq kor olmuşdu. O vaxt Feysəl 70

yaşında idi və o, dövləti aktiv idarə edə bilmədiyindən, hakimiyyəti Abdallaha vermişdi.

"Səudlar ailəsi lazım gələn anda ağıllı və xaraktercə çox güclü insanları irəli verir, onlar da öz növbəsində hakim olduqları böyük ərazilərində separatçı elementlərəi nəzarət altında saxlaya bilir və sərt ədaləti təmin edə bilirdilər", R.Uaydner belə yazırdı. [147] Feysəl ibn Türki belə rəhbərlərdən idi.

Feysəl ibn Türki 1865-ci ilin dekabrında vəfat etdi. Hakimiyyətə taxt-tacın varisi Abdallah gəldi.

Britaniyalı rezident L.Pelli Feysəllə ilk görüşündən sonra onun təsvirini belə veirdi: "Mən imamı otağın uzaq küncündə kiçik, gözəl xalçanın üstündə oturmuş vəziyyətdə gördüm. Arxasını ağır yastığa söykəmişdi... Mən yxınlaşdıqda imam çətinliklə də olsa ayağa qalxdı. Əlimi əlinə alıb, yoxladı. Sonra mənə yanında, xalçanın üzərində oturmağı xahiş etdi. O, tamamilə heç nə görmürdü, lakin siması olduqca gözəl, düzgün cizgili, sakit, zabitəli-sakit ifadəli idi. 70 yaşından yuxarı görünürdü, çox zövqlü və olduqca bahalı libasda idi. Başına ərəb baş geyimi olan kufinin üzərindən yaşıl kəşmir şaldan türban atmışdı. Onun səsi yaxşı sabit-keçidli, sözləri sakit və ölçübiçili idi. Özünü ləyaqətlə, demək olar, yumşaq aparirdı. Lakin bununla yanaşı, onun düşmənlərinə qarşı necə sərt ola biləcəyi də açıq sezilirdi". [148]

Feysəlin ölümündən az əvvəl Məsqəti idarə edən ailənin yan budağına aid olan**,** Omandakı Ər-Rustak vilayətinin hakimi Əzzan ibn Kais, öz qohumu, Məsqət sultanı Süvəyniyə qarşı üsyana qalxdı və kömək üçün Türki Əal Südəyriyə* müraciət etdi. Üsyanı yatırtmaq üçün Məsqət sultanı Süvəyninin qoşunları 1864-cü ilin sonlarında Ər-Rustaka hücum etdi. Amma geri oturduldu. Səudilərin razılığı ilə Əzzan ibn Kaisin

---

* Əl-Bürəymidəki Nəcd canişini.

köməyinə gələn Türki əl Südəyrinin qoşunlarının Ər-Rustakda Süvəyninin qoşunlarını geri oturdular.

İngilislər Süvəyniyə kömək etməyə başlayıb Ər-Riyada öz etirazlarını bildirdilər.

Əks halda onlar Səudilərin sahildəki qalasını dağıdacaqları və gəmilərini ələ keçirəcəkləri ilə hədələdilər. Əslində onlar hədədən hərəkətə keçdilər. İngilis hərbi gəmisi "Hayflyayer" Fars körfəzinin Oman sahilində nəcdlilər üçün liman rolunu oynayan Əcməni top atəşinə tutdu, 1866-cı il fevralın əvvəlində isə Əl-Kətifdəki donanmanı və onun sularında dayanan bir neçə kicik gəmini məhv etdilər. Elə həmin vaxt sultan Süvəyni oğlu Səlim tərəfindən qətlə yetirildi və bu ingilislərin yeni vəziyyətdə manevr etmələrini çox çətinləşdirdi.[149]

Sultanın ölümündən sonra Omanı etirazlar dalğası bürüdü. Ata qatilinin hakimiyyəti çox qısa oldu. Ər-Rustakdan olan Əzzan ibn Kais üsyana qalxdı, 1868-ci il oktyabrın 1-də o,nəhayət Məsqətı ələ keçirdi. Əzzan əslində mühafizəkar ibadilik bayrağından istifadə edirdi buda onun mütəffiqləri olan Səudiləri bir qədər narahat edirdi. Səudilər onu vəhabizmin bayrağı altında birləşməyə dəvət etdilər.

Sanki buna cavab olaraq 1869-cu ildə Əl-Bürəymi əmiri Türki Əal Südəyri Şərcdə qətlə yetirilir.

1869-cu ilin iyununda Əzzan Əl-Bürəymidəki hakimiyyət boşluğundan istifadə edırək yerli tayfalarla sövdələşərək , Əl-Bürəymini ələ keçirir. Bu Azzan tərəfindən satqınlıq idi, çünki 1864-cü ildə o, Ər-Rustakda, məhz nəcdlilərin köməyi ilə duruş gətirə bilmişdi.

Baş verənlərə Abdallahın reaksiyası çox kəskin oldu. O Əzzana belə yazırdı: "Müsəlmanların imamı Abdallah ibn Feysəldən seyid Əzzan ibn Kaisə, oğruların imamına. Biz

etdiklərinizi eşitmişik. Biz 20 minlik qoşunla ora təşrif buyuracağıq. Ümid edirik ki, siz bizi lazımi səviyyədə qarşılayacaqsınız”. Riyad əmiri Omana yürüş üçün Əl-İhsədə qüvvvələr toplamağa başladı. [150]

Məsqətə vəlvələ düşdü. Lakin Abdallah Omana gedib çıxa bilmədi. Ər-Riyad əmirinin qardaşı Səud ibn Feysəlin onunla intriqa aparması və üsyana qalxması, Abdallahı paytaxtda qalıb öz hakimiyyətini möhkəmləndirməyə vadar etdi ki, bu da Əman yürüşünün alınmasına mane oldu.

Bu zaman Səud ibn Feysəl Əzzanla ittifaqa girdi. Abdallaha qarşı koalisiya yarandı ki, bura Məsqətin yeni sultanı Əzzan, Abu-Dabi hakimi və Səud ibn Feysəl daxil idilər.

Məhz bu qarşıdurmalar zamanı 1869-cu ildə XIX əsrdə Nəcdin ən nüfuzlu ilahiyyatçısı və qazisi hesab olunan İbn Əbd əl-Vəhhabın nəvəsi Əal əş-Şeyx vəfat etdi. Dini liderin zamansız ölümü Səud ibn Feysəl təsir etmək imkanlarını Abdullahın əlindən aldı. Səud ibn Feysəl Əal əş-Şeyxin tələbəsi olmuşdu və onu eşidirdi.

Tərslikdən Abdullahın yaxın dostu Həil hakimi Təlyal Əal Rəşid ölür. Əhaliyə onun yeni tapança ilə tanış olarkən, qəfildən açılan atəşdən öldüyü bildirilmişdi. Təlyal öləndə 45 yaşında idi.[151]

O, Abdullahla əməkdaşlığın tərəfdarlarından idi.

Təlyalı qardaşı Mitab əvəz etdi. On aydan sonra o, məclisin toplantısı zamanı Təlyalın böyük oğlu Bəndər tərəfindən qətlə yetirildi. Bəndər yeni əmir oldu. Lakin onun təhlükəli rəqibi ortaya çıxdı – bu, onun əmisi, sülalə banisinin üçüncü oğlu Məhəmməd ibn Abdallah Əal Rəşid idi. 1872-ci ildə oda Məhəmməd Bəndəri öldürdü. Cəbəl-Şəmmar yeni əmiri Məhəmməd ibn Abdallah Əal Rəşid oldu.[152]

1870-ci ilin payızında əcmən və Əal Murra tayfaları ilə ittifaq bağlayan Səud ibn Feysəl Əl-Ukəyrəyə çıxaraq, Əl-İhsəni ələ keçirdi. Abdallah vilayəti və onun paytaxtı Hüfufu yenidən nəzarət altına qaytarmaq məqsədilə oraya qardaşı Məhəm-mədin rəhbərliyi altında qoşun göndərdi. 1870-ci ilin dekabrında səhrada Cudə yaxınlığında döyüş baş verdi. Döyü-şün həlledici anında Məhəmməd ilə birlikdə gəlmiş subay kö-çərilərindən olan dəstə Səudun tərəfinə keçdi və bu, onun qələbəsini təmin etdi. Məhəmməd ibn Feysəl əsir alınaraq, Əl-Kətifdəki həbsxanaya salındı və türklər onu azad edənə qədər orada qaldı. Bütün Şərq vilayəti Səuda sadiqlik andı içdi.[153]

1871-ci ilin aprel-may aylarında Səud nəhayət ki, Ər-Riyad istiqamətinə hərəkət etdi. Abdallah Səudla döyüşdə növbəti dəfə məğlubiyyətə uğradı.[154]

Elə bu zaman çökməkdə olan əmirlik yeni təhlükə ilə üşləşdi. Bağdad qubernatoru, məşhur osmanlı islahatçısı, fəal siyasət tərəfdarı olan Midhət paşa şəraitdən istifadə eədərək, azalmaqda olan Osmanlı imperiyasının nüfuzunu bərpa etmək üçün Şərqi Ərəbistana qoşun yeritdi.Ancaq onun Şərqi Ərə-bistandakı hərəkətləri London və İstanbul arasında diplomatik böhrana gətirib çıxardı.[155]

Əl-İhsəni ələ keçirmək üçün türklər öz donanmalarını və Küveyt rəhbərindən aldığları daha 300 gəmini ora göndərdilər. Əsasən piyada qoşunlarından, eyni zamanda atlı dəstələrdən və topçulardan ibarət olan nizami ordunun sayı 4 min nəfər idi. Müntəfiqlər də quru yolu ilə daha min nəfər adam göndər-mişdilər. 1871-ci ilin mayında türk qoşunu Ras-Tannur yaxınlı-ğında sahilə çıxdı. Kiçik döyüşlərdən sonra türklər vilayətin bütün əsas şəhər və qalalarını ələ keçirdilər. Beləliklə də, Səud qardaşları ailə çəkişmələri üzündən Şərq vilayətini itirdilər. Elə o zaman Əl-Bürəymi vahələri də onların nəzarətindən çıxdı.

70-ci illərin ortalarına yaxın əmir Feysəlin dördüncü oğlu Əbdürrəhman ortalığa çıxdı. O, təxminən 1850-ci ildə anadan olmuşdu. Q.Filbinin qənaətinə görə, o, Abdallahın tərəfində dururdu.[156]

Səudun Nəcddə hakimiyyəti şox zəif idi. Hakimiyyətinin sonuna yaxın Cəbəl-Şəmmar və Qasim artıq ona tabe olmurdular. Artıq Ər-Riyad Mərkəzi Ərəbistanda hissələrə parçalanan kiçik əmirliyin mərkəzinə çevrilmişdi.

1875-ci ilin yanvarında Səud öldü.

Əbdürrəhman müvəqqəti olaraq Ər-Riyadın hakimi oldu, həmin vaxt mərhum qardaşı Səudun uşaqları ona qarşı çıxdılar.

Bu zaman Abdallah öz tərəfdrları ilə yenidən Ər-Riyada daxil oldu. Feysəlin ölümündən keçən 11 il ərzində şəhərdə hakimiyyət səkkiz dəfə dəyişmişdi.[157]

Q.Filbi Feysəlin ölümündən sonrakı hakimiyyət dəyişikliklərinin xronologiyasını aşığıdakı kimi vermişdir:

2 dekabr 1865-ci il - 9 aprel 1871 ci il – Abdallah ibn Feysəl

10 aprel – 15 avqust 1871-ci il - Səud ibn Feysəl

15 avqust – 15 oktyabr 1871-ci il –Abdallah ibn Türkü

15 oktyabr 1871 – 15 yanvar 1873 – Abdallah ibn Feysəl

15 yanvar 1873 – 26 yanvar 1875 - Səud ibn Feysəl

26 yanvar 1875-28 yanvar 1876-Əbdürrəhman ibn Feysəl

28 yanvar – 31 mart 1876 – Səud ibn Feysəlin oğulları

31 mart 1876 – cı il - Abdullah ibn Feysəl

Abdallahın əmirlikdə qayda-qanun yaratmaq səyləri uğurla nəticələnmədi. Qasimdə buranı öncə idarə etmiş Buraydanın Əal Ulayyanlar evi ilə Cəbəl-Şəmmar əmiri Məhəmməd Əal Rəşidin dəstəklədiyi Muxənnə ailəsindən olan yeni hakimlər arasında mübarizə alovlandı. Əslində çoxdan idi ki, Məhəmməd Əal Rəşid, Ər-Riyada zərbə endirmək üçün məqam gözləyirdi və ona görə də tərəflər arasındakı münaqişələrdən öz xeyrinə istifadə etməyə başladı. Güclərin yerləşməsi təxminən belə idi: Abdallah Anayza ilə əməkdaşlıq edirdi və ətayb və mutəyr tayfalarına arxalanırdı. Məhəmməd Əal Rəşid Bürəydinin tərəfində olub, hərb tayfaları ilə əməkdaşlıq edirdi.[158]

1892-ci ildə Əl-Məcməa və Südəyr vilayəti Məhəmməd Əal Rəşidin qoşunları tərəfindən ələ keçirildi. Əl-Məcməaya qubernator Həildən təyin olundu. Vəşim və Südəyrənin şəhər və vahələri Cəbəl-Şəmmarın nəzarəti altında idilər.

Abdallahın kiçik əmirliyi göz önündə parçalanmaqda idi. Səud ibn Feysəlin uşaqları Ər-Riyad və Arid üzərində nəzarəti ələ keçirdikdən sonra Abdallahı da əsir götürdülər. Çıxılmaz vəziyyətə düşən Abdallah öz adamları vasitəsilə kömək üçün Cəbəl-Şəmmar hökmdarı Məhəmməd Əal Rəşidə müraciət etdi.[158]

Uzaqgörən Məhəmməd əal Rəşid "əkdiklərinin" meyvəsini toplamağa başladı. O, böyük ordu ilə Ər-Riyada yola düşdü, Səud ibn Feysəlin uşaqları bundan xəbər tutan kimi Əl-Hərcə qaçdılar. Cəbəl-Şəmmar əmiri Abdallahı həbsxanadan azad etdi.

Lakin Məhəmməd Əal Rəşid Ər-Riyada onu deyil, amansız Səlim Əal Sübhanını əmir təyin etdi. Vaxtilə Mərkəzi Ərəbistanın paytaxtı olmuş gil-torpaq Ər-Riyad şəhəri sönməkdə olan ulduz kimi sükuta qərq olmuşdu, o dövrün səyyahları E.Blant və Ş.Yuber şəhəri belə təsvir etmişlər.

Məhəmməd Əal Rəşid səliqəli siyasət yürüdürdü. O, yüksək səviyyəli siyasət oyunçusu idi. Osmanlı imperiyasının sultanı Əbdül Həmid Əal Rəşidə başına hədiyyə və mükafatlar səpir, ona hər cür kömək göstərirdi. Ona görə ki, İbn Rəşid yalnız Osmanlı sultanı Əbdül Həmidin hakimiyyətini qəbul edirdi. Ona görədə gələcəkdədə Osmanlı sarayı Mərkəzi Ərəbistanda yalnız bu ailəyə istinad edəcəkdi.

# XIX əsrin sonlarında dünyada geosiyasi qüvvələr nisbəti

1875-ci ilin yayında öncə Hersoqovinada, ardınca isə Bosniyada xristian əhalinin türklərə qarşı üsyanları baş verdi.

Rusiya höküməti bu fürsətdən yararlanaraq üsyana qalxmış slavyanlara kömək edəcəyini bəyan etdi. Ruslar bununlada həmin xalqlar arasında Krım müharibəsindəki məğlubiyyətdən sonra itirdiyi nüfuzu bərpa etmək istəyirdi. Lakin rus hökuməti eyni zamanda Avstriya-Macarıstanla ciddi münaqişəyə girməyi heç arzu etmirdi.

O zaman yenə səhnəyə rus diplomatiyası qədəm qoydu.

Rusiya xarici işlər naziri Qorçakov Avstriya-Macarıstanın və Almanliyanın xarici işlər nazirləri Andraşiyə və Bismarka Berlində üç xarici işlər nazirinin görüşünü keçirməyi təklif etdi. Nəticədə Osmanlı imperiyasına qarşı yönəlmiş "Berlin memorandumu" qəbul edildi.

Lakin Dizraelinin timsalında İngiltərə hököməti türklərin işlərinə yeni müdaxiləyə qarşı çıxdı. İngiltərə Rusiyanın nə boğazlar üzərində nəzarəti ələ keçirməsini, nə də Balkanlarda nüfuzunun artmasını arzu etmirdi; Britaniya xarici siyasətini yönəldənlərə görə Balkanlar İstanbula təzyiq göstərməkdən ötrü əla platsdarm idi. Elə bu ərəfədə Dizraeli Britaniyanın Hindistan üzərindəki hökmranlığını daha da genişləndirmək və möhkəmləndirmək üçün çoxlu tədbirlər planı hazırlayırdı. O, Bəlucistan, Ərəbistan və Əfqanıstanı tabe etdirmək niyyətində idi; digər tərəfdən, o, artıq Süveyş kanalını ələ keçirmək və Aralıq dənizinin şərq hissəsində ingilis hökmranlığını bərqərar etmək üçün hərəkətə də keçmişdi. Süveyş kanalı istifadəyə verildikdən sonra (1869-cu il) Britaniyanın əsas kommunikasiya xətləri Aralıq dənizindən keçirdi. Bu xətlərə fransız donanması təhdid edə bilərdi. Boğazların Rusiyanın əlinə keçəcəyi və ya-

xud da rus-türk ittifaqı yaranacağı təqdirdə isə Aralıq dənizində rus donanması da peyda ola bilərdi. Buna görə də İngiltərə hökuməti təkcə Misiri deyil, həm də Türkiyəni öz nəzarəti altına almağa cəhd göstərirdi. 1878-ci ildə ingilislər Osmanlı sultanı ilə Kpir üzərində tam nəzarəti ələ keçirən bir razılaşmaya artıq nail ola bilmişdilər (Sonra isə Mudaniya razılaşması və 1923-cü ildə bağlanmış Lozanna müqaviləsinə əsasən Kipr müvəqqəti olaraq ingilislərin mandatına verilmişdi, lakin nəzərdə tutulan şərtə görə İngiltərə oranı tərk edəndə, ada üzərində mandat Türkiyə və Yunanıstana keçməli idi-A.M).

Digər bir yanaşma da var idi. Balkanlarda münaqişə alovlanardısa İngiltərə Türkiyə və Avstriya-Macarıstanın dəstəyinə ümid edə bilərdi. Məhz, elə bu səbəbdən İngiltərəyə Rusiya ilə mübarizəni Orta Asiyada üzbəüz təkbaşına deyil, Türkiyə vasitəsi ilə aparmaq daha çox sərf edirdi.

Hələ XIX əsrin birinci yarısında Britaniya hökuməti Asiyada ingilis-rus münasibətlərini özünəməxsus izahını vermişdi. 70-ci illərdə ingilis mülahizəsinə görə Rusiya fasiləsiz olaraq vilayətləri bir-bir ələ keçirərək, Hindistan hüdudlarına doğru irəliləməkdə idi, İngiltərə isə özünün Hindistan ərazilərini və Avropa ilə Hindistan arasında körpü rolunu oynayan Osmanlı imperiyasının toxunulmazlığını qorumaqla məşğul idi. Bu mülahizə bir çox ingilis "Göy kitab"larında və parlament müzakirələrində inkişaf etdirilirdi.Həmin mülahizə görkəmli publisist Urkvart, daha sonra isə Raulinson tərəfindən ələ alınmış və bir çox tarixi əsər müəllifləri tərəfindən mənimsənilmişdir. Onun təsiri İngiltərə sərhədlərini də aşmışdı.

Mülahizə açıq-aşkar tərıfgir idi. Vəziyyət heç də elə deyildi ki, guya Rusiya hücum edir, İngiltərə isə müdafiə olunurdu. Əslində qarşı-qarşıya gələn iki ekspansiya axını bir-birilə

toqquşurdu, həm İngiltərə, həm də Rusiya hücum siyasəti yeridirdi, lakin eyni zamanda hər ikisi bir-birindən ehtiyat edirdi.

Yaxın Şərqdə də oxşar vəziyyət yaşanırdı. Hər iki dövlət İstanbulun diqqətini daha çox cəlb etməyə çalışır və məqsədə çatmaqdan ötrü bir-birinə hər cür mane olmağa can atırdılar. Çar Rusiyası boğazlara nəzarəti ələ keçirməklə, əlbəttə ki, Misirə və Ərəbistana daxil olmaq məqsədi güdürdü.

Berlin memorandumunun qəbulundan imtina etməklə Dizraeli İngiltərəyə Türkiyə paytaxtında hakim mövqe qazanmaqda kömək etdi, bu da təbii ki, avropalıların İstanbul "konsertini" pozdu və Osmanlı imperiyasını üç imperatorun – Rusiya, Prussiya və Avstriya-Macarıstanın tələblərinə qarşı müqavimət göstərməyə sövq etdi.

Amma hadisərin gedişinə 30 iyun 1876-cı ildə Serbiya knyazı Milanın Osmanlı imperiyasına müharibə elan etməsi böyük təsir etdi. Knyaz Milan Serbiya və Çernoqoriyanın müharibəyə başlayacağı təqdirdə Rusiyanın onların türklər tərəfindən darmadağın edilməsinə yol verməyəcəyindən çox əmin idi.

Artıq Serbiyada 4 minədək rus könüllüsü var idi.

O zamankı şərait Dizraelini xarici siyasət kursunu bir qədər dəyişdirməyə vadar etdi. İş bunda idi ki, Krım müharibəsindən sonra İngiltərə də Fransa kimi Osmanlı imperiyasına dəfələrlə böyük məbləğdə borclar vermişdi və bundan böyük gəlirlər qazanırdı. İstiqrazlar 5-6%-lə, həmin dövrdəki orta fasizdən xeyli yuxarı verilirdi, bundan əlavə bankirlərin xeyrinə 6-7% komisiyon haqqı da tutulurdu. İstiqrazlardan biri kurs üzrə 100-ə görə 43,5 nisbətində buraxılmışdı. 1875-ci ilədək türk hökumətinə bu şərtlərlə 200 milyon funt borc verilmişdi. Bu maliyyə əməliyyatları Osmanlı imperiyasını müflis edirdi. 1875-ci ilin oktyabrında isə Osmanlının maliyyə sistemi iflasa uğradı. Osmanlıdakı istiqrazlarda maraqlı olan İngiltərənin bank dairələri iflasdan təlaşa düşdülər və onlar Dizraelidən borc ödəmə qabiliyyətini itirmiş Osmanlıya təzyiq

göstərməyi tələb edirdilər. Lakin Dizraeli Osmanlını qoruyurdu: cünki bu ölkə ona Rusiyaya təzyiq üçün alət kimi lazım idi. Dizraelinin yürütdüyü bu siyasət Osmanlı imperiyasının kreditorlarını çox qəzəbləndirirdi.

Bismark ciddi-cəhdlə Balkanların Rusiya və Avstriya-Macarıstanın nüfuz dairəsinə bölüşdürülməsinə dair Avstriya-Rusiya müqaviləsi üzərində çalışırdı. Bu zaman Avstriya Bosniyanı ələ keçirməklə öz ərazisini genişləndirər, Rusiya isə Bessarabiyanı özünə qaytarmaqla yanaşı, həm də Osmanl imperiyası ilə müharibədə qüvvəsini bir qədər tükədərdi. Bismark fikirləşirdi ki, London Misiri əldə edə bilsə, vəziyyətin bu cür inkişafı ilə razılaşar. İngiltərəni Misiri ələ keçirməyə sövq etməklə Bismark onu Fransa ilə mübahisəyə təhrik edəcəyini düşünürdü: bununla İngiltərənin Fransa-Almaniya münasibətlərinə qarışmasının qarşısı alınardı. Beləcə, Bismark çox ehtiyatla səhnə arxasında özünün mürəkkəb diplomatik torunu hörməkdə idi.

31 avqust 1876-cı ildə Osmanlı taxt-tacına sultan II Əbdül Həmid oturdu. O həqiqətəndə sanki adangəlmə diplomat idi: böyük dövlətlərin bir-birilə çəkişmələrindən heç kim onun qədər faydalana bilməzdi. Balkanlarda sülhün şərtləri barədə razılığa gələ bilməyən böyük güclər Rusiyanın təşəbbüsü ilə yenidən İstanbuldan Serbiya ilə yubanmadan sülh müqaviləsi bağlamağı tələb etdilər.

Əslində Osmanlı imperiyası ilə müharibə Rusiya üçün İngiltərə və Avstriya ilə toqquşmaq riskini yaradırdı. Rusiya hökuməti belə bir münaqişəyə getməyi arzulamırdı, xüsusilə də Almaniyanın tutduğu mövqe üzündən.

3 mart 1876-cı ildə San-Stefanoda sülh müqaviləsi imzalandı.

6 martda Andraşi- Avstriya-Macarıstanın xarici işlər naziri, Rusiya ilə Osmanlı imperiyası arasındakı sülhün təkcə

boğazların statusu ilə bağlı deyil, bütün digər məsələlərini də çözmək üçün konqress çağırmaq təklifi ilə çıxış etdi.

Konqres 13 iyun 1878-ci ildə Berlində öz işinə başladı.

13 iyul 1878-ci ildə konqres San-Stefano sülh müqaviləsini əvəz edən Berlin traktatının imzalanması ilə öz işinə yekun vurdu. Əslində avropalıların bu manevrləri sayəsində Rusiya öz qələbəsinin əhəmiyyətli hissəsini itirmiş oldu. Osmanlı imperiyasının "müdafiəçiləri" İngiltərə və Avstriya bir atəş belə açmadan birincisi Kipr və ikincisi Bosniya-Hersoqovinanı ələ keçirdilər. Bu minvalla, Berlin traktatınən məğzi Osmanlı imperiyasının yenidən qismən bölünməsinə gətirib çıxardı.

Osmanlının avropa səhnəsində bu məğlubiyyətlərindən hali olan Ərəbistanın Şərq vilayətindəki yeli əmirlər və onlara sadiq olan tayfalar 1878-ci ildə türklərə qarşı üsyan qalxdılar.

Əslində bu üsyanlar Böyük Britaniya tərəfindən qızışdırılmışdı.

Belə ki,XIX əsrin sonunda ən güclü müstəmləkə dövləti olan Böyük Britaniya 1869-cu ildə Süveyş kanalının istifadəyə verilməsi və 1882-ci ildə Misirin işğalından sonra, bütün Ərəbistan yarımadasını birbaşa və yaxud da dolayı yolla öz nəzarəti altına almağa səy göstərirdi. Britaniya müstəmləkə imperiyası Məsqət sultanlığını, Müqaviləvi Oman knyazlığını, Qətər və Bəhreyni getdikcə daha çox özünə bağlayırdı. Növbədə formal olaraq Osmanlı vasallığındakı Küveyt idi.

İngiltərənin başqa bir məqsədi də vardı. Hindistana dəniz yolu Britaniyanın Misir və Kiprdəki hegemonluğu ilə təmin edilirdi. Eyni boğazların Rusiyanın nəzarəti altına düşməməsinin təmin ounması kimi. Misirin işğalından sonra ingilis-türk münasibətləri mürəkkəbləşdi. Sultan Rusiya ilə yaxınlaşmağa getdikcə daha çox meyillənirdi. İstanbulla ola biləcək ittifaq nəticəsində Rusiya Hindistana quru yolla yaxınlaşmaq imkanı

qazana bilərdi. Bu, Rusiyanın Əfqanıstan və İrandan başqa , Osmanlı imperiyasının Asiya hissəsi ilə Hidistana soxula bilməsi imkanını verə bilərdi. Ona görədə Britaniya diplomatiyasının əsas diqqəti Hind okeanını, xüsusilə də Fars körfəzini əhatə edən bütün bu ərazi qurşağına yönəlmişdi. Keyptaun-Qahirə dəmiryolu layihəsi Qahirə-Kəlküttə layihəsində öz davamını tapdı. Beləliklə, Hind okeanı ortada yerləşməklə nəhəng Asiya-Afrika imperiyasının cizgiləri görünməkdə idi. Aydın olurdu ki, Misirdə tam oturuşduqdan sonra ingilis höküməti Osmanlı imperiyasının bölüşdürülməsi zamanı Mesopotamiya, Ərəbistan və Kritə də yiyələnmək fikrində idi.

XIX əsrin sonlarında böyük dövlətlər arasındakı barışmaz ziddiyyətlər və onların müstəmlkəçilik ekspansiyası Fars körfəzi hövzəsəinə yayıldı. Kayzer Almaniyası bu məsələdə xüsusi fəallıq nümayiş etdirirdi. Özünü "islamın müdafiəçisi" elan etmiş II Vilhelm hököməti sultan hököməti ilə da çox yaxınlaşırdı və Osmanlı imperiyasında iqtisadi, siyasi və hərbi mövqelərini möhkəmləndirməyə başlamışdı. Strateji cəhətdən mühüm əhəmiyyət kəsb edən Berlin-Fars körfəzi magistralının yaradılması gündəmə gəlmişdi ki, bu da İngiltərənin Fars körfəzi, Ərəbistan, bütün Yaxın və Orta Şərqdəki hökmranlığına böyük təhlükə yaradırdı.

Prussiyanın Fransanı əzərək Almaniya imperiyası yaratmasından etibarən İngiltərə yeni alman işğalçılıq aktlarından təşvişə düşmüşdü. Almaniyanın bundan sonra da güclənməsi onun qitədə hegemonluğuna gətirib çıxara bilərdi. Britaniya siyasətçilərinin sırasında olan bir çox həssas insanlar bu dəhşətli təhlükəni nəzərdən qaçırmırdılar. Onların arasında Rusiya və yaxud Fransa ilə müstəmləkə münaqişələrini bu ölkələrin hər biri ilə almanları müharibəyə çəkib, bundan bəhrələnməklə həlletmək istəyən "ovçular" da az deyildi. İngiltərənin xarici işlər naziri Solsberi də 1887-ci ildə məhz,

belə düşünürdü, baxmayaraq ki, sonralar o da bu cür taktikanın təhlükəli olduğunu anlaya bilmişdi.

1871-ci il hadisələrindən sonra alman hegomonluğu təhlükəsinə, alman ticarət rəqabəti də əlavə olunmuşdu. 1873-cü ildəki böhrandan başlayaraq İngiltərə özünün yeni rəqibinin uğurlarını daha çox hiss etməyə başlamışdı. 1883-1885-ci illərdə Almaniya özünün ilk müstəmləkə ərazilərini ələ keçirdi. Həmin dövrdən başlayaraq Almaniya Böyük Britaniya üçün təkcə ticari rəqib deyil, həm də hələ sərbəst qalan müstəmləkə torpaqlarının bölüşdürülməsi sahəsindəki həmiddiaçıya çevrilmişdi.

Vəziyyət 90-cı illərdə dəyişdi. XIX əsrin son onilliyinin ortalarından Almaniya xarisi siyasəti qarşısında yeni vəzifə qoyuldu: böyük müstəmləkə imperiyası yaratmaq və yerdə qalan ölkələrdə "nüfuz sahəsinin" qurulmasına nail olmaq.

Hələ 1887-ci ildə alman "Döyçe bank"ı Osmanlı xəzinəsindən Bosforun Asiya hissəsindəki Heydər Paşadan Mərəmərə dənizində liman olan İzmitə qədər olan kiçik dəmiryolu xəttini satın almışdı. Bundan əlava bank Osmanlı hökümətindən həmin xəttin İzmitdən Ankaraya qədər uzadılmasına razılıq da almışdı. Sövdələşmə başa çatan ərəfədə bank kansler Bismarkın da məsələyə münasibətini öyrəndi. Bismark bankirə cavabında demişdi ki, o, sövdələşmənin əleyhinə deyil, lakin həmin layihəyə xüsusi dəstək vermək niyyəti də yoxdur. Bismark özünün Almaniyanın türk məsələsində maraqlı olmamasına dair mövqeyində qəti şəkildə qalırdı: o hesab edirdi ki, belə bir mövqe sərgiləməklə, digər güclü dövlətlərin Yaxın Şərqdə birbirilə apardıqları rəqabətindən daha asanlıqla xeyir əldə etmək mümkün olacaq.

Bismark Osmanlı imperiyasındakı dəmiryolu konsessiyasına o qədər səthi münasibət bəsləmişdi ki, sənədlərdən də göründüyü kimi, bir neçə gündən sonra "Döyçe bank"ın ona

müraciəti ilə bağlı epizodu tamam unutmuşdu. Lakin kayzer II Vilhelm ondan fərqli olaraq Osmanlı imperiyasında alman ekspansiyasına böyük maraq göstərirdi. Hələ taxt-taca varis olduğu dövrdə o, Rusiya ilə müharibənin qaçılmaz olduğunu düşünən hərbi dairələrə çox yaxın idi. Bir çox generallar kimi Vilhelm də bu müharibədə Osmanlı imperiyasından özlərinə müttəfiq kimi istifadə etməyin zəruri olduğunu düşünürdü. Bununla bağlı olaraq Osmanlı dəmir yolları Almaniya üçün təkcə iqtisadi yox, eyni zamanda hərbi-siyasi maraq da doğururdu. 1893-cü ilin fevralında sultan "Döyçe bank" tərəfindən yaradılmış Anadolu dəmir yolları cəmiyyətinə dəmir yolunun İzmit-Ankara xətti üzərində yerləşən Əski şəhərdən Konyayadək uzadılmasına razılıq verdi. Həm Rusiya, həm Fransa, xüsusilə də İngiltərə yeni alman konsessiyasına qarşı etirazlarını bildirdilər. İngiltərə səfiri sultana etiraz bildirərək bəyan etdi ki, bu müqavilə Smirnə-Aydın dəmir yolunun sahibi olan ingilis şirkətinin maraqlarına toxunur. Lakin Almaniya rəqiblərinin müqavimətini qıra bildi. Almaniya İngiltərə hökümətini işğaldan sonra Misirin maliyyə məsələlərində ona göstərdiyi dəstəyi kəsəcəyi ilə hədələdi; bu dərhal öz təsirini göstərdi. İngilis kabineti alman konsessiyasına qarşı etirazlarından imtina etdi. Konyaya qədər dəmir yolunun çəkilişi 1896-cı ildə başa çatdı. İndən belə heç kim Almaniyanın Yaxın Şərqdə maraqlarının olmadığını söyləyə bilməzdi.

1898-ci ildə II Vilhelm "müqəddəs yerləri" ziyarət adı ilə Fələstinə yollandı. Ora gedərkən yolüstü İstanbulda olub, sultanla da görüşdü. Onunla eyni vaxtda "Döyçe bank"ın direktoru Simens də İstanbulda idi; Simens dəmir yolu xəttinin Konyadan Bağdada qədər uzadılması və Bosforun Asiya hissəsində, Heydər Paşada limanın qurulması ilə bağlı danışıqlar aparırdı. "Müqəddəs yerləri" ziyarətdən sonra kayzer Dəməşqdə oldu. Oradakı açıq çıxışında o özünü 300 milyon müsəlmanın və onların xəlifəsi olan türk sultanının dostu adlan-

dırdı. Onun çıxışı Əbdül Həmidin çox xoşuna gəlmişdi. Bu çıxışı ilə kayzer “Döyçe bank”a Bağdada qədər dəmir yolu xətti çəkilişi ilə əlaqədar nəhəng konsessiyanı əldə etməsinə yardım göstərmiş oldu. Limanın inşasına ilə bağlı icazəni sultan artıq 1899-cu ilin yanvarında vermişdi.

Uzaq Şərqdəki ekspansiya( Port-Artur müharıbələri) çar Rusiyasının əl-qolunu bağlayırdı. Rus dipolomatiyası Almaniyanın Türkiyəyə girməsinin qarşısını ala bilmirdi.

27 noyabr 1899-cu ildə sultanın iradəsi (fərmanı) peyda oldu. Burada deyilirdi ki, alman şirkətinə səkkiz il ərzində Konyadan Bağdada, oradan isə Bəsrəyə qədər uzanacaq dəmir yolunun çəkilməsi ilə bağlı konsessiya verilib.

Almaniyanın Osmanlı imperiyasına, xüsusilə də Fars körfəzi sahillərinə daxil olması artıq birbaşa İngiltərənin də maraqlarına toxunurdu.

Ehtiyatlılıq xatirinə ingilis höküməti 1901-ci ildə Fars körfəzində, Küveytdə, Şət-əl-Ərəb çayının mənsəbinin yaxınlığında yeni möhkəmləndirilmiş məntəqəni ələ keçirdi.

XIX əsrin axırlarında iç Ərəbistanın əsas limanı olmuş və çiçəklənən ticarət mərkəzinə çevrilmiş Küveyt özünün Osmanlı imperiyasından olan formal asılılığını belə aradan qaldırmağa çalışırdı. Küveyt şeyxi Məhəmməd Əal-Sabah fəal şəkildə ərəbistandaxili mübarizəyə qarışmağa başladı, burada onun üçün real təhlükəni osmanlının müttəfiqi Cəbəl-Şəmmar təşkil edirdi və bu səbəbdən də o, Riyad taxtına namizəd olan Əbdürrəhman ibn Feysəli dəstəkləyir, onu hər cür himayə edirdi.

1880-ci ildə Feysəlin oğlanlarından dördüncüsü Əbdürrəhman ibn Feysəlin Əbd əl-Əziz adlı oğlu dünyaya gəlmişdi. Uşağın anası Əhməd Əal Südəyrinin qızı Sərah idi.Məhz bu ərəfələrdə qardaşı Səud ibn Feysəl tərəfindən Ər-Riyaddan qovulmuş və Cəbbəl-Şəmmar əmirinin himayəsinə

sığınmış Abdallah ibn Feysəl yenidən gündəmə gəlməyə başladı. Küveyt şeyxi Məhəmməd Əal-Sabah fəal şəkildə ərəbistandaxili mübarizəyə qarışması Cəbəl-Şəmmar lideri Məhəmməd Əal-Rəşidə də hərəkətə gətirdi. Məhəmməd Əal-Rəşid öz hakimiyyyətini bütün Səudlar xanədanına yaymaq üçün Abdallah ibn Feysəl dən istifadə etməyə çalışırdı.Ancaq Abdullah uzaq görən siyasətçi olmadığından fərasətsizliyi artıq əvvəlçədən bilinirdi.Hətta onun hakimiyyətdən qovulmasının əsas səbəblərini sonralar Səudiyyə Ərəbistanının kralı olacaq Əbd əl-Əziz ibn Əbdürrəhman dəqiq izahınıdada vermışdi. Əbd əl-Əziz ibn Əbdürrəhmana görə əmisi, əmir Abdallahın taxtdan salınmasının üç əsas səbəbi vardı: "Birincisi, qardaşı Səud ibn Feysəl öz hiyləgərliyi ilə Əl-Hərcdə tayfaları ona qarşı qaldıra bilmişdi; ikincisi, o o vaxt real hakimiyyətə malik Əal Mühənna ailəsi ilə mübarizədə keçmiş Qasim əmirləri olan Əal Ulayyanlar ailəsini dəstəkləyirdi. Bu Abdallahın şəraiti bilməməsi ilə əlaqədar idi; üçüncüsü, Məhəmməd Əal - Rəşid ortaya çıxaraq, Nəcdi idarə etmək istəyirdi. Abdallahda,özünü Əba əl-Həyl ailəsi ilə bağlayırdı ". Məhəmməd Əal Rəşid görəndə ki, "qonağı" - əsir Abdallah ibn Feysəl ciddi xəstədir, qardaşı Əbdürrəhman ibn Feysəlli özünə tərəf çəkməyə başladı. Hətta artık ağır xəstə olan Abdallah ibn Feysəli , qardaşı Əbdürrəhman ibn Feysəllə birlikdə Ər-Riyada getməyə icazə verdi.[160]

Abdallah özünün boşalmış paytaxtına döndü və 1889-cu ilin noyabr ayında vəfat etdi.

Əbdürrəhman ibn Feysəl zəifləmiş və çökdürülmış Riyadın əmiri oldu.

Öz diplomatık manevrləri ilə fərqlənən yeni əmir Əbdürrəhman ibn Feysəl Məhəmməd Əal Rəşidə qarşı gizli müxalifət formalaşdırmağa başladı. Bu arada Anayza və Burayda sakinləri Qasimdə Cəbbəl-Şəmmara qarşı Əbdürrrəhmanla birləşdilər. Bu müxalif qüvvələrə basdırmaq üçün Məhəmməd Əal

Rəşid Riyada silahlı qüvvə göndərdi. İlk ğncə toqquşmalar heç bir tərəfin üstünlüyü olmadan bir aya yaxın davam etdi. Ancaq Əbdürrəhman ibn Feysəl məğlub olacağını anladığına görə din xadimlərinin tövsiyəsi ilə Küveytə gedərək oranın şeyxi Məhəmməd Əal Sabahın himayəsini qəbul etdi. Həmdə ona görə ki,İstanbul Məhəmməd Əal Rəşiddən , Əbdürrəhman ibn Feysəlin kəlləsini tələb edirdi.

Məhəmməd Əal Sabahın Əbdürrəhman ibn Feysələ sığınacaq verməsi Sultanı çox qəzəbləndirmişdi.

Çox kecmədi ki, 1896-cı ildə Məhəmməd Əal Sabah və qardaşı qətlə yetirildi.[161]

Küveytin yeni rəhbəri İstanbula yaxınlığı ilə bilinən Mübarək oldu.

Ancaq Osmanlı hakimiyyəti Mübarəkin ingilislərlə yaxınlaşdığını görəndə, "qayda-qanun yaratmaq" adı altında Küveytə zərbə endirmək üçün İraqa hərbi qüvvələr toplamağa başladı, lakin İngiltərə ilə münaqişədən ehtiyatlanaraq, buna getmədi.[162] Türk diplomatiyasının ciddi mübarizəsi və Berlinin dəstəyi sayəsində 1901-ci ilin sentyabrında Küveytin statusunun saxlanılması ilə bağlı müqavilə bağlamaq və onu Britaniyanın işğalından qorumaq mümkün oldu.[163]

Bunulada Osmanlı Ərəbistanda yenidən qüvvələnməyə başlandı.

Hətta Qış sarayından Rusiyalı diplomat A.Adamova göndərilən məxfi təlimata görə, Rusiya da keçən əsrin əvvəlində Fars körfəzi hövzəsində status-kvonun qalmasında maraqlı idi.[164]

Əslində həmin vaxt Ərəbistanda cərəyan edən hadisələr təkcə İstanbulun deyil, London, Berlin və Peterburqun da diqqətini yenidən özünə çəkirdi. Alman diplomatiyası Fars körfəzinə uzanacaq Bağdad magistralının çəkilişinə nail olmaq

üçün sultana təzyiqləri durmadan artırırdı. Hail hakimi Osmanlının regionda gücləndiyini görəndə, türklərin dəstəyini əldə edə biləcəyinə əmin olaraq Məsqətə doğru irəlilədi , amma İstanbul tərəfindən ola biləcək yardım baş vermədi. Ona görə ki regionda proseslər sürətlə dəyişirdi.

Dəyişikliklərin ilk simptomları İngiltərənin Bağdada dəmiryolu ilə bağlı mövqeyinə yenidən baxması ilə özünü göstərməyə başladı. Bu vaxta qədər İngiltərə bu müəssisənin işinə müdaxilə etmirdi. Hətta bankirlər arasında magistralın çəkilişinə ingilis kapitalının cəlb olunması ilə bağlı danışıqlar da aparılırdı: bunu almanlar çox arzu edirdilər, çünki "Döyçe Bank" yolun çəkilişi ilə bağlı maliyyə çətinlikləri ilə üzləşirdi. Lakin 1903-cü ilin aprelində danışıqlar dayandırıldı. Britaniya mətbuatı durmadan həmin magistralı almanları birbaşa Hindistan hüdudlarına çıxarmağa yönələn layihə kimi təqdim edirdi. Bunulada İngiltərə hökuməti Bağdad dəmiryolu layihəsinin həyata keçirilməsinə əngəl olmağa başladı.

Bağdad yolu ingilis-alman ziddiyyətlərinin yalnız görünən hissəsi idi. Əslində onların arasında dünyanın əsaslı dəyişdirilməsi uğrunda mübarizə gedirdi. Britaniya diplomatiyası yaxınlaşmaqda olan dünya müharibəsinə hazırlaşırdı və özünə artıq müttəfiqlər toplaya bilmişdi.

Almaniya ilə mübarizə İngiltərəni özünün çoxdankı rəqibi Fransa ilə, hətta imkan daxilində Rusiya ilə də yaxınlaşmağa itələyirdi. Fransa və Rusiya ilə anlaşma sayəsində ingilis diplomatiyası Almaniyanı ingilis-rus və ingilis-fransız ziddiyyyətlərindən bəhrələnməklə, İngiltərədən hansısa güzəştlər qoparmaq imkanlarını heçə endirmək niyyəti güdürdü.

Eyni zamanda Yaxın Şərqdə də üstünlük uğrunda mübarizə qızışırdı. Bağdad magistralının çəkilişini almanlara verən sultan Əbdül Həmid özünün laxlamaqda olan taxt-tacını

alman höküməti və kapitalının köməyi ilə möhkəmləndirə biləcəyini düşünürdü.

Əgər Almaniyaya İstanbulu tamamilə öz tərəfinə çəkib, Avstriya-Macarıstan ittifaqına cəlb etmək nəsib olsaydı, onda nəinki Balkan yarımadası ilə bağlı planları həyata keçə bilərdi, eyni zamanda bütün Yaxın Şərq insan və maddi resursları ilə birlikdə alman imperializminin ayaqları altında olardı. Bununla İngiltərə heç vaxt razılaşa bilməzdi, o daim Yaxın Şərqə Avropadan Hindistana aparan körpü kimi baxırdı. Rusiya da buna imkan verə bilməzdi: Osmanlı imperiyası və Balkanların Almaniya və Avstriyanın nüfuz dairəsinə keçməsi, rus cənubunun təhlükəsizliyi üçün, - Qara dəniz sahillərindən tutmuş Zaqafqaziya sərhədlərinədək, - təhlükə yarada bilərdi. Aralarında çoxlu ziddiyyyətlər olmasına baxmayaraq, İngiltərə və Rusiyanın almanların Şərqə soxulmasının qarşısını birlikdə almaqda maraqlı olmaları, heç də təəccüblü görünməməli idi.

İngiltərə höküməti almanların Osmanlı imperiyasındakı ekspansiyasına qarşı aktiv mübarizə aparırdı. Bu məqsədlə o, müxtəlif yollardan istifadə edirdi. İlk növbədə maliyyə təsirindən istifadə edirdi. 1903-cü ilin aprelində ingilis bankirlər Bağdad dəmiryolunu maliyyələşdirməkdən imtina etdilər. Bu magistral Osmanlı imperiyasından ciddi maliyyə resursları tələb edirdi, lakin onun pulu yox idi. Bu minvalla, Bağdad dəmiryolunun çəkilişinin maliyyələşdirilməsi tormozlanırdı. Bu da Berlin maliyyə bazarı üçün elə də yüngül məsələ deyildi.

Həmin dövrdə beynəlxalq aləmdə çox ciddi dəyişikliklər baş verirdi: Britaniya Fars körfəzi hövzəsində alman və rus rəqiblərinə qarşı hücumu genişləndirməyə başlamışdı. 1903-cü il noyabr-dekabr aylarında Hindistanın vitse-kralı Kerzon hərbi eskadranın müşayiəti ilə Fars körfəzi ölkələrinə böyük təmtəraqlı səfərlərdə oldu.

Bu ərəfələrdə isə Ərəbistan səhnəsində Səudilərlə Məhəmməd Əal-Rəşid arasında gedən müharibə də böyük döv-

lətlərin Fars körfəzi uğrunda apardığı mübarizənin tərkib hissəsi idi. Artıq İstanbuldakılar Ərəbistandakı osmanlı mülkiyyətinin böyük bir hissəsi üçün təhlükə yarandığının fərqində idilər.[165]

## Osmanlı imperiyasının parçalanması

XX əsrin əvvəlində Ərəbistan səhnəsində Əbdürrəhman ibn Feysəlin oğlu Əbd əl-Əziz ibn Əbdürrəhman peyda olur. Onun anası Sarah Əhməd Əal Südəyrinin qızı idi. Yeddi yaşında Riyad qazisinin yanında təhsil almağa başlayır. On dörd yaşında, atası Küveytdə yaşayarkən, Səudiyyə Ərəbistanının gələcək kralı sonralar Ər-Riyadın baş qazisi və müftisi olacaq Abdallah ibn Əbd əl-Lətifin rəhbərliyi altında ciddi şəkildə ilahiyyət və digər elmləri öyrənməyə başlayır. Əbdürrəhmanın ailəsi ilə birlikdə aylarla əal, murra tayfalarının yanında yaşamasından , bu, gənc əmirə bədəvi adət və ənənələrini dərindən öyrənməyə imkan yaratmışdı.

Əbd əl-Əziz, Ər-Riyadı şəmmarlardan azad etmək məqsədilə yürüşə çıxmaq üçün atasını dilə tutaraq, ətrafına o qədər də çox olmayan döyüşçüləri topladı. Qardaşı Məhəmməd ibn Əbdürrəhman və əmisi oğlu Abdallah ibn Cilyüvi də onunla brlikdə idilər. [166]

1902-ci il yanvarın 15-də səhər tezdən düşmənə sarsıdıcı zərbə endirildi. Ər-Riyad şəmmarlardan azad olundu.

1902-ci ilin mayında atası Əbdürrəhman Ər-Riyada qayıtdı. Həm ərəb, həm də avropalı tarixçilərin ümumi rəyinə görə ata və oğul çox gözəl anlaşır və onların bir-birinə qarşı

yaxşı münasibətdə olmaları, yeni dövlətin möhkəm əsaslar üzərində qurulmasına çox kömək etdi. Yaşlı əmir oğlunun real bacarıqlarını yüksək dəyərləndirirdi. O vaxt ki, Əbd əl-Əziz üləmaları və adlı-sanlı riyadlıları toplayıb, onlardan atasına sadiq qalacaqları barədə and içməyi tələb edəndə, Əbdürrəhman bu şərəfdən imtina edərək, öz oğlunu əmir elan etdi, beləliklə, o, 22 yaşından hökmranlıq taxtına yiyələndi. Atası isə onun baş məsləhətçisi və namazda imamı oldu.

Anayza və Buraydanı da ələ keçirdikdən sonra Əbd əl-Əziz Ər-Riyaddan, - Vəşmdən keçməklə, - Qasimə qədər olan əraziləri öz nəzarəti altına aldı. Lakin Cəbəl-Şəmmar hakimi İbn Mitab türkləri Əbd əl-Əzizə dəstək verməkdən imtina etməyə inandıra bildi. Öncə Osmanlı hakimiyyəti onun kömək üçün müraciətlərinə əhəmiyyət verməyərək, bunu vassalının çoxlu pul və silah əldə etmək cəhdi kimi yozmuşdu. Lakin İstanbul hökuməti Əbd əl-Əzizin Qasimi öz əmirıliyinə birləşdirməsi xəbərini aldıqda, çox narahat oldular. İki min nəfərdən ibarət türk əsgəri 6 top da olmaqla, polkovnik Həsən Şükrünün komandanlığı altında Nəcdə yola düşdü.[167]

1904-cü ilin yayında Ər-Riyadın gənc hakimi türklər və onların müttəfiqləri Cəbəl-Şəmmarlılara qarşı mübarizədə ingilislərdən istifadə etmək qərarına gəldi və Fars körfəzi dövlətləri üzrə Britaniyanın yenicə rezidenti təyin olunmuş mayor P.Koksla əlaqə yaratdı.[168] Koks əvvəllər (1892-1901-ci illər) Somalidəki ingilis siyasi rezidentinin köməkçisi, sonralar isə (1901-1904-cü illər) Məsqətdə konsul işləmişdi. O, 1923-cü ilə kimi, yəni, ehtiyata çıxana qədər ingilis-səudiyyə münasibətlərində olduqca mühüm rol oynamışdı. A.Uilson, Q.Bell və Q. Filbi kimi məşhur ərəbşünaslar, məhz, onun rəhbərliyi altında fəaliyyət göstərmişdilər.

Nəcdə türk qoşunun gəlməsini Britaniya dərhal status-kvo ilə bağlı 1901-ci il müqaviləsinin pozulması kimi dəyərləndirdi. London İstanbula kəskin etiraz ünvanladı.[169]

Türklərin yaxınlaşdığından xəbərdar olan Əbd əl-Əziz onları açıq sahədə qarşılamaq qərarına gəldi. Onun Ər-Riyad, Qasim, Əl-Hərca sakinlərindən və mütəyr tayfasının üzvlərindən ibarət olan qoşunu Buraydanın qərbinə tərəf hərəkət etdi. Əl-Bukayri və Şunan ətrafındakı döyüşlər ərəfəsində şərait belə idi, həmin döyüşlər Mərkəzi Ərəbistanın gələcəyini müəyyən edəcəkdi və bu savaş Əbd əl-Əziz üçün Ər-Riyadı ələ keçirmək qədər mühüm əhəmiyyət kəsb edirdi.[170]

Sentyabrın sonlarında Şunan yaxınlığında gözlənilən döyüş baş verdi və böyük itkilər verən türklər şəmmarlarla birlikdə döyüş meydanında məğlub oldular.[171]

Nəcdli səlnaməçi Xalid əl-Fərəci yazırdı: "Məhz, bu döyüş İbn Səudun Nəcddə möhkəmlənməsinə gətirib çıxardı və türk təsirinə son qoydu". Bu döyüşdə Əal Rəşidin dayaqlarından biri çökdü.[172]

1905-ci ildə Rəşidilər və Səudilər arasında sülh anlaşılması əldə edildi.

Lakin Feyzi paşanın komandanlıq etdiyi Osmanlı ordusu artıq Mərkəzi Nəcdə doğru irəliləməkdə idi və Mədinədən də onun köməyinə Sidqi paşanın rəhbərlik etdiyi 750 nəfərdən ibarət səhra artilleriyası batareyası sürətlə köməyə gəlirdi.

Lakin həmin vaxt türklərin diqqəti daha çox Yəməndəki hadisələrə yönəlmişdi. Osmanlı qoşunu imam Sənadan olan Yəhya ibn Həmidin başçılıq etdiyi hərəkatın qarşısını almaqda aciz qalmışdı. Elə ona görə də Əhməd Feyzi paşanı Nəcddən Yəmənə göndərmək əmri verildi.

13 aprel 1906-cı ildə Qasimdə səudlar və şəmmarlar arasında şəmmar salnaməçisi Dahil ibn Fuhaydın şahidi olduğu

döyüş baş verdi. Sübh çağı səudlar İbn Mitabın düşərgəsinə hücum etdilər, öncə toplardan atəşə tutdular. Hail hakimi döyüşçüləri arasında ora-bura vurnuxuraq, qayda-qanunu bərpa etməyə çalışdı. Sonra Ariddən olan döyüşçülərin əlinə keçmiş Rəşidilərin bayrağına tərəf gəldi. Bayrağın düşmən əlinə keçdiyindən xəbərsiz olan İbn Mitab şəmmar dialektində nəsə qışqırmağa başladı və düşmən tərəfindən tanınaraq, qətlə yetirildi. Şəmmarlar təşviş içində qaçmağa üz tutdular. Onun ölümü Cəbəl-Şəmmarda qeyri-sabitlik dövrünə yol açdı.[173]

29 dekabr 1906-cı ildə Hailin yeni hakimi Mitab Əal Rəşidin (bir ildən az hakimiyyətdə olub) üç qohumu, - Sultan, Səud və Feysəl, - əmiri üç qardaşı ilə birlikdə qətlə yetirdilər. Onlardan ən kiçiyini, Səudu Əal Sübhan ailəsindən olan əmisi xilas edərək, osmanlının nəzarətində olan Mədinəyə ötürə bilmişdi.[174]

Çevrilişin təşkilatçısı o qədər də populyar olmayan ibn Xamud hakimiyyətdə 1908-ci ilin yanvarına qədər duruş gətirə bildi. Cəbəl-Şəmmarın yeni rəhbəri Səud oldu, Feysəl isə Caufa qubernator göndərildi.[175]

Rəşidilər hakimiyyəti i getdikcə daha çox zəifləyirdi. Cəbbəl -Şəmmarı idarə edən dairələr arasında mübarizə kəskinləşdiyindən, əmirliyin başında duran şəxslər tez-tez dəyişirdi. Belə ki, çox tezliklə Səud ibn Xamudu 1909-cu ildə güclü Aal Sübhanlar ailəsi tərəfindən Hailə qaytarılan azyaşlı Səud ibn Əbd əl-Əziz(bu Cəbbəl –Şəmmarlı Səuddur-müəllif) əvəz etdi. Elə onlar əmirlikdə real hakimiyyət olaraq qalırdılar. 1921-ci ilə qədər, yəni, Cəbəl-Şəmmarın məhvinədək hakimiyyətdə onlarla əmir və regent (naib, hami) bir-birini əvəz etmişdi. Xamud Əal Sübhan azyaşlı Səud ibn Əbd əl-Əzizin regenti oldu.

1908-ci il oktyabr-noyabr aylarında Hicazda mühüm hadislər beş verdi. Osmanlı höküməti Məkkə şərifi Əli ibn

Abdallahı Hüseyn ibn Əli ilə əvəz etmək məcburiyyətində qaldılar.Nüfuzdan düşməyə başlayan Osmanlı sultanı ərəblər arasında öz təsirini qorumaq üçün İstanbulda yaşayan Hüseyni oraya yeni ,ərif təyin etdi. Əslində Hüseyin uzunmüddətli İstanbuldakı həyatına qədər bədəvilərin arasında böyümüşdü.

Amma tarıxin çarxı dəyişmişdi. Bunuda ilk anlayanlardanda biri nəcdlilərin yeni əmiri Əbd əl-Əziz İbn Səud idi.O,Küveytdə qazandığı həyat təcrübəsindən yaxşı anlayırdı ki, Fars körfəzində əsas qüvvə artıq ingilislərdir və buna görə də 1908-ci ildə onlarla sıx əlaqələr qurdu.[176]

1911-ci ildə Asirdə Məhəmməd ibn Əli Əal İdrisinin başçılığı altında türklərə qarşı üsyan başladı. Türklər Əbd əl-Əzizi asirlərə qarşı hərbi əməliyyatlara cəlb etməyə səy göstərdilər. Lakin riyad əmiri cavabında demişdi ki, o, ərəbdir, türklərlə birlikdə müttəfiq və qardaş hesab etdikləri Məhəmməd Əal İdrisiyə qarşı müharibədə iştirak etməyəcək.[177]

1911-ci ildən başlayaraq hərbi təhlükə bir qəzəbli bulud təki Osmanlı sultanının başı üzərində asılı qalmışdı. Bir böhran sona çatmamış, digəri baş verirdi.

Həmin dövrdə İtaliya Osmanlı imperiyasına qarşı işğalçılıq müharibəsinə başladı. Düzdür, İtaliya üçün Tripolinin dəyəri ingilislər üçün Malta, fransızlar üçün də Tunis qədər əhəmiyyətli idi.

Müharibə başladı. İtaliya qoşunu çətinlik çəkmədən azsaylı türk qarnizonlarının öhdəsindən gələ bildi. Lakin sonra yerli ərəb əhalisinə qarşı müharibə aparmaq elə də asan olmadı. Müharibə uzanmağa başladı. Osmanlı imperiyası sülhə razı olmurdu; ərəblər də müqaviməti davam etdirirdilər. İtaliya Dodekanez adasını işğal etdi, dənizdən Beyrutu və digər türk limanlarını bombardmana tutdular, lakin Osmanlı imperiyasına

elə də güclü zərər yetirə bilmədilər. 1912-ci ilin aprelində italyan donanması Dardanel boğazının girişini bombaladı. Lakin İtaliya boğazlarda bundan daha ciddi hərəkətə cürət etmədi. Italiyanın Osmanlı imperiyasına qarşı müharibəsi Romanın onun tarixi düşmənləri ilə dostluq əlaqələrinin yaranmasına da təkan verdi.

18 oktyabr 1912-ci ildə bağlanmış Uşi-Lozanna sülhünə görə sultan İtaliyanın Tripolitaniya və Kirenaikaya olan "hüququnu" tanıdı, və həmin ərazilərə müxtariyyət hüququ verdi. Müqaviləyə görə, Osmanlı imperiyası Tripolitaniya və Kirenaikadan öz qoşunlarını çıxarmağa, İtaliya isə öz növbəsində Dodekanes adalarını geri qaytarmağa öhdəlik götürmüşdü. Afrikadakı türk əraziləri faktiki olaraq italyan koloniyalarına çevrildi.

Lakin İtaliya və Türkiyə arasında bağlanmış sülh müqaviləsi, Liviyadan evakuasiya oluna bilməmiş türk dəstələrinin köməyi ilə ərəb əhalisinin italyanlara qarşı apardığı mübarizəni, heç də dayandıra bilmədi. Kirenaika, Fezzan və cənubi Tripolitaniyada mübarizəyə müsəlman senusilər sektasının lideri Əhməd Şərif başçılıq edirdi. Şimali Tripolitaniyada isə İslamı müdafiə məqsədilə, eyni zamanda tayfaya məxsus ərazilərdə sürdükləri azad həyat uğrunda bədəvilər partizan müharibəsi aparırdı. Osmanlı imperiyası parlamentinin üzvü olmuş bərbər Süleyman Baruni Şaruan vilayətində ömrü az sürən müstəqil Bərbər dövlətinin yarandığını elan etdi, amma Tripolidəki şəhər millətçiləri bu zaman İtaliya ilə bir ittifaqda birləşərək Tripolitan Respublikasının yaradılmasını müzakirə edirdilər.

Senusilər Siirt vilayətində italyan qoşunların kolonnasını məhv edərək, çoxlu sayda tüfəng, artilleriya qurğusu və sursatı ələ keçirdilər. Lakin bu qələbə bədəvilər və senusilər arasında olan ənənəvi düşmənçilik üzündən təhlükə altına düşdü.

İşğalçılara qarşı xalq hərəkatı o dərəcədə güclü xarakter aldı ki, italyanlar vilayətin bütün ərazilərini ələ keçirə bilmədilər.

İtaliya-Osmanlı arasında davam edən soyuq müharibə çoxdan yetişmiş daha bir böhranın ortaya çıxışını sürətləndirdi. Balkan dövlətləri bir ittifaqda birləşərək Osmanlı imperiyasına qarşı müharibəyə başlamaq barədə razılığa gəldilər və bu barədə Romanı məlumatlandırdılar.

Əslində Rusiya diplomatiyası balkan blokunun yaranmasında əhəmiyyətli rol oynadı. Lakin Rusiya bu bloku Osmanlı imperiyasından daha çox, Avstriya-Almaniyaya qarşı bir blok olaraq görürdü. Başqa sözlə desək, balkan bloku rusların gözündə yetişməkdə olan dünya müharibəsinə hazırlıq mərhələsi kimi görünürdü.

29 sentyabr 1911-ci ildə Rusiya səfiri Çarıkov baş vəzir Səid paşaya rus-türk müqaviləsinin layihəsini təqdim etdi. Həmin layihədə Rusiya Şimali Anadolu dəmiryolunun xəttinin çəkilişinə maneçilik törətməyəcəyinə hazır olduğunu bildirirdi. Bununla yanaşı, müqavilədə təslimçilik rejiminin aradan götürülməsi ilə bağlı danışıqların ləğvi, Osmanlı imperiyası ilə Balkan dövlətləri arasında status-kvo əsasında “möhkəm mehriban qonşuluq münasibətlərinin qurulmasına dair tədbirlərin həyata keçirilməsi də öz əksini tapmışdı. Həmçinin Bosfor və Dardanel boğazları üçün “xarici hərbi qüvvələr tərəfindən təhlükə yaranarsa”, rus hərbi gəmilərinin boğazlardan sərbəst keçidi təmin edilməli idi. Lakin İstanbul Rusiya ilə danışıqları uzatmaq qərarına gəldi.

9 oktyabr 1912-ci il səhər çernoqoriya hərbi əməliyyatlara başladı. Oktyabrın 17-də Serbiya və Bolqarıstan, 18-də isə Yunanıstan da Osmanlı imperiyasına müharibə elan edərək, hərbi əməliyyatlara start verdilər.

Osmanlı ordusu çox tez bir zamanda məğlub edildi. Balkan ittifaqı ölkələri Osmanlı imperiyasının Avropa hissəsinin böyük ərazisini işğal etdilər. Bolqar ordusu birbaşa Osmanlı imperiyasının paytaxtına doğru irəliləyirdi. Osmanlı imperiyasının sülh istəməkdən başqa yolu qalmamışdı. 1912-ci il dekabrın ortalarında türk hökuməti böyük dövlətlərə müraciət edərək onlardan, sülh danışıqlarında vasitəçilik etmələrini istədi.

1912-ci il dekabrın ortalarında Britaniya paytaxtında eyni vaxtda iki beynəlxalq konfrans öz işinə başladı. Birində iki vuruşan tərəf, - Osmanlı imperiyası və Balkan bloku, - iştirak edirdi. Digərində isə Avropanın altı böyük dövləti təmsil olunurdu. Həm Osmanlı Türkiyəsi, eləcə də onların Balkanlardakı rəqibi imperialist dövlətləri arasında himayəyə malik idilər. Osmanlı imperiyasını Almaniya-Avstriya, Balkan bloku dövlətlərini isə Antanta, ilk növbədə isə Rusiya himayə edirdi.

Ordusunun gücünə arxayın olmayan Osmanlı hökuməti güzəştlərə getməyə meylli idi. Lakin 23 yanvar 1913-cü ildə İstanbulda dövlət çevrilişi baş verdi: hakimiyyətə Mahmud Şövkət paşanın rəhbərlik etdiyi gənc türklər kabineti gəldi. Müharibə yenidən qızışmağa başladı. Türkləri yenidən bir-birinin ardınca uğursuzluqlar izləməyə başladı. Mart ayında Adrianopol və Yanin qalaları itirildi. Türklər yenidən sülh istəmək məcburiyyətində qaldılar.

16 aprel 1913-cü ildə nəhayət ki, Bolqarıstan və Osmanlı imperiyası arasında barışıq imzalandı. Aprelin 20-də digər müttəfiqlərlə də saziş imzalandı. Danışıqlar yenidən bərpa olunaraq Londonda davam etdirildi. İtalyanlar İtaliya-Türkiyə müharibəsinin nəticəsi olaraq 18 oktyabr 1912-ci ildə bağlanmış Lozanna sülh müqaviləsinin şərtlərinə uyğun olaraq əldə etdikləri Dodekanesi geri qaytarmağa vəd vermişdilər. Lakin

indi öhdəliyi yerinə yetirmək istəmir, ümumiyyətlə, adanı nə türklərə, nə də yunanlara qaytarmağı belə düşünmürdülər.

Danışıqlar sonsuzluğua qədər uzana bilərdi. Nəhayət İngiltərənin xarıcı işlər naziri Qrey konfrans iştirakçılarına bildirdi ki, hamı sülh müqaviləsini imzalamağa dəvət olunur, imtina edənlər yaxşı olar ki, “Londonu tərk etsinlər”. Hədə öz təsirini göstərdi və sülh müqaviləsi nəhayət ki, imzalandı. Bu 30 may 1913-cü ildə baş verdi.

London müqaviləsinə görə Osmanlı imperiyasının bütün Avropa hissəsi qaliblərin əlinə keçirdi. İstanbul və kiçik Epos-Midiya xətti əvəzinə, bolqarların tələb etdiyi Rodosto-Midiya xətti üzrə hinter-land, boğaz sahillərinə qədər sıxışdırılmışdı. Bir vaxtlar qüdrətli Osmanlı imperiyasından Avropa hissəsində, bunlar qalmışdı.

Balkan müharibəsində türklərin məğlubiyyətindən ruhlanan nəcdlilərin gənc əmiri Əbd əl-Əziz Əl-Has üzərinə yürüş hazırlıqlarına başladı. 1913-cü ilin əvvəllərində o, Qasimə gələrək, ümumi səfərbərlik elan etdi.[178]

Həmin vaxtlar ixvanlar da onun qoşununa daxil idilər, lakin onlar ordunun əsas hissəsini təşkil etmirdilər. Buna görə də Osmanlı hakimiyyəti Cəbəl-Şəmmarı möhkəmləndirməyə başladılar və onlara 10 min tüfəng, ərzaq və pul verəcəklərini vəd etdilər.[179] Bundan xəbər tutan Əbd əl-Əziz, bir daha başa düşdü ki, İstanbul Hailə kömək edir və Riyad əmirliyinə qarşı real türk təhlükəsi hələ də qalmaqdadır.

Həmin vaxt Nəcddə ixvanlar – “qardaşlar” hərəkatı təşəkkül tapmağa başlamışdı. İxvanizmin mənəvi atası olaraq Əal əli-Şeyx ailəsindən olan riyad qazisi Abdallah ibn Məhəmməd ibn Əbd əl-Lətif, Əl-Has qazisi şeyx İsa və əsrin əvvəlində bura köçərək, gələcək hicrinin (yaşayış məntəqəsi)

Əl-Artaviyada məskunlaşmış Əbd əl-Kərim Məğribi hesab olunur.

1905-ci ildə Aunun ölümündən sonra Əli Hicazda şərif oldu. O vaxt Hicaz hələ də Sultanın vassalı idi.

1908-ci ildə baş verən gənc türklər inqilabından sonra Məkkəyə uzun illər (1893-cü ildən) İstanbulda yaşayan üç oğlu, - Əli, Abdallah və Feysəllə birlikdə, - fəxri əsir qismində saxlanılan və gələcək ərəb üsyanının lideri olacaq Hüseyn ibn Əli şərif təyin edildi.

Gərgin beynəlxalq mübarizədə isə İngiltərə və Almaniya başlıca rəqib olaraq qalırdılar. Məhz, ingilis-alman antoqonizmi imperializm mübarizəsində 1914-cü il müharibəsinə gətirib çıxaran əsas faktor rolunu oynadı.

Lakin 1913-1914-cü illərdə Britaniya diplomatiyasının əsas səyi ingilis-alman antoqonizminin şiddətini pərdələməyə yönəlmişdi. Hətta ilk öncə, ingilis diplomatiyası Bağdad dəmiryolunun maliyyələşdirilməsinə əngəl olmaqdan vaz keçdi.

Əslində Bağdad dəmiryolu məsələsi Portuqaliya koloniyalarının taleyi ilə paralel həll olundu. Hələ 1906-cı ildə İngiltərə türk vergilərinin 3 faiz artırılmasına razılıq vermişdi. Qarşıda isə gömrük vergitutmasını daha 4 faiz artırmaqla vergini malların dəyərinin 15 faizinə qədər qaldırmaq məsələsi dururdu.

1912-ci ilin payızında Osmanlı imperiyası Fars körfəzini Britaniyanın nüfuz dairəsinə aid olduğunu tanıyacağı halda, İngiltərə 4 faizlik vergi tutulmamasına razılıq verəcəyinə hazır olduğunu bildirmişdi. Bundan əlavə ingilis hökuməti özünün razılığı olmadan Bağdad magistralının Bəsrəyə qədər uzadılması ilə bağlı işləri dayandırılmasını istəyirdi. Britaniya həm də Bəsrə limanı üzərində nəzarəti ələ keçirmək, Osmanlı imperiyası tərəfindən Dəclə və Şət-ül-ərəb çaylarında naviqasiya

məsələsində Britaniyanın imtiyazlarının təsdiqlənməsinə çalışırdı. Sonuncu tələb isə Bağdad dəmiryolu müəssisəsinin rəhbərliyinə iki ingilis nümayəndəsinin daxil edilməsi ilə bağlı idi.

Almaniya isə öz növbəsindən İngiltərənin sükutundan istifadə edərərk Portuqaliya koloniyalarını ələ keçirdi. Bunun əvəzinə isə Almaniya İngiltərəyə onun razılığı olmadan dəmiryolu xəttinin Bəsrədən körfəzədək tikintisini davam etdirməyəcəyinə vəd verdi. İngilislərin Şət ül-ərəbdə digər "xüsusi maraqlarını da" nəzərə aldığını bildirən Almaniya, onun arzularını yerinə yetirəcəyinə təminat verdi, bunları yerinə yetirərsə, ingilis diplomatiyası da Bağdad dəmiryolunun inşasının başa çatdıralacağına razılığını bildirdi. Yeri gəlmişkən, Mosul neftinin istismarı və Şət ül-ərəbdə gəmiçiliyin inkişafı məqsədilə səhmdar cəmiyyətləri yaradılırdı ki, onlarda da ingilislərin payı 50% təşkil edirdi. Neft şirkətinin səhmlərinin digər yarısı almanlar və hollandlar arasında tən bölünmüşdü. Holland neft kapitalının ingilis kapitalı ilə sıx əlaqədə olması, bü müqavilə ilə iqtisadi cəhətdən Mosul neftinin İngiltərəyə çatacağını göstərirdi. 15 iyun 1914-cü ildə imzalanması gözlənilən ingilis-alman konvensiyasının məzmunu bundan ibarət idi. Lakin imzalanma bir qədər ləngidi; ardınca baş verən müharibə isə bu sənədi imzalanmamış qoydu.

Müharibəni isə 1914-cü ilin yayında  Almaniya başladı. Almaniya qüdrətli ölkələr arasında ən aqressivi idi və daha çevik silahlanmaqla, müharibəyə də hamıdan yaxşı və tez hazırlaşmışdı. Müharibənin başlanmasına isə Avstriya-Macarıstan taxtının varisi Frans-Ferdinandın  öldürülməsi əsas oldu.

Frans-Ferdinand Avstriya-Macarıstan hərbi təlimlərində iştirak etmək üçün gəldiyi Bosniyanın serblərlə məskunlaşmış Sarayevo şəhərində 28 iyun 1914-cü ildə qətlə yetirildi.

1905-ci ilin sonlarından 1916-cı il dekabrınadək İngiltərə xarici işlər nazirliyinin başında ser Eduard Qrey dururdu.

Britaniyanın xarici işlər nazirliyi baş verənlərdən əla xəbərdar idi. Hələ Sarayevo qətlindən az sonra Qrey bilirdi ki, Vyana hökuməti bu terror aktından Serbiyaya qarşı aqressiv davranmaq üçün istifadə edəcək və Almaniya da onu buna ruhlandıracaq. Bir qədər sonra Qreyə məlum oldu ki, Rusiya bir daha da Avstriya-Almaniya bloku qarşısında geri çəkilmək fikrində deyil.

Müharibənin ilk günlərindən rəqiblər Osmanlı imperiyasını özləri tərəfdən müharibəyə cəlb etmək üçün mübarizəyə başladılar. Bu ölkəyə təsir etmək üstündə Antanta ilə avstriya-alman bloku arasında çoxdan gərgin mübarizə gedirdi. Gənctürklər hökuməti alman oriyentasiyalı idi. Lakin Gənc türklər Avropa ilə münaqişəyə getmək istəmirdi, ona görə də Antanta ilə müharibədən çəkinirdilər. Onlar həm ingilislər, həm də bütünlükdə Antanta ilə ümumi dil tapmağa çalışırdlar, lakin avropalılar Türkiyəni "xəstə dövlət" adlandıraraq, onun ərazisini ələ keçirmək niyyətindəydilər. Türklər isə Almaniya ilə danışıqlara başlamaq məcburiyyətində qalaraq, digər dövlətlərlə - Fransa, İngiltərə və Rusiya ilə müharibədə onu dəstəklədilər.

Buna baxmayaraq, Osmanlı imperiyasının maliyyə-iqtisadi cəhətdən hələ də Antantadan asılılığı böyük idi. Digər tərəfdən, aydın idi ki, alman diplomatiyasının guya Osmanlı imperiyasının torpaq bütövlüyünü saxlamağa çalışacağı ilə bağlı vədləri, gözə kül üfürməkdən başqa bir şey deyildi.

Gənctürklər Almaniya ilə ittifaqda olmaq qərarı verdilər. 22 iyul 1914-cü ildə nəhayət ki, hərbi nazir Ənvər paşa bir çox hökümət üzvlərini xəbərdar etmədən alman səfirinə Osmanlı imperiyasının Almaniya ilə bir ittifaqda çıxış edəcəyini bildirdi. 1914-cü il avqustun 2-də alman-türk ittifaqı barədə müqavilə imzalandı.

Türkiyə ordusunun Baş qərargah rəisi olaraq almanın təyin olunması da təsadüf deyildi.

Antanta səfirləri İstanbulu tərk etdilər. Antantada olan müttəfiqlər Osmanlı imperiyasına müharibə elan etdilər. 2 noyabr 1914-cü ildə Rusiya Osmanlı imperiyasına müharibə elan etdi. 5-6 noyabrda isə onun ardınca İngiltərə və Fransa Türkiyəyə müharibə elan etdilər. Osmanlı imperiyasının müharibəyə girməsi, Rusiya və İngiltərəni qüvvələrinin bir hissəsini alman cəbhəsindən çəkərək, buraya yönəltmək məcburiyyətində qoydu. Osmanlı imperiyasının müharibədə iştirakının daha bir nəticəsi boğazların ticarət gəmilərini üzünə qapadılması oldu. Bu isə öz növbəsində Rusiya ilə müttəfiqlərinin Qara və Aralıq dənizləri vasitəsilə dəniz əlaqəsini kəsdi.

Türkiyəni şərqində yaşayan yerli ermənilər türk hökümətinə qarşı üsyan qaldırdılar və bununla onlar Antantanın etibarını qazanıb, bu yolla işğal edilmiş türk torpaqlarında monoetnik erməni dövləti quracaqlarına inanırdılar. Erməni silahlı dəstələri türk kişilərinin kütləvi şəkildə müharibəyə səfərbərbərliyindən istifadə edərək, müdafiəsiz qalmış türkləri və kürdləri planlı şəkildə qətlə yetirərək, öz dövlətlərini qurmaq üçün ərazi təmizləyirdilər. Bu məsələdə Rusiya xüsusi xidmət orqanlarının da əli olduğu şübhə doğurmur, onlar erməniləri silahla təchiz edir, zaman-zaman ermənilərin yerli əhaliyə qarşı əməliyatlarına rəhbərlik edirdilər.

1914-cü ildə erməni millətçi partiyası “Daşnaksütyun” tərəfindən təhrik edilən Zeytun vilayətində yaşayan ermənilər orduya çağırışdan imtina etdilər. Müharibə başlayandan sonra Şərqi Anadoluda erməni millətçi hərbi dəstələri fəaliyyətə başladılar, onlar müharibənin qızğın çağında erməniləri üsyana qaldırmaqla, Şərqi Anadolunun ruslar tərəfindən asan ələ keçirilməsini təmin etmək istəyirdilər. Şərqi Anadolunun türk kəndləri müdafiəsiz qalmışdılar, özündə 100 min nəfərə qədər silahlı erməni quldurunu birləşdirən dəstələr dinc əhaliyə qarşı

daim hücumlar təşkil edirdilər. Onlar kommunikasiya xətlərini dağıdır, terror aktları həyata keçirir, körpüləri partladır və türklərin arxa cəbhəsində faktiki olaraq rus ordusunun hərbi hissələri kimi fəaliyyət göstərirdilər. İş o yerə çatmışdı ki, Türkiyə hökuməti arxa cəbhədə erməni təhlükəsini önləmək üçün ön cəbhədən bütöv bir diviziyanı geri çəkməyə məcbur olmuşdu. 1915-ci ilin martında Türkiyənin Van vilayətində yaşayan ermənilər üsyana qalxdı.

Erməni terrorçu dəstələri Vanı ələ keçirərək, 3000 türkü qətlə yetirdilər. Bitlis əyalətinin əhalisi də Vanın taleyini yaşadı.

J.Malevilin "1915-ci il erməni faciəsi" kitabında göstərilir ki, Şərqi Anadoluda erməni terrorçuları və quldur dəstələri tərəfindən planlı şəkildə qətlə yetirilən müsəlman əhalisinin sayı az qala 1 600 000 nəfərə çatır. Müəllifin sözlərinə görə, hətta bu qanlı qətliamdan dəhşətə gələn bir çox rus zabitləri dözməyərək, erməni başkəsənlərinə qarşı güc tətbiq etməyə başlamışdılar. Təbii ki, dinc əhaliyə qarşı törədilən bu vəhşiliklər və qətliamlar, erməni təbliğatının ikiüzlülüyü mərkəzi hakimiyyətin səbr kasasını daşırdı və Ali Baş Komandanın 24 aprel 1915-ci il tarixli əmri ilə Daxili İşlər Nazirliyi İstanbulda və digər iri şəhərlərdə fəaliyyət göstərən erməni komitələri-terror təşkilatlarının dərhal qapadılması haqqında sərəncam verdi.

Amerikalı tarixçi Stenford C. Şouya görə, erməni quldur dəstələri 14-16 may tarixində "yerli müsəman əhalisini kütləvi şəkildə məhv etmişdilər". Bu barədə fikrini bildirən J.Malevil qeyd edirdi: "otuz il ərzində ermənilər tərəfindən sistemli şəkildə həyata keçirilən terror aktları, 1915-ci ildə onların başqa ərazilərə köçürülən həmvətənlərinin talelərində çox ciddi "əks-səmərə" doğurdu. Müxtəlif tərəflərdən qızışdırılan bu absurd qiyamlar yalnız heç kimə lazım olmayan ölümlərə yol açdı. Həm də bunun müəyyən psixoloji nəticələri də oldu, belə

ki, erməni “gərginlik təşviqatçıları” erməniləri osmanlıların gözündə “sədaqətli millətdən” “şübhəli millətə” çevirməyə nail oldular.Bir neçə on illik sürən qətllər və dəhşətli qiyamlar bunun üçün kifayət etdi”.

1915-ci il mayın 17-də erməni terror və quldur dəstələri tərəfindən qədim Van şəhəri yandırıldı. Dinc əhali tərəfindən çoxlu qurban verildi. C. və K.Makkartnin tədqiqatlarına görə, XX əsrin əvvəlində baş verən qanlı hadisələr nəticəsində 1,5 milyon müsəlman qətlə yetirilib.

22 iyun 1915-ci ildə hökümət qoşunları Vana daxil olanda dəhşətli mənzərə ilə üzləşdilər: meyitlərdən dağ qalaqanmışdı. Qaçmağa imkan tapmayan bütün müsəlman əhalisi, - türklər, azərbaycanlılar və kürdlər, - hamı erməni terror dəstələri tərəfindən qətlə yetirilmişdi. Ermənilər müsəlman əhalini böyük arxın kənarına toplamış, sonra onları vəhşicəsinə öldürmüşdülər. Üstündən səkkiz gün keçəndən sonra, 1 iyul 1915-ci ildə general Nikolayev özünün göndərdiyi məlumatlarda Tero və Xeço adlı ermənilərin quldur dəstəsinin vəhşiliklərindən söz açır və bunlardan dəhşətə gəlmiş rus zabiti onlara toplardan atəş açmağı əmr etmişdi.

Körpələri analarından alıb, yanar oda atırdılar. Dəhşətli işgəncələr verərək öldürürdülər. Bu qətllərin təşkilatçılarından biri, gizli fəaliyyətə keçən erməni terror tşkilatı “Qnçak”ın ideoloqlarından olan, türk parlamentinin deputatı Stepan Ter-Danielyan idi. Ərzrumdan keçmiş deputat, özünə yeni Armen Karo adını götürmüş Karekin Pastirmasyan isə rus qoşunları ilə birlikdə osmanlı sərhədini keçən ilk erməni dəstələrinə başçılıq edirdi. Digər keçmiş Osmanlı parlementarisi Murad ləqəbli Namparsum Boyasyan isə arxa cəbhədə türk kəndlilərini qətlə yetirən quldurlara başçılıq edirdi. Bu əmr ona məxsus idi: “Bütün türk uşaqlarını öldürün, çünki onlar erməni milləti üçün təhlükədilər”.

Osmanlı parlamentinin daha bir keçmiş üzvü Papazyan erməni quldur dəstələrini Van, Bitlis və Muş rayonlarını terrorizə etməyə yönəldirdi.

Amerikalı tarixçi Stenford C. Şounun "Osmanlı imperiyasının tarixi" kitabına görə: "Bütün müharibə dövründə ermənilər müsəlman əhalisini kütləvi şəkildə amansızcasına qətlə yetirmişlər. Milyon nəfərdən artıq türk kəndlisi öz doğma ocağından qaçmağa məcbur olmuşdu. Minlərlə qaçqın tikə-tikə doğranmışdı". 1914-cü ildə beş vilayətdə - Trabzon, Ərzrum, Ərzincan, Van və Bitlisdə 3 300 000 müsəlman əhali yaşayırdısa, müharibədən sonra təkcə oradan qaçqın düşənlərin sayı 600 000 nəfər idi. Erməni quldur dəstələri kürd kəndlərinə də hücum edir, bütün dinc əhalini vəhşiliklə qətlə yetirir, nə qadınlara, nə qocalara, nə də uşaqlara aman vermirdilər. Türk və kürd kəndlilərinn qətliamının bilavasitə təşkilatçısı və əsas ideoloqu erməni terror təşkilatı "Daşnaksütyun"un üzvü, Atom ləqəbli Arutyun Şahrikyan idi. Osmanlı dövləti erməniləri hərbi əməliyyat meydanlarından uzaqlaşdırmaq üçün o vaxt imperiyanın tərkibində olan Suriyaya köçürməklə bağlı çətin qərar qəbul etmək məcburiyyətində qaldı. Deportasiya türk ordusunun müşayiəti ilə həyata keçirilirdi, bu da onların keçdikləri ərazilərdə türklər və kürdlər tərəfindən qisas məqsədilə öldürülməsini önləmək məqsədi daşıyırdı. Ona görə ki, qarşılıqlı toqquşmalar baş verirdi, əzizlərini öldürmüş erməni canilərini ələ keçirən sakinlər onları qətlə yetirirdilər. Əslində insani bir tragediya yaşanırdı.Köçürmə zamanı xəstəlik və aclıqdan çoxlu erməni həlak oldu. Lakin müasir ermənilərin bununla bağlı gətirdiyi rəqəmlər təbii ki, həqiqətdən çox uzaqdır. Tarixi təhrif edənlər 800 mindən 2 milyona qədər insanın öldüyünü deyirlər. Müasir erməni tədqiqatçıları öz siyahılarına bu və ya digər səbəblərdən ölən digər millət və xalqları, eləcə də həmin vilayətlərdə yaşamış və bilavasitə hərbi əməliyyatlar zamanı ölənləri də əlavə ediblər.

Türk tədqiqatçıları isə ən çoxu 130 min ermənininin öldüyünü təsdiq edirlər. Bu saya "quldur dəstələri" tərkibində türk ordusuna qarşı vuruşmuş ermənilərlə yanaşı, rusların tərəfində vuruşan və bilavasitə rusların tərəfinə keçən ermənilər də daxildir.

Digər tərəfdən, "erməni genosidi" mifini hazırlayanlar yaddan çıxarmamalıydılar ki, hələ 1948-ci ildə BMT genosidin hansı şərtlər əsasında tanına biləcəyi barədə sənəd qəbul edib. Orada aydın və birmənalı şəkildə qeyd olunur ki, bu və ya digər qrup insanların "məqsədyönlü şəkildə qətlə yetirilməsindən" söhbət getmirsə, o, "genosid" kimi qəbul edilə bilməz. Osmanlı hakimiyyətinin belə bir niyyətinin olduğunu isə nə o vaxt, nə də indi sübut etmək mümkünsüzdür. Məhz, buna görə, eyni zamanda öz fantaziyalarından çıxış edən elə erməni millətçiləri və hamı üçün də yaxşı olardı ki, özlərində cəsarət tapıb, haqsız və əsassız iddialarından əl çəksinlər. Onların bu mənasız, mazoxist-xəstə təfəkkürdən əl çəkib, keçmişdə qalan və milli-eqoist mənfəətpərəstlik anlayışlarını durdurmağın vaxtı çoxdan çatıb. Bunun əvəzinə soyqırımla bağlı mifi tarixin "göyərtəsindən" birdəfəlik, qəti şəkildə kənara tullamaq lazımdır, onsuz da uydurmalara deyil, tarixi reallıqlara istinad etsək, aydın olar ki, belə bir soyqırım heç vaxt olmayıb.

Müharıbənin lap qızğın çağında Antanta düşərgəsi daxilində rəqiblərin qarşılıqlı diplomatik mübarizələridə davam edirdi. Bu 1914-1915-ci illərdə boğazlarla bağlı İstanbul müqaviləsi ətrafında başlamış mübarizənin davamı idi.

Uzun çəkən və mürəkkəb bazarlıqdan sonra tərəflər nəhayət ki, Osmanlı imperiyasının Asiya hissəsinin bölüşdürülməsi barədə öz aralarında razılığa gələ bildilər. Təşəbbüs İngiltərə və Faransaya aid idi. İngilislər tərəfindən danışıqları Sayks, fransızlar tərəfindən isə Piko aparırdılar. 9 mart 1916-cı ildə Sayks və Piko arasındakı sövdələşmə barədə rus hökü-

mətinə məlumat çatdırıldı. Bu Antantanın işğalçılıq planı idi və Osmanlı imperiyasının böyük bir ərazisini, o çümlədən tarixi türk torpaqlarının da bir hissəsini ələ keçirmək nəzərdə tutulmuşdu. Bu, çar Rusiyasını təmsil edən Sazonovun heç xoşuna gəlmədi, çünki rus, fransız və ingilislərə çatan torpaqlar arasında bufer dövlətin yaradılması nəzərdə tutulmamışdı. Onda ümumiyyətəl bundan əlavə də xeyli etirazlar yarandı. Nəticə olaraq yeni danışıqlar başlandı. Uzün bazarlıqdan və bir sıra dəyişikliklər nəzərə alındıqdan sonra, rus höküməti Sayks-Piko müqaviləsini tanıdı. Aprelin 26-da Türkiyənin Asiya hissəsinə dair tərəflərin qarşılıqlı iddialarını aradan qaldıran fransız-rus müqaviləsi (sonra İngiltərə tərəfindən də bəyənilən) bağlandı, həmin məsələyə dair İngiltərə ilə Fransa arasında da oxşar müqavilə imzalandı. Hər iki sənəd sonradan tarixə, məhz, "Sayks-Piko müqaviləsi" kimi düşdü.

İngiltərə Bağdadla birlikdə Mesopotamiyanı, lakin Mosul daxil edilmədən alırdı. Bundan əlavə Ərəbistanın böyük hissəsi də İngiltərənin nüfuz dairəsi kimi tanınırdı. Fələstin beynəlxalq nəzarətə verilirdi, ancaq Hayfa və Akra limanları İngiltərəyə çatırdı.

Fransa Suriya və Kilikiyaya, Kürdistanın böyük hissəsinə, hətta Şərqi Anadolunun da bir qisminə sahiblənirdi. Bundan əlavə Ərəbistanın Nəcddən şimala olan hissəsi və neftlə zəngin Mosul vilayəti də onun nüfuz dairəsinə aid edilirdi.

Rusiya Trapezunda, Ərzrum, Van və Bəyazid vilayətlərini, Kürdistanın bir hissəsini və Trapezundadan qərbə tərəf Qara dəniz sahillərinə yiyələnirdi. İstanbul və boğazlara dair isə əlavə müqavilə imzalanmalı idi . Ərazi cəhətdən Rusiyaya aid hissəyə düşən fransız dəmiryolları kensessiyaları isə öz qüvvəsini saxlayırdı.

Amma nədənsə bu razılaşmada İtaliyanın payı müəyyən olunmamışdı, ona görə ki,Roma Avstriyaya müharibə elan etsə

də, Almaniyaya müharibə elan etməyə tələsmirdi. Nəhayət, 1916-cı ilin avqustunda İtaliya Almaniyaya müharibə elan etdi və buna görə də dərhal ona xəritə üzərində özündə Adana, Konya, Aydın və Smirnəni əhatə edən cənub və cənub-qərbi Anadoludan böyük bir pay ayrıldı. Bir sözlə, Osmanlı imperiyasından yalnız mərkəzi və şimali-şərqi Anadolu qalırdı.

Müharibənin lap başlanğıcından İngiltərə öz xəfiyyələri vasitəsilə ərəblər arasında fəaliyyət işlərini genişləndirmişdi. Bu xəfiyyələrin başında məşhur kəşfiyyatçı polkovnik T. Lourens dayanırdı. Bu Şərq diplomatiyasına Britaniya imperializminin Xarici İşlər nazirliyi deyil, İntellicens Servis (kəşfiyyat idarəsi) rəhbərlik edirdi. 1916-cı ilin iyununda həmin agentlərin fəal iştirakı ilə ərəb üsyanı alovlandı.

Fransızlar da özlərinin geosiyasi maraqları üçün Piko vasitəsilə Suriyada Louerensin analoji fəaliyyətinə bənzər iş qurdular. Nazirlər Kabineti başçısının adından Pikoya göndərilən təlimatda görün, nə deyilirdi: "Fərariləri pulla mükafatlandırın və dəmiryollarına və yol qovşaqlarına olan hücumların qarşısını alın. Bizim işimizə yaraya biləcək tayfalara pul və silah paylayın, onlardan düşmənimizi narahat edəcək dəstələr təşkil edin. Ərəblərlə informasiya təşkilatları vasitəsilə sıx əlaqə qurun, onları yönəldin, hərəkətlərini koordinasiya edin. Nəhayət, öz yanınızda müxtəlif qəbilə və tayfa rəhbərlərindən ibarət məsləhət şurası yaradıb onların səylərini istiqamətləndirməyə çalışın".

İngilis höküməti Məkkənin şərifi Hüseynə üstünlük versə belə, Riyad əmiri ilədə sıx əlaqədə idi.. Həmin zamanlarda Əbd əl-Əzizin hakimiyyəti Küveyt və Cəbəl-Şəmmar Rub əl-Hali səhrasının sərhədinə və Fars körfəzindən Hicaza qədər uzanırdı. Əbd əl-Əzizdən istənilən yeganə şey, Cənubi Mesopotamiyadakı Britaniya ordusuna təhlükə yarada biləcək türk vassalı Gəbbal-Şəmmar əmirinin neytrallaşdırılması məsələsi idi.

Mərkəzi Ərəbistandakı vəziyyət ingilislər üçün hələdə aydın olmayaraq qalırdı. Onların artıq bütün diqqəti Ərəbistanın qərbinə yönəlmişdi.

26 dekabr 1915-ci ildə onlar Əbd əl-Əzizlə müqavilə bağladılar. Müqavilə Əl-katifə vahiyəsinin sahillərinin qarşısında olan Darin adasında imzalandığından, onu həm "Darin", həm də "Katif" müqaviləsi də adlandırırlar. Müqavilə Əbd əl-Əziz və Britaniya rezidenti P.Koks arasında imzalandı və 1916-cı ilin iyulunda vitse-kral və Hindistanın qubernatoru tərəfindən Simlidə şurada ratifikasiya olundu.

Həmin müqavilə ilə Britaniya hökuməti "Nəcd, Əl-İhsə və Əl-Katif, Əl-Cubayl, eləcə də onlardan asılı olan ərazilərin" Əbd əl-Əzizin nəzarətində olduğunu tanıyırdı. Müqavilənin üçüncü maddəsində isə deyilirdi: "İbn Səud Küveyt, Bəhreyn və Qətər şeyxlərinin eləcə də Oman sahillərinin işlərinə müdaxilə etməyəcəyinə dair öhdəlik götürür".[180]

Bir məsələni də qeyd etmək lazımdır ki, Birinci dünya müharibəsinin ilk illərində müttəfiqlər Ərəbistanın digər əmirliklərindən daha çox Məkkə şərifinə (Ümumiyyətlə şəriflər peyğəmbər nəsilindən olduqlarından, onların müsəlman ərəblər arasında böyük nüfuzları vardı-müəllif) daha diqqət ayırırdılar.

5 iyun 1916-cı ildə Ərəbistanın müstəqilliyi elan edən Hüseyn, türklərin zərbə endirməsindən ehtiyat edərək iyunun 10-da türklərə qarşı ərəbləri cihada çağırdı.. İyulda Məkkədə olan türk qarnizonu təslim oldu, ardınca Hicazın digər iri şəhərləri, - Mədinədən başqa, ora Suriyadan dəmiryolu xətti var idi, -ələ keçirildi. Həmin vaxt Ciddədə polkovnik K. Uilsonun rəhbərlik etdiyi Britaniya, E.Bremonun başçılıq etdiyi fransız hərbiyə missiyaları peyda oldu.

Əlbəttə ki, türklərə qarşı qaldırılan üsyanın əsas təşkilatçılarından biri ingilis kəşfiyyatçı-polkovniki T.Lourens

idi. T.Lourens bir vaxtlar arxeologiya ilə məşğul olmuşdu. Yaxın Şərqdə keçirdiyi illər ona, ərəb dilində mükəmməl danışmaq bacarığı vermiş, eləcə o, ərəb dilinin bir neçə dialektini də öyrənə bilmişdi. Dili əla bilməsi, eləcə də bədəvilərin bütün həyat, məişət və düşüncə tərzinə bələd olması ona ərəb şeyxlərinin etibarını qazanmağa kömək etdi və onları antitürk çıxışlara sövq edə edə bildi. O, şərif Hüseynin xüsusi etibarını qazana bilmişdi.

Çox tezliklə Lourens Hüseynin sarayında onun ən yaxın adamına çevridli. Hüseyn tamamilə britaniyalı məsləhətçisinin böyük təsiri altında idi .Böyük Britaniya krallığının hökuməti 1915-ci il ərzində apardığı yazılı danışıqlarda Hüseyni əmin etməyə çalışırdı ki, Ərəb Şərqinin ərazisini o, öz krallığına birləşdirə bilər, bunun üçün isə Osmanlı imperiyasına qarşı ərəblərin üsyanını təşkil edib, ona rəhbərliyi üzərinə götürməlidir. İngilislərin yazılı vədlərinə inanan Hüseyn, buna razılıq verdi.

Üsyan 1916-cı ilin yayında başladı. 1916-ci ilin oktyabr ayında şərif Hüseyn özünü ərəblərin kralı elan etdi. Lourensin məsləhəti ilə Hüseynin oölu Feysəl hərbi rəhbərliyi öz üzərinə götürdü və ağır səhra döyüşlərinin gedişində ona türk qoşunlarını silah və ərzaqla təchiz olunduqları əsas mənbədən, məhrum etmək nəsib oldu. Belə ki, təzə çəkilən Hicaz dəmiryolunun bu hissəsi sıradan çıxarıldı.

Baharda Rusiyada baş verən hadısələr Antantanı bir neçə uğursuzluğa məruz etdı. 12 mart (27 fevral) 1917-ci ildə Rusiyada çarizm devrildi. Xalq üsyanı çarizmi süpürüb atdı. Hakimiyyəti knyaz Lvov başda olmaqla, müvəqqəti hökümət öz əlinə aldı. Rysiyadakı qızğın siyasi-inqilabi prosesıər döyüşkən orduda nizam –intizamı pozmuşdu.

Lakin tezliklə ABŞ Antantanın köməyinə gəldi, Almaniya və Türkiyəyə müharibə elan etdi. 1917-ci ilin əvvəlində türklərin Hicaz sahillərində əllərində qalan sonuncu

şəhər - Əl-İhsəni Britaniya hərbi gəmilərindən çıxarılan desant və Feysəlin Hicaz dəstəsi tərəfindən ələ keçirildi. 1917-ci ilin iyuluna yaxın isə Əkaba tutuldu.

Alman generalı Liman fon Sandersin türk qoşunlarına komandanlığı şəxsən üzərinə götürməsinə baxmayaraq, heç nəyi dəyişmək artıq mümkün deyildi.

1 oktyabr 1918-ci ildə Hüseynin oğlu Feysəl, Allenbi və Lourens aldadılmış ərəb əhalisinin təbrikləri və sevincli qışqırıq sədaları altında Dəməşqə daxil oldular.Hamıya elə gəlirdi ki, azadlığa çıxıblar.

Lakin Sovet dövləti çar arxivinin məxfi sənədlərini, o cümlədən Sayks - Piko müqaviləsini (Türkiyənin Asiya hissəsinin bölüş-dürülməsi Xarici işlər nazirliyinin məxfi sənədlərində. E.A. Adamovun redaktəsi altında. (Avropanın qüdrətli dövlətləri və Türkiyə birinci dünya müharibəsi dövründə)M. 1924, 323-cü səh.) nəşr etdikdən sonra, Hüseyn başa düşdü ki, onu aldadıblar.

Lourens sonralar açıq şəkildə Hüseynlə Britaniya arasındakı müqaviləyə dair belə demişdi: "Hər şey əvvəldən məlum idi ki, biz müharibəni udsaq, vədlərimiz boş kağızdan başqa bir şey olmayacaq. Mən yalan danışarkən inanırdım ki, ərəblərin köməyi bizə Şərqdə çevik qələbə qazanmaq üçün çox vacibdir və qələbə qazansaq, vədimizi pozarıq, bu isə məğlub olmaqdan daha yaxşıdır".

Britaniya hökümətinin vədlərinə inanan Hüseynin oğlu Feysəl, Tavr dağlarından Sinay yarımadasınadək olan ərazini əhatə edəcək müstəqil Suriya dövlətini yaratmaq üçün işə girişdi.

Lakin müttəfiqlər dərhal buna etiraz etdilər. Livana çıxarılan fransız diviziyası sahil zolağını işğal etdi. İngilislər isə Fələstinə iddialı idilər. Buna baxmayaraq 1920-ci ilin mayında suriyalı vətənpərvərlərin konqresində Suriya kral-

lığının yarandığı elan olundu və Feysəl kral elan edildi. Ənənəvi "parçala və hökm sür" siyasəti ilə müttəfiqlər şərifləri ələ almaqla yanaşı,regionda geosiyasi ərəb təsirinin güclənməsinin qarşısını almaq üçün, daha bir yeni alətdən istifadə etmək fikrinə düşdülər – burada yəhudi dövləti qurmağa səylər göstərdilər. Onu, minlərlə il əvvəl bir neçə İsrail tayfasının dövlət halında birləşdiyi və son iki min il əvvəl romalılar tərəfindən izləri silinmiş ərazidə Fələstində yaratmaq nəzərdə tutulurdu. Yeri gəlmişkən, XIX əsrin ortalarında orada müsəlmanlar və xristianlarla harmoniyada yaşayan 11 min nəfərlik yəhudi azlığı var idi, lakin həmin yəhudilər heç də bu qədim ərazidə yaşamış yəhudilərin nəslindən deyildilər, onlar XVI əsrin əvvəlində İspaniyadan bura gəlmişdilər və türk sultanının göstərişi ilə Aralıq dənizinin sahillərində yerləşdirilmişdilər.

Beləliklə, Britaniya hökuməti ikili oyun oynayırdı. Təsəvvür edin: Britaniya hökuməti özlərinə aid olmayan, Osmanlı imperiyasının tərkibindəki və ərəblərin yaşadığı və onlara məxsus ərazini onların razılığı olmadan fransızlarla öz aralarında bölüşürlər və yenə də həmin ərazinin böyük bir hissəsini ərəblərdən izinsiz digər maraqlı tərəfə vəd edirlər. İngilis hökumətinin bu siyasətini sərt tənqid edən gələcək baş nazir Ramsey Makdonald 1922-ci ildə Britaniya siyasətini və onun nəticələrini belə xarakterizə etmişdi: "Biz Osmanlı imperiyasına qarşı ərəb üsyanlarını stimullaşdırmaqla onlara ərəb krallığının yaradılacağı və Fələstinin də ora birləşdiriləcəyi vədini veririk. Eyni vaxtda yəhudiləri bizə kömək etməyə həvəsləndirib, Fələstində onlara dövlət qurmaq vədi də veririk. Eyni zamanda Fransa ilə gizli şəkildə Sayks-Piko müqaviləsini bağlamaqla, həmin əraziləri bir daha bölüşdürürük, lakin həmin torpaqlarıda Britaniya hökuməti adından Misirin general-qubernatoru ərəblərə vəd verir.Bu çox kobud ikili tarixi oyundur və mən güman etmirəm ki, biz onun nəticələrinin məsuliyyətindən yaxa qurtara bilək ".

Əslində heç ərəblər arasındada heç bir ciddi birliy yox idi.Şərif Hüseynin özünü "ərəblərin kralı" elan etməsi, Riyad əmirinin ciddi etirazı ilə qarşılandaı və Əbd əl-Əziz , Nəcd və Hicaz arasında sərhədlərin müəyyən edilməsi və sərhəddəki köçəri tayfaların kimə tabe olacaqları ilə bağlı razılığa gəlməyin vacibliyini bildirdi. Nəcddən olan salnaməçinin sözlərinə görə, guya bunu eşidən Hüseyn ona belə cavab veribmiş: "Hansı sərhədləri tələb edirsən, Sən axmaqsan, yoxsa sərxoş".[181] Nəcd torpaqlarının sahibi Riyad əmiri Əbd Əl-Əziz bu təhqiri unutmamış və ingilislərə Hüseynlə mübarizə aparmaq məcburiyyətinə qaldığı ilə bağlı xəbərdarlıq etmişdi.[182]

Parçalanmış Osmanlı imperiyasının məqribində olan Kirenaikdə (Liviya) başlanan müharibə dünya müharibəsinin tərkib hissəsi idi. Almaniya və Türkiyə Şimali Afrikada olan italyan və Britaniya qoşunlarını ətraf aləmdən təcrid etmək məqsədilə ora silah və məsləhətçi qismində Əhməd Şərifi göndərdi. Liviya xalqının başqa bir milli qəhrəmanı Ömər əl-Muxtar Kirenaiki tayfalarının italyan-faşist işğalçılarına qarşı silahlı mübarizəsinə rəhbərlik edirdi. O, Canzurda, ardınca isə Caqbubada dini təhsil almış və Əl-Kasura senusilərinin şeyxi olmuşdu. 1911-ci ildən Liviya xalqının italyan işğalçılarına qarşı mübarizəsində aktiv iştirak etmişdi.

1916-cı ildə senusilər türk zabitlərinin komandanlığı altında Misirə girə bildilər. Ancaq qızğın döyüşlərdən sonra türklər geri çəkilməyə məcbur oldular. Senusilərin lideri Əhməd Şərif öz səlahiyyətlərini İdrisə verərək alman sualtı qayığında İstanbula getdi. Ancaq Senusilərin yeni lideri İdris Kirenaikidə Antanta ilə danışıqlara başladı və nəticədə çox tezliklə onlara tərəf keçərək sülh müqaviləsi imzalandı. Lakin nə senusilər, nə də İtaliya öz iddialarından geri çəkilməmişdilər. Britaniya və İtaliya İdrisi Kirenaikenin faktiki hökmdar kimi tanıdı, lakin ondan senusilərin sahilyanı şə-

hərlərə və Misirə hücumlar etməyəcəyi barədə zəmanət aldı. Kirenaikenin son statusu ilə bağlı məsələnin isə Almaniya və Türkiyə ilə müharibənin sona çatmasından sonraya saxlanıldı.

Osmanlı imperiyası şimali-şərq cəbhəsində isə Antanta ilə ittifaqda olan Rusiya ilə döyüşürdü. Lakin 1917-ci ilin fevralında Rusiyada dövlət çevrilişi baş verdi. Öncə çar hakimiyyəti devrildikdən sonra knyaz Lvov başda olmaqla Müvəqqəti hökumət yaradıldı. Lakin hakimiyyətə paralel olaraq Rusiyada siyasi proseslərə daha çox təsir edən bolşeviklərin İnqilabi Şurası da iddialı idi. Beləliklə. Rusiyada ikihakimiyyətlilik yaranmışdı. Bu proses çar ordusunu mənəvi əzmini qırmışdı. Anantanın taleyi təhlükə altına düşmüşdü, bu səbəbdən ABŞ prezidenti Vilson 1917-ci ilin oktyabrında Almaniyaya müharibə elan etmək məcburiyyətində qaldı. 1917-ci ilin oktyabrında Lenin başda olmaqla bolşeviklər hakimiyyəti ələ keçirdilər. Ertəsi gün isə II Sovetlər qurultayında Almaniya və onun müttəfiqləri ilə Rusiya arasında "sülh haqqında dekret" imzalandı. Bunu qəbul edən Almaniya danışıqlara razılığını verdi. 1918-ci il martın 1-də Brest-Litovskda konfrans öz işinə başladı. Vətəndaş müharibəsində gücdən düşən Rusiya sülh xatirinə Almaniyaya böyük bir ərazini – Qərbi Ukrayna, Pribaltika və digər torpaqları güzəştə getməyə məcbur oldu.

1918-ci il 27 avqustda Brest-litovsk müqaviləsi Rusiya-Almaniya müqaviləsi ilə zənginləşdi. Beləliklə, Rusiyanı parçalayan Almaniya, üstəlik Peterburqdan Gürcüstanın müstəqilliyinin tanınmasını da tələb edirdi. Almanlar öz qoşunlarını Gürcüstandan Bakıya aparmaq istəyirdilər. Elə həmin vaxtlarda Andronikin rəhbərlik etdiyi daşnak qoşunu Qərbi Azərbaycanda azərbaycanlılara qarşı soyqırım törədirdilər. Bu səbəbdən, türklər qardaşlarının köməyinə gələrək onların daşnaklar tərəfindən qırılmasının qarşısını aldılar. Brest-Litovsk müqaviləsi ilə türklərin Qafqaza buraxılmaması ilə bağlı

Almaniyanın üzərinə öhdəlik götürdü,ona görədə Berlin türklərin Azərbaycana daxil olmasına mane olmağa çalışırdı.

Artıq II Nikolayın devrilməsindən sonra yerli güclər Zaqafqaziyada Petroqradın zəifliyindən istifadə edərək, Tiflisdə hakimiyyəti öz əllərinə almışdılar. Tiflis quberniyasında Zaqafqaziya müvəqqəti hökuməti elan edildi. Zaqafqaziya komitəsi təsis olunmuşdu. Bu komitə Zaqafqaziya müvəqqəti hökumətinin siyasətini həyata keçirirdi. Komitənin tərkibi iki kadet, bir menşevik, bir gürcü federalist və bir müsavatçı türkdən ibarət idi. Komitəyə Xarlamov rəhbərlik edirdi. Lakin Rusiyada hakimiyyətə gəlməyə can atan bolşeviklərin Zaqafqaziyada öz adamları var idi və onların vasitəsilə 2-7 oktyabrda I qurultaylarını keçirərək, Qafqaz dairəsinin yarandığını elan etdilər.

Bu Dairə Komitəsinə Saxaya, Şaumyan, Caparidze, Maxaradze, Nazarapetyan, Kasiyan, Mravyan, Korqanov və sonradan Mikoyan da daxil idilər.

Oktyabr inqilabından sonra 1917-ci il noyabrın 2-də menşevik Gegeçkerinin başçılıq etdiyi Zaqafqaziya komissarlığı yarandı. Lakin bu hakimiyyət uzun sürmədi. 1918-ci il fevralın 10-da Moskvadan dəstək alan bolşeviklər Zaqafqaziya seyminə seçkilər keçirməyə nail oldular.

1918-ci ildə Brest-Litovsk müqaviləsinə əsasən Türkiyə seymdən Qars və Batumini tələb edirdi. 1918-ci il aprelin 1-də nəhayət türk ordusu bu əraziyə daxil oldu. Türk tərəfi Zaqafqaziya seyminin buraxılmasını və Zaqafqaziya respublikalarının müstəqilliyinin tanınmasını tələb edirdi.

1918-ci il aprelin 9-da Seym Zaqafqaziyanın müstəqilliyini elan etdi.

1918-ci il mayın 26-da isə Seym öz fəaliyyətini dayandırdı və üç Zaqafqaziya respublikası özlərinin müstəqilliklərini elan etdilr.

Türkiyə ordusunun baş komandanı Ənvər paşa böyük bir qoşun hissəsini Ərəb cəbhəsindən çıxararaq, onları Cənubi Qafqaza yönəltdi. Bu çox riskli və türklərin gücünü xeyli azaldan bir addım idi və təsadüfi deyildi ki, bundan istifadə edən ingilis kəşfiyyatçısı Lourens 1918-ci ildə Feysəl öz qüvvələri ilə və fransız ordusu isə general Allenbinin başçılığı altında hücuma keçərək Dəməşqi ələ keçirdilər. Türkiyə Azadlıq Ordusu qardaş Azərbaycanın köməyinə gələrək onu erməni işğalından və xalqı da soyqırımdan xilas edərək, Azərbaycanın müstəqilliyinə təkan verdilər. Şaumyanın başçılıq etdiyi Bakı Komitəsi istefa verdi və ingilislərin köməyi ilə Bakıda Sentrokaspi diktaturası yaradıldı. Türk ordusu Azərbaycanın Milli Ordusu ilə birlikdə Gəncədən Bakı üzərinə hücuma keçdi. Bakı milli qüvvələrin hakimiyyəti altına keçdi. Çox tezliklə Azərbaycan demokratik respublikasının parlamenti və hökuməti təsis olundu.

Amma zaman Antantanın xeyrinə işləyirdi. Almaniya Qərb cəbhəsində məğlubiyyətə uğradı. Qarşısıalınmaz fəlakət yaxınlaşmaqda idi. Bolqarıstanın məğlubiyyəti Antanta qüvvələrinə Avstriya-Macarıstana yaxınlaşmağa imkan verdi, bu isə Münhenə olan yolu açdı və Türkiyə ilə Almaniya arasında əlaqənin pozulmasına gətirib çıxardı. Bu da öz növbəsində Almaniyanın məğlubiyyətinin əsasını qoydu. 1918-ci il sentyabrın 19-da ingilis ordusu Türkiyə üzərinə qəti hücuma keçdi. Bir neçə gündən sonra Türkiyənin Fələstində varlığına son qoyuldu. Sentyabrın sonunda Antanta qüvvələri Qərb cəbhəsində “Ziqfrid” xəttini yarmağa müvəffəq oldular. Antantanın bu hücumu Türkiyənin tamamilə məğlub olmasına gətirib çıxardı. Oktyabrın 30-da Lemnos adasındakı Mudros

limanında dayanan ingilis gəmisi "Aqamenon"da İngiltərə ilə Osmanlı imperiyası arasında sülh müqaviləsi imzalandı. Bu müqabilənin əsasında Türkiyə öz qoşunlarını Mesopatamiya, Ərəbistan, Suriya, Zaqafqaziya və Kilikiyadan çıxarmalı idi. Müqaviləyə görə, qalib gələn tərəf istanbuldan Qara dənizə keçid rolunu oynayan boğazları işğal etmək hüququ qazanırdı.

Türkiyə ağır şərtləri qəbul etmək məcburiyyətində qaldı: boğazları Antantanın hərbi donanmasının üzünə açmaq və müttəfiqlərə Bosfor və Dardanel boğazlarını işğal etməyə imkan vermək; ərəb ölkələrində qalan türk qarnizonlarını təslim etmək; türk qoşunlarını İran, Zaqafqaziya və Kilikiyadan evakuasiya etmək; müttəfiqlərə Batumini və Bakını işğal etmək imkanı vermək; "şərait müttəfiqlərin təhlükəsizliyinə təhlükə yaradarsa", onlar Türkiyənin istənilən məntəqəsini ələ keçirmək hüququ verilirdi; türk ordusunun dərhal döyüş ruhunun qırılması. Türk hərbi gəmilərinin Antantaya verilməsi; müttəfiqlərin radio, teleqraf və dəmir yollarına nəzarətinin təmin edilməsi; müttəfiqlərə bütün limanlardan maneəsiz istifadə etmək hüququnun verilməsi; müttəfiq qoşunlarından əsir düşənlərin geri qaytarılması, əsir türklərin isə müttəfiqlərin sərəncamında saxlanılması; Türkiyənin Almaniya və Avstriya-Macarıstanla əlaqələrini tamamilə kəsməsi məsələləri tələb olunurdu.

Türkiyənin müharibədə məğlubiyyəti, Azərbaycanın ictimai-siyasi elitasını Azərbaycanda marağı olan ölkələrlə yeni səviyyədə danışıqlara başlamağa məcbur etdi. Bakı ingilislərin təsir dairəsinə keçdi.

İmperialist dairələr Osmanlı imperiyasının itkiləri ilə kifayətlənməyib, Parisdə konfrans (1919-1920-ci illər) çağırdılar, onlar Türkiyəni parçalamaq, türk xalqını qula çevirmək, Azərbaycanı isə İtaliyaya vermək istəyirdilər.

Həmin vaxt Azərbaycan nümayəndə heyətinin rəhbəri Əlimərdan bəy Topçubaşov ABŞ prezidenti Vilsonla görüşərək ondan Azərbaycanın müstəqilliyinin tanınmasını xahiş etdi.Onun xahişinə Vilson belə cavab verir: "Düşünürsünüz ki, biz müharibəni cırtdan dövlətlər yaransın deyə aparmışıq?" Lakin bolşevik işğalı təhlükəsindən əndiləşənən ABŞ, həm də İngiltərə Azərbaycan Demokratik Respublikasını müstəqilliyini tanıyırlar.

Mudros barışığı Osmanlı imperiyasının varlığına son qoymuşdu. Müttəfiqlər Mudros aktından Osmanlı imperiyasını darmadağın edərək bölüşdürülməsini başa çatdırmaq üçün istifadə etdilər. Türkiyə ərazililərinin böyük bir hissəsi faktiki olaraq, İngiltərə, Faransa, İtaliya və Yunanıstan arasında bölünmüşdü. Antanta qoşunları bütün Bosfor və Dardanel boğazları zonasını ələ keçirmişdilər və oraya rəhbərliyi İngiltərə həyata keçirirdi.

Qalib ölkələr Osmanlı imperiyasını Birinci Dünya Müharibəsinə cəlb edilməsinin əsas təqsirkarları olan "Birlik və inkişaf" türk partiyasının (gənctürklər prosesi kimi tanınır-müəllif) rəhbər xadimləri üzərində məhkəmə prosesləri keçirilməsini tələb edirdilər. Osmanlı imperiyası məğlub və gücdən düşmüş vəziyyətdə idi. Onun bu vəziyyətindən qaliblər yaralanırdılar. Onlar bu ölkəyə daxildən zərbə endirmək, türklərin qürurunu qırmaq və bu gözəl xalqı dünya ictimaiyyəti qarşısında gözdən salmaq istəyirdilər. Türklər hətta bu gün də ermənilərə, eləcə də digər xalqlara hörmət və dözümlə yanaşırlar. Osmanlı tərbiyəsi almış insan heç vaxt millətçi ola bilməzdi, zatən belə olmasaydı, türklər Şimali Afrikadan Avropa Vyanasına qədər böyük bir ərazidə müxtəlif xalqlarla bir dövlətdə 600 il ərzində yaşaya bilməzdilər.

Mudros müqaviləsi bağlandıqdan (1918) dərhal sonra qaliblərin təzyiqi altında yeni sultan hökuməti Türkiyəni

müharibəyə cəlb edən “təqsirkarların” məsuliyyətə cəlb olunması barədə qərar qəbul etdi. 16 dekabr 1918-ci ildə onların cinayətini sübut edəcək fakt və dəlillərin toplanması məqsədilə istintaq qrupları yaradıldı, Osmanlı imperiyası 10 məhkəmə-istintaq rayonuna bölündü, hər bir rayona prokuror, müstəntiq və katiblər təyin edildi. 1919-cu il yanvarın 9-da fövqəladə hərbi məhkəmələr yaradıldı. Məhkəmə iclaslarının gedişində gənctürklər hökuməti rəhbərlərinin, “Birlik və inkişaf” partiyasının Mərkəzi Komitə üzvlərinin və rayon təşkilatlarının məsul işçilərinin  və ermənilərin Yosqat, Trapezund, Böyük Dərədən (İstanbulun şəhərətrafı) depotasiyasının təşkilatşılarının fəaliyyəti araşdırıldı. Gənctürklər prosesi ermənilərin deportasiyasının öncədən düşünülmüş və planlaşdırılmış bir köçürmə olmadığını, hərbi və intizam aksiyası olduğunu bir daha təsdiq etdi.

Gənctürklər liderləri və nazirləri üzərində məhkəmə prosesi Türkiyədə fasilələrlə 1919-cu il aprelin 27-dən başlandı (mayın 28-də ingilis komandanlığı 77 nəfəri qəfildən Malta adasına göndərdi -A.M) və iyunun 29-na qədər (13 iclas) davam etdi. 21, 23 və 28 iyunda “Birlik və inkişaf” partiyası rayon katiblərinin və digər məsul şəxslərinin məhkəmə iclasları keçirildi. Gənctürklər prosesinin protokolları sultan rəsmi qəzeti “Təqvimi-vəqai”nin (“Baş verənlərin təqvimi”) əlavəsində 1919-1920-ci illər dərc edildi.

Məhkəmə qərarı 5 iyul 1919-cu ildə (qərarda ingilislər tərəfindən maltaya göndərilənlərin adları çəkilmirdi) elan olundu və 31 təqsirləndiriləndən 4-ü Tələt, Ənvər, Camal və Nazim qiyabi olaraq ölüm hökmünə( Qiyabi olaraq ölüm hökmü çıxarılan gənctürklərin liderləri sonralar erməni terroristləri tərəfindən qətlə yetirildilər-müəllif), 27 nəfər isə müxtəlif müddətlərə azadlıqdan məhrumetmə cəzasına layiq görülmüşdülər. Digərləri isə lazımı sübut və dəlillər tapılmadığından, bəraət aldılar.

Əslində müharıbə şəraitində şərqi Türkiyədə bütöv kəndlər məhv edilir, erməni quldur dəstələri uşaqları, qocaları və qadınları vəhşicəsinə öldürürdülər. Belə şəraitdə Osmanlı imperiyası hökuməti öz vətəndaşlarını qorumaq və cinayət-karlara qarşı güc tətbiq etməyə məcbur idi. Yeri gəlmişkən, bu hadisələr barədə mütərəqqi erməni yazıçılarının özləri dəfələrlə yazıblar. İndiyədək nə Osmanlı, nə də ki, digər arxivlərdən "erməni soyqırımı" faktını təsdiq edəcək bir sənəd tapılmayıb.Əksinə günahsız türklərin emeni teroroistlərinin vəhşiliyinə məruz qalmasını subut edən kifayət qədər sənədlər var (http://www.os-ar.com/ermeni/ermeni.htm):



Bâb-ı Âlî

Dâhiliye Nezâreti

Emniyyet-i Umûmiyye Müdîriyeti

Erzurum Vilâyeti'nden alınan 10 Mayıs sene [1]332

târîhli telgrafnâmenin sûretidir.

C. [cevab] 8 Mayıs sene [1]332. Rusların işgâl eyledikleri yerlerde İslâm ahâlî hakkında yapdıkları mezâlim büyük bir târîh teşkîl eder. Geçen sene Rusların Hasankala hattından hudûd-ı asliyyeye tard ve teb'îdi üzerine Pasinler ahâlîsinden iki binden ziyâde ahâlî-i İslâmiyyeyi berâber getirerek bir kısmını itlâf, diğer kısmını dâhile sevketmişlerdir. O zaman Salimli karyesine giren bir Ermeni çetesi, köyde ne kadar bâkir varsa ırzlarına tasallut etdikleri gibi kendilerine teslîm olmayan Reşid Bey'in gelini[ni] katl ve kâ'imvâlidesini cerheylemişlerdir. Garb ordusu[nun], Yüzveren köylerinde elli üç İslâm cenâzesi götürdüğünü Köprü köyünden 19 Kânûn-ı Evvel sene [1]331 târîhinde arzetmiş idim. Bu sene Erzurumun sukûtundan sonra, Rusların işgâl etdikleri yerlerde yapdıkları kıtâl ve i'tisâf geçen seneden pek fazladır. Erzurum şehrinde dokuz kişiyi i'dâm ve on dört yaşına kadar bütün nüfûs-ı zükûru muhtelif ve mechûl istikâmetlere sevketmişlerdir. Erzurum'dan, Aşkala'dan ve ahîren Tercan'dan firâr edip gelebilen Reşid Bey ve rüfekâsının verdikleri îzâhâta göre Kazak ve Ermeni çetelerinden mürekkeb müfrezelerin Aşkala, Ilıca, Tercan kazâlarında mal nâmına ne gördülerse kâmilen gasb ve gerilere sevkeylemekde bulundukları ve Hovik karyesiyle Pekeriç nâhiyesinde, başda imâm olduğu hâlde yüzü mütecâviz İslâmı çoluk çocukları önünde katl ve pek çok muhadderât-ı İslâmiyyeye tasallut etdikleri ve Rusların pîşdâr kuvvetlerinin Ermeni bakâyâ süvârîlerinden ibâret bulunduğu anlaşılmışdır. Ruslar Erzurum'da bütün câmi'lerdeki halıları

toplamış ve geriye sevketmişdir. Geçen sene taht-ı işgâlimizde iken terkolunan Tavuskerd ve Artvin cihetlerinden kaçanların ifâdesine göre, Ruslar orada İslâm nâmına birşey bırakmamışlardır. Pekeriç nâhiyesinde Ermenilerin teşkîl ve mahkeme tesmiye etdikleri hey'et-i zâlimenin verdiği karârla Tercan ve civâr kurâsında kalan ileri gelenlerden üç-dört yüz kişi i'dâm edilmişdir. Bunların esâmîsini yakında arzederim. Erzurum vilâyetinde elli binden fazla mevâşî ve üç yüz bin koyun Ruslar tarafından alınmış ve ahâlî-i İslâmiyye yedinde çift hayvânâtı bile bırakmamışlardır. Ermenilerin en büyük mezâlimi Van'da cereyân etmişdir. Vanın sukûtu ihtimâliyle on dört kayığa irkâben Tatvan iskelesine sevkedilen bin iki yüz kadın ve çocukdan, ancak yedi yüzü Bitlis'e vâsıl olmuş, muhâlefet-i havâdan dolayı Erciş önüne düşen yedi kayıkdan üçü Ermeniler tarafından batırılmışdır. Diğer kayıklara karşı dört sâ'at devam eden yaylım ateşi üzerine, elliyi mütecâviz kadın ve çocuk şehîd olmuş ve bu miyânda Erzurumlu Ârif Efendi ile iki polis, bütün efrâd-ı â'ileleriyle şehîd düşmüşlerdir. Van'dan Norduz tarîkıyla Bitlis'in Pervari kazâsına kaçmak isteyen sekiz-on bin Müslüman, Mamhuran [Mahfuran] deresinde kâmilen katli'âm edilmişlerdir. Bunlar içerisinde kurtulabilen Van Ma'ârif Müdîri Şerif Bey bu ahvâle şâhiddir. Adana Vâlîsi Cevdet Bey o zaman Halil Bey müfrezesiyle binlerce kadın, çocuk cesedi görmüşlerdir. Ordunun lutf-ı hakla ahd-i karîbde ilerilemesi üzerine Rus ve Ermenilerin yapdıkları fecî'alar tamamen görülecek ve tafsîlâtı arzedilecekdir.

Bâb-ı Âlî

Dâhiliye Nezâreti

Emniyyet-i Umûmiyye Müdîriyeti

Bir sözlə, soyqırım –uydurmadan başqa bir şey deyil.

Erməni yazıçısı Qrant Matevosyan isə ermənilərin xarakterinin gözəl təsvirini verib. Deyib ki, onlar heç nədən əsatir yaratmağı çox gözəl bacarırlar.

Türkiyədə xalqın milli-azadlıq müharibəsi başladı və Mustafa Kamalın rəhbərliyi altında generallar hakimiyyəti öz əllərinə aldılar. Ankarada yeni milli hökumət təsis edildi. 1919-cu ilin sonunda Ankara hökuməti sultan hökumətindən İstanbulda buraxılmış parlamentin çağırılmasını tələb etdi. 1920-ci il yanvarın 28-də parlament tərəfindən Antantaya qarşı ərazi məsələləri, Boğazlar, İstanbul və Türkiyənin müstəqilliyi ilə bağlı millı ziyalıların tələblərini özündə ehtiva edən “Milli and” sənədini qəbul etdi.

İngiltərə həm sultan hökuməti ilə Sevr müqaviləsinin bağlanması və həm də Ankara hökumətinin müqavimətinin aradan qaldırılması ilə bağlı danışıqlar aparırdı, çünki türk partizanları və kamalçı qoşunlar Dardanel boğazı və Mərmərə dınizində yerləşən ingilis hərbi hissələrini çox narahat edirdi. Ona görədə Türkiyə sultanına “kömək” adı altında İngiltərə 1920-ci il martın 16-da İstanbulu ələ keçirib, türk parlamentini qovdu, onlarla millətçini isə həbs edərək Maltaya sürgünə göndərdi. Tarixi şərait baxımından Antantanın əlinə Anadolunun içərilərinə doğru irəliləmək imkanı düşmüşdü.

Elə bu zaman türk xalqı Mustafa Kamal Atatürkün rəhbərliyi altında igidlik möcüzələri göstərərək, vətənpərvərlik, cəsurluq və hərbi ruh nümayiş etdirərək döyüşlərdə vəziyyəti öz xeyirlərinə dəyişə bildilər.

Türk xalqının imperialist güclərə qarşı milli-azadlıq mübarizəsi başlandı və V.İ.Leninin rəhbərlik etdiyi Sovet Rusiyası onların köməyinə gəldi. Bu Azərbaycan ictimaiyyəti

və ziyalaılarının V.İ.Leninin şəxsiyyətinə və Sovet Rusiyasına qarşı simpatiya yaratdı. 1920-ci il aprelin 28-də Azərbaycanda sovet hakimiyyətinin qurulması (kommunistlər Bakının 11-ci ordu hissələri tərəfindən işğalını belə adlandırırlar) elan edilir. İmperialist qüvvələr Yunanıstanın hərbi gücündən istifadə edərək, Türkiyəyə qarşı genişmiqyaslı işğala başladılar. Yunan ordusu 1920-ci il iyunun 22-də İzmirə, oradan isə İnoki şəhərinə (10 yanvar-31 mart) yürüş etdi və Anadolu ərazilərinin içərilərinə doğru irəliləyərək, Sakarya çayına qədər gəlib çıxa bildilər.

Osmanlı imperiyasının təbii sərvətləri onun xammal və satış bazarları, Yaxın Şərqdə ki, strateji mövqeyi imperalist döv-lətləri bu "varislik payı" uğrunda mübarizəyə sövq emişdi..

Birinci Düünya Müharibəsinə Avropadan Yaxın Şərqədək böyük bir əraziyə malik dövlət kimi müharibəyə başlayan Osmanlı imperiyası, onu Türkiyə olaraq başa çatdırdı. Bu "qeyri-türklər" ilə məskunlaşmış bütün ərazilərin və hətta türklər tərəfindən məskunlaşan bəzi ərazilərin də itirilməsi demək idi. Üstəlik, müharibə başa çatdıqdan sonra hazırlanan məşhur Amerika planında V.Vilsona məxsus "14 bənd"də ilkin variantda Türkiyənin hətta bir dövlət olaraq varlığına son qoyulması da nəzərdə tutulmuşdu.

İlk əvvəl onlar düşünürdülər ki, imperiyanın (Osmanlı imperiyası nəzərdə tutulur) varlığına son qoyduq, onu ideokratik (burada islam dini) əsasdan məhrum etdik və onun yerində mədəni-geosiyasi impotent əldə etdik, bir sözlə onu qazıq-qazıq etdik.

Onlara elə gəlirdi ki, belə dövlət heç vaxt anqlosakslara rəqib ola bilməz.

Lakin burada anqlosakslar səhvə yol verdilər: birincisi, onlar dövlət xadimi Atatürk faktorunu , ikincisi, türk millətinin milli ideyası faktorunu nəzərə almamışdılar.

Bu faktorlar onların planlarının icrasına mane oldu.

Məhz bu baxımdan Versal konfransı Osmanlı imperiyasının 500 il ərzində mövcudluğu dövründə türk etnosunun və onun ərazi nüvəsinin formalaşdığını etiraf etməyə məcbur etdi, nəticə kimi onun milli dövlətinin olmasını qəbul etmək zorunda qaldı.

Elə bu zaman Mustafa Kamal paşanın rəhbərliyi altında başlayan türk xalqının milli azadlıq mücadiləsi xarici işğalçılara qarşı tutarlı bir zərbə oldu.

Maraqlıdır ki, bu mübarizədə Türkiyəyə ilk kömək əlini uzadan Sovet Rusiyası oldu, o Rusiya ki, müharibəyə Antantanın üzvü kimi daxil olmuş, sonradan Almaniya ilə sülh müqaviləsi imzalayaraq savaşdan çıxmışdı. Təbii ki, keçmiş Antanta müttəfiqləri bu gün bir-birini düşməncəsinə qəbul edirdilər.

Əgər sovet Rusiyasına Türkiyə ilə yaxşı münasibətlər və Orta Şərqdə stabilliyin pozulması lazım idisə, Türkiyəyə Rusiyadan konkret maliyyə, hərbi və "geosiyasi" kömək lazım idi ki, millli ərazilərini nəyin hesabına olur, olsun bərpa etsin.

TBMM (Türkiyə Böyük Millət Məclisi)-nin ilk beynəlxalq siyasi aksiyası onun sədri Kamal Atatürkün Türkiyə ilə Sovet Rusiyası arasında diplomatik münasibətlərin qurulması və imperializmə qarşı birlikdə mübarizə aparmaqla bağlı çağırışı oldu. Sovet hökuməti Atatürkün müraciətinə müsbət cavab verdi və mübarizə aparan Türkiyə hökumətini ilk olaraq (1920-ci il 2 iyun) tanıdı və türk xalqına böyük miqdarda pul (10 milyon rubldan çox qızıl pul) və xeyli miqdarda silah və hərbi sursat, rabitə vasitələri və sair ilə kömək etdi.

Sovetlərin yardımı həm də mənəvi-siyasi əhəmiyyət daşıyırdı. 1921-ci il martın 16-da Moskvada RSFSR ilə Türkiyə arasında dostluq və qardaşlıq haqqında müqavilə imzalandı.

Bu müqaviləyə qədər (21 fevral – 14 mart) Londonda Antantanı təmsil edən (Böyük Britaniya, Fransa, İtaliya, Yaponiya, Belçika və Yunanıstan) dövlətlərin keçmiş düşmən ölkələr Almaniya və Türkiyənin iştirakı ilə konfrans keçirilirdi. Orada iki məsələyə, Yaxın Şərq və reparasiya məsələlərinə baxılırdı. Fransa və İtaliyanın təşəbbüsü ilə yunan-türk müharibəsinin dayandırılması və Sevr müqaviləsinin şərtlərinə yenidən baxılması müzakirə olundu. Bu konfransda Türkiyəyə iki nümayəndə ilə, - biri "qanuni" sultan hökuməti, digəri isə TBMM-dən olmaqla, - təmsil olunmağa icazə verilmişdi.

TBMM de-fakto statusla qatılmışdı, ümumi nümayəndəliyə isə sultan hökumətinin böyük vəziri Tefik paşa rəhbərlik edirdi.

TBMM-nin xarici işlər nazirliyi Q.Çiçerinə (Sovet Rusiyasının xarici işlər komissarı) bu məzmunda teleqram vurmuşdu: "29 və 31 yanvar teleqramlarımızla Biz Sizləri Tefik paşa ilə aramızda olan və xarici ölkələrin hökumətlərinə göndərdiyimiz teleqramların məzmunundan xəbərdar etmişik. Buna əlavə olaraq Sizə ərz etməyi özümüzə şərəf bilərək qeyd edirik ki, London konfransında TBMM hökumətini təmsil edəcək nümayəndəmiz Ankaradan çıxmaq üzrədir. Qəbul olunmuş adətlərə görə sizə və hamıya bildirmək istərdik ki, biz səmimiqəlbdən sülh istəyirik. Bizim qanuni tələblərimiz bunlardan ibarətdir: 28 yanvar 1920-ci il təsis aktı ilə (siz onunla tanışsınız) təsbit olunmuş sərhədlər daxilində tam müstəqillik, - həm siyasi, həm də iqtisadi, - istəyirik. Gizli sövdələşmələr barədə gəzən şayiələr isə düşmənlərimizin bizlərə atdığı çamurdan başqa bir şey deyildir. Hökumətimizin bu qərarı

bizim 19 dekabr 1920-ci il notamızda bəyan etdiyimizlə üst-üstə düşür və hər iki ölkənin maraqlarını əks etdirir, bizim nümayəndələrin tələblərinə rədd cavabı verilsə, imperialist ölkələrin acgöz iştahı üzə çıxacaq, bu isə hərbi ruhumuzun daha da yüksəlməsinə gətirib çıxaracaq. Yox, əgər bizim addımımız uğurla nəticələnərsə, bu bütün Şərq üçün sülh və əmin-amanlıq erasının başlanğıcını qoymuş olacaq. Bunun meyvələrindən isə bütün xalqlar, ö cümlədən də ruslar bəhrələnəcəklər.

Düşünürük ki, gözlənilən danışıqlarda siyasətin rəhbər prinsiplərinə qeyd-şərtsiz sadiq qalacağımızı bir daha bəyan etməyə ehtiyas duyulmur, bütün bunlar bizi Sovet Rusiyasına təbii müttəfiqimiz kimi baxmağa təşviq edir və bu elə belə də olacaq.

Bu ümumi düşüncələrimizdir və sizin də qeyd etdiyiniz kimi, qarşılıqlı inamın qorunub saxlanılması üçün o çox faydalıdır. Və hər iki tərəfdən səmimiyyətə əsaslanır. Bundan çıxış edərək sizdən xahiş edirik ki, Krasinlə Londondan qayıtdıqdan sonrakı aparılan danışıqlarımızla bağlı, xüsusilə də Şərqlə əlaqədar müşavirənin nəticələri barədə tezliklə bizə məlumat verəsiniz. Cənab komissara sayğı və hörmətlərlə. Xarici işlər komissarı Bəkir Sami” (İsvestiya. 13 fevral 1921-ci il. №32 (1175)) .

Türkiyəni təmsil edən ümumi nümayəndə heyəti 1921-ci il fevralın 25-də London konfransında aşağıdakı tələbləri irəli sürdü: 1) Türkiyəni 1913-cü il sərhədlərində (ərəb dövlətləri daxil edilmədən) bərpa etmək, 2) Boğazlar üzərində Türkiyənin təhlükəsiliyi və suverenliyini təmin etmək, 3) müdafiəsini təmin etməyə yetən qədər Türkiyəyə hərbi-dəniz qüvvələri saxlamağa icazə vermək, 4) kapitulyasiya rejimini ləğv etmək.

Fransız və italyan nümayəndələri Sevr müqaviləsinə qarşı çıxırdılar, lakin türklərin gözlədikləri qədər sərt olmayan

şəkildə. Əslində fransızlar və italyanlar İngiltərədən ayrılıqda kamalçılarla müqavilə bağlamağa can atırdılar. Bununla da onlar Türkiyəni Sovet Rusiyasından aralamağa çalışırdılar. Bu problematikanı öyrənən tarixçilər, konfrans zamanı müxtəlif diplomatik intriqalrın baş verdiyini yazıblar. Məsələn, Böyük Britaniyanın baş naziri Lloyd Corc Türkiyə nümayəndə heyətinin rəhbəri Bəkir Sami bəylə söhbətində ona "Zaqafqaziyanı Bakı nefti ilə birlikdə Türkiyənin protektoratlığı altına almağı" təklif etmişdi. Bu danışıqlar qeydə alınmış və sonradan ingilis mətbuatına ötürülmüşdü, dərc olunduqdan sonra ondan Kreml xəbərdar olmuşdu.

Vəziyyəti gərginləşdirən daha bir səbəb Londona iki erməni nümayəndə heyətinin gəlməsi idi. Bu nümayəndə heyətlərindən birinə Ermənistan Respublikası tərəfindən Sevr müqaviləsini imzalamış Avetis Aqaronyan, digərinə isə qondarma erməni diasporunun ictimai-siyasi dairələrini təmsil edən Poqos Nubar başçılıq edirdi. Onlar Antantaya daxil olan gücləri Sevr müqaviləsinin Qərbi Ermənistana dair maddələrini yerinə yetirməyə inandırmağa çalışır və ermənilərə Fransanın nüfuz dairəsinə daxil olan Kilikiyada "administrativ muxtariyyət" qoparmağa səy göstərirdilər. Lakin London konfransında ermənilərlə bağlı qeyri-müəyyən qərar, - Türkiyənin şərq vilayətləri çərçivəsində "milli ocaq" qurmaq qərarı qəbul edildi. Əgər Avetis Aqaronyan Ermənistan Respublikası adından Türkiyə ilə sərhədlərə dair yeni müqaviləyə imza atsaydı, onda "erməni problemi" hüquqi cəhətdən Moskvanın nəzarətindən çıxa bilərdi. Kremldən ehtiyat edən Aqaronyan belə bir sövdələşməyə getmədi. Elə bu şərait hadisələrin gələcək inkişafını müəyyən etdi.

Moskvada isə türk nümayəndə heyəti Kreml qarşısında Türkiyə ilə Ermənistan arasında 1920-ci il avqustun 10-da imzalanmış Aleksandropol müqaviləsinin şərtlərini tanımaq tələbini qoydu.

Bununla əlaqədar Stalin Q.Çiçerinə (6 mart 1921-ci il) yazırdı: "Xahişinizlə əlaqədar sizə RSFSR tərəfindən hansı güzəştlərə gedilə biləcəyini mənim adımdan türk nümayəndələrinə çatdırmağınızı istərdim.

1. Batumi dairəsinin böyük hissəsi RSFSR-də qalır. Artvin və Ərdahanı Türkiyəyə verilir və RSFSR ilə Türkiyə arasında yeni sərhəd təqribən Liman-Borçxa-Çorox çayıİmerxevi çayı xətti üzrə keçir. Bu təxmini xəttdir, dəqiq sərhədlər isə yaradılacaq komissiya tərəfindən müəyyən ediləcək.

2. Hərbçilər Ərdahanı Türkiyəyə güzəştə getməyə razı deyillər, oranı Tiflisin açarı hesab edirlər. Lakin mən (Stalin) hərbçiləri güzəştə getməyə məcbur edəcəyimə əminəm və RSFSR ilə Türkiyə arasında sərhəddin köhnə xətt üzrə, yəni, Qars vilayəti ilə Tiflis quberniyası arasından keçməklə müəyyən olunmasını istəyirəm, burada birinci bənddə qeyd etdiyim dəqiq sərhədlər məsələsini bir daha xatırladıram. Aleksandropol Türkiyə tərəfindən boşaldılmalıdır, özü də bütün dəmiryolu boyunca...

3. Naxçıvan məsələsinə gəldikdə, bu barədə son sözü Azərbaycanın nümayəndəsi deyəcək".

Ən nəhayət Türkiyə ilə Zaqafqaziya respublikaları arasında 13 oktyabr 1921-ci ildə bağlanmış həm Moskva, həm də Qars müqavilələrini bir tərəfdən Türkiyə, digər tərəfdən isə Azərbaycan, Gürcüstan və Ermənistan SSR imzalanır.

Bu çoxtərəfli müqavilə Sovet Rusiyası nümayəndələrinin iştirakilə imzalanır və faktiki olaraq, 1921-ci ilin martında Moskvada bağlanmış rus-türk müqaviləsini əks etdirirdi. Sovet Ermənistanı tərəfindən bu müqaviləni xarici işlər naziri Askanaz Mravyan və daxili işlər naziri Poqos Makinzyan imzalayır. Müqavilə imzalandıqdan bir il sonra üç Zaqafqaziya respublikası həmin müqaviləni ratifikasiya etdi və ratifikasiya

olunan sənəd İrəvanda Türkiyə tərəfinə təqdim olundu. Bu sənədlə faktiki olaraq indiki, hazırda mövcud olan erməni-türk sərhədləri müəyyən olundu. Bu iki ölkə arasında münasibətləri tənzimləyən yeganə bu sənəddir. Bu sənədin əsasında sonralar erməni-türk sərhədlərində içməli və suvarılan sulardan istifadə barədə erməni-türk memorandumu da imzalanır. Kimlərsə bu sənədi inkar edirsə, onun bizim tələblərə uyğun olmadığını deyirsə, unutmamalıdırlar ki, müasir Türkiyənin ərazi bütövlüyü məhz bu aşağadakı sənədlə tanınır:

**Ermənistan SSR, Azərbaycan SSR və Gürcüstan SSR və Türkiyə arasında RSFSR-in də iştirakilə bağlanmış dostluq müqaviləsi**

13 oktyabr 1921-ci il.

Ermənistan SSR, Azərbaycan SSR və Gürcüstan SSR hökumətləri bir tərəfdə, digər tərəfdən isə TBMM hökuməti millətlərin qardaşlıq prinsiplərini və xalqların öz müqəddaratını təyin etmək hüquqlarını bölüşərək və xalqlar arasında daimi səmimi münasibətlərin, dostluğun bərqərar olmasını arzu edərək, hər iki tərəfin maraq və istəklərini nəzərə alaraq, danışıqlarda RSFSR-in iştirakilə dostluq haqqında Müqavilə bağlanılması üçün tərəfimizdən aşağıdakı tərkibdə nümayəndə heyəti müəyyən etdik:

Ermənistan SSR hökuməti adından: Askanaza Mravyan, xarici işlər komissarı, Poqos Makinzyan daxili işlər komissarı;

Azərbaycan SSR hökuməti adından: Behbud Şahtaxtinski, Dövlət Nəzarəti Xalq Komissarı;

Gürcüstan SSR hökuməti adından: Şalvu Eliava, Hərbi və Dəniz məsələləri komissarı. Aleksandr Svanidze. Xarixi İşlər və Maliyyə məsələləri üzrə komissar;

Türkiyə Böyük Millət Məclisi hökuməti adından: Kazım Qarabəkir-paşa, TBMM-nin Adrianopoldan olan deputatı, şərq cəbhəsinin komandanı. Vəli bəy, Burdurdan TBMM-nin deputatı, Muxtar bəy, ictimai işlər üzrə stats-katibin keçmiş köməkçisi, Məmduh Şövkət bəy, Türkiyənin Azərbaycandakı fövqəladə nümayəndəsi;

Rusiya Sosialist Federativ Sovet respublikası hökuməti adından: Yakov Qanetskiy, Latviyada fövqəladə nümayəndə,

Səlahiyyətlərimizi təsdiq edən lazımi sənədləri təqdim etdikdən sonra qanuni formada aşağıdakılar barədə razılığa gəldik:

Maddə 1. Türkiyə Böyük Millət Məclisi hökuməti və Ermənistan, Azərbaycan və Gürcüstan Sovet Sosialist Respublikaları hökumətləri tərəflərin daxili ərazisində suveren hüquqlarını həyata keçirən və hazırda razılığa gələn tərəflərin yuxarıda göstərilən ərazilərlə bağlı bundan əvvəl bağlanmış bütün müqavilələri etibarsız hesab edirlər. Eləcə də üçüncü tərəfin iştirakilə Zaqafqaziya respublikalarına dair bağlanmış müqavilələr də etibarsız hesab edilir.

Bu maddə 16 mart 1921-ci il (1337) Moskvada bağlanmış Türkiyə-Rusiya müqaviləsinə tətbiq edilmir.

Maddə 2. Tərəflər, bundan əvvəl onlardan hər hansı birinin məcburiyyət qarşısında qalaraq imzaladığı sülh müqavilələri və yaxud digər beynəlxalq aktları tanımamaq barədə razılığa gəlirlər. Bundan çıxış edərək Ermənistan, Azərbaycan və Gürcüstan SSR hökumətləri Türkiyəyə aid və TBMM tərəfindən tanınmayan beynəlxalq aktları da, tanımadıqlarını bəyan edirlər.

(Hazırkı müqavilədə Türkiyə dedikdə, 28 yanvar 1920 (1336)-ci ildə Osmanlı İmperiyası Məclisinin deputatları tərəfindən İstanbulda hazırlanmış, mətbuat vasitəsilə bütün dünya ölkələrinə bəyan olunan Türk Paktındakı ərazilər nəzərdə tutulur).

TBMM hökuməti də Ermənistan, Azərbaycan və Gürcüstan aid olan və bu ölkələrin hökumətləri tərəfindən tanınmayan heç bir beynəlxalq aktı tanımamağa razı olur.

Maddə 3. Ermənistan, Azərbaycan və Gürcüstan SSR hökumətləri kapitulyasiya rejiminin istənilən ölkənin azad milli inkişafı ilə uyğun gəlmədiyini, eləcə də onun suveren hüquqlarını həyata keçirməsinə mane olduğunu qeyd edərək bu rejimin funksiya və səlahiyyətlərinin qüvvədən düşmüş elan edirlər.

Maddə 4. Türkiyənin şimali-şərq sərhədi (rus Baş ştabının xəritəsinə əsasən 1/210000 – dyümdə 5 verst) Qara dəniz sahilində yerləşən Sarp kəndindən başlayan xətt üzrə Xedis-mta dağından keçməklə Qannı-dağ suayırıcı xəttinə qədər; daha sonra köhnə şimal sərhədləri boyunca Ərdahan və Qars sancaqlarından Arpa-çay və Arazdan keçməklə Aşağı Qarasunun mənsəbinə qədər. (Sərhədlər, və sərhəd məsələlərinə dair digər şərhlər, onların daha ətraflı təsviri və s. Tərəflərin imzaladığları I və II əlavələrində və eləcə də əlavə olunan xəritədə verilib. Müqavilənin mətni və xəritə arasında uyğunsuzluq aşkarlanarsa, mətndəkinə önəm veriləcək.) Dövlət sərhədlərinin müəyyənləşdirilməsi və və sərhəd işarələrinin qoyulması razılığa gələn tərəflərin hər birindən eyni syada nümayəndənin və RSFSR nümayəndəsinin iştirakilə qarıçıq sərhəd komissiyası tərəfindən həyata keçirilir.Əlavə IV: xəritə

Maddə 5. Türkiyə hökuməti və Ermənistan və Azərbaycan Respublikaları hökumətləri Naxçıvan vilayətinin hazırkı Müqavilənin əlavəsində (əlavə III) göstərildiyi kimi Azərbay-

canın himayəsi altında muxtar ərazi kimi formalaşmasına razılıqlarını bildirirlər.

Maddə 6. Türkiyə Batum şəhəri və limanını, eləcə də sərhəddən şimala doğru uzanan əraziləri bu Müqavilənin 4-cü maddəsində göstərildiyi kimi və Batum dairəsinin bir hissəsini əhatə edən torpaqları aşağıdakı şərtlər daxilində Gürcüstana verir:

1) Bu maddədə göstərildiyi kimi bu ərazilərdə yaşan əhali administrativ baxımdan geniş yerli muxtariyyətə malik olacaq, hər bir icmanın milli və dini hüquqları təmin ediləcək, əhali göstərilən ərazilərdə öz arzusuna uyğun olaraq, torpaq haqqında qanun qəbul etmək səlahiyyətinə malik olacaq

2)Türkiyəyə malların azad tranziti təmin olunacaq, Batum limanından Türkiyəyə və yaxud geriyə mallar gecikdirilmədən, gömrük rüsumu tutulmadan yola salınacaq, türkiyə Batum limanından heç bir rüsum ödəmədən istifadə etmək hüququna malik olacaq.

Bu maddənin həyata keçməsi üçün müqavilə imzalandıqdan dərhal sonra, maraqlı tərəflərin nümayəndələrindən ibarət komissiya formalaşdırılacaq.

Maddə 7. Gürcüstan SSR və TBMM hökumətləri Qarışıq komissiya tərəfindən müəyyən ediləcək, gömrük, polis və sanitar normaları gözlənilməklə, sərhədyanı ərazilərdə yaşayan əhalinin sərhədi keçmələrini yüngülləşdirmək barədə razılığa gəlirlər.

Maddə 8. Gürcüstan SSR və TBMM hökumətləri hər iki ölkənin sərhədyanı əhalisinin mal-qarasını otarmaq üçün ənənəvi yay və qış otlaq yerlərindən istifadəsini asanlaşdırmaqdan ötrü öz sürüləri ilə birlikdə sərhədi maneəsiz şəkildə keçmələrinə hüquq verir.Sərhədi keçmək üçün gömrük, eləcə

də polis, sanitar qaydaları və digər tədbirlər Qarışıq komissiya tərəfindən müəyyən ediləcək.

Maddə 9. Boğazların açılışını və onlardan bütün xalqların ticarət gəmilərinin sərbəst şəkildə keçidinin təminatı məqsədilə Türkiyə və Gürcüstan Qara dəniz və boğazların beynəlxalq statusu ilə bağlı qaydaların müəyyən edilməsi üçün sahilyanı ölkələrin gələcəkdə keçirəcəyi konfransda iştirak ilə əlaqədar razılığa gəlirlər. O şərtlə ki, həmin konfransın qərarları Türkiyənin suverenliyinə , eləcə də Türkiyə və onun paytaxtı İstanbulun təhlükəsizliyinə zərər yetirməsin.

Maddə 10. Razılığa gələn tərəflər öz ölkələrinin ərazisində digər ölkənin hökumətinin roluna iddialı olan və yaxud ərazisinə qarşı iddialar irəli sürən, eləcə də digər ölkəyə qarşı mübarizə aparmaq istəyində olan təşkilat və ya qrupların öz ərazilərinə buraxmayacaqlarına və fəaliyyətinə icazə verməyəcəklərinə dair öhdəlik götürürlər.

Bu maddədə nəzərdə tutulan və Türkiyə ərazisi kimi başa düşülən termin, TBMM hökumətinin bilavasitə hərbi və mülki idarəçiliyində olan əraziləri nəzərdə tutur.

Maddə 11. Razılığa gələn tərəflərin vətəndaşları digər tərəfin ərazisində olarkən bu ölkənin qanunlarından irəli gələn hüquq və öhdəlikləri, milli müdafiə istisna olmaqla, onlara da şamil olunur.

Ailə hüququ, vərəsəlik və hüququn gücü ilə bağlı digər məsələlər bu maddənin müddəalarına aid deyildir. Onlar xüsusi olaraq razılaşdırılacaq.

Maddə 12. Razılığa gələn tərəflər digər tərəfin vətəndaşları ölkələrinə gələrkən, onlar üçün əlverişli şərait prinsipi tətbiq etməyə razıdırlar.

Bu maddə digər ittifaq respublikalarının bu ölkələrdə. Eləcə də Türkiyədə yaşayan digər müsəlman ölkələrinin və yaxud türkiyə ilə ittifaqda olan ölkələrin vətəndaşlarına aid edilmir.

Maddə 13. 1918-ci ilə qədər Rusiyaya aid olan, indi isə Türkiyənin suverenliyi altına keçən ərazilərdə yaşayan vətəndaşlar arzu edərlərsə, Türkiyə vətəndaşlığından imtina edib öz mal-mülkləri və ya onların dəyəri, əşyaları ilə birlikdə sərbəst şəkildə oranı tərk edə bilərlər.

Gürcüstana güzəştə gedilən keçmiş Türkiyə ərazisinin vətəndaşları da eyni imtiyazlara malikdirlər.

Yuxarıdakı maddədə nəzərdə tutulan və həmin əraziləri tərk etmək haqqında ərizə verən vətəndaşlar, bir ay müddətində hərbi mükəlləfiyyətdən azad edilirlər.

Maddə 14. Razılığa gələn tərəflər Müqavilə imzalandıqdan 6 ay keçənə qədər 1918-1920-ci illər müharibəsində qaçqın düşənlərlə bağlı xüsusi saziş imzalamağa hazır olduqlarını bəyan edirlər.

Maddə 15. Razılığa gələn tərəflər bu Müqavilə imzalandıqdan dərhal sonra Qafqaz cəbhəsində hərbi döyüşlər zamanı cinayət əməllərinə yol vermiş vətəndaşlara amnistiya aktı tətbiq edəcəklərinə dair öhdəlik götürürlər.

Maddə 16. Razılığa gələn tərəflər bu Müqavilə imzalandıqdan 2 ay keçənə qədər öz ərazilərində saxlanılan hərbi və mülki əsirləri geri qaytarmağa öhdəlik götürürlər.

Maddə 17. Ölkələri arasında müntəzəm əlaqələrin bərpası üçün razılığa gələn Tərəflər dəmiryolu, teleqraf və digər əlaqə vasitələrinin, eləcə də insanların və malların azad gediş-gəlişini təmin etmək məqsədilə qarşılıqlı razılaşma əsasında lazım olan tədbirləri görməyə razılıq verirlər.

Bununla yanaşı, gediş-gəliş əlaqələri, həm səyyahlar, həm də mallar üçün giriş-çıxış hər bir ölkənin müəyyən edəcəyi qaydalar çərçivəsində həyata keçiriləcək.

Maddə 18. Ticarət ələqələrinin yaranması və bütün iqtisadi və maliyyə, eləcə də digər məsələlərin tənzimlənməsi, razılığa gələn Tərəflər arasında dostluq əlaqələrinin möhkəmlənməsi məqsədilə bu Müqavilə imzalandıqdan dərhal sonra Tiflisdə maraqlı tərəflərin nümayəndələrindən ibarət Komissiya formalaşdırılacaq.

Maddə 19. Razılığa gələn Tərəflər bu Müqavilə imzalandıqdan sonra 3 ay müddətində konsulluq konvensiyası haqqında müqavilə imzalayacaqlarını bəyan edirlər.

Maddə 20. Ermənistan, Azərbaycan, Gürcüstan və Türkiyə hökumətləri tərəfindən imzalanmış bu Müqavilə ratifikasiya olunmalıdır.

Ratifikasiya olunmuş sənədlərin ola bilsin ki, tez vaxtda İrəvanda mübadiləsi baş tutsun.

Bu Müqavilə ratifikasiya sənədləri mübadilə edildikdən sonra, 6, 14. 15, 16, 18 və 19-cu maddələr istisna olmaqla, (çünki qeyd olunan maddələr müqavilə imzalandıqdan dərhal sonra qüvvəyə minir) qüvvəyə minir.

Bu Müqavilə vəkalətli nümayəndələr tərəfindən imzalanmış və möhürlənmişdir.

13 oktyabr 1921-ci (1337) ildə Qarsda beş nüsxədə tərtib edilmişdir.

A.Mravyan, Kazım Qarabəkir, P.Makinzyan, Vəli B. Şahtaxtinski Muxtar, Ş.Eliava, Memduh Şövkət, Svanidze Qanetskiy

Əlavə 1

Türkiyənin şimali-şərq sərhədi (rus Baş ştabının xəritəsinə əsasən 1/210000 – dyümdə 5 verst) aşağıdakı çəkildə tərtib edilmişdir:

Qara dəniz sahilində Sarp kəndi, Qara Şalvar dağı (5014) - çay boyunca P.S.K istiqamətinə şimalda B.Maradidi kəndinə - şimalda Maradididən keçərək Çorxunu kəsməklə, Sabaur-qora Xedis-mta (7052) kəndinin şimalından keçir – Kva-kibe dağı- Kavtareti kəndi xətti ilə Medzınba dağı – Qerat-kesun (6468) dağı – Korda (7910) dağının suayırıcı xətti üzrə irəliləyərək, Şavşet sıra dağlarının qərb boyunca Artvinsk dairəsinin keşmiş administrativ sərhədi - Şavşet dağlarının suayırıcı xətti üzrə Sarıçay (Qara İsal) (8478) dağına çıxır- Kviral aşırımı – oradan Qannı-dağ yaxınlığında Ərdəhan dairəsinin keçmiş administrativ sərhədi ilə oradan isə Tlil (Qrmanı) (8357) dağlarının şimalına – Ərdəhanın əvvəlki sərhədi ilə Posxov-çayı yaxınlığındakı Badel kəndinin şimali-şərqinə çıxır və həmin çay boyunca cənubdan şimala doğru Çançax kəndinə hərəkət edərək çayı arxada buraxıb, Ayrilyan-başı (8512) dağına çıxır- Kəll-təpə (8463) və Xarman-təpə (9709) dağlarından keçir – Kasris-səri (9681) dağına çatır- oradan Karzametçaydan Kür çayına doğru yönəlir – oradan Kür boyunca Kartanakev kəndinin şəqrinə, oradan isə Kürdən ayrılaraq, Qara-oğlu (7259) dağının suayırıcı xətti üzrə - oradan Xazapin gölünü iki yerə bölərək, 7580 (7560) yüksəkliyinə qalxır, oradan Göy-dağ (9152) dağına – Üç-Təpələrə (9783), çatır, orada Gürcüstanla sərhəd başa çatır və Ermənistanla sərhəd başlanır: Taya-qala (9716) – zirvə 9065, burada Ərdahan dairəsinin əvvəlki sərhədini tərk edir və Böyük Ağ-Baba (9973 və ya 9963-8838 və ya 8827-7602) dağları ilə - buradan düz xətt üzrə 7518 zirvəsinə - İbiş kəndinin şərqindən keçərək, sonra Qızıl-daş (7439, 7440 və ya 7490) dağına doğru - yeni Qızıl-daş kəndinə, oradan keçən çay boyunca hərəkət edərək Qara-Məmmədin şimali-qərbinə doğru – suyarıcı xətti

üzrə şərqdə yerləşən kənddən şərqdəki Camuşbu-çay: Dilavər, B.Kmlı və Tixnis Vartanlı və Baş-Şuragəl kəndlərindən keçməklə - aadı çəkilən çayla keçib, Kəlal və ya Kalalidən oradan Arpa-çay (talveqi üzrə)istiqaməti üzrə, Araza çıxıb onun boyunca Urmiya kəndinə doğru, burada Ermənistan sərhədi bitir və Azərbaycan sərhədi başlayır- Arazın (talveqi üzrə) boyunca keçərək Aşağı Qarasiunun bu çaya töküldüyü yerədək, burada isə Azərbaycan sərhədi başa çatır.

Təbii ki, sərhəd adıçəkilən zirvələrin suayırıcı xətləri üzrə keçir.

A.Mravyan, kazım Qarabəkir, P.Makinzyan, Vəli B, Şahtaxtinski Muxtar, Ş.Eliava, Memduh Şövkət, A.Savanidze, Qanetskiy

Əlavə II

Sərhəd xəttinin I əlavədə göstərildiyi kimi, Arpaçay və Araz çaylarının talveqləri üzrə keçdiyini nəzərə alaraq TBMM Hökuməti blokhauzları (çöldə tikilən kiçik istehkam) Aleksandropol-İrəvan dəmiryolu xəttindən 8 verst, Arpaçay rayonunda isə göstərilən xətt üzrə adıçəkilən dəmiryolundan Araz çayı boyunca 4 verst arxaya çəkməyə öhdəlik götürür.

Yuxarıda adı çəkilən rayonları məhdudlaşdıran xəttlər aşağıda göstərilir: Arpaçay zonası üçün A və B, z 1. Araz zonası üçün –z 2 məntəqələri.

I. Arpaçay zonası

A) Vartanlıdan cənubi-şərqə - Uzun-Kilisdən şərqə - Bozyar (5096) dağından keçməklə - 5082 – 5047 – Karmirvankın şərqinə - Üçtəpə (6578 və ya 5578) – Arazoğlu və Anidən şərqə doğru – Yenikeyin qərbindən keçərək Arpaçayına çatır.

B) Arpaçaydan şərqə 5019 yüksəkliyinə - oradan 5481 yüksəkliyinə - dörd verst yarım Qızıl-qulun şərqinə doğru – Bojalıdan şərqə iki verst – sonra Diqorçay boyunca – Düz-keçid kəndinə və Qarabağ xarabalıqlarının şimalından keçməklə Arpaçayına çıxır.

II. Araz sonası

Xaraba-Əlican və Süleyman-Diza kəndləri boyunca V zonasında bir tərəfdən Aleksandropol-İrəvan dəmiryolu, digər tərəfdə həmin dəmiryolu xəttinin 8 və 4 verstliyində, TBMM Hökuməti istehkamlar tikəməyəcəyinə və nizami qoşunlar saxlamayacağına dair öhdəlik götürür; lakin göstərilən zonalarda qayda-qanunun qorunması, təhlükəsizlik və digər administrativ ehtiyaclar üçün qoşunlar saxlamaq hüququnu özündə saxlayır.

A.Mravyan Kazım Qarabəkir, P.Makinzyan, Vəli.B, Şahtaxtinski Muxtar, Ş.Eilava Memduh Şövkət, A.Savnidze Qanetski

Əlava III

Naxçıvan ərazisi

Urmiya kəndi – oradan Arazdəyən stansiyasına (Bu stansiyanı Ermənistan SSR üçün saxlamaqla) qədər düz xətt üzrə - sonra düz xətt üzrə qərbi Daşburun dağına (3142) doğru – sonra düz xətt üzrə Daşburun (4108) dağının suayırıcından keçərək Caanam-dərəsi çayı boyunca cənuba Bulağa (cənub) – Bağarsıx (6607 və 6587) dağlarının suayırıcı ilə İrəvan dairəsinin əvvəlki administrativ sərhədi və Şərur-Dərələyəzdən keçməklə 6629 yüksəkliyindən Kömürlü dağa (6839 və ya 6930) və oradan 3080 yüksəkliyinə - Sayat-dağ (10282) və

keçmiş Naxçıvan dairəsinin şərqi administrativ sərhədinə qədər.

A.Mravyan, P.Makinzyan, B.Şahtaxtinskiy, Ş.Eliava, A.Svanidze, Qanetskiy, Kazım Qarabəkir, Vəli Muxtar, Məmduh Şövkət

Qeyd etmək istəyirəm ki, Ermənistan 1991-ci ildə öz müstəqilliyini elan edəndə Sovet Ermənistanın varisi olduğunu bəyan edib. Bu özü-özlüyündə müasir Ermənistan respublikasının Ermənistan SSR tərəfindən bağlanmış bütün müqavilələri tanıdığını göstərir. Bundan əlavə 1992-ci ilin martında BMT üzvlüyünə qəbul edilərkən Ermənistan hakimiyyəti faktiki olaraq bu təşkilatın üzvü olan bütün ölkələrin ərazi bütövlüyünü tanıyıb. Yəni, Ermənistan de-yure öz qonşuları olan Türkiyə və Azərbaycanın ərazi bütövlüyünü dəfələrlə tanıyıb. Bundan çıxış edərək deyə bilərik ki, Ermənistan siyasi təşkilatları tərəfindən qaldırılan hay-küy beynəlxalq nöqteyi-nəzərdən qeyri-qanunidir.

1921-ci ildə Türkiyə ilə diplomatiq əlaqələrin qurulması məqsədilə Frunze Sovet Ukraynasının səfiri qismində Ankaraya gəldi. Voroşilov isə bu zaman Türkiyədə hərbi məsləhətçi vəzifəsini icra edirdi. 1922-ci il yanvarın 2-də sovet-türk dostluğunun əsasını qoyan Türkiyə ilə Ukrayna SSR arasında müqavilə (M.V.Frunzenin Ankarada missiya ilə olduğu dövrdə imzalanıb) imzalandı.

Sovet Dövlət Kəşfiyyat İdarəsinin yaradıcı kimi məşhur olan Aralov 1922-1923-cü illərdə Sovet Rusiyasının Türkiyədə xüsusi nümayəndəsi olub.

Türkiyənin Moskva ilə bu cür yaxınlaşmalardan ehtiyyat edən anqlo-sakslar Millətlər Liqasının Şurası vasitəsi ilə Mosul vilayətini İraqa verdirdilər və oyuncaq İraq hökuməti də oradakı neft yataqlarını 75 il müddətinə Britaniya bağlı

şirkətlrə icarəyə verdi. 1921-22-ci illərdə isə gələcək neft şirkətinin səhmlərinin 20-25 faizinin amerikalılara çatacağı barədə də razılıq əldə olundu.

Antanta gücləri Türkiyə ilə Sovet Rusiyasının yaxınlaşmasından, gələcəkdə özlərinə qarşı yeni bir blokun formalaşa biləcəyindən çox narahat idilər. Türkiyə Rusiya ilə ittifaqda güclənəcəyindən Osmanlı imperiyasının İngiltərə, Fransa və İtaliya tərəfindən işğal edilmiş keçmiş ərazilərini, Ərəbistan, Mespotamiya, Şimali Afrikanı geri istəyəcəyindən də ehtiyat edirdilər. Belə geosiyasi şərait İngiltərə və İtaliyanı Türkiyə ilə danışıqlara getməyə vadar etdi. Bu anti-türk koalisiyasının dağılmasına gətirib çıxardı. 1921-ci ildə Fransa Türkiyə ilə sülh sazişi imzaladı. İtaliya Türkiyəyə qarşı hərbi əməliyyatları dayandırdı.

Atatürkün siyasi hesablamaları anqlo-sakslarla bağlı mübahisəli məsələlərdə Sovet İttifaqından dəstək almaqda nə qədər haqlı olduğunu bir daha təsdiq etdi.

Öz himayədarlarını itirən Yunanıstan qüvvələri 1922-ci ildə Dumlipinar yaxınlığında dəhşətli məğlubiyyətə uğradılar. 1922-ci ilin sentyabrında yunan qoşunları tamamilə Anadoludan qovuldular.

Mudaniya müqaviləsi və Lozannada 1923-cü ildə bağlanan sülh müqaviləsinin əsasında İstanbul və Şərqi Trakiya azad edildi, Türkiyə müstəqil dövlət olaraq tanındı və beynəlxalq birlik tərəfindən qəbul edildi.

1925-ci ilin dekabrında isə Türkiyə ilə SSRİ arasında dostluq və bitərəflik haqqında müqavilə imzalandı.

## Osmanlı dövlətnin süqutundan sonra Yaxın Şərqdə yeni dövlətlərin əmələ gəlməsi

1914-1918-ci illər İ Dünya müharibəsinə qədər Türkiyə Asiya və Avropada 21 mln nəfər əhalisi olan və ümumi sahəsi 1 786716 kv. km təşkil edən bir əraziyə malik idi. Müharibə nəticəsində Türkiyənin ərazisi 732000 kv. km, əhalisi isə 13 milyon nəfər təşkil edirdi.

Beləliklə, 1914-1918-ci illər imperialist dövlətlərinin müharibəsi nəticəsində Türkiyə 66 faiz ərazi, 33 faiz isə əhalisini itirdi. Müharibədən sonra Türkiyəyə məxsus böyük bir ərazi faktiki olaraq qalib dövlətlər – İngiltərə, Fransa, İtaliya və Yunanıstan arasında bölüşdürüldü, əhalisi də ağır istismara məruz qaldı.

Şərq tarixində yeni bir mərhələ yaxınlaşırdı. Lakin bu dəyişiklikləri hərəkətə gətirən qüvvələr Şərqdə deyildi.

Osmanlı imperiyasının çöküşündən sonra Mərkəzi Ərəbistanda isə faktiki olaraq beş müstəqil dövlət - Hicaz, Nəjd, Cəbəl - Şəmmar, Asir və Yəmən – formalaşmışdı.

1918/19-cu ilin qışında baş qaldıran ispan qripinin dəhşətli dalğası Ərəbistanda müharibənin aldığı canlardan daha çox insanın həyatına son qoydu. Lakin qrip

epidemiyası da Nəcd və Hicazın sərhədində yeni münaqişənin alovlanmasının qarşısını ala bilmədi.

Məkkə hökmdarı Kral Hüseyn ilk əvvəl Əl-Xurmanı ələ keçirmək üçün 1200 nəfərdən ibarət bədəvi və 500 nəfərlik piyada dəstəsini Şakir ibn Zəydin başçılığı altında göndərsə də, onun qoşunu bir-birinin ardınca məğlubiyyətə uğradı. 1919-cu ildə Məkkə hökmdarı ordusunun əsas hissəsini, 8 min nəfərlik qüvvəni və digər dəstələri oğlu Abdallahın komandanlığı altında Əl-Xurmaya göndərdi.[183]

Bunu artıq nəcdlilərlə açıq toqquşma kimi dəyərləndirən britaniya rezidenti, onun qarşısını almağa cəhd etdi. O, elə güman edirdi ki, Hüseyn öncə Əl-Xurmanı ələ keçirmək, sonra isə Nəjdə soxulmaq istəyir. Həmin anda Hicaz və Nəjdin toqquşmasının ingilislərə əlverişli olub-olmadığı ona aydın deyildi. Lakin kral Hüseynin özünü necə aparması, ingilislərin siyasətindən narazılığı, daim ingilislərə Suriya və Fələstinlə bağlı götürdükləri öhdəlikləri pozduqlarını xatırlatması və nəhayət özünü bütün ərəblərin kralı kimi təqdim etməsi, Londonu şərifi "başa salmağa" sövq edirdi. Düzdür, həmin an üçün ingilislər nəjdlilərin hərbi bacarıqlarından xəbərsiz ola bilərdilər. Q.Filbi yazırdı ki, 1919-cu ilin martında lord Kerzonun yanında keçirilən müşavirədə demək olar ki, hamı əminliklə vəhhabilərin məğlub olacağını deyir və orada Hicazın Əl-Xurma vahəsinə olan iddialarını dəstəkləmək qərarı verilir.[184]

Hüseynin oğlu Abdallah atasının qəbul etdiyi qərarla razı deyildi. O, başa düşürdü ki, Hicaz əhalisi müharibələrdən yorulub, ələkeçməz bədəvilərə qarşı əməliyyatlar isə illərlə uzana və uğurla nəticələnməyə də bilər. Lakin atasının əmri ilə o, şərqə doğru, Əl-Xur-

manın 120-130 km-də yerləşən Turaba şəhəri istiqamətində hərəkət etdi.

1919-cu il mayın axırlarında Abdallah Turabanı ələ keçirdi və əskərlərinə vahəni qarət etmək imkanı verdi.[185] Bununla bağlı Əbd əl-Əzizin yazışmaları diqqəti cəlb edir. Nəjd mənbələri Abdallahın məktublarının təkəbbürlü və hədə ilə dolu olduğunu təsdiq edir.

Elə həmin vaxt Əl-Tatqatdan olan ixvan dəstələri Sultan ibn Bidjədin, kaxtan tayfaları isə Xamud ibn Ömərin rəhbərliyi altında Turaba yaxınlığında toplaşmışdılar.

Əl-Xurmadan olan Xalid ibn Lyüvay da ora gəlib çıxdı. Nəjd məlumatlarına görə onların sayı 4 min nəfərə yaxın idi. Turabadan qayıdan Əbd əl-Əzizin adamları Abdallah ordusunun bu şəhərdə törətdiyi dəhşətli qarət, qətl və cəzalardan söz açırdlıar, həmçinin guya Abdallahın Ramazanı Ər-Riyadda keçirəcəyini, id əl-ədhanı isə Əl-Hasda qeyd edəcəyi ilə qürrələndiyini təsdiq edirdilər.[186]

Gecə ixvanlar Abdallahın qoşununa hücum edərək, tamamilə darmadağın etdilər.[187]

Abdallah nizami orduda 500 əskərdən üç nəfərinin, 850 hicazlıdan isə cəmi 150 nəfərinin sağ qaldığını etiraf edirdi.[188] Demək olar ki, bütün silah və ehtiyatlar ixvanların əlinə keçmişdi. İxvanlar bundan əvvəl Abdallahın bəzi reydlərində iştirak etsələr də, bunu onların ilk ciddi hərbi uğuru hesab etmək olar. Döyüş həm də Nəjd əmirinin ixtiyarında layiqli hərbi qüvvənin olduğunu təsdiq etdi.

Hicazlılar üçün təhlükəli vəziyyət yaranmışdı. Abdallah bu məğlubiyyətdən sonra Hicaz kralının vəziyyətinin çıxılmaz hesab edirdi.[189]

Əbd əl-Əziz 1919-cu ilin iyulunda 12 min nəfərlə Turabaya gəldi. 1919-cu il iyulun 4-də britaniya rezidenti kuryer ilə Ciddəyə məktub göndərdi:

"Həşəmətli kral höküməti bunları çatdırmağa mənə vəkalət verib, məktubu alan kimi sizinlə kral Hüseyn arasında sərhədlər müəyyən edilənə qədər Turaba və Əl-Xurmanı neytral zona olaraq qəbul edəsiniz və dərhal oradan çəkiləsiniz. Əgər məktubu aldıqdan sonra geri çəkilməsəniz, Britaniya hökuməti bunu bağlanmış müqavilənin ləğvi kimi dəyərləndirəcək, qüvvədən düşmüş hesab edəcək və düşmənçilik hərəkətlərinizin qarşısının alınması üçün, lazım olan bütün tədbirləri görəcək".[190]

İngilislər Əbd əl-Əziz qarşısında Ət-Taifə doğru hərəkət etməmək tələbini qoydular.

Ultimatumu alan Nəjd əmiri çox uzağa getdiyinin fərqinə varıb, dərhal Ər-Riyada qayıtdı. O, ixvanlardan bu rayondakı vahələri tərk etməyi əmr etdi və onları Xail yaxınlığından gətirilən dəstələrlə əvəz etdi, həmçinin Turabanın keçmiş əmirini yenidən vəzifəsinə qaytardı. Buna baxmayaraq, Əbd əl-Əziz bu rayondan olan köçəri tayfaların şeyxlərinə "vahid allah" yoluna qoşulmaqla bağlı məktublar göndərməkdə davam edirdi.[191] Bir çoxları onun bu çağırışlarına müsbət cavab verdilər. Təcrübədən çıxış edərək bunu nəjdlilərin sərhəd rayonları üzərində nəzarəti ələ almaları kimi başa düşmək olar.

Ciddəyə təyyarələr və əskərlər göndərən ingilislər ultimatumun ciddiliyini təsdiq etdilər.[192] Belə təxmin edilirdi ki, Əbd əl-Əziz yenidən Hicaza soxulmaq fikrinə düşərsə, onda Ər-Riyada verilən subsidiyalar kəsiləcək.

1919-cu ilin noyabrında Əbd əl-Əzizin yeniyetmə oğlu Feysəl İngiltərəyə səfər etdi. Onu İstanbulda təhsil almış, türk və fransız dillərini yaxşı bilən təcrübəli diplomat İbn Sunayan müşaiyət edirdi.[193]

Düzdür, Əbd əl-Əziz ingilislərin tələbini yerinə yetirdi, amma Hüseynin ordusunun hansı qüvvələrə sahib olduğunu da bir daha üzə çıxardı və onda Hicazın sonda Hüseynin hakimiyyətindən azad olacağı fikrini qətiləşdirdi.

Eyni zamanda U.Çörçil başda olmaqla britaniya hökuməti Yaxın Şərqin müharibədən sonrakı strukturunu müəyyənləşdirmişdi. Şərif Hüseynin oğlu Feysəl İraqın kralı, digər oğlu Abdulla isə Taransiordaniya əmiri təyin edilmişdi. İraq və Transiordaniya faktiki olaraq ingilislərin nəzarəti altında idi. Əbd əl-Əziz bundan sonrakı bütün addımlarını britaniya siyasətinə uyğun atmağa çalışırdı. Həmin vaxt Əbd əl-Əziz ixvan məskənlərinin yaradılmasına dəstək verdi.Ona görəki, ixvanların əsas yaşayış məntəqələri faktiki olaraq ən böyük tayfa şeyxlərinin dayaq məntəqələrinə çevrilmişdi. Mütəyr tayfasından olan Feysəl Əal Daviş Əl-Qatqatda, harb tayfasından İbn Nuhayt Duhnada, şəmmar tayfasından olan İbn Cibril və İbn Sunayan isə Əl-Əcfərdə məskunlaşmışdılar. Hailin Ər-Riyada birləşməsindən öncə Əbd əl-Əziz ölkəsinin nüfuzunu beynəlxalq aləmdə yüksəltmək məqsədilə Nəjdin nüfuzlu şəxslərinin, tayfa başçılarının və üləmaların iştirak etdiyi müşavirə çağırdı və orada bundan sonra əmirin "Nəjd və birləşdirilmiş ərazilərin sultanı" adlandırılmasını təklif etdi. Türkiyə kimi müttəfiqindən məhrum olan Cəbəl-Şəmmar əmiri İbn Təlyal Əal Rəşidin taleyi artıq məlum idi, və o, məğlubiyyəti ilə barışmalı oldu. Bu Əal Rəşidi Əbd əl-Əzizlə qohum olmağa qədər gətirib çıxardı. Əmir İbn Təlyal bundan sonra Ər-Riyadda fəxri qonaq qismində yaşamağa başladı və öz qızını Əbd əl-Əzizə ərə verdi.

1921-ci il noyabrın 2-də Cəbəl-Şəmmar əmirliyinin əhalisi Əbd əl-Əzizə sədaqət andı içdi. O, bu vilayətə İbrahim Əal Sübhanı qubernator təyin etdi.

Ancaq Cəbəl-Şəmmarın İraq və Transiordaniya ilə sərhədləri hələ müəyyənləşdirilməmişdi.

"Mərkəzi Ərəbistanda sərhədlər yox idi", - gələcəkdə İordaniyada legiona rəhbərlik edəcək Qlabb-paşa belə yazırdı, - "Administrasiya Fərat çayından iki-üç mil uzaqlıqda yerləşən səhradakı ərazilərə nəzarəti həyata keçirməyə cəhd etmirdi. Çünki bir çox tayfaların yaşamı indiki İraq və Suriya ərazilərinə azad surətdə köç etmələrindən çox asılı idi. Suriya və İraq tayfaları da belə edirdilər. Buna görə orada möhkəm sərhədlər təyin etmək çox təhlükəli idi"[194].

Tayfalararası münaqişə və toqquşmalar İraq və Nəjd arasında münasibətlərin pozulmasına gətirib çıxarırdı. 1921-ci ilin payızında Yusif ibn Səəudun adlı birisini İraqda formalaşdırılmış dəvə korpusuna yenicə komandir təyin etmişdilər. Onun şəxsi düşməni olan zafir tayfasının şeyxi Hamud ibn Suvayt, Ər-Riyada Əbd əl-Əzizin yanına qaçdı və bir müddət sonra riyad əmirinin zəkat toplamaq üçün göndərdiyi adamlarla birlikdə geri döndü. Mütəyr tayfasından olan ixvan dəstəsi də Feysəl Əal Davişin rəhbərliyi altında Hamuda qoşuldu; onlar 1922-ci ilin martında Yusifin düşərgəsinə hücum edərək, demək olar ki, onun bütün döyüşçülərini qırdılar. Lakin, İraq ərazısinə soxulmuş Əbd əl-Əzizin ixvan qoşunlarını dayandırmaq üçün, ingilislər aviasiya ilə iraqlıların köməyinə gəldilər. İbn Səud* ixvan dəstələrinin əməllərindən xəbərsiz olduğunu söyləsə də, heç kim onun sözünü

* Avropalı tarixçilər Əbd əl-Əzizi adətən belə adlandırırlar. Bundan sonra bu addan istifadə ediləcək

ciddiyə almadı. Məğlubiyyətdən təşvişə düşmüş İraq höküməti dəvə korpusunu ləğv etdi və Yusif ibn Səədunu da komandirlikdən uzaqlaşdırdı, sonuncu işləri belə görəndə, incik düşərək Ər-Riyada qaçdı və öz xidmətlərini Əbd əl-Əzizə təklif etdi[195].

1922-ci ilin yazında Əbd əl-Əziz Möhəmmərdə ingilislərin nümayəndəsi general P.Koksla görüşdü. İngilislər İraq və Nəjd arasında möhkəm sərhədlərin qurulmasını tələb edirdilər. Nəjd nümayəndə heyəti sərhədlərin köçəri tayfaların ənənəvi dira* əsasında müəyyən olunmasını tələb edirdilər. Ən nəhayətdə 1922-ci ildə Möhəmmər müqaviləsi imzalandı və həmin sənədə əsasən müntəfiq və zafir, eləcə də amarat və anaza tayfalarına məxsus ərazilər İraqa, şəmmarlara məxsus ərazi isə Nəjdə aid edilirdi.

Lakin Əbd əl-Əziz zafirlərin Hamud ibn Suvaytın rəhbərliyi ilə ona tabe olduqlarını və İraqa tabe olmaqdan imtina etdiklərini əsas gətirərək, həmin müqaviləni ratifikasiya etməkdən imtina etdi[196].

1922-ci il iyul ayında ixvanlar şimali-qərb istiqamətində Transiordaniyaya doğru irəliləməyə başladılar. 1922-ci ilin iyulunda Cauf vahəsini ələ keçirdikdən sonra onlar Transiordaniya əmirinin silahlı dəstələri ilə toqquşdular. Sonra ixvanlar Təyma və Tabuk vahələrini tutub, əhalisini də Ər-Riyada zəkat ödəməyə məcbur etdilər[197]. İxvanlar əvvəllər Cəbəl-Şəmmara aid olan Vadi-Sirxana doğru irəlilədilər, sonra isə Nəni-Şakir vahəsinə hücuma keçdilər. Bu artıq onları Transiordaniyanın paytaxtı Omana yaxınlaşdırdı[198].

Nəjdlilər eyni vaxtda fransızların mandatı altında olan Suriya ərazilərinə daxil oldular və britaniya əraziləri

---

* Dira kollektiv üzvlərinin birgə istifadə etdiyi örüş yeridir

arasında birbaşa əlaqəni kəsdilər. Həmin dövrdə ingilislər Fələstindən İraqadək, məhz, həmin koridor boyunca dəmiryolu xətti çəkməyi düşünürdülər və ona görə də məsələyə dərhal müdaxilə etdilər.

Möhkəm sərhədlərin qurulmasının vacibliyinə qəti əmin olan P.Koks Nəjd əmiri ilə görüşmək qərarına gəldi. 1922-ci il noyabrın 22-də Əl-Ukayra yaxınlığında P.Koks və Əbd əl-Əziz arsında danışıqlar başladı. Danışıqların nəticəsi olaraq, dekabrın 22-də Ukayra protokolları imzalandı və Möhəmmər müqaviləsinə əlavə edildi[199].

1 saylı protokol İraq və Nəjd arasında sərhədləri müəyyən etdi və aralıqda neytral zona ayrıldı ki, oradan həm iraqlılar, həm də nəjdlilər mal-qaralarını otarmaq üçün örüş kimi istifadə edə bilərdi. Nəjd tayfaları bu vaxta qədər İraq ərazisində istifadə etdikləri bəzi su quyularından yenə də yararlana bilərdilər, yalnız o şərtlə ki, bu quyuların suyu hərbi məqsədlər üçün istifadə olunmasın. Bu minvalla, həmin razılaşmada müxtəlif tayfaların dira ənənəsi nəzərə alınmışdı.

İkinci protokola görə, hər bir tayfa nə vaxt istəsə, istənilən tərəfin hökümətinin təəbəliyini qəbul edə bilərdi. Onların bu hüququ tanınırdı.

Nəjd və İraqla sərhədlər təyin olunduqdan sonra, Əbd əl-Əziz sərhədlərlə bağlı Küveyt nümayəndələri ilə də konvensiya imzaladı. Bu razılaşma da hər iki tərəfin mal-qarası üçün lazım olan örüş yerlərinin neytral zona kimi qalmasını təmin edirdi[200].

Cəbəl-Şəmmar Nəjdə birləşdirildikdən sonra Əbd əl-Əziz, Asirin şimal hissəsini tutmaq üçün 6 min nəfərlik qoşun hazırladı və rəhbərliyi də yeniyetmə oğlu Feysəl-İbn Lüvaya tapşırdı.Qoşun Ər-Riyaddan 1922-ci ilin iyununda çıxdı. Yolda köçəri bədəvi tayfaları - kahtan, zəhran və şəhran bədəvilərindən ibarət daha 4

min nəfərlik dəstə də bu qoşuna qoşuldu. Bita vahəsini azad edən Feysəl 1922-ci ilin sentyabr-oktyabr aylarında Abhəyə yaxınlaşdı və şəhəri döyüşsüz ələ keçirdi. Oranən əmiri Həsən Əal Aid dağlara qaçdı. Onun köməyinə göndərilən hicazlilardan ibarət dəstə ixvanlar tərəfindən darmadağın edildi. Asirin bu hissəsində nəzarəti təmin edən Feysəl, Səad ibn Ufaysanı Abhə əmiri təyin etdi və bir qarnizonu onun yanında qoyub, özü 1923-cü ilin yanvarında Ər-Riyada qayıtdı[201]. Bir müddət sonra Həsən Əal təslim oldu və onu fəxri əsir qismində Ər-Riyada yola saldılar[202]. Bununlada Əal Aidlər aliləsinin Asirin şimal hissəsində müstəqil knyazlıq qurmaq cəhdi uğursuzluğa düçar oldu.

Yeni təyin edilmiş Abhə əmiri İbn Ufaysan vəfat etdi, Əbd əl-Əziz onun yerinə Əbd əl-Əziz ibn İbrahim adlı birisini təyin etdi.

Artıq 1923-cü il ərəfəsində kral Hüseyn və Əbd əl-Əziz arasında hərbi toqquşmanın yaxınlaşdığı aydın sezilirdi. Hicazda Hüseyn hakimiyyətinə qarşı narazılıq artırdı. Korrupsiya və rüşvətxorluq getdikcə dövlət aparatını aşındırırdı. Ziyarətçilərdən adi vergi toplamaqla yanaşı, kral, hərbi qüvvələrini möhkəmləndirmək məqsədilə həm də zəkat yığımını artırmışdı.Vergi toplamaq üçün qoşundan istifadə etmək cəhdləri də yerli tayfaları qəzəbləndirirdi. Narazıların bir çoxu Nəjdə qaçırdı. Kral Hüseyn Asiri hələ də öz ərazisi hesab edirdi və 1923-cü il aprel ayında

Hicazdan göndərilən hərbi dəstə nəjdlilərin əlində olan Şimalı Asirin baş şəhəri olan Abhəni mühasirəyə aldı[203]. Amma bu mühasirədə hicazlılar üçün uğursuzluqla nəticələndi.

Asirin cənubunda isə ingilis müstəmləkəçiləri hökmranlıq edirdilər, onlar hələ 1839-cu ildə Yəmənin Ərəbistan dənizi sahillərini, o cümlədən Ədən şəhərini və vilayətləri Osmanlı imperiyasından qopara bilmişdilər. Bütün dağlıq Asir (Cənubi və Şimali) və Yəmən Tihaması Əl-Maydidən Xodeydaya qədər Cənubi Asir əmiri Məhəmməd əl-İdrisinin əlində idi. Əl-idrisi oranı Böyük Britaniyanın köməyi, verdikləri pul, silah, hərbi sursatın gücü ilə 1915-ci ildə ələ keçirə bilmişdi. 1872-ci ildən Osmanlı imperiyasının tərkibində olan və əsasən zeydit tayfalarının məskunlaşdığı dağlıq Cəbəl rayo-nunun şimal və şimali-şərq hissəsi, 1911-ci ildə Türkiyə höküməti ilə bu əraziyə geniş muxtariyyət verən Dəan müqaviləsini imzalayan zeydit şiə sektasının rəhbəri imam Yəhya Hamid əd-Dinin əlində idi. Osmanlı imperi-yasının süqutundan və türklərin Yəməndən gedişindən sonra, İmam Yəhya Osmanlı Tükiyəsinin keçmiş Yəmən vilayətindəki hakimiyyətinin varisi oldu. İmam Yəhya zəyditlər sektasının birinci imamının yüz onuncu varisi hesab olunurdu. Bu sektanın banisi 864-cü ildə Xəzər dənizi sahillərində Zeyditlər dövlətini quran Əlinin nəs-lindən olan Zeyd ibn Əli ibn Hüseyn olmuşdur. Lakin başlanğıcını Zeyddən götürən zeydizm ilk öncə ər-Rassi ailəsinin məskunlaşdığı Yəməndə yayılmağa başlamışdı. Sekta üzvləri qeyd edirlər ki, onların şəcərəsi təkcə Məhəmmədin nəsli ilə bağlı deyil, həm də islamdan qabaqkı hökmdarların nəslindəndi. Yəməni 900-cü ildən bu ailə idarə edirdi. 1918-ci ildə müstəqillik əldə etdik-dən sonra imam onun hakimiyyətini qəbul etməyən və ya müəyyən qədər qəbul edən tayfa liderlərinə qarşı mü-haribəyə başladı. Özünə Xalid əd-Din, yəni, “İmana la-yiq” ləqəbini götürdü və heç bir yeniliyə imkan ver-məyərək, Yəməni dəmirəllə idarə edirdi.

Hafiz Vəhbinin məlumatına görə, Əbd əl-Əziz Hicazı hələ 1923-cü ildə ələ keçirməyi qət etmişdi. Lakin o, ingilislərin hansı mövqe tutacağını bilmirdi. Nəjd sultanı 1919-cu ildə Turaba üzərində qələbədən sonra ingilislərin onu, qüvvələrini həmin ərazidən çıxarmağa məcbur etməsini və bir daha irəliyə getməməyi tələb etməsini unutmamışdı[204].

1924-cü ilin iyul ayında id əl-ədhə bayramı günlərində Əbd əl-Əziz ixvan liderlərini toplayaraq, Hicazın ələ keçirilməsi məsələsini onlarla müzakirə etdi. Onun cihad çağırışı böyük coşqu ilə qarşılandı[205].

İxvanlar müqəddəs şəhərləri allahın izni ilə "təmizləmək" istəyirdilər.

Əbd əl-Əziz ilk öncə Məkkə yaxınlığındakı dağlıq kurort şəhəri olan Ət-Taifə zərbə endirməklə Böyük Britaniyanın reaksiyasını öyrənmək istəyirdi.İngilislər bu dəfə Hüseyni meydanda tək buraxdılar.İngilislərin mövqeyindəki bu dəyişikliyə Əbd əl-Əzizin Sovetlər birliyinə yaxınlaşması səbəb olmuşdu. İngilislər rusları Ərəbistan bölgəsinə buraxmamaq üçün döyüşkən orduya malik və ərəb tayfalaı arasında boyük hörmətə layiq Əbd əl-Əzizin yanında yer aldılar.

Həmin vaxt kral Hüseynin oğlu Əli ixvanların Məkkəyə irəliləməsinin qarşısını almaq məqsədilə Həddə qoşun toplamasalada, lakin sentyabrın sonunda nəjdlilərin ilk həmləsindən yenidən məğlubiyyətə uğradılar[206].

Hüseyn çıxılmaz duruma düşmüşdü və bu dəfə Hicazın nüfuzlu insanları, o cümlədən şərifin öz ailəsi, üləmalar və iri tacirlər Ciddədə toplaşaraq, Hüseynə taxt-tacdan əl çəkməyi tövsiyə etdilər və bu yolla İbn Səudu yola gətirmək istədilər. Uzun diltökmələrdən sonra onu, taxt-tacdan imtina etməyə razı sala bildilər və 1924-cü il

oktyabrın 6-da Əli Hicazın kralı elan olundu. Hicazın mötəbər insanları parlamentə oxşar milli şura yaratdılar və Hicaz bir növ konstitusiyalı monarxiyaya çevrildi.

Üç gündən sonra Hüseyn gəmi ilə Ciddəyə, oktyabrın ortalarında isə Akabaya gətirildi, oradan da ingilislər onu Kiprə keçirdilər[207].

Oktyabrın sonlarında Əbd əl-Əziz 50 minlik ordunun başında Məkkəyə doğru hərəkət etdi. Onun Məkkəyə yolu üç həftə çəkdi, belə ki, İbn Səud ingilislərin tam axıra qədər sözlərinin üstündə durmayacaqlarından ehtiyat edirdi. Lakin Məkkəyə gedən yolda Ciddədəki xarici konsulların məktubunu aparan kur-yerdən onların bu məsələdə neytral mövqe tutacaqlarını öyrəndi[208].

1924-cü il dekabrın 5-də Əbd əl-Əziz Məkkəyə daxil oldu. Dekabrın 13-dən çap olunan rəsmi “Ümm əl-kürə” qəzetində onun müraciəti dərc olundu, orada Əbd əl-Əziz Hicazla bağlı proqramını ifadə edirdi:

“Birinci. Mənim ən böyük qayğım bu müqəddəs rayonu dinimizin düşmənlərindən, islam dünyasına nifrət edənlərdən, Hüseyndən, onun uşaqlarından və tərəfdarlarından təmizləməkdir.

Ikinci. Müqəddəs torpaqların gələcəyi ilə bağlı məsələ müsəlmanlar arasında məsləhətləşmələr yolu ilə nizamlanmalıdır. Biz artıq bu barədə bütün müsəlmanlara xəbər göndərmişik, onlardan öz nümayəndələrini göndərməyi xahiş etmişik, burada ümumi islam konfransı keçirib, bu, təmiz yer üzündə Allahın qərarlarını həyata keçirmək üçün zəruri hesab olunan idarəçilik formasını müəyyənləşdirməliyik.

Üçüncü. Hüquqi baza Allah tərəfindən onun elçisi vasitəsilə göylərdən göndərilmiş Qurandır və islam üləmaları qiyas yolu ilə onu təyin etmişlər.

Dördüncü. Məlumat üçün bildiririk ki, bu torpaqda fəaliyyət göstərən din alimlərinin hər biri, o çümlədən müqəddəs məkana xidmət edən insanlar, əvvələr olduğu kimi burada qalıb öz xidmətlərinə davam edəcəklər”[209].

Hələ Ciddənin süqutundan əvvəl Məkkənin nüfuzlu insanları, üləmaları və tacirləri Əbd əl-Əzizə Hicazın kralı kimi sadiqlik andı içməyə hazır olduqlarına dair xəbər çatdırmışdılar. 1925-ci il dekabrın 11-də cümə namazından sonra camaat Məkkədə Bab əs-Səfa yaxınlığına toplandı.

Xətib kürsüyə çıxaraq sadiqliq andının mətnini oxudu. Toplardan 100 yaylım atəşi açıldı. Sonra şəriflər, üləmalar, şəriət məhkəməsinin üzvləri, imamlar və Quran oxuyanlar, milli şuranın üzvləri, Mədinə və Ciddədən gələn nümayəndələr, ziyarətçilərin bələdçiləri, Zəmzəm suyunun çıxdığı yerə və Kəbəyə xidmət göstərənlər, eləcə də Mədinə və Məkkə əhalisinin digər təbəqələri də and içdilər.

Andın mətnində deyilirdi: “Bizlər sənin qarşında öhdəlik götürürük sultan Əbd əl-Əziz ibn Əbdürrəhman Əal Feysəl Əal Səud, Sən Qurana və Allahın elçisinin Sünnəsinə, Məhəmməd peyğəmbərin səhabələrinin ənənələrinə uyğun olaraq Hicazın kralı olacaqsan... Hicaz yalnız hicazlılar üçün olacaq və orada yaşayan insanlar onun işləri ilə məşğul olacaqlar, Məkkə Hicazın paytaxtı, Hicaz icması isə Allah və əlahəzrət tərəfindən idarə olunacaqdır”.

İslamı qəbul etmiş ingilis səyyahı Eldon Ratter bu andiçmə mərasimində iştirak etmiş və andın mətnini olduğu kimi qoruyub saxlamışdır[210].

Əbd əl-Əziz bundan sonra “Hicazın kralı, Nəjdin və birləşdirilmiş ərazilərin sultanı” adlandırılmağa başladı.

Bu zaman artık Amerika şirkətləri, xaricdəki neft yataqları ilə aktiv maraqlanmağa başlamışdılar. Bu marağın əsasında isə təbii ki, mühüm bazarlara əlverişli şəkildə yerləşməkdən və ucuz neft yataqlarının istismarından uzaq düşmək qorxusu dururdu[211].

Birləşmiş Ştatlarda neft çatışmazlığı perspektivlərindən və dünya xammalı sahəsində ingilis-holland inhisarından ehtiyat edərək həyəcan səsini ucaltdı. Sonralar "Standart Oyl Kompani of Nyu-Cersi" şirkətinin prezidenti olmuş U.Feyriş 1920-ci ildə "Texas və Oklohama nefti tükənir" deyə həyəcan səsini ucaltmışdı.. Elə həmin ildə ABŞ geoloji idarəsinin baş mütəxəssisi Uayt amerika neft ehtiyatlarının 18 il müddətində tükənəcəyini xəbər vermişdi. Hərbi-dəniz donanması departamenti bununla əlaqədar narahatlığını bildirmişdi, çünki mütəxəssislər ABŞ-da neft istehlakını azaltmağı və onu xaricdən idxal etməyi təklif edirdilər. Senator Lodj konqresi "İngiltərə dünyada neft tədarükünə nəzarət edir " deyə, xəbərdar etmişdi[212].

ABŞ-ın neft ehtiyatlarının məhdudluğu barədə şirkətlərin söylədikləri həqiqətmi, yoxsa bu Amerika hökümətinin milli sərhədlərdən kənarda aktiv işğalçılıq siyasəti yürütməsinə hesablanmış siyasət idi, bax bu, naməlum olaraq halədə qalır. Şirkətlərin marağına uyğun olaraq hökümətə təzyiq metodları və ictimai rəylə manipulyasiya üsulları ABŞ-da o qədər çox tətbiq olunub ki, güman ki, bu cür bəyanatların yayılmasına daha çox ikinci amil səbəb olmuşdu.

Bütün hallarda, 20-ci illərin əvvəllərində ən nəhəng amerikan şirkətləri Mərkəzi və Cənubi Amerikada, eləcə də Orta Şərqdə güzəştlər uğrunda mübarizəyə qoşuldular. Amerikanın neft şirkətləri bəyan edirdilər ki, ABŞ həmin zamanda dünya neft ehtiyatlarının 12 faizinə sahib olsa

da, dünya hasilatının yarıdan çoxunu, məhz, bu ölkə verir. Lakin ABŞ-dan kənarda yerləşən neft mənbələri ingilis-holland inhisarında idi.[213]

Amerika neft şirkətləri Yaxın Şərq neft piroqunun bölünməsinə gecikmələrindən narahat idilər. Daxili İşlər Nazirliyi sərhədlərdən kənarda yerləşən mənbələrə amerikan şirkətlərinin konsessiya qoyması üçün dəstək siyasəti hazırladı və bütün hökümət departament və agentliklərini bu işə kömək etməyə çağırdı. London və Paris İraq neftini bölmək barədə artıq razılığa gəlmişdilər. Müharibənin qalibi kimi Amerika hökümәti Osmanlıya məxsus ərazilərdə ABŞ-ın kommersiya fəaliyyətində diskriminasiyaya məruz qaldığını söyləyə-rək, "açıq qapılar" siyasəti tətbiq olunmasında israr etmə-yə başladı.

Mustafa Kamalın Mosulun Türkiyəyə birləşdiril-məsinə səy etməsi, ABŞ-ı keçmiş mütttəfiqlərini şantaj etməsinə imkan yaratdı və Vaşinqton türklərin tələblərinə dəstək verməyə başladılar.Yalnız ABŞ-ın bu mövqeyi qarşı tərəfi güzəştə getməyə məcbur etdi.

1927-ci ildə Mosul neftinin istehsalına başlansa da, amerikanlar hələ də öz paylarını əldə edə bilməmişdilər. Yalnız 1928-ci ilin iyulunda sonralar "qırmızı xətt haqqında razılaşma" adlandırılacaq müqavilə imzalandı. Bu müqaviləyə əsasən "Turkish Petroleum Company" (1929-cu ildən "İrak Petroleum") nin sahibləri İngilis-fars neft şirkəti (sonralar İngiltərə-İran, daha sonra "British Petroleum" Bp), ingilis-holland "Royal Dutch-Shell", fransız "Company francez de petrol" və tərkibində "Standart Oil" (New Jersey ) (gələcəkdə Exxon) və "Sokony Vakuum" (gələcəkdə Sokony Mobil) şirkətləri olan ABŞ-ın "Hiep İst Divelopment Corporation" şirkətləri oldular; səhmlərin 5 faizi isə

“Turkish Petroleum”un yaradıcısı Qalust Gülbekyana çatdı[214].

Beləliklə, ABŞ şirkətləri ikinci rolda olsa da “İrak Petroleum”un tərkibinə daxil ola bildilər.

“Standart Oil of Kalifornia” (SOKAL) İ Dünya Müharibəsindən sonra ABŞ sərhədlərindən kənarda neft istehsalına qoşulmaq üçün ciddi səylər göstərən amerikan neft şirkətlərindən biri oldu.

Ərəbistanda neft axtarışları və neft konsessiyaları Yeni Zelandiyadan olan enerjili mayor Frenk Holmsın adı ilə bağlıdır. O, 20-ci illərin əvvəllərində su axtarışlarını həyata keçirmək adı altında Bəhreyndə peyda olmuşdu. 1922-ci ildə o, ingilis şirkəti “İstern General Syndycate”in adından danışıqlar aparmaq üçün Nəjdə Əbd əl-Əzizin yanına gəldi. İbn Səud “İstern General Syndycate” şirkətinə konsessiya üçün Əl-Hasda 30 min kv.mil ərazi ayırmağa razılıq verdi. Müqaviləyə görə konsessionerlər ərazinin istismarı üçün hər il 2 min funt sterlinq pul ödəməli idilər. Holms 1925-ci ildə Bəhreyndə də konsessiya üçün razılıq əldə etdi[215].

Avantürizm meyillləri də “Syndycate”in rəhbərlərinə yad deyildi. Kifayət qədər kapitala malik olmalarına baxmayaraq, onlar bu konsessiyaya digər britaniya şirkətlərini də cəlb etməkdə maraqlı idilər. Amma vasitəçilərsiz də bu işlərin öhdəsindən gələ biləcəklərinə əmin idilər. Konsessiya üçün cəmi 4 min funt sterlinq pul ayırdıqdan sonra, dəstək ala bilməyən Holms maliyyələşməni dayandırdı və dünyanın ən iri neft ərazisini konsessiyaya verən müqavilə 1928-ci ildə ləğv olundu[216].

Bəhreyndə iki il müddətinə alınan konsessiya yalnız ona görə yaşaya bildi ki, “Syndycate” müqaviləni uzatmağa nail ola bildi. İngilis neft şirkətlərini cəlb edə bilməyən “Syndycate” Amerikanın “Galf Oil Kor-

poration" şirkəti ilə əlaqə yaratdı. 1927-ci ilin noyabrında "Galf" tədqiqat aparmaq və geoloji xəritəni tərtib etmək üçün öz geoloqunu Bəhreynə göndərdi. Amerika ilə bu işin onlara xeyir verəcəyini anlayaraq, konsessiyanı "Syndycate"dən satın aldılar[217].

Lakin "Galf" çətinliklərlə üzləşdi. Çünki həmin dövrdə o, "İrak Petroleum"la, (həmin vaxt hələ "Turkish Petroleum" adlanırdı) bağlı idi. "Qırmızı xətt haqqında sazish" Bəhreynə də şamil olunurdu.Buna görə də "Galf" 1928-cilin dekabrında "Syndycate" ilə bağlı hüquqlarını "SOKAL"a verdi.

Bəhreyn və Ərəbistandakı konsessiyalara ingilis şirkətlərinin maraq göstərməməsi, onların burada neft olmasına inamsızlığından irəli gəlirdi və ona görə də şirkətlər riskə getmək istəmirdilər. Belə ki, İran və İraqda neft Bəhreyn və Ərəbistandakından fərqli geoloji strukturdan çıxarılırdı. İran sahilləri yaxınlığındakı Kəşm adasında Bəhreyn və Ərəbistandakı struktura bənzər torpaq layında neft tapılmamışdı. İngilislər Bəhreyn və Ərəbistanı perspektivi olmayan rayonlar hesab edirdilər. Lakin amerikalı geoloqlar fantastik neft ehtiyatı yataqları kəşf etdiklərinə əmin idilər.

Böyük Britaniya amerikan şirkətlərinin Fars körfəzində görünmələrinin əleyhinə idi. 1914-cü ildə bağlanmış müqaviləyə görə Bəhreyn hakimiyyəti öz ərazisində Böyük Britaniyanın razılığı olmadan digər dövlətlərdən konsessiya ilə bağlı gələn təklifləri qəbul etməməyə dair öhdəlik götürmüşdü.

Konsessiya "SOKAL"a verilməmişdən bir ay əvvəl britaniya hakimiyyəti "İstern and General Syndycate"ni məlumatlandırmışdılar ki, Bəhreyn hakimiyyətinə "məsləhət" görürlər ki, konsessiyanın müddəti yalnız o halda uzadıla bilər ki, "Syndycate" konsessiyanı ingilislərin

nəzarəti və idarəsi altında olan şirkətə versin. Bunu öyrənən “SOKAL” ingilislərin formal qadağasını aşmaq üçün 1930-cu ilin avqustunda “Bahreyn Petroleum Company” şirkətini təsis edərək, Kanadada qeydiyyatdan keçirdi, yəni, formal olaraq onu ingilis şirkətinə çevirdi.

Bu intriqalardan məharətlə istifadə edən Əbd əl-Əziz 1927-ci ilin mayında ingilislərin Ciddədəki nümayəndəsi Kleytonla görüşür. Bu danışıqların nəticəsi olaraq mayın 20-də 7 il müddətini əhatə edən “Dostluq və xoş niyyətlər haqqında müqavilə” imzalandı. Müqavilə İbn Səud dövlətinin “tam və qəti şəkildə müstəqilliyinin” tanınması demək idi.

Müqavilədə Akaba və Maananın Transiordaniyaya birləşməsini qəbul etməyən kral, bununla yanaşı, Hicaz-Transiordaniya sərhədləri müəyyənləşənə qədər status-kvo-ya əməl edəcəyinə dair öhdəlik götürdü[218].

Lakin kral ailəsi amerikanlarla əməkdaşlığa meyilli idilər.Əslində bunun əsas səbəbi Amerikanın Yaxın Şərqdə imperialist keçmişinin olmaması ilə bağlı idi. Hər tərəfdən ingilis koloniyaları və Böyük Britaniyadan asılı ölkələrlə əhatələnmiş, hər zaman bu ölkəyə dostluq jestləri etməyə məcbur olan İbn Səud, bütün buna baxmayaraq, ingilislərə etibar etmirdi və britaniya şirkətlərini öz ölkəsinə buraxmaq istəmirdi[219].

İbn Səud amerikanlarla danışıqlara başladı. Danışıqlar amerikan biznesi üçün ağır dövrə, 1929-cu il böhranından sonraya təsadüf edirdi. “SOKAL” və Əbd əl-Əziz arasında bütün bəndlər üzrə razılaşma əldə olunduqdan sonra, aprelin 20-də ABŞ qızılın ixracına embarqo qoydu, sonra isə qızıl standartından uzaqlaşdı. Bunu görədə ABŞ şirkətləri qızılı ingilis valyuta bazarından almağa başladılar.

1933-cü il mayın 29-da Əbd əl-Əzizin maliyyə naziri Abdallah əs-Süleyman və "Standart Oil of Kalifornia"nı təmsil edən L.Hamilton tərəfindən müqa-vilə imzalandı. Əbd əl-Əzizin höküməti kralın 1933-cü ildə verdiyi dekretə əsasən həmin müqaviləni ratifikasiya etdi və müqavilə 1933-cü il iyulun 14-dən qüvvəyə mindi.

1933-cü ilin noyabrında konsessiya "SOKAL"ın filialı – "Kalifornia – Arabian Standart Oil Company"yə verildi. Şirkətin adı 1944-cü ilin yanvarında dəyişdirildi, o, "Arabian-American-Oil Company" adlanmağa başladı (ARAMCO).

Bununlada Böyük Britaniyanın Yaxın Şərqdə siyasəti dərin və prinsipial dəyişikliklərə məruz qaldı. Neft potensialını nəzərə alan ABŞ, qarşısına bu regionda dominant qüvvə olaraq Böyük Britaniyanı əvəz etmək kimi hədəf qoydu. Dünyada neftin rolu dəyişmişdi: o, artıq kommersiya məhsulundan daha çox, yüksək prioritet təşkil edən strateji məhsula çevrilmişdi.

Lakin ingilislər də sakit durmaq fikrində deyildilər, onlar Əbd əl-Əzizə qarşı iraqlıları hərəkətə keçirmək üçün onları qızışdırırdı. Belə ki, 1927-ci il sentyabr ayında İraq polisindən ibarət olan kiçik bir dəstə İraq sərhədindən o qədər də uzaq olmayan, Əl-Busayə yaxınlığına, su quyuları yaxınlığında sərhəd məntəqəsi tikməyə başladılar. Əbd əl-Əziz Əl-Ukayrada imzalanmış Möhəmməri müqaviləsi və 1 saylı Protokola istinad edərək, buna etiraz etdi.

Əbd əl-Əzizin gizli düşməni ixvan lderlərindən biri Feysəl Əal Daviş iraqlıların hərəkətlərindən istifadə etməyin əlverişli olduğunu başa düşdü.1927-ci il noyabrın 5-dən 6-na keçən gecə Feysəl Əal Davişin göstərişi ilə mütəyir taylarından ibarət silahlı hissə bir

nəfər istisna olmaqla bütün iraqlı polisləri qətlə yetirib, məntəqəni də dağıtdılar. Məsələyə İraq tərəfindən britaniya aviasiyası müdaxilə etdi və bədəviləri havadan bombardmana tutdu[220].

1928-ci il aprelin əvvəlində Buraydada Əbd əl-Əziz ixvanlarla görüş keçirir, lakin Feycəl Əal Daviş və İbn Bihjad bu görüşə gəlmirlər, Əbd əl-Əziz də onlarla səhrada görüşməkdən imtina etdi.Kral ixvanlara ingilislərlə danışıqlar aparacağını və həmin ərazidə məntəqə tikintisinə etiraz edəcəyinə vəd verirdi[221].

İxvan üsyanının əsas rəhbərləri artıq Əbu Səudun ərazililərini öz aralarında necə bölüşdürəcəkləri barədə plan da hazırlamışdılar; plana görə

Feysəl Əal Daviş Nəjdin,

İbn Bihjad Hicazın,

İbn Hislayan isə Əl-Hasın rəhbəri olmalı idi[222].

Vəziyyəti belə görən Əbd əl-Əziz şəhərlilərin və ixvanların yeni ümumi assambleyasını toplamağa başladı və onu oktyabr ayına təyin etdi, lakin məclisi 1928-ci ilin dekabrında toplamaq mümkün oldu[223].

Görüşdə ixvan liderləri, tanınmış, nüfuzlu şəhər əhalisi, üləmalar iştirak edirdilər. Onları müşaiyət edənlərlə birlikdə cəmi 800 nəfər toplanmışdı. Lakin Feysəl Əal Daviş, Sultan ibn Bihjad və İbn Hislayan yenə gəlməmişdilər. Feysəl Əal Daviş bu görüşə oğlu Uzayizanı göndərmişdi. Əbd əl-Əziz toplaşanlar qarşısında çox danışdı, öz nailiyyətlərini sadaladı, o cümlədən Ərəbistanın birləşdirilməsində və sülhün əldə edilməsindəki xidmətlərindən söz açdı. Sonra Səudlardan birinin assambleya tərəfindən onun yerinə seçilməsi şərtilə, taxt-tacdan əl çəkməyə hazır olduğunu söylədi. Bəyan etdi ki, assambleya kimi seçərsə, bununla razılaşmağa hazırdır. Son-

radan ingilislərlə aparılan danışıqlarından və Feysəl Əal Davişin əməlləri barədə məlumat verdi.

“Biz başqa sultan istəmirik!” qışqırıqları altında toplaşanlar onun siyasətini dəstəklədiklərini bəyan etdilər və üsyana qalxmış üç ixvan liderini “lənətlədilər”[224].

1929-cu ilin martında İbn Səud yürüşə çıxdı. İbn Bihjad və və Feysəl Sibildə olan quyular yaxınlığında öz qüvvələrini topladılar[225].

Martın 31-də Sibil yaxınlığında döyüş baş verdi. Feysəl Əal Daviş qarnından ağır yaralandı.

Döyüşün əsas ağırlığını Nəjdin oturaq əhalisi öz üzərinə götürdü[226].

Feysəl Əal Daviş Əl-Artaviyə qaçdı.

Feysəl Əal Daviş Yenidən üsyan bayrağı qaldırmaq qərarına gəldi və iyulun ortalarında onlar Ər-Riyad-Xufuf yolunu kəsdilər.

Sentyabr ayında İbn Səud düşmənləri ilə birdəfəlik haqq-hesab çəkmək qərarına gəldi.

Feysəl Əal Davişə ağır zərbə sentyabr ayında vuruldu, İbn Müsaidin başçılıq etdiyi qoşun onun qüvvələrini darmadağın etdi[227].

Feysəl oktyabr ayında Küveytə qaçdı.

1930-cu il yanvarın 10-da Feysəl Əal Daviş və ixvanların digər liderləri britaniya hakimiyyətinə təslim oldular. Onları təyyarə ilə Şət-üll-Ərəb çayında dayanan ingilis gəmisinə gətirdilər[228].

Yanvarın 12-də İbn Səud ixvanların liderlərini təslim etməyi tələb etdi.

Əbd əl-Əzizin köhnə düşməni Hicazın keçmiş əmiri Hüseyin oğlu İraq kralı Feysəl ibn Hüseyin onlara sığınacaq hüququ vermək istəyirdi, lakin inglislər ona bu imkanı vermədilər,çünki onlar başqa cür düşünürdülər.

Britaniya nümayəndə heyəti danışıqlar aparmaq üçün İbn Səudun yanına gəldi və üsyançıların təslim edilməsi barədə razılıq əldə olundu.

Yanvarın 27-də üsyana qalxmış üç lideri təyyarə ilə Əbd əl-Əzizin yanına gətirdilər. Onları riyad həbsxanasına saldılar. Feysəl Əal Daviş 1931-ci il oktyabrın 3-də həbsxanada öldü[229].

Osmanlının dağılmasından və 1918-ci ilin oktyabrında Mudros sülh müqaviləsi bağlandıqdan sonra, keçmiş imperiyanın Yəmən vilayətində isə imam Yəhya türk administrasiyasının varisi oldu. Keçmiş Yəmən vilayətlərini öz hakimiyyəti altında birləşdirmək istəyən Yəhya, Osmanlı imperiyası və Böyük Britaniya arasında Ərəbistan yarımadasının nüfuz dairələrinə bölünməsi ilə bağlı əvvəllər bağlanmış müqavilələri tanımaqdan imtina etdi və Böyük Britaniya və əl-İdrisi ailəsi tərəfindən işğal olunmuş əraziləri Yəmənin tarixi, ayrılmaz hissəsi hesab edərək, onları geri qaytarmağı tələb etdi.

20-ci illərin sonunda isə Yəməndə nüfuz uğrunda Böyük Britaniya və İtaliya arasında mübarizə gücləndi. 1927-ci ildə Romada iki ölkənin nümayəndələri arasında danışıqlar baş tutdu və onlar Qırmızı dəniz hövzəsində nüfuz sferasını müəyyənləşdirdilər, həmçinin Yəmənin daxili işlərinə, ilk növbədə isə Asir üstündə imam Yəhya ilə İbn Səud arasında yetişməkdə olan münaqişəyə müdaxilə etməyəcəklərinə dair qərar qəbul etdilər.

İbn Səud Moxiyə qədər olan və Yəmən dövlətinin sərhədlərinə qatılan torpaqları Asirin ərazisi hesab edirdi. O bu ərazilərin Səudların vassalı olan İdrisidlərin hökmranlıq etdiyi Şimali Asirə birləşdirilməsində israr edirdi. Bundan əlavə iki tərəf də hələ 1923-cü ildə səudiyyə qoşunları tərəfindən ələ keçirilən Najran vilayətini öz ərazisi sayırdı. Amma Məhəmməd əl-

İdrisinin imam Yəhyaya yaxınlaşaraq Səudlara qarşı uğursuz üsyan cəhdindən sonra iki dövlət arasında münaqişə daha da kəskinləşdi, İbn Səud İdrisidlər əmirliyini ləğv etdi və bütün ərazisini də Səudiyyə krallığının ərazisinə qatdı. 1932-ci ilin noyabrında Səudiyyə qoşunu Asiri ələ keçirdi. Tezliklə Asir Ər-Riyada birləşdirildi ora qubernator göndərildi.

İbn Səud 1932-ci il sentyabrın 18-də “Ərəb krallığının ərazilərinin birləşdirilməsi haqqında” dekret imzaladı, bundan sonra Səudiyyə Ərəbistanı administrativ strukturlara deyil, ümumi mərkəzləşdirilmiş nəzarətə malik unitar dövətə çevrildi. Dekretin 5-ci maddəsində deyilir: “Hicaz, Nəjd və birləşdirilmiş ərazilərdə fəaliyyət göstərən hökümət idarələri unitar dövlətin yeni strukturları yaradılana qədər, müvəqqəti olaraq öz statuslarını saxlayırlar”.

Əbd əl-Əziz böyük oğlunu1933-cü ildə taxt-taca varis şəhzadə elan etdi.

O, dövlətin bayrağı üçün cənnətin rəmzi olan və peyğəmbərin çox sevdiyi yaşıl rəngi seçdi. Bayraqda cihadı simvolizə edən ağ qılınc və inamı simvolizə edən “Allahdan başqa Allah yoxdur, Məhəmməd isə onun elçisidr” sözləri yazıldı.

Əbd əl-Əziz dünyada geosiyasi güclər arasında gedən yerdəyişməni dəqiq müəyyənləşdirə bilirdi. Bu keyfiyyətləri və dinamizmi ilə əsrin əvvəlində Səudlar dövlətini quran Əbd əl-Əziz imperialist dövlətlərin maraqlarını müəyyən edə bilmişdi. Güclü diplomat və şəxsiyyət olan Əbd əl-Əziz kənardan olan gesosiyasi təsirin genişlənməsinə müqavimət göstərir, bunun qarşısını almağa çalışırdı. Nəticədə, o, Səudiyyə Ərəbistanı Karllığını yaratmaqla, Avropadan olan dövlətlərin zərbələrini neytrallaşdıra bilmişdi.

1913-cü il iyulun 29-da bağlanmış ingilis-türk konvensiyası hər iki dövlətin nüfuz sferasını, sərhədləri məyyənləşdirmişdi. Faktiki olaraq bu sonradan Səudiyyə Ərəbistanını tərkibinə daxil ediləcək, britaniyanın Fars körfəzi sahillərindəki protektoratları və əraziləri əks etdirən ilk sərhəd variantı idi. Bu konvensiyaya 1914-cü il martın 9-da yeni bir türk-ingilis sazişi də əlavə olundu. Həmin sazişin şərtlərinə görə, İngiltərə və Osmanlı imperiyası ərazilərini əks etdirən sərhəd xətti Qətər yarımadasından düz xətlə Ərəbistan yarımadasının cənubi-qərb qurtaracağına qədər, Bab-əl-Məndəb körfəzinədək uzanırdı.

I Dünya Müharibəsi hər iki türk-ingilis müqaviləsinin üstündən xətt çəkdi. Düzdür, İngiltərə "mavi xəttin" toxunulmaz qalmasına çalışırdı, lakin İbn Səud qəti şəkildə bunu tanımaqdan imtina edirdi. Əbd əl-Əziz İbn Səud 1926-cı il yanvarın 15-də Məkkədə Nəjd, Hicaz və birləşdirilmiş vilayətlərin kralı elan edildikdən sonra, İngiltərə güzəştə getməyə məcbur oldu. 1927-ci il mayın 20-də imzalanmış "Dostluq və səmimi münasibətlər haqqında müqavilə" ilə İngiltərə Səudlar dövlətinin "mütləq və tam müstəqilliyini" tanıdı, İbn Səud isə İngiltərənin Fars körfəzi əmirlikləri və Ədən protektoratı ilə "xüsusi münasibətləri" olması ilə hesablaşmalı oldu.

1927-ci il müqaviləsi sərhəd problemlərini həll etmədi.

Şərqi Ərəbistanın müxtəlif rayonlarında dövrü olaraq alovlanan sərhəd münaqişələri İngiltərə və Səudlar dövlətləri arasında münasibətləri gərginləşdirirdi. 1933-cü il mayın 29-da Səudiyyə Ərəbistanı və "Standart Oil Company of Kalifornia" şirkəti ilə Fars körfəzi sahillərindəki ərazilərin konsessiyaya verilməsi barədə saziş imzalandıqdan sonra, münasibətlər bir qədər də gərgin

xarakter aldı. Həm London, həm də Ər-Riyad kəskin notda olan qarşılıqlı notalarla çıxış etdilər.

1932-ci ilin əvvəlindən başlayan və 1933-cü ildə davam edən Səudiyyə -Yəmən danışıqları ingilislərin təhriki ilə yarımçıq kəsildi və 1933-cü ilin payızında Yəmən qoşunu Najranın dərinliklərinə soxularaq, bir neçə məntəqəni tutdu. 1934-cü ilin fevralında Səudiyyə ilə Yəmən arasında yeni danışıqlar başlandı və münaqişəni sülh yolu ilə çözmək üçün son cəhdə ələ atıldı.

Yəmən tərəfinin qoşunları Najrandan çıxarmaq barədə tələbə əməl etmədiyini görən, Əbd əl-Əziziz İbn Səud Yəmən ərazisinin dərinliklərinə doğru irəliləməyə başladı. Əmir Feysəl İbn Əbd əl-Əzizizin komandanlığı altında hərəkət edən qoşun hissəsi Tihama şəhərini, ardınca da Xodeydanı ələ keçirdi, Əbd əl-Əziziz İbn Səudun rəhbərlik etdiyi ikinci ordu hissəsi isə imamın oğlu, əmir Əhmədin qoşununu Najranda darmadağın edib, Saada şəhərinə yaxınlaşdı.Yəmənin müqaviməti bütün istiqamətlərdə faktiki olaraq sındırılmışdı.

Böyük Britaniya və İtaliya iki Ərəbistan səhnəsində olan münaqişədən öz maraqları üçün istifadə etməyə cəhd göstərdilər. Xodeyda Səudiyyə qoşunları tərəfindən ələ keçirilən kimi, həmin əraziyə ingilis, italyan və fransız gəmiləri göndərildi.İtalyan höküməti Yəməni müdafiə etdiyini bəyan etdi, formal olaraq neytrallığını elan edən Böyük Britaniya isə səudiyyəlilərlə danışıqlar apararaq, onları Yəmən ərazisində irəliləməsini dayandırmağa çalışdılar.

Olduqca gərgin xarici siyasət ab-havasında Ali islam şurasının vasitəçiliyi ilə Ət-Taifdə (müasir Səudiyyə Ərəbistanın şəhəri-müəllif) səudiyyə-yəmən sülh danışıqları başlandı. Danışıqlar 1934-cü il mayın 20-də iki dövlət arasında müharibənin başa çatması və onların ara-

sında sülh əlaqələrinin qurulmasını özündə ehtiva edən "müsəlman dostluğu və ərəb qardaşlığı müqaviləsi"nin imzalanması ilə nəticələndi. İmam Yəhya Asir və Najrana olan iddialarından əl çəkdi, İbn Səud isə müharibə nəticəsində ələ keçirdiyi Yəmən ərazilərini geri qaytardı. 1936-cı ildə Taif müqaviləsinə hər iki dövlətin sərhədlərini müəyyənləşdirən iki sənəd əlavə olundu. Həmin sənədlərə əsasən Cizan vilayəti Səudiyyə Ərəbistanın tərkibində qaldı, Najran vilayəti isə iki dövlət arasında bölündü. Sərhəd xətti Vadi-Najran boyunca müəyyən edildi.

Səudiyyə Ərəbistanı ilə müharibə vaxtı regionda siyasi dəstək əldə etmək istəyən imam Yəhya SSRİ-dən olan emissarlarla danışıqlara getdi. İmam Yəhyanın bu kursu ingilisləri qıcıqlandırmağa hesablanmışdı. Yəmən 1932-ci ildə SSRİ ilə diplomatik münasibətlər qurdu. Bu Əbd əl-Əzizə Sovet İttifaqı ilə diplomatik əlaqələri dondurmağa əsas verdi.

1935-ci il aprelin 3-də Britaniyalılara Səudiyyələr Qətər, Oman, Məsqət və Omanla müqavilə əsasında, koloniyalar və Ədən protektoratlığı ilə isə ("qırmızı xətt", və ya "Fuad xətti") razılaşma əsasında yeni sərhədlərin çəkilməsi təklifini verir. Kral Əbd əl-Əziz özü yazışmaları aparır, əlaqələri müşahidə edir və danışıqlarda iştirak edən nümayəndələrini təlimatlandırırdı.

Britaniya nümayəndəsi Kral Əbd əl-Əzizin nümayəndəsi Fuad Həmzənin təklifini rədd edir və 1935-ci il noyabrın 25-də "Riyad xətti" adlandırdığı yeni sərhəd xəttini təklif etdi. Səudiyyə nümayəndəsi də öz növbəsində bu təklifi qəbul etmir.

Fuad Həmzənin məlumatına görə, öncə Səudiyyə Ərəbistanı beş iri vilayəti- Arid , Nəjd, Qasim, Cəbəl-Şəmmar, Əl-Has və paytaxtı Abhə olan Şimali Asiri

özündə birləşdirirdi. Ona görə ki ,Asir isə iki yerə bölünmüşdü, Vadi-Sirxan vilayəti Cəbəl-Şəmmardan da ayrılmışdı. [230].

Köçəri tayfalar vilayət rəhbərlərinin nəzarətinə verilmişdi. A.Makkay Frudun məlumatına əsasən, ataybə, mütəyrlərin bir hissəsi, dəvasir, kahtan və subaylar Arid qubernatoruna; əncmən, banu hacir, banu xalid, xavazim, mənasir, əal murra və mütəyrlərin digər hissəsi Əl-Has qubernatoruna; şəmmar, şərarət və mütəyrlərin üçüncü hissəsi isə Cəbəl-Şəmmar əmirinə tabe edilmişdi[231].

İbn Səud mürəkkəb dövlət hakimiyyəti və administrasiyasının formalaşdırılmasına yalnız Hicazda getdi. 1926-cı ilin avqustunda kral "Hicaz krallığının əsas müddəaları" adı altında sənəd imzaladı, onu hərdən "konstitusiya" da adlandırırlar. Həmin müddəalarda deyilir : "Hicaz krallığı məlum sərhədlərində bütövdür, onun bütün hissələri bir-biri ilə bağlıdır və heç bir halda onun bölünməsinə icazə verilmir". Hicaz "məsləhətçi idarəetmə sistemli monarxiya quruluşlu, həm daxili, həm də xarici məsələlərdə müstəqil olan müsəlman dövlətidir". "Müqəddəs Məkkə - Hicaz dövlətinin paytaxtıdır". "Hicaz krallığının bütün idarəçilik sistemi əlahəzrət kral Əbd əl" Əziz ibn Əbdürrəhman Əal Feysəl Əal Səudun əlindədir. Əlahəzrət şərəfli şəriət qaydaları ilə bağlıdır".

Hicaz krallığında məhkəmə məsələləri "Allahın kitabına", peyğəmbərin (ona Allahın xeyir-duası olsun!) sünnələrinə, eləcə də peyğəmbərin əhli və ilk nəslindən olanların inandıqlarına uyğun həllini tapmalıdır"[232].

"Əsas müddəalar"a görə kral Hicaza baş valini (vitse-kral) və valinin qarşısında məsuliyyət daşıyan departament başçılarını təyin edir, vitse-kralın özü isə kral qarşısında məsuliyyətlidir[233].

1928-ci il iyul ayında kral Hicaz və Nəjddə ümumi məclisi əş-şüara yaradılması haqqında dekret imzaladı. Lakin bu dekret heç vaxt icra olunmadı[234]. Eləcə də məclisi əş-şuranın yalnız Hicazla məhdudlaşacağı və yaxud onun qərarlarının Səudiyyə Ərəbistanının yerdə qalan hissələrinə də şamil olunacağı ilə bağlı qərar da qəbul olunmamışdı. Müxtəlif şəraitləri, dövlət və ictimai xidmətləri, məhkəmələrin, səhiyyənin, poçt və teleqrafın statusunun müəyyən edilməsi üçün məsləhət şurası 1950-ci ildə bir neçə yüz nizamnamə, əmr və sərəncam işləyərək hazırlayıb, qəbul etdi. Hicaz məsləhət şurasının qəbul etdiyi bir çox nizamnamə, qərar və sərəncamlar təcrübədə ölkənin başqa ərazilərində də icra olunurdu[235].

1934-cü ildə Hicaz 14 kiçik vilayətə bölündü. Yerli əmirlər daxili işlər nazirinə, faktiki olaraq vitse-kral Feysəl ibn Əbd əl-Əzizə tabe idilər[236].

Bədəvilər isə vilayət administrasiyalarının nəzarəti altında idilər[237].Ancaq istənilən bədəvi tayfalarının nümayəndələri lazım gəldikdə birbaşa krala da müraciət edə bilərdilər. Əslində ölkə daxilində daimi məskunlaşan əhalinin yaddaşında kral Əbd əl-Əziz elə Əmir olaraq qalırdı, lakin bədəvilər onu “şeyx əl-maşannah” baş şeyx, bütün köçəri tayfaların rəhbəri hesab edirdilər.

Kral Əbd əl-Əziz isə onu babasının adı ilə İbn Feysəl və ya Səudlar nəslinin əsasını qoyan İbn Mikrin kimi və yaxud da böyük və sevimli bacısı Ahu Nurun xatirəsinə Nurun qardaşı deyərək adlandırılmağı çox xoşlayırdı (Təsadüfi deyil ki, 1953-cü ildə Əbd əl-Əziz vəfat edəndə onun nəşini təyyarə ilə Ət-Taifdən Ər-Riyada gətirərək, sevimli bacısı Ahu Nurun qəbrinin yanında dəfn etdilər-müəllif).

Əbd əl-Əziz şübhəsiz ki, görkəmli xadim idi. Həm ərəb, həm də avropalı tarixçilər və səyahətçilər bu məsələdə istisnasız yekdil rəydədirlər. Əbd əl-Əziz qaçqın həyatı yaşadığı Küveytdə bərkimişdi, adət-ənənələri, bədəvilərin güclü və zəif cəhətlərini yaxşı öyrənmişdi, onlarla ümumi dil tapmağı bacarırdı, dinin gücünü və s. yaxşı dərk edirdi. İngilis ərəbşünası Gertruda Bell "Ərəb müharibəsi" kitabında Əbd əl-Əzizin ədəbi portretini yaradıb: "Onun zərif barmaqlı nazik əlləri var idi, bu təmiz ərəb qanlı tayfalar arasında yayılmış cizgilər idi. Hündürboylu və geniş kürəkli olmasına baxmayaraq, o, yorğun adam təsiri bağışlayırdı, lakin bu qeyri-müəyyən, fərdi yorğunluq olmayıb, irqi idi. Bu qədim, ünsiyyətcil olmayan xalqın yorğunluğu idi, o xalqın ki, həyat qüvvəsini gərginlikdə saxlayıb, özünün müəyyən olunmamış sərhədləri xaricində az enerji sərf edirdi. Yavaş hərəkəti, asta çıxışı, gözəl təbəssümü, ağır göz qapaqları altından baxan düşüncəli baxışları – bütün bunlar onun ləyaqətini artırırdı, lakin qərbdə qəbul edilən fəal fərdi şəxsiyyət konsepsiyası ilə uzlaşmırdı. Haqqında olan rəvayətlərdə deyilir ki, o, hətta Ərəbistan şəraiti üçün nadir sayılan fiziki cəhətdən çox dözümlü bir insan idi".

1881-ci ildən Misir nominal olaraq Türkiyə ilə bir ittifaqda olsada faktiki olaraq Britaniyanın protektoratlığı idi. Nominal olaraq Misirlə bir ittifaqda olan Türkiyənin Almaniya tərəfindən I Dünya müharibəsinə daxil olması, 1914-cü ilin dekabrında Misir valisi İİ Abbasın britaniyalılar tərəfindən hakimiyyətdən devrilməsi ilə nəticələndi. Onun yerini İsmayılın sağ qalan oğlanlarından böyüyü - Hüseyn Kamil (təqribən 1850-1917-ci illər) tutaraq və sultan titulu aldı. 1917- ci ilin oktyabrında onun yerini qardaşı Fuad tutdu (1917 - ci ilin oktyabr ayında Fuad Qahirənin keçmiş qubernatoru

Abdel Rəhim Səbri – paşanın qızı Nazlı ilə evləndi. Onun bir neçə qızı və sonralar taxt-taca varis olacaq oğlu Faruk dünyaya gəldi). Sultanın, sonralar isə Misir kralı olan Fuadın hakimiyyəti dövründə Misir və İngiltərə arasında ölkənin müstəqilliyi ilə bağlı daim münaqişə yaşanırdı. Fuad bir tərəfdən ölkənin müstəqilliyi uğrunda genişlənən hərəkatı dəstəkləyirdi, çünki bu onun hakimiyyətini möhkəmləndirə bilərdi, digər tərəfdən, mütləq hakimiyyət rejimi qurduğu üçün, 1918-ci ildə Səad Zəqlül tərəfindən əsası qoyulan kütləvi milli-vətənpərvərlik partiyası Vəfdin əleyhinədə çıxırdı.

Ən nəhayət Osmanlın tam süqutundan sonra 1922-ci ildə Böyük Britaniya  Misirin müstəqilliyini tanıdı.

Bu prosesləri izləyən Kreml Yaxın Şərqi SSRİ-nin nüfuz sferasına cəlb etmək üçün yeni yollar axtarışında idi.

Əvvəlcə ingilislər sonra isə ABŞ siyasiləri Sovet İttifaqının Yaxın Şərqə soxulmaq istədiyini  görəndə, bunun qarşısını almaq üçün ərəb dövlətlərini inteqrasiyaya həvəsləndirməyə başladı.

Sovet İttifaqından duyuluan təhlükədən ərəb dövlətləri ibrətamiz nəticə çıxardılar, bu onları hərəkətə gətirdi və bir-birinə yaxınlaşmağa sövq etdi.

Artıq almanlar üzərində qələbədən sonra Moskva, keçmiş Osmanlı coğrafiyasına soxulmaq üçün Türkiyəyə qarşı da iddialar səsləndirilməyə başlandı.

Sovet höküməti 1945-ci il martın 19-da 1925-ci ildə bağlanmış sovet-türk müqaviləsini yeni şəraitə uyğun gəlmədiyini və onun ciddi təkmilləşdirilməyə ehtiyacı olduğunu bildirərək ləğv etdi. Bosfor və Dardanel boğazlarını nəzarətinə keçirmək istəyən Moskva Türkiyədən Qars və Ərdəhanı geri istəməyə başladı. Sonrakı mərhə-

lədə bir Moskva sıra türk ərazilərinin Sovet Ermənistanı və Gürcüstanına birləşdirmək məqsədi dayanırdı.Və İraqın şimalında, Mosuldakı zəngin neft yataqlarına və ümumilikdə isə ərəb coğrafiyasına yaxınlaşmaq planları var idi. Stalinqrad altında döyüşdə Almaniyanın məğlubiyyətindən sonra, Türkiyədə başa düşürdülər ki, müharibənin perspektivi SSRİ-nin xeyrinə dəyişib. Türkiyənin istəyib-istəməməsindən asılı olmayaraq, tarixdə yeni səhifənin açılması göz önündə idi.

Bu təhlükəni hiss edən Türkiyə ABŞ siyasilərinin Sovet İttifaqının Yaxın Şərqə soxulmağının, qarşısını almaq üçün ərəb dövlətlərini inteqrasiyaya yönəltməsi hadisəsindən istifadə etməklə, Moskvaya qarşı bir növ maneə yaratmaq istəyirdi. Buna görə Türkiyə rəhbərliyi ərəb dövlətləri ilə yaxınlaşmaq kursu götürdü və onlara işğalçı məqsəd güdmədiklərini, əksinə ərəb dövlətləri ilə birlikdə Yaxın Şərqin toxunulmaz saxlanılmasında iştirak etmək istədiklərini bildirdilər.

Hamıya aydın idi ki, Türkiyənin ərəb dövlətləri ilə yaxınlaşmaq siyasəti Türkiyədə və ərəb ölkələrində mövcud rejimlərin saxlanılması (bu birləşmə) ABŞ-ın xeyrinə idi. Amerika hökuməti Türkiyə və ərəb ölkələrində status-kvonun qorunub saxlanılmasnda maraqlı idi, çünki bu digər böyük və qüdrətli bir gücün Türkiyə və ərəb ölkələrində nüfuz qazanmasının qarşısını alırdı.

Ona görə də ABŞ aşkarda olmasa da, gizlində Türkiyənin ərəb dövlətləri ilə yaxınlaşmasına dəstək verirdi.

Həmin yaxınlaşmadan narazı olan Kreml, başa düşürdükü bu manevrlər onun siyasətinə qarşı yönəlib.

Türkiyənin ərəb dövlətləri ilə yaxınlaşmasından sonra bütün Orta Şərq (İran istisna olmaqla) geniş

anlaşma meydanına çevrildi, Yaxın və Orta Şərq ölkələri, Türkiyə, İraq, Suriya, Livan, Transiordaniya və Misir istənilən xarici gücün ərazilərinə qarşı yönələn niyyətlərinin qarşısını birlikdə alacaqlarına dair qərar qəbul etdilər. Bu böyük birləşmədən sonra Əfqanıstan, İran, Türkiyə və İraq arasında bağlanmış məşhur Saadabad müqaviləsi demək olar ki, qüvvədən düşmüş hesab olundu.

Lakin bir qədər keçəndən sonra ABŞ-ın bu regionda siyasəti dəyişdi, Amerikanın Yaxın Şərq siyasətində Səudiyyə Ərəbistanı mühüm yer tutmağa başladı. Vaşinqtondakılara elə gəlirdi ki, Türkiyənin regiona geosiyasi təsiri ABŞ-ın Şərqi Ərəb ölkələrində ağalığına təhlükədir və onun qlobal strateji mövqelərini zəiflədir. Amerikanlar təkcə türklərdən ehtiyat etmirdilər, strateji partnyorları olan ingilislərə də həmçinin ehtiyatla yanaşırdılar.

ABŞ senatın milli müdafiə proqramlarına baxan xüsusi komitəsi 1948-ci ildə müharibə dövrü ərzində birbaşa və ya dolayısı yolla, (lend-liz və digər) Səudiyyə Ərəbistanına 99 milyon dollarlıq yardım etmişdi. Əslində bu yardımlarla ABŞ Səudiyyə Ərəbistanının konsessiya və gəlirlərinin Böyük Britaniyanın maliyyə nəzarəti altına düşmə təhlükəsindən önləmiş oldu.

Hələ 1943-cü ilin yazında briqada generalı P.Herli Ruzveltin təmsilçisi qismində Səudiyyə Ərəbistanına gələrək, buradakı amerikan neft şirkətlərinin vəziyyətini araşdırdı. Həmin ilin oktyabrında isə şəhzadə Səud Vaşinqtona rəsmi səfər edərək, bir ay müddətində orada qaldı. Yenə də 1943-cü ildə əmir Feysəl və qardaşı Xalid Birləşmiş Ştatları ziyarət etdilər və orada Ruzveltlə, hökümət üzvləri və konqresmenlərlə görüşdülər.[238].

1943-cü ilin dekabr ayında ABŞ-ın Yaxın Şərqdəki Hərbi qüvvələrinin baş komandanı general Roys Səudiyyə Ərəbistanını ziyarət etdi. Görüşdə Dəhran və Daukda hərbi aerodromların tikintisi üçün razılıq əldə olundu. Səudiyyə ordusuna hərbi təlimlər keçmək üçün Səudiyyə Ərəbistanına Səudun dəvət etdiyi və tərkibinə ingilis təlimatçılarının da daxil olduğu amerikan hərbi missiyası gəldi. Müharibə dövründə ABŞ lend-liz üzrə Səudiyyə Ərəbistanını silah və hərbi sursatla təchiz edirdi[239].

1944-1946-cı illərdə Ciddədəki diplomatik korpusun rəhbəri təcrübəli kəşfiyyatçı - ərəbşünas Suriyada yaşamış və vəfat etmiş maarifçi missionerlərin oğlu və nəvəsi U.Eddi idi. Missiyanın tərkibinə neft üzrə attaşe də daxil edilmişdi. 1947-1952-ci illərdə isə U.Eddi ARAMCO-da məsləhətçi vəzifəsini tutmuşdu[240].

Ruzvelt İbn Səudla ikinci görüşü zamanı (1945-ci il fevralın 14-də-A.M.)o,kralı nasizmin qurbanı olan yəhudilərin Fələstində yerləşdirilməsi planına razı salmaq üçün xeyli dilə tutdu. Lakin kral ona belə demişdi: "Bu cinayətlərə görə qoy Almaniya cavab versin. Almanlardan əziyyət görüblərsə, bu əziyyəti onlara çəkdirənlər də məsuliyyət daşısın. Niyə günahsız ərəblər digərlərinin etdiklərə cinayətlərə görə cavab verməlidirlər? Ərəblər avropalı yəhudilərə məgər zərərmi yetiriblər?" Prezidentin İbn Səudu mövqeyindən döndərmək cəhdləri uğursuzluqla nəticələnmişdi..

Aprelin 5-də İbn Səuda məktub göndərən Ruzvelt, ərəblərə qarşı hər hansı bir düşmənçilik hərəkatinə yol verilməyəcəyinə vəd verirdi. O, həmçinin ABŞ-ın Fələstinlə bağlı əsas siyasətində həm yəhudilər, həm də ərəblərlə məsləhətləşmədən hər hansı bir dəyişiklik

olunmayacağına da söz verdi. U.Eddinin fikrincə, “bu vəd kral üçün ittifaqa bərabər bir şey idi”[241].

Neft məsələsinə gəldikdə, Ruzvelt İbn Səuddan fəaliyyətdə olan amerikan konsessiyalarının təsdiqinə nail oldu, bundan əlavə Əl-Has rayonu ilə Aralıq dənizi sahillərini birləşdirəcək Transərəbistan neft boru kəmərinin çəkilişi üçün razılıq əldə edə bildi.1950-ci ildə 230 milyon dollar dəyərinə başa gələn Transərəbistan neft boru kəməri çəkildi və fəaliyyətə başladı.

Ruzveltlə Əbd əl-Əziz arasında keçirilən 1945-ci il 14 fevral görüşündə kral Səud Dəhranda Amerikanın hərbi-hava bazasının tikintisinə razılığını verdi. Lakin o, lazım olan bu ərazilərin Amerika ordusuna beş il müddətindən çox olmayan vaxt ərzində icarəyə verilməsi şərtini irəli sürdü. Həmin müddət bitəndə, vaxtın uzadılması haqqında bənd də müqaviləyə salınmışdı.

1947-ci il mayın 29-da BMT-nin Baş Assambleyası Fələstin üzərindəki Britaniya mandatının ləğvi və ərazinin iki müstəqil dövlətə bölünməsi haqqında qərar qəbul etdi. Fələstin ingilislərin mandatı altında olduğu dövrdə, İngiltərə höküməti orada “yəhudilərin milli ocağı”nı yaratmışdı. 1946-cı ilin oktyabrında prezident Trumen Fələstində yəhudiləri dəstəkləməyə və 100 min yəhudinin bu ölkəyə gəlişinə icazə verilməsinə çağırış etdi.

Fələstin ərazisinin bir hissəsində İsrail dövləti yaradıldı və ilk İsrail-ərəb müharibəsi regionda tamamilə yeni şərait formalaşdırdı.

Transiordaniya kralı Abdallah 1949-cu ilin dekabrında Fələstinin ərəb hissəsini formal olaraq öz ölkəsinə birləşdirdi və o vaxtdan bu dövlət İordaniya adlandırılmağa başlandı.

1950-ci il iyunun 13-də Millətlər Şurasının sessiyasında Fələstinin şərq hissəsinin Transiordaniya tərəfindən ələ keçirilməsinin müvəqqəti tədbir olduğunu və Fələstin probleminin qəti şəkildə həll olunması zamanı bir də həmin məsələyə qayıdılacağı barədə qərar qəbul edildi.

# Mustafa Kamal Atatürk

Liderlər psixoloji cəhətdən də güclü və zəif ola bilərlər.

Bir anlığa tarixə nəzər salsaq, görərik ki, güclü lider dövlətin və millətin mühüm məsələlərinin həllində əsas rol oynayır və bu fəaliyyət onun psixoloji təfəkkürünün məhsulu

olur.Güclü lider ona olan təzyiqlərə baxmayaraq mövqeyini qoruyub saxlayır və ətrafında baş verən hadisələrə intuisiyasına söykənərək dəqiq qiymət verir. Güclü liderin əsas xüsusiyyətləri mühüm məsələlərin operativ həlli zamanı üzə çıxır, belə ki, o, əksər hallarda nələrisə etməkdə gözləyici mövqe tutan ətrafından fərqli olaraq bir addım irəlini daha aydın görür. Bundan sonra yaxın ətrafındakılar özlərinin uzaqgörən olmadıqlarını başa düşür və bir çox hallarda onlarda liderə olan inamsızlığın yerini qibtə hissi əvəz edir.

Belə güclü liderərdən biri də Mustafa Kamal Atatürkdür.

Müharibə nəticəsində Türkiyəyə məxsus böyük bir ərazi İngiltərə, Fransa, İtaliya və Yunanıstan arasında bölüşdürüldü. İradəsiz sultan Osmanlının qaliblərinin qarşısında təslim oldu və Türkiyənin müstəqil dövlət kimi varlığına son qoyuldu. Antanta qoşunları ilk növbədə Bosfor və Dardanel boğazları zonasını ələ keçirdi .

Məhz Atatürk xalqını yunan işğalı və Antantanın imperialist aqressiyasına qarşı səfərbər edərək, İ Dünya müharibəsi nəticəsində məhv edilmiş Osmanlı imperiyasının qalıqlarından bir dövlət qurmağı bacardı. Həmvətənlərinə milli qürur hissini, özünəinamı qaytardı və yeni dövlətin əsaslarını qoydu.

Mustafa Kamal Atatürk yunan şəhəri Salonikdə xırda gömrük xidmətçisinin ailəsində dünyaya gəlmişdi. Hərbi təhsili Salonik və Monistirdəki hərbi məktəblərdə almışdı. Kamal adını isə o, ibtidai hərbi məktəbdə "Əskəri-Rüştiyyədə" oxuyarkən almışdı. Bu məktəbin riyaziyyat müəllimi Mustafa Səbri bəy Mustafanın riyazi qabiliyyətlərinə görə ona "Kamal" ("Yetkinlik və Təkmillik") adını vermişdi. Atatürk (türklərin atası) adını isə ona TBMM vermişdi, 1934-cü il noyabrın 24-də ölkədə islahatlar həyata keçirilirdi və onların da biri Türkiyə

vətəndaşlarına soyadların verilməsi ilə əlaqədar idi. Buna qədər imperiya ərazisində bir qayda olaraq insanların sənətini və digər xarakterik cəhətlərini bildirən adlar və ləqəblərdən istifadə olunurdu, və bunlar nəslin daşıyıcısı olan uşaqlara şamil olunmurdu. "Atatürk" "xalqın atası" anlamını verdi ki, bu hadisədə heç bir şişirdilməyə yol verilməmişdi. Bu soyadı daşıyan insanı xidmətlərinə görə müasir Türkiyənin atası adlandırıblar.

1904-cü ildə siyasi baxışlarına görə qisa müddət həbsdə də yatmışdı. Ordudakı xidmətini gənc zabit, "Vətən" adlı gizli cəmiyyətin icraiyyə komitəsinin gələcək üzvü və gənc türklər hərəkatının fəal iştirakçısı kimi birləşdirməyi bacarmışdı. Onun həbsdən çıxmasına kömək edən əsas amil, hərbi komandanlığın perspektivli zabiti itirmək istəməməsi ilə bağlı idi.

O,1905-ci ildə İstanbuldakı hərbi akademiyaını müvəffəqiyyətlə bitirir. Həmin ildə Baş Ştabın kapitanı olaraq Suriyanın Dəməşq şəhərində xidmət keçən Mustafa Kamal növbəti ildə "Vətən və hürriyyət" adlı gizli cəmiyyət yaratdı. Atatürkün düşüncəsinə görə bu cəmiyyətdə lazım olan gün və saatda qəti şəkildə və tərəddüdsüz hərəkət etməyi bacaran hərbçilər üstünlük təşkil etməli idi.

1907-ci ilin payızında o, Makedoniyaya göndərilir, iki ildən sonra isə Avropa hərbi təçrübəsini öyrənmək üçün Fransaya ezam edilir. Həmin illərdə Türkiyə höküməti və ali hərbi komandanlığı Almaniyadan daha çox Fransaya istiqamət götürmüşdü. Mustafa Kamal fransız ordusunun təşkili və döyüş hazırlığı səviyyəsini dərindən öyrənmişdi. Aldığı təhsil və öyrəndiklərini o, İ Dünya Müharibəsidə, xüsusilə də Gəlibolu yarımadasının müdafiəsi zamanı tərkibini əsasən fransızlar təşkil edən Antanta qoşunlarından müdafiə edərkən parlaq şəkildə nümayiş etdirdi.

Qayıtdıqdan sonra Mustafa Kamal ştabı Salonikidə yerləşən 3-cü ordu korpusuna göndərilir. Lakin orada xidmət qısa müddətli olur, belə ki, perspektivli zabit türk ordusunun Baş Ştabına təyinat alır. Baş Ştabda o, qoşunlara operativ rəhbərlik məktəbini öyrənir.

I Dünya müharibəsinə qədər Mustafa Kamal artıq iki müharibənin, - 1911-12-ci illər italyan-türk, 1913-cü ilin Balkan müharibələri, - iştirakçısı olmuşdu.

1914-cü ildə o, imperiyanın paytaxtı İstanbulu və dəniz boğazlarını müdafiəsində duran 1-ci ordunun piyada diviziyasına komandanlıq edirdi. Belə baxdıqda, onun hərbi karyerasının çox uğurla getdiyi nəzərə çarpır, lakin onun gənc türklərlə sıx münasibətlərini yaddan çıxarmayan hökümət ona general rütbəsi verməyə tələsmirdi.

Gələcək marşal Gelibolu yarımadasının ingilis-fransız desantından müdafiəsi zamanı (1915- il fevral- 1916-cı il yanvar ) şöhrət qazanmışdı. Antantadakı müttəfiqlərin Gelibolu əməliyyatı tamamilə uğursuzluğa düçar olmuşdu. Həmin əməliyyat sona çatan ərəfədə Mustafa Kamal çox mühüm strateji məntəqəni ələ keçirən 16-cı ordu korpusuna komandanlıq edirdi. Antanta rəhbərliyi Türkiyənin paytaxtı İstanbulu döyüşlə ələ keçirib, şərqdən hücum edən rus qoşunları ilə birləşmək niyyətində idi. Müttəfiqlər ekspedisiya korpusunu Gelibolu yarımadasına çıxarmağı planlamışdılar. Dardanelə nəzarət edən türklər düşmənin fəaliyyətini minumuma endirə bildilər.

Yarımadaya desant çıxarmaqla bağlı ilk cəhd iflasa uğradı. İngilis-fransız donanmasının türk hərbi məntəqələrini və sahil batareyalarını top atəşinə tutması da sahilin minalanması səbəbindən heç bir nəticə vermədi və gəmilər geriyə çəkilmək məcburiyyətində qaldı. Təbii ki, belə şəraidə desant çıxarmaq əsla mümkün deyildi.

Müttəfiqlər komandanlığı dəyişdilər: Gelibolu əməliyyatını aparmaq desant korpusuna komandan təyin edilmiş britaniya generalı Yan Hamiltona həvalə olundu (desant qüvvələrinin tərkibində ingilis və fransız piyada diviziyaları, avstraliya və yenizelandiya qoşunları, 3 ingilis dəniz piyadası briqadası və yunan könüllü legionu var idi: hamısı birlikdə 81 min nəfər və 178 top). Korpus yunan adası Lemnosda toplanmışdı. Dənizdən bu qüvvələrə admiral de Robekin komandanlıq etdiyi müttəfiqlərin donanması dəstək verirdi. Bir ingilis və 2 hindistan diviziyaları isə Misirdə ehtiyatda saxlanılırdı.

Türklər Dardanel boğazının müdafiəsi üçün alman generalı Liman fon Sandersin ümumi komandanlığı altında 20 diviziyadan ibarət güclü qoşun qruplaşması yaratmışdılar. Türklərin desantəleyhinə müdafiəsi möhkəmləndirilmiş sahil məntəqələri və batareyaları sisteminə söykənirdi. Gelibolu yarımadasında olan piyada diviziyalarından birinə polkovnik Mustafa Kamal komandanlıq edirdi. Öz gəmilərdən açılan güclü artileriyya atəşlərini mühafizəsi altında sahilə çıxan desant rəqibin amansız müqaviməti ilə üzləşdi və çətin şəraitdə belə müdafiə olunanlar düşmənin üzərinə dəfələrlə hücumlar da təşkil edirdilər. Bütün cəhdlərə və dənizdən onlara dəstək verən artileriyya atəşlərinə baxmayaraq, desant qoşunları Gelibolu yarımadasında irəliləməyə müvəffəq ola bilmədilər. Döyüşün elə ilk günlərində müttəfiqlər 18 min nəfər itki verməklə, cəmi 1-1,5 km. Irəliləyə bilmişdilər.

Qabatəpə burnu yaxınlığında sahilə çıxan avstraliyalılar Cunukbayir yüksəklilərinə qalxmağa başlayanda, polkovnik Mustafa Kamal onları qabaqlamağa qərar verdi. O, şəxsən özü batalyonunu piyada əlbəyaxa döyüşə apararaq, bütün diviziyanı da ardınca çəkməyə müvəffəq oldu. Döyüşdə 5 min nəfər itki verən avstraliyalılar hündürlükdən geriyə, sahil kənarına oturduldular və elə orada da möhkəmləndilər.

Polkovnik Mustafa Kamalın komandanlığı altında olan türk qoşunları əsas möhkəmləndirilmiş mövqelərini müdafiə edə bildilər, baxmayaraq ki, dənizdən ingilis-fransız eskadrası onları daim atəş altında saxlayırdılar. Gelibolu döyüşləri zamanı alman generalı Liman fon Sanders müdafiədə aktiv idi. Mustafa Kamal onun birinci köməkçisi kimi özünü ağıllı və cəsur hərbi komandir kimi göstərə bildi.

Aramsız döyüşlərdə və xəstəliklərdən 25 min nəfərə qədər itki verən (türk qoşunlarının itkisi də təxminən bu qədər olub) müttəfiqlər öz qoşunlarını (145 min nəfər, 400 artileriyya qurğusu) Gelibolu yarımadasından evakuasiya etməyə məcbur oldular.

Müttəfiqlər öz qoşunlarını Geliboludan evakuasiya edərək, təcili şəkildə Saloniki cəbhəsinə keçirdilər. Bir sözlə, Antantaya boğazları ələ keçirmək nəsib olmadı.

1916-cı il yanvarında İstanbul sakinləri Gelibolu müdafiəsinin qəhrəmanını qızğın alqışlarla qarşıladılar. Göstərdiyi igidliklərə görə Mustafa Kamal çoxdan layiq olduğu general-mayor rütbəsini və paşa titulunu aldı və xidmət sahəsində sürətlə irəliləməyə başladı.

1916-cı ildən o, xeyli vaxt ərzində Zaqafqaziyadakı 16-cı ordu korpusuna, sonra Qafqaz cəbhəsində 2-ci orduya və Fələstin-Suriya cəbhəsində 7-ci orduya rəhbərlik etdi.

7-ci ordu Suriya-Fələstin cəbhəsinə Qalitsiya və Makedoniyadan gəlmişdi, alman generalı Erix fon Falkenqaynın komandanlıq etdiyi "İldırım" ordusunun tərkibinə daxil idi. 1917-ci ildə Müharibənin necə aparılmasına baxışlar məsələsində Mustafa Kamal paşa ilə onun arasında ciddi münaqişə baş verdi, bu səbəbdən paşa vəzifəsindən çıxarıldı və Almaniyadakı türk hərbi missiyasının tərkibinə göndərildi.

1918-ci ildən isə vəzifəsindən alınmış general ingilislərin təzyiqi altında Suriyanın şimalına geri çəkilən 7-ci orduya komandanlıq etməyə başladı. O, hərbi əməliyyatların gedişatını dəyişməyə çəhd edirdi. Oktyabrın sonlarında isə faktiki olmayan bir ordunun, fon Falkenqaynın komandanı olduğu "İldırım"a rəhbər təyin edildi. Elə həmin ayda türk sultanı-xəlifə Vahidəddinin yavəri təyin olundu.

I Dünya müharibəsi başa çatdıqdan sonra Mustafa Kamal paşa Şərqi Anadoluda mənzilləşən, ştabı isə ingilislər tərəfindən işğal olunmuş Samsunda yerləşən 3-cü orduya müfəttiş vəzifəsinə təyinat aldı. Mustafa Kamal müharibədə qələbə çalmış tərəfin hərəkətlərinə müqavimət göstərmək istəsə də, bir şey alınmadı.

Mustafa Kamal paşa 1918-23-cü illərdə Türkiyədə gedən milli-azadlıq inqilabının rəhbəri idi . Sultan Vİ Mehmət Tələt paşa hökümətini Əhməd-İzzət-paşanın partiyasız kabineti ilə əvəz etdikdən sonra türk ordusuna rəhbərlik sultanın yavərinə keçdi. Paşa ordu dairələrində mübaliğəsiz yüksək avtoritetə malik idi və o, müharibədə məğlub olan vətəninin əsl müstəqilliyə qovuşmasına çalışırdı. Həmin zamanlarda isə inqilab vüsət almğa başlamışdı. Kamalçıların ilk dövrdə fəaliyyəti cəmiyyətdə qruplaşanları "hüquqların qorunması" sahəsində milli qüvvələrin təşkilatlanmasına yönəlmişdi. 1919-cu ildə cəmiyyətlərin Sivas konqresində yaradılan nümayəndəlik Komitəsi, əslində Türkiyənin ilk müvəqqəti hökühməti hesab oluna bilər. Kamalçıların tələbi ilə 1920-ci ilin yanvarında İstanbulda çağırılan konfrans Türkiyənin müstəqilliyi barədə deklarisya qəbul etdi. Antanta güclərinin qoşunları buna cavab olaraq İstanbulu işğal etdi. Parlament qovuldu, bir çox ictimai və siyasi xadimlər isə həbs edildi. Böyük Britaniya başda olmaqla imperialist qüvvələr Türkiyədə başlanan milli-azadlıq hərəkatını tez bir zamanda yatıra biləcəklərini düşünürdülər.

1920-ci ildə Türkiyəni parçalamağa və dağıtmağa yönələn Sevr müqaviləsini sultan hökümətinə sırıyan imperialist dairələr, bu müqaviləni zorla həyata keçirmək üçün açıq işğala girişdilər və onun aparılmasını Sevr müqaviləsinə görə Türkiyənin əraziləri hesabına böyük pay əldə etməli olan Yunanıstana (1919-22-ci illər yunan-türk müharibəsi) həvalə etdilər. Antanta güclərinin hərəkətləri kamalçıları işğalçılarla qəti mübarizəyə qalxmağa vadar etdi. 1919-cu ildən Sivasda məskunlaşan hərəkat 1920-ci ildə Ankaraya köçürüldü.

1920-ci il aprelin 23-də Mustafa Kamal paşanın sədrliyi ilə Türkiyə Böyük Millət Məclisi (yeni parlament) Özünü dövlətin ali hakimiyyəti elan etdi. 1921-ci ilin sentyabrında məcburiyyət qarşısında qalan sultan keçmiş yavərinə Ali baş komandan rütbəsi və vəzifəsini verdi.

Bu böyük vəzifəsində də Mustafa Kamal paşa yenidən hərb sahəsində fərqləndi, bu dəfə 1920-22-ci illər yunan-türk müharibəsində.

İzmirə çıxan yunan qoşunları ölkənin mərkəzi vilayətlərinə soxularaq, Trakiyada Adrianopolu (müasir Ədirnə), Anadoluda, İzmirdən 200 km. uzaqdakı Uşak şəhərini və Mərmərə dənizindən canubdakı Bandırma və Bursa şəhərlərini ələ keçirdilər. Yunanıstana bu müharibədə də Londondan hərtərəfli yardım alırdı.

Anadolunun cənubi-qərbinə isə italyan ekspedisiya qoşunları çıxarıldı. Lakin Mustafa Kamal paşa tərəfindən təşkil edilən danışıqlar nəticəsində italyanları Anadolunu tərk etməyə razı salmaq mümkün oldu. Kilikiyadan isə Fransa öz qoşunlarını geri çəkdi.

Ali Baş komandan türk ordusunun hərbi gücünün yüksəldilməsi məqsədilə bir sıra tədbirlərə əl atdı və bu ordu onun rəhbərliyi altında Yunanıstan qoşunlarına qarşı bir sıra uğurlu əməliyyatlar həyata keçirdi. Yunan qoşunları tərəfindən

işğal edilmiş Anadolu ərazilərində də eyni vaxtda partizan hərəkatı başlandı.

Yunan-türk müharibəsində ilk iri döyüş 1921-ci ilin yanvarında İnönü yaxınlığında baş verdi. General Papulasın komandanlığı altında Əskişəhərə hücum edən yunan qoşunu İsmət-paşanın rəhbərlik etdiyi türk qoşunu tərəfindən geri oturduldu. Yunanlar İnönünü tərk etməyə məcbur oldular. Lakin sonradan əlavə kömək alan Papulas yeni hücuma keçdi. Həmin ilin mart ayında İnönü yaxınlığında ikinci döyüş baş verdi, lakin inadla müdafiə olunan türklər bu dəfə də onların hücumunun qarşısını almağa müvəffəq oldular.

Tezliklə Yunanıstan kralı İ Konstantin komandanlığı öz üzərinə götürərək, Əskişəhrdən Afyon-Qarahisar tərəfdə yerləşən türk hərbi məntəqələrinə hücuma keçdi. Mustafa Kamal-paşa qoşunlara geri çəkilərək Sakarya çayı tərəfdə yeni mövqelərdə möhkəmlənmək barədə əmr verdi. Bu döyüşlərdə türk tərəfi 11 min, yunanlar isə 8 min nəfər itki verdi.

1921-ci il avqust-sentyabr aylarında Sakarya çayı yaxınlığında gedən çoxgünlük döyüşlərdə Mustafa Kamal-paşanın şəxsən rəhbərlik etdiyi türk ordusu şücaətlər göstərdiyinə görə ona ən ali hərbi rütbə - marşal – və fəxri “qazi” titulu verildi.

Cəmiyyətin bütün təbəqələrini birləşdirməyə nail olan Mustafa Kamal sayəsində türk xalqı imperialist işğalçılarla mübarizədə müvəffəqiyyətlər əldə etdi. Milli-azadlıq müharibəsində türk xalqı qəhrəmanlıq və birlik nümayiş etdirdi. 1921-ci ildə yunan qoşununun hücumunun qarşısını almağa müvəffəq olan türk ordusu 1922-ci ildə əks-hücuma keçərək, işğalçıları tam məğlubiyyyətə uğratdı. Bütün Anadolu işğalçılardan təmizləndi. 1923-cü il oktyabrın 6-da milli ordu İstanbula daxil oldu. 1923-cü ildə bağlanmış, Sevr müqa-

viləsini ləğv edildi və yeni Lozanna sülh sazişi imzalanaraq Türkiyənin müstəqilliyi beynəlxalq səviyyədə tanınındı.

Hərbi əməliyyatlar başa çatdıqdan sonra TBMM 1923-cü il oktyabrın 29-da sultanlıq üsuli-idarəsini ləğv edib, Türkiyəni respublika elan etdi. Daha sonra TBMM və Atatürk tərəfindən əsası qoyulan Cümhuriyyət Xalq Partiyasının (CHP) rəhbərliyi altında islahatlar həyata keçirildi və Osmanlı feodal-klerikal imperiyasının xarabalıqları üzərində yeni milli dövlət formalaşdı.

1924-cü ildə xilafət ləğv olundu.

1923-34-cü illərdə dövlət quruluşunun əsasları, hüquqi əlaqələr, mədəniyyət və məişət sahəsində islahatlar aparıldı: respublika konstitusiyası qəbul edildi; müsəlman ruhani məktəbləri (mədrəsələr) və şəriət əsasında fəaliyyət göstərən dini məhkəmə qərarları ləğv edildi; dərviş ordenləri və məktəbləri (təkkə) bağlandı; avropa təqvimi və il hesablanması tətbiq edildi; avropa nümunəli vətəndaş kodeksi qəbul olundu, müsəlman hüquq və normaları ləğv edildi o cümlədən çoxarvadlılıq, həmçinin cinayət və ticarətlə bağlı yeni kodekslər qəbul edildi; dinin dövlətdən ayrı olduğu elan edildi; ərəb əlifbasından latın qrafikalı əlifbaya keçildi; bələdiyyə, sonra isə parlament seçkilərində qadınlara iştirak etmək hüququ verildi və s;

Atatürk türk iqtisadiyyatını xarici kapitaldan asılılığını aradan qaldırmağa yönələn bir sıra mütərəqqi tədbirlər həyata keçirdi. Bəziləri ləğv olunmaqla yerdə qalan xarici konses-siyaların hamısı satın alındı, milli banklar yaradıldı, bir sıra yeni dəmiryolları, limanlar, sənaye müəssisələri və s. tikildi.

Atatürkün islahatları feodal-klerikal elementlərin amansız müqaviməti şəraitində hətyata keçirilirdi. 1926-27-ci illərdə baş verən açıq antihökümət çıxışları yatırıldı.

1928-ci ildə Türkiyədə gender bərabərliyi tanındı və qadınlar seçki hüquqları əldə etdilər. Bu anoloji hüquqları Avropanın bir çox ölkərində qadınlar Türkiyədəkindən gec əldə ediblər. Türk qadınları seçki hüququnu 1926-cı ildə əldə ediblər. Britaniya imperiyasında isə qadınların seçki hüququ 1928-ci ildə kişilərin hüquqlarına bərabərlik qazanıb və onlar 21 yaşından səs vermək hüququ əldə ediblər. Almaniyada bərabərlik hüququ 1918-ci ildə qəbul olunsa da, hakimiyyətə gələn nasional-sosialistlər onu 1933-cü ildə ləğv ediblər, bu hüquq yalnız 1948-ci ildə bərpa edilib. Yunanıstanda isə qadınlara 1952-cil mayın 28-də bu hüquq verilib və onlar yalnız 1956-cı il 19 fevral parlament seçkilərində iştirak edə biliblər, buna qədər yalnız yaşı 30-dan yuxarı və savadlı olanlar seçkidə iştirak edə bilərdilər. İspaniyada qadınların seçmək hüququ rəsmi olaraq 1931-ci ildə müxalifətin dövründə qəbul edilib, parlamentdə olan iki qadın Marqarita Helken və Viktoriya Kent deyirdilər ki, ispan qadınları səs vermək üçün çox sadəlövh və cahildilər, bu isə ikinci respublikanın mövcudluğunu təhlükə altına qoya bilər. Fransız qadınlar yalnız 1944-cü il 21 aprel tarixində keçirilən seçkilərdə Fransanın Müvəqqəti höküməti tərəfindən bərabər şəkildə iştirak etmək hüququ əldə etdilər. Qadınların kişilərlə bərabər hüquqda iştirak etdiyi ilk seçkilər 1945-ci ilin 29 aperlində keçirilmiş bələdiyyə seçkiləri oldu, daha sonra onalar oktyabr ayında keçirilən parlament seçkilərində də iştirak etdilər. Fransa Əlcəzairində isə yerli müsəlman qadınlara seçki hüququ 1958-ci il 3 iyul dekreti ilə verildi. İsveçrədə qadınların seçki hüququ ilə bağlı referendum 1959-cu il fevralın 1-də keçirilib. Lakin həmin referendumda böyük əksəriyyət bunun əleyhinə çıxıb. İsveçrə 1971-ci ilə kimi qadınların seçki hüququ tanınmayan yeganə qərb respublikası olaraq qalırdı.

Mustafa Kamal cəmiyyətdə qadınların azadlığına hərtərəfli dəstək verirdi. Qadınlara hələ 1-ci dünya müharibəsi

dövründə kommersiya fakultələrində oxumağa icazə verilmişdi, 20-ci illərdə isə artıq onlar İstanbul universitetinin humanitar fakultəsində təhsil alırdılar. Onlara Bosfor boğazını keçən gəmi-bərələrin göyərtəsində görünməyə icazə verildi, halbuki bundan əvvəl qadınlar kayutdan çıxa bilməzdilər. Tramvay və qatarlarda kişilərlə eyni vaqonlarda getmələrinə olan yasaq da aradan götürülmüşdü.

Prezident "sivilizasiyalı xalqın anaları və bacılarınndan" özlərini bu xalqa layiq aparmalarını tələb edirdi. Qadınlar səs vermək və bələdiyyə və parlamentə seçilmək hüququ əldə etdilər.

Atatürk müəyyən hallarda ər-arvadın böşanmasına da icazə verdi. Ümumiyyətlə, qadınlar xeyli "hüquq və azadlıqlar" əldə etdilər.

20-ci illərdə Kamal hökuməti şəxsi təşəbbüslərin dəstəklənməsi üçün də az işlər görmədi.

Türkiyəni də sarsıdan dünya iqtisadi böhranı başlandı. Mustafa Kamal iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi siyasətinə müraciət etdi. Bu təcrübə dövlətçilik (etatizm) adını almışdı. Hökumət sənaye və nəqliyyat sektorunda dövlət mülkiyyətini genişləndirməklə yanaşı, daxili bazarı da xarici innvestorların üzünə açırdı. Bu siyasəti müxtəlif variantlarda sonralar bir çox Asiya, Afrika və Latın Amerikası ölkələri təkrar etmişdilər.

30-cu illərdə Türkiyə sənayenin inkişaf tempinə görə dünyada üçüncü yeri tuturdu.

Mustafa Kamalın islahatlarına qarşı çıxan düşmənləri də çox idi, əldə olunmuş bu nailiyyətlərdən geri çəkilməyə aşkarda və ya gizlində elə indi də cəhd edənlər az deyil.

1938-ci il noyabrın 10-da sərt və parlaq əskər, görkəmli dövlət xadimi Mustafa Kamalın ürəyi 57 yaşında dayandı. Onun vaxtsız ölümü Türkiyə üçün böyük itki idi..

Onun yerinə prezident və CXP-yə sədr İsmət İnönü seçildi.

# Nəticə

Bu gün Türkiyənin dünyada xüsusi yeri var və o, bir çox ölkələrin xarici siyasi kursuna və daxili siyasi tədbirlərinə təsir edə bilir, bir sıra dövlətlərə onların iqtisadiyyatının inkişafında yardım göstərir.

Əgər dünyanın bugünkü geosiyasi vəziyyətinə nəzər salsaq görərik ki, keçmiş tarixi vəziyyət davam edir və təkrar olunur.

Aydındır ki, çağdaş dünyadakı maraqlar olduqca ziddiyyətlidir. Tarix boyu həmişə belə olub. Bundan çıxış edərək söyləmək olar ki, dünyada maraqlar ilə bağlı ziddiyyətlər həmişə bu cür qalacaqdır. Fikrimcə, tarixə bu baxımdan nəzər yetirmək ədalətli olardı.

Bu həqiqət tarixin bütün gedişi boyu təsdiqlənmişdir.

Türkiyə bölgədə və o cümlədən də dünyada geosiyasi gücə çevrilməkdədir. Bunun üçün Türkiyədə hər cür rıçaqlar mövcuddur. Amma bundan ötrü Türkiyəyə aşağıdakı amillər də gərəkdir:

1. Dövlətdə siyasi sabitlik;
2. İqtisadiyyatın stimullaşdırılması;
3. Praqmatizmə əsaslanan qlobal xarici siyasət;
4. Xalqın mənəvi birliyi;
5. Müsəlman ölkələrini Türkiyənin ətrafına cəmləşdirmək;
6. Bölgədə güclü döyüş qabiliyyətli ordu;
7. Qərb ölkələrində və ABŞ-da lobbizmin dinamik inkişafı.

Bütün bunları o cümlədən Türkiyəni sevməyən ölkələr də anlayır və bilirlər. Ona görə də hansısa yolla bölgədəki vəziyyəti dəyişmək istəyirlər. Son vaxtlar bu tendensiya daha çox ayrı-ayrı dövlətlərin simasında özünü göstərməkdədir. Müəyyən dairələr bölgədəki geosiyasi vəziyyəti öz xeyirlərinə dəyişməyi çox arzu edirlər. Əlbəttə, Türkiyə rəhbərliyi bunu başa düşür. Lakin düşünürəm ki, Türkiyənin dost ölkələrlə tərəfdaşlığı bu cür niyyətlərin neytrallaşdırılmasına gətirib çıxaracaq. Amma dünyada bundan sonrakı dəyişiklikləri nəzərə almaqla regionda yeni geosiyasi strategiyalar işləyib hazırlamaq lazım gələcəkdir.

Sovet İttifaqı dağıldıqdan sonra 5 müstəqil türkdilli dövlət yarandı (Özbəkistan, Qırğızıstan, Qazaxıstan, Türkmənistan və Azərbaycan).

Türkiyə Respublikası bütün türk ölkələri ilə diplomatik əlaqələr quran ilk dövlət oldu.

Türkiyə üçün Mərkəzi-Asiya və Zaqafqaziyada ilk prioritet türkdilli dövlətlərin milli maraqları təşkil edir. Buna Ermənistanın timsalında Türkiyənin işğalçıya qarşı tütduğu

mövqeyiilədə misal gətirmək olar. Türkiyə Qarabağ problemini özünün problemi hesab edir və bütün məsələlərdə həmişə Azərbaycanın yanında qərar tutur.

Türkiyə rəsmi dairələri həmişə bəyan edirlər: "Cənubi Qafqazın sülh, stabil və çiçəklənən regiona çevrilməsi üçün Dağlıq Qarabağ münaqişəsi həllini tapmalıdır. Azərbaycan torpaqlarının işğalı nə vaxt başa çatarsa, o zaman regionda yenidən sülh bərqərar ola bilər. Lakin sülhün olması üçün Azərbaycan torpaqlarının işğaldan azad edilməsi şərtdir".

Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi ilə bağlı BMT-nin 4 qətnaməsi qəbul edilib, lakin Ermənistan nümayişkarənə şəkildə onlara əməl etmir.

Azərbaycan türklər üçün çox əzizdir, əlbəttə ki, Qarabağ problemi həm də Türkiyənin problemidir, bununla əlaqədar onlar daim öz qardaşlarını dəstəkləyəcəklər. Türkiyə həmişə Qafqazda sülhə çalışıb və bundan sonra da bütün səylərini bu regionda sülhün bərqərar olmasına yönəldəcək.

Bu gün Türkiyə güclü, müdrik və qüdrətli dövlətdir. Heç bir mineral ehtiyatlara malik olmayan bu dövlət, xalqının qeyri-adi əməksevərliyi, çevikliyi və mobilliyi sayəsində dünyanın ən güclü 20 ölkəsi sırasına daxildir. Təbii sərvətlər bu gün var, sabah tükənə bilər, amma xalqın əməksevərliyi sonsuzdur. Türkləri qayğılandıran əsas məsələ, etnik tərkibindən asılı olmayaraq daim millətin rifahının yüksəldilməsidir. Bu ölkədə dünyada mövcud olan ən məşhur, qabaqcıl və müasir texnologiyalardan istifadə olunur. Türkiyə bu gün ən yüksək keyfiyyətli məhsullar - səhiyyə kəmərlərindən tutmuş, qırıcı təyyarələrə qədər, istehsal edir.

Təsadüfi deyil ki, bu gün bir çox analitik dairələrdə belə fikirlər dolaşır ki, Türkiyə gücünü artırdıqca, xarici siyasətində başqa kurs formalaşdıracaq, diqqətini daha çox Şərqə

yönəltməklə, məqsədlərinə çatdıqca, Ankara tədricən ABŞ və Qərbi "öz maraq zonasından" sıxışdırıb, çıxaracaq. Lakin buna qədər Türkiyə ABŞ, Avropa və Rusiyanın timsalında strateji partnyorlarının maraqlarını nəzərə almaqla balanslaşdırılmış siyasəti davam etdirəcək. Qeyd etmək lazımdır ki, Ankara getdikcə daha müstəqil xarici siyasət yürütməyə başlayıb. Buna misal olaraq ABŞ-ın etirazlarına baxmayaraq, Türkiyənin Rusiya ilə enerji sferasında artan əməkdaşlığını göstərmək olar.

SSRİ dağıldıqdan sonra əsasən ticarət, yanacaq-energetika sferalarında Rusiya-Türkiyə əlaqələrinin davamlı inkişafı nəzərə çarpır. Buna Rusiya ilə Türkiyə arasında təbii qazın Qara dənizin dibi ilə çəkilmiş boru kəməri ilə nəqlinə dair müqaviləni nümunə gətirmək olar, yeri gəlmişkən həmin kəmər 2005-ci ildə istifadəyə verilib. Bu gün Rusiya ilə Türkiyə arasında olan ticarət dövriyyəsi 30 milyarddan artıqdır. Bu dövriyyənin böyük bir hissəsini enerji resurslarının ixracı və turizim təşkil edir. Gündən-günədə bu dövriyyənin həcmi artır və Rusiya iqtisadiyyatının əsas faktoruna çevrilir.

Bu faktor Kremli bir sıra siyasi addımlarında korrektələr etməsini labüd edəcəkdir.

Ümumiyyətlə Rusiya Federasiyası və Türkiyə Respublikası slavyan və türk etnoslarının bir-birilə çulğaşdığı ölkələrdir.Nəzərə alsaq ki, Qafqaz, İran, Orta və Kiçik Asiyanın, eləcə də Rusiyanın özündəki bəzi muxtar qurumların əhalisinin böyük hissəsini türkdilli xalqlar təşkil edir, onda slavyan-türk xalqları arasında əlaqələri öyrənməyin nə qədər aktuallıq kəsb etdiyini başa düşmək olar.

Rusiya tarixi türk xalqlarının tarixi ilə sıx bağlıdır. Misal üçün, çoxlu məşhur rus knyazları, tanınmışlar, zadəganlar var ki, soyadları türk mənşəlidir. Elə bunun özü slavyan və türk etnoslarının bir-birinə nə qədər yaxın olduğunu deyir.

Baykal və Qara dəniz arasındakı böyük areal slavyan və türk xalqlarının həyat fəaliyyəti üçün əsas məkan olub və bu gün də belə olaraq qalmaqdadır. Uzun dövr ərzində bu region müxtəlif xalqların tükənməyən beşiyi olub və tumurcuğunda həm döyüşkənlik, həm də sülhsevərlik keyfiyyətləri formalaşıb ki, bu gün də həmin keyfiyyətləri türk və slavyan xalqlarının timsalında görmək mümkündür !

## ƏDƏBİYYAT VƏ MƏNBƏLƏR

Azərbaycan dilində

Yaqub M. Mahmudov,Kərim K.Şükürov Azərbaycan Beynəlxalq münasibətlər və diplomatiya tarixi, Dövlətlər arası müqavilələr və digər xarici siyasət aktları 1639-1828 Dörd clddə Birinci cild, Bakı 2009

Əski slavyanca

P.A. Tolstoyun Osmanlı İmperiyasından məktubları (РГАДА, 1703,д 2,л.184-190(Rusiya dövlət qədim aktlar arxivi,1703, iş2,səh.184-190))

Rus dilində

1.Витол А.А. Османская империя (начало XVIII в.)- М., 1987.

2.Договоры России с Востоком, СПб., 1869, с.11-15.

3.Молчанов Н.Н. Дипломатия Петра I. М., 1984

4.Никифоров Л.А. Россия в системе европейских держав в первой чегверти XVIII в. // Россия в период реформ Петра I. М., 1973

5.Орешкова С.Ф. Русско-турецкие отношения в начале XVIII в. М., 1971.

6.Соловьев С.Ж. Сочинения. Кн. VII, М., 1991

7.Сотавов Н.А. Северный Кавказ в русско-иранских и русско-турецких отношениях в XVIII в.: От Константинопольского договора до Кючук-Кайнарджийского мира. 1700-1774. М., 1991.

8.O.Eliseyeva. Екатерина II.Москва 2008.( II Yekaterina. Moskva Astrel .2008)

9.Афанасьев Г.Е. Внешняя политика Наполеона III. Одесса. 1885.(Q.E.Afanasyev III Napoleonun xarici siyasəti. Odessa. 1885.)

10.В.Л. Бодянский. Восточная Аравия. Издательство «Наука», Москва, 1986г.(B.L.Bodyanskiy. Şərqi Ərəbistan. “Elm” nəşriyyatı, Moskva, 1986-cı il)

11.Бертольд В.В. История изучения Востока в Европе и России, Л.. 1925.(B.B.Bertold. Avropa və Rusiyada şərqin öyrənilməsi tarixi. L. 1925-ci il)

12.Бондаревский Г.Л. Английская политика и международные отношения в бассейне Персидского залива (конец XIX – начало XX в.). М., 1968.(Bondarevskiy.Q.L. Fars körfəzi hövzəsində İngiltərə siyasəti və beynəlxalq münasibətlər (XİX əsrin sonu-XX əsrin əvvələri.). M.. 1968. )

13.Вандаль, А. Наполеон и Александр I. Перев. С франц. Т. 1-3. Спб. 1910-1913.(Vandal.A. Napoleon və İ Aleksandr. Fransızcadan tərcümə. 1-3-cü cild. Spb. 1910-1913.)

14.Васильев А.М. Идеология раннего ваххабизма. – Народы Азии и Африки, 1965, № 6.(Vasilyev.A.M. Erkən vəhhabizmin ideologiyası. – Asiya və Afrika xalqları, 1965, N6. )

15.Герасимов О.Г. Саудовская Аравия. М., 1977. (Gerasimov.O.Q. Səudiyyə Ərəbistanı. M., 1977.)

16.Грюнебаум Г.Э. фон. Классический ислам. Очерк истории. 600-1258. М., 1988.(Gryunebaum Q.E.fon. Klassik islam. Tarixi oçerk. 600-1258. M., 1988.)

17.Ал-Джабарти, Абд ар-Рахман. Египет под властью Мухаммеда Али (1806-1821). М., 1963.(Əl-

Cəbərti, Əbd ər-Rəhman. Misir Məhəmməd Əlinin hakimiyyəti dövründə (1806-1821). M., 1963.)

18.Иванов Н.А. О типологических особенностях арабо-османского феодализма. – Народы Азии и Африки, 1978. № 3. (İvanov.N.A. Ərəb-osmanlı feodalizminin tipik xüsu-siyyətləri haqqında.- Asiya və Afrika xalqları, 1978. N3.)

19.Ислам. Энциклопедический словарь. М.. 1991.(İslam. Ensiklopedik lüğət. M., 1991.)

20.Каминский С. Институт монархии в странах Арабского Востока. М., 1981.(Kaminskiy.S. Ərəb şərqi ölkələrində monarxiya institutu. Mş. 1981.)

21.Конституции государств Ближнего и Среднего Востока. М., 1956. (Yaxın və Orta Şərq dövlətlərinin konstitusiyaları. M., 1956.)

22.Лазарев М.С. Крушение турецкого господства на Арабском Востоке (1914-1918), М., 1960.(Lazaryev M.S. Ərəb Şərqində türk hökmranlığının iflası. (1914-1918), M., 1960.)

23.Луцкий В.Б. Лига арабских государств. М.. 1946.(Lutskiy V.B Ərəb liqası dövlətləri. M., 1946.)

24.Миллер А.Ф. Мустафа-паша Байрактар. Оттоманс-кая империя в начале XIX в. М.-Л., 1947.(Miller A.F. Mustafa-paşa Bayraktar. Osmanlı imperiyası XİX əsrin əvvəllərində. M.-L.. 1947.)

25.Минаев В. Подрывная деятельность германского фашизма на Ближнем Востоке. М., 1942.(Minaev B. Alman faşizminin Yaxın Şərqdə pozuculuq fəaliyyəti. M., 1942.)

26.Павлович П.П. Авантюры русского царизма в Болгарии. Сборник документов. Предисл. В.Коларова. М.1935. XXIII, 240 стр.(Pavloviç P.P. Rus çarizminin Bolqarıstanda avantrüzmi. Sənədlər toplusu. Söz önü B. Kolarovundur. M., 1935. XXİİİ, 240 səh.)

27.Палм Датт Г. Кризис Британии и Британской империи. Пер с англ. М., 1954.(Palm Datt Q. Britaniya və Britaniya imperiyasının Böhranı. İngiliscədən tərcümə. M., 1954.)

28.Першиц А.И. Арабы Аравийского полуострова. М., 1958.(Perşits A.İ. Ərəbistan yarımadası ərəbləri. M., 1958.)

29.Першиц А.И. Некоторые особенности классообразо-вания и раннеклассовых отношений у кочевников-скотоводов.– В кн.: Становление классов и государства. М., 1976.(Perşits A.i. Köçəri-maldarlar arasında siniflərin meydana gəlməsi və erkən siniflərarası münasibətlərin formalaşmasının bəzi özəllikləri.-: Siniflərin və dövlətlərin əmələ gəlməsi. M., 1976.)

30.Политика Англии на Ближнем и Среднем Востоке (1945-1966). М., 1966.(İngiltərənin Yaxın və Orta Şərq siyasəti (1945-1966.).

31.Политика США на Арабском Востоке. М., 1961.(ABŞ-ın Ərəb şərqində siyasəti. M., 1961.)

32.Раздел Азиатской Турции по секретным документам б. Министерства иностранных дел. Под ред. Е.А. Адамова. М. 1924, 383 стр. (Европейские державы и Турции во время мировой войны).(Türkiyənin Asiya hissəsinin bölüş-dürülməsi

Xarici işlər nazirliyinin məxfi sənədlərində. E.A. Adamovun redaktəsi altında. (Avropanın qüdrətli dövlətləri və Türkiyə birinci dünya müharibəsi dövründə)M. 1924, 323-cü səh.)

34.Ралли А. Мекка в описаниях европейцев. Таш., 1913(Ralli A. Məkkə avropalıların yazılarında. Daşkənd., 1913)

35.Саид Амин. Восстание арабов в XX веке. Пер. с араб. М., 1964.(Səid Əmin. XX-əsrdə ərəb üsyanları. Ərəbcədən tərcümə. M., 1964.)

36.Сенченко И.Р. Аравия: общество, традиции и нравы. М., 1991.(Sençenko İ.R. Ərəbistan: cəmiyyət, adət və ənənələr. M., 1991.)

37.Сказкин С.Д. Конец австро-русско-германского союза. Исследование по истории русско-германских и русско-австрийских отношений в связи с восточным вопросом в 80-е годы XIX столетия. Т.I. 1879-1884. М. 1928, XI, 356 стр. (Российская ассоциация научно-ис-следовательских институтов общественных наук. Институт истории).(SkazkinS.D. Avstriya-rus-alman ittifaqımım sonu. XİX əsrin 80-ci illərində rus-alman və rus-avstriya münasibətlərinin şərq məsələləri ilə bağlı tədqiqatları tarixindən. İ. C. 1879-1884. M.1928. Xİ. Səh 356. (İctimai elmlər üzrə elmi-tədqiqat institutlarının Rusiya Assısiasiyası).)

38.Соловьев С.М. История падения Польши. Собр. Соч. Спб. (Б.г.)(Solovyev S.M. Polşanın süqutu tarixi. Seçilmiş əsərlər. Spb (B.q.).)

39.Степанова З.Н. Борьба арабов за объединение Центральной Аравии и образование Саудовского королевства. ЛГУ. 1950 .(Stepanova Z.N. Ərəblərin

Mərkəzi Ərəbistanın birləşdirilməsi uğrunda mübarizəsi və Səudiyyə krallığının yaranması. LDU. 1950.

40.Татищев. Внешняя политика императора Николая I. Спб. 1887.(Tatişev. İmperator İ Nikolayın xarici siyasəti. Spb. 1887.).

41.Ханс Майбаум, Сирия – перекресток путей народов. Москва, 1982.(Hans Maynbaum, Suriya – xalqların yollarının kəsişdiyi yer. Moskva. 1982.)

42.Чечулин, Н.Д. Внешняя политика России в начале царствования Екатерины II, 1762-1774, Спб.1896.(Çeçulin N.D. İİ Yekaterinanın çarlığının əvvəlində, 1762-1774-cü illər. Rusiyanın xarici siyasəti.)

43.Чуракова М.В. «Новая история Неджд» Амина ар-Рейхани как источник по этнографии Центральной Аравии. – Советская этнография, 1960, № 1.(Çurakova M.V. "Əmin ər-Reyhaninin Nəjdin yeni tarixi" əsəri Mərkəzi Ərəbistanın etnoqrafiyası üzrə mənbə kimi.- Sovet etnoqrafiyası, 1960. N 1.)

44.Шувалов П.А. Шувалов о Берлинском конгрессе 1878 г. Предисл. В.М.Хвостова. «Красный архив». 1933. Т.4 (59), стр. 82-109.(Şuvalov P.A. Şuvalov 1878-ci il Berlin konqresi haqqında. V.M. Xvostovun ön sözü ilə. "Qırmızı arxiv". 1933. 4.C.(59). səh. 82-109.)

45.Яковлев А.И. Саудовская Аравия и Запад. М., 1982.(Yakovlev A.İ. Səudiyyə Ərəbistanı və Qərb. M., 1982.)

46. Talleyrand, Ch. M. M empires du Bnnce de Talleyrand, publ par le due dle-Broglie. T. 1-5. P. 1891-1892. (Сокращенный перевод в издании «Academia»: Талейран. Мемуары (М.-Л.)1934).

47.İzvestiya qəzeti 13.02.1921.№32

# Müxtəlif avropa dillərində istinad edilən ərəb müəllifləri.

1. Munir əl-Ədjlyani Tarix

2. əl Dahil Süleyman ibn Sabah. Əal –kəul əs sadid fi axbər imarat ər Raşid аль-Дахиль. Ər-Riyad, 1966 (Rəşidilər əmirliyində baş verən hadislər barədə ağlabatan sözlər. Ər-Riyad, 1966)

3. əz-Zirikl Həyr əd- Din. Şibh əl-cəzirə fi əhd əl-məlik Əbd əl-Əziz . Beyrut, 1970 .(Ərəbistan yarımadası kral Əbd əl-əzizin hökmranlığı dövtündə. 1-4 cild, Beyrut, 1970.)

4. İbn Əbd əl Vahab Mühəmməd. Ərbaa rasail (dörd məktub). Tisa rasail fi- t-tovid (Təkallahlılıq haqqında doqquz mesaj). Kitab ət tovhid (təkallahlılıq kitabı).Kitab kəşf şubuxat fi-t- tovhid (Təkallahlığa şübhə edənlər kitabı). Mahmut ət – tovhid ən nədjiyə Qahirə, h.1375 (Təkallahlığa bağlı Nəjd toplusu Qahirə, h.1375)

5. İbn Əbd əl Vahab Mühəmməd.Müxtəsır sirat ər-rəsul. Qahirə h.1375/1956 (Peyğəmbərin həyatının qısa xülasəsi. Qahirə h.1375/1956)

6. İbn Əbd əl Vahab Mühəmməd. Sitat üsul əzimə Qahirə. (Altı böyük prinsiplər. Qahirə. (B.q.).)

7. İbn Əbd əl Vahab Mühəmməd.Üsul əl-iman (İman əsasları). Fədl əl islam (İslamın ləyaqətləri).Kitab əl Qəbr (ölüm günahlarının kitabı). Nəsiəti əl –musliminə bihədis hətim əl – mürsəlinə. (Peyğəmbərlər möhürü haqqında rəvayətlər əsasında müsəlmanlara məsləhət).Məjmuat əl hədis ən nədjdiyyə Məkkə. h.1349 (Həjd hədislər toplusu. Qahirə. H.1375)

8. İbn Bişr Ünvan əl –nədjd (Nəjd tarixinin şöhrət rəmzləri. 1-4-cü hissə. Məkkə. h.1349)

9. İbn Qənnam Hüseyn. əl –musamma ruadat əl –afkyar vəl – afhəm (Fikir və anlayışlar bağçası adlandırılan Nəjd tarixi. 1-2 Qahirə. 1949)

10. İbn İsa ,İbrahim ibn Salih .Tarıx bəədu əl-həvədis əl vakiə fi nədjd Ər-Riyad, h.1386/1966 (Nəjddə baş verən bəzi hadislərin tarixi. Ər-Riyad, h.1386/1966.)

11. İbn Sanad əl Bəsri, Osman Tarix Bağdad. Bombey h.1304 (Osmanlı Bağdadıdının tarixi. Bombey. h.1304)

12. İbn Həsən Əbdürrəhman. Fəth əl-mədjid, kitab ət – tovhid. Qahirə, h. 1377./1957.(Şərəfli açılış. "Təkallahlılıq kitabları"nın şərhi. Qahirə, h.1377/1957)

13. əl - Kutb Samir -ə bd Rəzzak.Ənsəb-əl ərəb.Beyrut 1969.(Ərəblərin geneologiyası. Beyrut, 1969)

14. Ləm əş-şihab fi sira Muhammed ibn əbd əl- Vahhab (Məhəmməd ibn Əbd əl-Vəhhabın həyatından bəhs edən "Meteorid parıltısı"kitabı).

15. Mustafa Məhəmməd Şafik əfəndi. Fi qəlb nədjd və Hicaz 1927.(Nəjd və Hicazın ürəyində. Qahirə. 1927.)

16. Səid, Əmin.Tarıx əd-dovliye əs səudiyyə. Beyrut, h.1385/1964 (Səud dövlətinin tarixi. 1-3-cü cild. Beyrut, h.1385/1964)

17. .Fuad Həmzə. əl- ərəbiyyə, əs –səudiyyə. h.1355/1931-32, b.m.) (Səudiyyə Ərəbistanı. Məkkə, h.1355/1931-32, b.m.)

18. Fuad Həmzə Qəlb cəzirəti əl -ərəb 1933.(miladi) (Ərəbistan yarımadasının ürəyi. 1933)

19. Əbdülrəhim Hərraz Rahəb. Əd-dövliyyə əl –osmaniyə vəzirat əl-ərəb (1840-1909)(Osmanlı imperiyası və Ərəbistan yarımadası (1840-1909))

20. Munir əl-Ədjlyani Tarix 1-ci hissə.

21. Əli Əhməd. Səudlar. Məkkə, hicri 1372/1957.

22. Mahmud Şükri. Nəjdin tarixi. Qahirə, h.1343.

23. əl-Bəssam. Tuhufat. h 1347

24. Dəhlan A. Hülasəti əl-kəlam.h1350

25. Vahba Hafis .Ərəbistan yarımadası XX əsrdə. Qahirə. 1961

26. əs Sammara,Fəhd ibn Abdullah.əl məmləkə əl -ərəbiyyə əs səudiyyə fi əhd əl – məlik Əbd əl-Əziz.

Ər-Riyad 1993. .( Kral Əbd əl-Əziz dövründə Səudiyyə

Ərəbistanı krallığının biblioqrafiyası. Ər-Riyad, 1993.)

27. Xalid Əl-Fərəci. Tühafat 1929. (Xalid Əl-Fərəci Şərhlər 1929-R.Yad)

# Avropa dillərində

1. Akdağ M.Genel cizgileri ile XVII yüzyıl Türkiye tarihi-Tarihi araştırmalar dergisi.Ankara,1966

2. Kurat A.N.İsvec kiralının Türkiyede kalışı ve siralarda Osmanlı imparatorluğu.İstanbul,1943

3. Kurat N. Türkiye ve Rusya. Ankara, 1990

4. İsmail Hakkı Uzunçaşırlı. Osmanlı tarihi. III c. Anкara, 1988

5. Hurşud Efendi.Seyahatname və hudud. Istanbul 1877

6. Cevdet. Ahmed. Tarih-i vekaiya devlet-i aliye. vol. 1-12. Istanbul. hicri 1271-1292. 12 vols.

7. http://www.os-ar.com/ermeni/ermeni.htm

8. Avcioğlu.DTürkiyenin düzeni:Dün,bugün,yarın.Ankara 1968

9. Albert, Prince. Letters of the Prince Consort [of Victoral] 1831-1861. Selected and edited by K. Jagow. Translated by E. T. S. Dugdale. N. Y. 1938.

10. Albin, P. Les grands traites politiques; recueil des principaux traites dip-lomatiques depuis 1815 jusqu'a nos jours avec des commentaires et des notes. P. 1911.

11. al-Farsi, Fouad. Saudi Arabia: a Case Study in Development. L., 1980.

12. Ansley, E. The Life of Lord Palmerston. Vol. i—2.L1876—1879.

13. Ansley, The Life of Lord Palmerston. Vol. L-2. L.1876-1879.

14. Blunt A. A Pilgrimage to Nejd the Cradle of the Arab Race: a Visit to JjhejCpurt of the Arab Emir, and "Our Persian-campaign". L.. 1881. 2 vols.

15. Blunt W.F. A Visit to Jebel Shammar (Nejd). - Proceedings of the Royal Geographical Society. 1880. vol. 2.

16. Blunt, W. jggj'gthistorJ Qf the Englisth occupation of Egypt. Being a personal narraTive of events. London 1907. XII, 606 p.

17. Burckharari.L. Travels in Arabia. L., 1829.

18. BurckhardtJ.L. Notes on the Bedouins and Wahabvs Collected during His Travels in the East by John Lewis Burckhardt. L.. 1930 2 vols.

19. Cevdet, Ahmed. Tezakir. Ankara, 1953. 12 vols

20. Clayton G.F. An Arabian Diary. Berkeley & Los Angeles. 1969.

21. Dickson H.R.P. Kuwait and her Neighbours. L., 1956.

22. Dickson H.R.P. The Arab of the Desert: a Glimpse jnto Badawin Life in Kuwait and Saudi Arabia. L., 1949

23. Doughty Ch.M Travels in Arabia Deserts. Cambridge. 1888. 2-vols.

24. Euting J. Reise in Innerarabien 1883-84. - Verhandlungen der Gesellschaft fiir Erkunde zu Berlin, 886, Bd 13.

25. Foundations of British Foreign Policy from Pitt (1792) to Salisbury (1902) or Documents Old and New. Selected and edited with Historical Introduction by H.Temperle and L. Penson. Cambridge. 1938.

26. Franz Joseph, I, Kaiser. Briefe an seine Mutter/ 1838-1872. Hrsg. Von F. Schnurer. Munchen. 1930.

27. Glubb J.B. War in the Desert: an RAF Frontier.Campaign. L., 1960.

28. Great Britain. Arbitration Concerning Buraimi and the Common Frontier between Abu Dhabi and Saudi Arabia. Memorial Submitted by the Government of the United Kingdom of Great Britain. And Northern Ireland. L., 1955. 2 vols.

29. Great Britain. Colonial Office. Report by His Britannic Majesty`s Government the Administration

30. Grunebaum G.E. von. Modern Islam: the Search for Cultural Identity. N.Y., 1964.

31. Hamilton Ch.W. Americans and Oil in the Middle East. Houston, 1962.

32. Hoffmann, J. S. Great Britain and the German trade rivary 1875-1914. Philadelphiya. 1933. XII, 363 p.

33. Hyde, H. Montgomery. Princess Lieven. Boston. 1938.

34. Journey fromTersia to India through Herat and Candagar. Bombay. 1866.

35. Kelidar A.R. The Problem of Succession in Saudi Arabia. - Asian Affairs. 1978, vol. 9, pt 1.

36. Kelly J.B. Eastern Arabian Frontiers. L.. 1964.

37. Labor Law and Practice in the Kingdom of Saudi Arabia. Wash., 1972.

38. Long D.E. Saudi Arabia.L.. 1976.

39. Looney R.E. Saudi Arabian's Development Potential: Application of an Islamic Growth Model. Lexington, 1982.

40. Macro E. Bibliography of the Arabian Peninsula. Coral Cables. 1958.

41. Mengin F. Histoire de FEgypte sous le gouvernement de Mohammed-Aly. P.. 1823. Vol. 1—2. Mengin F. Histoire sommaire de FEgypte sous le gouvernement de Mohammed-Aly, ou recit des principaux evencments qui ont eu lieu dc Fan 1823 & Fan 1838. P., 1839.

42. Montagne R. La civilisationAi de.serti-nomades d'Orient et d`Afrique. P., 1947.

43. Mowat, R. B. History of European Diplomacy. 1815—1914. L. 1922.

44. Nallino C.A. Raccolta di Scritti, editi e inediti. V. 1. L`Arabia Saundiana. Instituto per l`Oriente. Rome, 1939.

45. of Iraq for the Period April 23 – November 24. L., 1925/

46. Paleologue, M. Romantisme et diplomatie. P. 1925.

47. Pehatsek E. The History of the Wahhabys ip Arahia and in Tndin. TheJoumal of the Bombay Branch of the Royal Asiatic Society, 1878-1889. vol. 14.

48. Pelly L. Report on a Journey to the Wahabee Capital of Riyadh in Central Arabia. — Journal of

49. Philby H..St.-T.B Saudi Arabia. L., l955.

50. Philby H..St.-T.B. The Heart of Arabia: a Record of Travel and Exploration. L., 1922. 2 vols. "ThHby H.gLj.B. A Pilgrim in Arabia. L.. 1946

51. Philby H.St.-J.B. Arabia of the Wahhabis. L., 1928. JJiilby H.St.-.B. Arabian Days: an Autobiography. L.. 1948.

52. Philby H.St.-J.B. Arabian Highlands. Ithaca-N.Y., 1952.

53. Philby H.St.-LB. Arabia.tL. 1930.

54. Philby H.St.-T.B. Arabian Jubilee. L.. 1954. ThnBfH'.St.-J.B. Forty Years in the Wilderness. L., 1957.

55. Rose, J.T. Life of William Pitt. Part 1-2. L. 1923.

56. Rouham Fuad. A History of OPEC. N.Y. 1971.

57. Rutter E. TheHoly Cities of Arabia. L.-N.Y.. 1928.

58. Shwadran B. The Middke East Oil and the Great Powers. Jerusalim, 1973.

59. Tempersley. H.W.V. The Foreign Policy of Canning (1822-1827). L. 1925.

60. The Cambridge history of British foreign policy, 1783-1939. Ed. by A. W. Ward and G. P. Goocli. Vol.3. 1866-19-19. London 1923. XIX, 664p.

61. Thomas B. Alarms and Excursions in Arabia. L.. 1931.

62. Troeller G. The Birthof Saudi Arabia: Britain and the Rise of the House ofSaud.L,. 1976.

63. Wallin G.A. Notes Taken on a Journey through Part of North Arabia in 1848. – Journal of the Royal Geographical Society, 1950, vol. 20.

# QEYDLƏR

1. Philby H. Saudi Arabia, səh. 30.

2. Munir əl-Ədjlyani Tarix 1-ci hissə. səh 68, 77

3. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh 157, 160, 212, 223-224

4. yenə orada. səh 234-235

5. yenə orada səh. 99, 224, 229

6. yenə orada səh. 234-235

7. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə. Səh.6; İbn Qənnam Tarıx 1-ci hissə. səh.25

8. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə. səh.6-7; İbn Qənnam Tarıx 1-ci hissə səh 25-26

9. İbn Bişr Ünvan əl –nədjd 1-ci his. səh 8

10. yenə orada

11. İbn Qənnam Tarıx 1-ci his, səh 29-30

12. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə. səh 8 ;

İbn Qənnam Tarıx 1-ci his, səh. 29-30; Mengin F. Histoire de l Egypte... Vol. 2. s. 449.

13. F.Histoire de l Egypte... Vol. 2, s. 449 (F.Manjenin məlumatlarından...o, Ayyanda səkkiz il qalmışdı, ora 1736-37-ci illərdə gəlmişdi)

14. İbn Əbd əl- Vahab. Kitab Ət- Tovhid səh 118

15. Əbdürrəhman ibn Həsənin İbn Əbd əl-Vəhhabın “Kitab Ət-Tovhid”kitabına şərhləri.səh. 64

16. İbn Əbd əl-Vəhhabın Əl üsul əs səlyasa səh 8. Məhəmməd ibn Əbd əl-Vəhhab. Kitab Ət- Tovhid səh. 67.

17. Məhəmməd ibn Əbd əl-Vəhhab. Üsul əl iman səh.167-170.

18. Əbd əl –Əziz 1-ci hissə.. Ər-Risalə səh. 5;İbn Qənnam Tarix 1-ci hissə. səh 38

19. Томара М. Истоки ваххабизма,(Vəhhabizmin mənbələri, səh 76)

20. İbn Qənnam Tarix... 2-ci his, səh 2-4

21. yenə orada

22. yenə orada

23. yenə orada

24. Mengin F. Histoire de 1'Egypte... Vol. 2, s. 450.

25. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh 13

26. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh 21; İbn Qənnam Tarix... 2-ci his, səh 9-12

27. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh 23

28. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh 23-24; İbn Qənnam Tarix... 2-ci his, səh 13-14; və onun digər kitabı Ləm əl – şihab səh 75.

29. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh 48—49; ; İbn Qənnam Tarix... 2-ci his, səh 66-68; və onun digər kitabı Ləm əl – şihab səh77 ; Mengin F. Histoire de 1'Egypte... Vol. 2, s. 463—464. ; Niebuhr C. Description..., səh 299-300. (Najranlıların vəhhabiləri məğlubiyyətə uğratmaları və onların Arayta və Nəjdə soxulmaları haqqında 60-cı illərin ortalarında Əl-hası

ziyarət etmiş K.Nibur da məlumat verir. Lakin o, najranlıların rəhbəri kimi Məkkrəmi deyilən bir nəfərin adını çəkir və onun fikrincə vəhhabilərlə haslar arasında toqquşma, onların najranlılar qarşı hərbi əməliyyatlarından əvvəl baş verib. )

30. İbn Bişir Ünvan əl –nədjd 1-ci hissə səh 49; İbn Qənnam Tarix... 2-ci his, səh 74; Mengin F. Histoire de 1'Egypte...Vol. 2, s. 465.

31. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh 48—49; ; İbn Qənnam Tarix... 2-ci his, səh 49-58 Mengin F. Histoire... Vol. 2, səh. 465-470

32. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh 60-61 ; İbn Qənnam Tarix... 2-ci his, səh 82-86; Mengin R Histoire... Vol. 2, səh.. 473-474.

33. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh 63-64 ; İbn Qənnam Tarix... 2-ci his, səh 88-94; Mengin F. Histoire... Vol. 2, s. 474-478.

34. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh 61-63 ; İbn Qənnam Tarix... 2-ci his, səh 88-90; Ləm əl-şihab.., s. 156—159; Mengin F. Histoire... Vol. 2, s. 475—478.

35. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh 75-76; İbn Qənnam Tarix... 2-ci his, səh 91-114; Mengin F. Histoire... Vol. 2, s. 485-486.

36. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh 78 ; İbn Qənnam Tarix... 2-ci his, səh 119.

37. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh 78-80 ; İbn Qənnam Tarix... 2-ci his, səh 120-124, 132; Mengin F. Histoire de FEgypte... Vol. 2, s. 492(F.Manjen Əl-Hərcin Dilama birləşdirilməsi 1783-cü ilə aid edir).

38. İbn Qənnam Tarix... 2-ci his, səh 124-131; Mengin F. Histoire... Vol. 2. s. 491, 496-499.

39. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh. 83; İbn Qənnam Tarix... 2-ci his, səh 137;

40. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh. 85-86; İbn Qənnam Tarix... 2-ci his, səh 142-153: MenginF. Histoire... Vol. 2. c. 502—503.

41. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh. 89; İbn Qənnam Tarix... 2-ci his, səh 154.

42. Mengin F. Histoire... Vol. 2. s. 506.

43. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh. 90.

44. BurckhardtJ.L. Travels... Vol. 1, c. 412; Volney C.-F. Voyage.... s. 81-82.

45. Mengin F. Histoire... Vol. 2, s. 490.

46. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh. 102-103; İbn Qənnam Tarix... 2-ci his, səh 173; Mengin F. Histoire... Vol. 2, s. 510-511.

47. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh. 112—117; İbn Qənnam Tarix... 2-ci his, səh . 242—247; Mengin F. Histoire... Vol. 2, s. 516-517.

48. Longrigg S.H. Four Centuries..., s. 199-200.

49. Abir M. Relations.... s. 34-40.

50. Bridges H.J. An Account... Vol. 2, s. 28; [Corancez K.A.]. Histoire.... s. 28, 186; Raymond J. Les wahabys..., s. 21.

51. Mengin F. Histoire... Vol. 2, s. 525.

52. Dəhlan A. Hülasəti əl-kəlam …,s. 277-279; İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh. 122/2-3;BurckhardtJ.L. Notes... Vol. 2, c. 195-196; Mengin F. Histoire... Vol. 2. s. 527-528.

53. Dictionary of Islam, s. 660.

54. AVPR, F.1804, iş. 2242, s. 202.

55. AVPR, F.1803, iş. 2235. s. 260;

56. Dəhlan A. Hülasəti əl-kəlam …,s. 285; İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh. 132—133; Mengin F. Histoire... Vol. 2. s. 531.

57. Dəhlan A. Hülasəti əl-kəlam …,s. 294-295, 303; BurckhardtJ.L. Travels... Vol. 2, s. 169-170. Mengin F. Histoire de 1'Egypte..., Vol. 2. s. 535-536.

58. al-Jabarti. Egipet..., s. 210—211.

59. BurckhardtJ.L. Notes... Vol. 2, s. 204-205. 210; Müəllifin digər kitabı Travels... Vol. 2, s. 13.

60. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh.141-142.

61. Əbdürrəhim Hərraz Rahəb.Əd-dövliyyə əl –osmaniyə vəzirat əl-ərəb (1840-1909)..., s. 284-285; BurckhardtJ.L. Notes... Vol. 2, s. 219.

62. əl -Cəbərti. Misir..., s. 300; Dəhlan A. Hülasəti əl-kəlam …,s. 301; BurckhardtJ.L. Notes... Vol. 2, s. 223; Mengin F. Histoire de 1'Egypte... Vol. 1, s. 343-344.

63. Ə l -Cəbərti. Mısır..., s. 300

64. Əl -Cəbərti. Mısır..., s. 320.

65. Orada. s. 325-326.

66. Mengin F. Histoire de 1'Egypte... Vol. 1.s390

67. Burckhardt J.L. Travels Notes... Vol. 2. s. 240-243.

68. Burckhardt J.L. Notes... Vol. 2. s. 240-243.

69. Burckhardt J.L. Travels... Vol. 2, s. 286.

70. Dəhlan A. Hülasəti əl-kəlam …,s. 295. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh. 159. əl -Cəbərti. Misir..., s. 391-393; BurckhardtJ.L. Notes... Vol. 2, s. 244-247; Mengin F. Histoire de 1'Egypte... Vol. 1, s. 391-399.

71. əl -Cəbərti. Misir..., s. 393—398; Dəhlan A. Hülasəti əl-kəlam …,s. 296; Mengin F. Histoire de 1'Egypte... Vol. 1, s. 399-403.

72. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh. 162-163.

73. Dəhlan A. Hülasəti əl-kəlam …,s. 296; 162—163; BurckhardtJ.L. Notes... Vol. 2, s. 251; Mengin F. Histoire de 1'Egypte... Vol. 1. s. 407-408.

74. əl -Cəbərti. Misir..., s. 451—455. 477; İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh. 163; BurckhardtJ.L. Notes... Vol. 2. s. 260-262; Mengin F. Histoire de 1'Egypte... Vol. 2. s. 3-16.

75. . BurckhardtJ.L. Notes... Vol. 2, s. 264-267; Mengin F. Histoire de 1'Egypte... Vol. 2, s. 3-16.

76. Əbdürrəhim Hərraz Rahəb.Əd-dövliyyə əl –osmaniyə vəzirat əl-ərəb (1840-1909). 1 s. 302-304

77. əl - Cəbərti. Misir..., s. 464; Mengin F. Histoire de 1'Egypte... Vol. 2. s. 20.

78. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh. 165-166.

79. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh. 175.

80. əl -Cəbərti. Misir..., s.. 487-491; BurckhardtJ.L. Notes... Vol. 2, s. 310-332; Mengin F. Histoire de 1'Egypte... Vol. 2. s. 30-32.

81. BurckhardtJ.L. Notes... Vol. 2, s. 339-343; Mengin F. Histoire de 1'Egypte... Vol. 2, s. 32-34.

82. Dəhlan A. Hülasəti əl-kəlam …,s.. 301.

83. Sabry M. L'Empire Egyptien..., s. 44-46.

84. Əbdürrəhim Hərraz Rahəb.Əd-dövliyyə əl –osmaniyə vəzirat əl-ərəb (1840-1909)..., s. 318; BurckhardtJ.L. Notes... Vol. 2, s. 356-357.

85. Sadlier G.E Account..., s. 486.

86. Mengin F. Histoire de 1'Egypte... Vol. 2, s. 105; Sadlier G.E Account..., s. 486.

87. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh. 188-189; Mengin F. Histoire de 1'Egypte... Vol. 2 s. 106-107.

88. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh. 197.

89. Mengin F. Histoire de 1'Egypte... Vol. 2, s. 107-111.

90. Mengin F. Histoire de 1'Egypte... Vol. 2, s. 111-112; Sadlier G.E Account.... s. 487-488.

91. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh. 190-192.

92. Mengin F. Histoire de 1'Egypte... Vol. 2. s. 115-117; Sadlier G.F. Account..., s. 488.

93. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh. 194-195.

94. əl -Cəbərti. Misir..., s. 634; Dəhlan A. Hülasəti əl-kəlam …,s. 302; Mengin F. Histoire de 1'Egypte... Vol. 2, s. 118-131; Sadlier G.F.Account..., s. 488.

95. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh. 206-207.

96. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh. 207.

97. Mengin F. Histoire de 1'Egypte...Vol. 2. s. 136.

98. Sadlier G.F. Account..., s. 471.

99. Sadlier G.F. Account.... s. 474, 486.

100.Mengin F. Histoire de 1'Egypte... Vol. 2, s. 160-162; Weygand. Histoire... Vol. 1. s. 113-114.

101.Mengin F. Histoire de 1'Egypte... Vol. 2. s. 160-162; Weygand. Histoire... Vol. 1, s. 113-114.

102.LorimerJ.G. Gazetteer... Vol. 1. s. 197-200. 658-677.

103. Dəhlan A. Hülasəti əl-kəlam …,s. 303; Hurgronje Ch.S. Mekka (1888). s. 161; Tamisier M.Voyage... Vol. 1. s. 144-149.

104. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh. 217-219.

105. Musil A. Northern Negd, s. 270.

106. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh. 56.

107. Dəhlan A. Hülasəti əl-kəlam …,s. 303

108.. Dəhlan A. Hülasəti əl-kəlam …,s. 303;

109. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh.231-232.

110.Palgrave W.G. Narrative… Vol., 2, s. 62.

111.İbn Bişr Ünvan əl –nədjd 11-ci hissə səh. 13-14-27.

112. İbn Bişr Ünvan əl –nədjd 11-ci hissə səh. 17-19

113. İbn Bişr Ünvan əl –nədjd 11-ci hissə səh. 26-30, 32-33.

114.LorimerJ.G. Gazetteer... Vol. 1, s. 950-951, 954.

115. LorimerJ.G. Gazetteer... Vol. 1, s. 954.

116.LorimerJ.G. Gazetteer... Vol. 1. s. 954-955.

117. LorimerJ.G. Gazetteer... Vol. 1,s . 1094.

118. İbn Bişr Ünvan əl –nədjd 1-ci hissə səh. 44.

119. Mahmud.əl-Əlyusi.Tarix..., s. 97-100.

120. İbn Bişr Ünvan əl –nədjd 11-ci hissə səh. 54—57.

121. İbn Bişr Ünvan əl –nədjd 11-ci hissə səh.48-51

122.Winder R.B. Saudi Arabia..., s. 95.

123. İbn Bişr Ünvan əl –nədjd 11-ci hissə səh.. 48-51.

124. İbn Bişr Ünvan əl –nədjd 11-ci hissə səh.. 51-53.

125. Tamisier M. Voyage... Vol. 1, s. 360, 362, 370; vol. 2, s. 82-83; Weygand. Histoire... Vol. 2. s. 88.

126.Fresnel F. l′Arabie, s. 251.

127. LorimerJ.G. Gazetteer... Vol. 1, s. 1097; Mengin F. Histoire..., s. 95; Winder R.B.

128. İbn Bişr Ünvan əl –nədjd 11-ci hissə səh.. 72-73.

129. Jomard E.F. Etudes..., s. 239-241.

130.Fresnel F. L`Arabie, s. 250.

131.Cevdet A. Tezakir... 1-12, s. 139-140; Driault E. L'Egypte et L`Europe... Vol. 2, s. 176. 190, 323; LorimerJ.G. Gazetteer... Vol. 1. s. 1104-1105.

132.Cevdet A. Tezakir... 1-12. s. 139-140.

133.LorimerJ.G. Gazetteer... Vol. 1. s. 1104-1105;

134.Blunt A. A Pilgrimage..., s. 263; Musil A. Northern Negd, s. 273.

135.İbn Bişr Ünvan əl –nədjd 11-ci hissə səh.97

136.Dəhlan A. Hülasəti əl-kəlam …,s.312-313

137. Dəhlan A. Hülasəti əl-kəlam …,s. 113; ər- Reyhani . Tarиh…, s. 81;

138.. İbn Bişr Ünvan əl –nədjd 11-ci hissə səh 112; Winder R.B. Saudi Arabia..., s. 154-155.

139. İbn Bişr Ünvan əl –nədjd 11-ci hissə səh 114.117; Wallin G.A. Narrative..., s. 146-149; Winder R.B.

140.orada s. 153-156.

141.Huber Ch. Voyage... BSG. Vol. 6, s. 147.

142. İbn Bişr Ünvan əl –nədjd 11-ci hissə səh 124

143. İbn Bişr Ünvan əl –nədjd 11-ci hissə səh 127.

144.Gaury G. de. Rulers.... s. 248-249. 52 Cevdet A. Tezakir... 1-12. s. 101-129; Marston T.E. Britain's Imperial Role.... s. 162-163. 216-217.

145.Winder R.B. Saudi Arabia..., s. 192-203.

146.Winder R.B. Saudi Arabia..., s. 192-203.

147.Winder R.B. Saudi Arabia.... s. 225.

148.Winder R.B. Saudi Arabia.... s. 225-226.

149.Aitchison C.U. A Collection..., s. 185; LorimerJ.G. Gazetteer... Vol. 1, s. 473-476. 1121-1125;

150.Salil-ibn-Razik. History; Winder R.B. Saudi Arabia..., s. 232-234.Winder R.B. Saudi Arabia..., s. 247-248.

151.Musil A. Northern Negd, s. 240; Philby H. Arabia of the Wahhabis, s. 135-136.

152.Philby H. Saudi Arabia, s. 224.

153.Philby H. Saudi Arabia, s. 219; Winder R.B. Saudi Arabia..., s. 248-249.

154.orada

155.Blunt A. A Pilgrimage... Vol. 2, s. 266; Longrigg S.H. Four Centuries..., s. 302; Midhat A. The Life.... s. 56-57; Winder R.B. Saudi Arabia..., s. 252.

156.Philby H. Saudi Arabia, s. 224-225.

157. ər- Reyhani . Тарих…, s.. 86; LorimerJ.G. Gazetteer... Vol. 1, s. 1134, 1137.

158. Doughty Ch. Travels... Vol. 2. s. 38. 51, 307, 315. 338. 394, 456;

159. AVPR. Siyasi arxiv, f. Konstantinopoldakı böyük elciliy 1902 il., iş.1265, s. 84).(Q.Filbi qəribə səhvə yol verir,

bu hadisələri 1885-ci ilə aid edir. Bəsrədəki rus konsulu Adamov isə bu hadisələri 1886-cı ilə aid edir.)

160.ər- Reyhani . Tarих…, s.88.

161.Бондаревский Г.Л. Английская политика…, c.89.(İngiltərə siyasəti..., səh 89)

162. AVPR. Siyasi arxiv. 1901, iş. 3195, s. 34; f. Konstantinopoldakı böyük elciliy, 1901, iş. 1245,s.172.

163.Бондаревский Г.Л. Английская политика..., с. 292.(İngiltərə siyasəti..., səh 292)

164. AVPR. Siyasi arxiv. 1901, iş. 364, s. 7.

165. Bell G. The Arab War. s. 9.

166.Бондаревский Г.Л. Английская политика..., (İngiltərə siyasəti..., səh 427, 495-497)

167.Бондаревский ГЛ. Английская политика..., (ingiltərə siyasəti …, səh 431)

168.Troeller G. The Birth of Saudi Arabia, s. 28-29.

169.Бондаревский ГЛ. Английская политика..., (İngiltərə siyasəti..., səh 432-433)

170. İbn Hüzlül.Tarix.... s.. 69-70.

171.Xalid əl-Fərəci. Tühafat.., s. 203-204; əl-Bəssam. Tühufat..., s. 373; İbn Hüzlül.Tarih.... s. 71-73.

172.əd- Dahil ibn Fuhayad Rəşidilər. s.164.

173. əd- Dahil ibn Fuhayad Rəşidilər. s.165.

174. əd- Dahil ibn Fuhayad Rəşidilər. s.167.

175.AVRP. Siyasi arxiv 1906. Iş 369. S.9

176.Aitchison C.U. A Collection…, s.187.

177. Lüğət əl ərəb 1913, fevral s.360.

178.Lüğət əl ərəb, 1913, noyabr, s.271; 1914, iyun, s.672.

179.Aitchison C.U. A. Collection… Vol. 11, s. 206- 208;

180. İbn Hüzlül.Tarix.... s.. 109-110.

181.Vahba H. Cəzirəti əl -Ərəb s. . 172-174.

182.Philby H. Saudi Arabia, s. 277.

183. Philby H. Saudi Arabia, s. 275.

184.Philby H. Saudi Arabia, s. 277.

185.İbn Hüzlül.Tarix.... s. 117-118.

186.İbn Hüzlül.Tarix.... s.. 118-119.

187.İbn Hüzlül.Tarix.... s.. 119-120.

188.Abdullah. Muzakirət... s.150-151: ər -Reyhani Tarix . s. 219-226.

189.Abdullah. Muzakirət...., s. 153—155.

190. İbn Hüzlül.Tarix.... s.. 121-122.

191.Əl –Qiblə , 19.07.1919.

192.Nasıf . Malı əl – Hicaz .., s. 65: Philby H. Saudi Arabia, s. 278.

193.Philby H. Saudi Arabia, s. 279.

194.GlubbJ.B. War in the Desert, s. 62.

195. Vahba H. Cəzirəti əl -Ərəb.., s. 262; Bell G. The Letters... Vol. 2, s. 635-636.

196.Vəzirəti əl -hariciyyə.Məcmuat əl –muhadat..s. 1—3: Bell G. The Letters.. Vol. 2, c. 659: Musil A. Northern Negd, s. 293:

197.Musil A. Northern Negd, s. 292.

198.Jarvis C.S. Arab Command, s. 101-102; Philby H. Saudi Arabia, s. 283.

199.Dickson H. Kuwait..., s. 267-268; Philby H. Saudi Arabia, s. 284.

200.Vəzirəti əl -hariciyyə.Məcmuat əl –muhadat..s.5-9.

Fuad Həmzə. Əl -Vəliəd…...s.53.

201.İbn Hüzlül.Tarix.... s. 145-150.

202.əl - Hatıb. Əl- imam ..., s. 42; Musil A. Northern Negd, s. 294-295.

203. Vahba H. Cəzirəti əl -Ərəb s. 270.

204.Vahba H. Cəzirəti əl -Ərəb s. 147-149; onun digər Həmsunə əmmən kitabı s. 240; İbn Hüzlül.Tarih.... s. 50—151; əl -Hatıb. Əl-imam ..., s. 41.

205.Philby H. Saudi Arabia, s. 287.

206.ər-Reyhani . Tarix..., s. 304-309

207.Vahba H.. Həmsunə əmmən..., s. 61.

208. orada s. 62 .

209. Umm əl –kurrə, 12.12.1924.

210. Klebanoff S. Middle East Oil.... s. 4.

211.Денни Л. Борьба за нефтяную монополию, s. 37—38; Klebanoff S. Middle East Oil..., s. 7.

212.Klebanoff S. Middle East Oil..., s. 7.

213.Knauerhase R. The Saudi Arabian Economy, s. 157; Philby H. Arabian Jubilee, s. 177; Philby H. Saudi Arabia, s. 329; Rihani A. Ibn Saoud..., s. 79-88.

214.Philby H. Saudi Arabia, s. 329.

215.ARAMCO Handbook..., s. 108-109.

216. Dickson H. Kuwait..., s. 294

217.Howarth D. The Desert King, s. 182.

218. Dickson H. Kuwait..., s. 287; Philby H. Saudi Arabia, s. 306.

219. Umm əl –kurrə jurnalı. 12.10.1928.

220. GlubbJ.B. War in the Desert, s. 267.

221. Umm əl –kurrə jurnalı, 12.10.1928.

222.Əz –Zirikli. Şibh əll- Cəzirə..., s.477; İbn Hüzlül.Tarih.... s..191.

223.İbn Hüzlül.Tarix.... s.192.

224.GlubbJ.B. War in the Desert, s. 287-289; Philby H. Saudi Arabia, s. 309.

225.İbn Hüzlül.Tarix.... s. 195-196.

226.Dickson H. Kuwait..., s. 319-320.

227. Əz –Zirikli. Şibh əll- Cəzirə..., s.507; İbn Hüzlül.Tarih.... s.. 201-203.

228.Fuad Həmzə Qəlb..., s.74

229.Mac-Kie Frood A. Recent Economic and Social Developments..., s. 166-167.

230.Yaxın və Orta Şərq dövlətlərinin konstitusiyaları, səh 426.

231.Orada s. 426-427.

232. Lipsky G. SaudiArabia..., s. 114-115.

233.Əz –Zirikli. Şibh əll- Cəzirə... ,s 87

Прошин Н.И. Саудовская Аравия, s. 87.

234. Mac-Kie Frood A. Recent Economic and Social Developments..., s. 166-167.

235.Klebanoff S. Middle East Oil..., s. 21; Lenczowsky G. The Middle East..., s. 442.

236.Lenczowsky G. The Middle East..., s. 442.

237. Area Handbook..., s. 172; Eddy W.A. F.D.R. Meets Ibn Saud; Gamy G. de. Faisal..., s. 68.

241. Eddy W.A. F.D.R. Meets Ibn Saud (Onların görüşü barədə U.Eddinin broşüründə ətraflı məlumat verilib).

Naşir: Namiq Həbibov
Bədii redaktor: İradə Əhmədova
Texniki redaktor: Elsevər Ağababayev
Rəssam: Yaşar Rəhimov
Dizayner: Rabil Şahbazov

---

Yığılmağa verilmişdir:
Çapa imzalanmışdır:
Tiraj ;şərti çap vərəqi
«Elgün» mətbəəsində Çap olunmuşdur

Müəllifin mətbuat katibi:
(050) 361 94 80